Kərəm Bayramov, Yunis İsmayılov,

Sona İmanova

LATIN AMERİKASI ÖLKƏLƏRİ

Bakı – 2012

GİRİŞ

Latın Amerikası Cənubi Amerika materikini bütövlükdə, Meksika və ondan cənubda yerləşən ölkələriləri, habelə Karib hövzəsindəki ada dövlətləri əhatə edir. Bura daxil olan ölkələr bir-birindən ərazisinin ölçülərinə, təbii şəraiti, əhalisi, əmək və təbii resursla təmin olunma səviyyəsinə görə olduqca fərqlənir. Region əhalisinin əksəriyyətinin danışdığı roman dili qrupunun əsasını latın dili təşkil etdiyindən Latın Amerikası adını almışlar. 30-dan çox ölkənin daxil olduğu bu region olduqca əlverişli coğrafi mövqeyə malik olmaqla yanaşı, uzun müddət Avropada baş verən müharibələrdən aralı olmuşdur. Avropalıların bu regiona gəlişindən əvvəl əhalisini müxtəlif hindu tayfaları təşkil edirdi. 1492-ci ildə Xristofor Kolumbun materiki kəşfindən sonra müxtəlif avropa ölkələri arasında mənimsənilmə üçün mübarizə meydanına çevrildi. Regionda xüsusi fəallıq göstərən ispan və portuqal müstəmləkəçilərilə aparılan uzunmüddətli mübarizədə ölkələrin əksəriyyəti XIX əsrin əvvəllərindən müstəqillik əldə etməyə başlamış və nəhayət buna nail olmuşlar.

Latın Amerikasının təbii şəraiti olduqca rəngarəngliyi və mürəkkəbliyi ilə seçilir. Dünyanın ən uzun dağ sistemlərindən biri olan And dağları şimaldan cənuba doğru, meridian istiqamətində uzanır. Burada qərb yarımkürəsinin ən uca nöqtəsi olan Akonkaqua, dünyanın ən hündürdə yerləşən gölü Titikaka, ən bol sulu çayı Amazon, ən hündür şəlaləsi Anhel yerləşir. Dünyanın böyük ovalıqlarından olan Amazoniyada ən iri həmişəyaşıl meşə sahəsi yerləşir. İncə bir saplaqdan asılan üzüm salxımına bənzər materik hər tərəfdən okean suları ilə əhatələnmiş olsa da, sahil xətləri elə formalaşmışdır ki, bir dənə də olsun iri körfəz, yarımada əmələ gəlməmişdir. Yalnız şimal hissəsində Meksika körfəzi, Venesuela və Quayakil körfəzləri vardır. Cənub-şərq hissəsindən Parana və Uruqvay çaylarının estuarisini su basması nəticəsində La-Plata körfəzi yaranmışdır. Şimalda Vest-hind, cənubda isə materik mənşəli Çiloe, Vellinqton, Odlu Torpaq onu əhatə edir. Materikin səthi də sahil xətləri kimi sadədir. Şimaldan cənuba doğru uzanan And dağları ovalıq və yaylalarla əhatələnir. İspanca "Hamar" mənasını daşıyan Orinoko ovalığı şimalda And dağlarını Qviana yaylasından, geniş Amazon ovalığı isə Braziliya və Qviana yaylalarından ayırır. Materikin şərq hissəsi qədim platforma sahəsidir. Platformanın səthindəki qalxmalar yaylaları, enmələr isə ovalıqları əmələ gətirir. Platformanın əsasını kembriyə qədərki maqmatik və metamorfik süxurlar təşkil edir. Platformanın özülündə daha qədim dövrlərdə baş verən proseslər onu daha da mürəkkəbləşdirmiş, süxurların qaynayıb-qarışmasına, parçalanıb gah səthə çıxmasına, gah da enərək metamorfik süxurlara çevrilməsinə və yaxud da lava şəklində müasir platoların yaranmasına səbəb olmuşdur.

Regionun şərq hissəsinin relyefinin formalaşması nisbətən sakit keçsə də, qərbində yaranan relyef güclü endogen proseslərin törəməsidir. Naska litosfer tavasının toqquşma zonasında dünyanın ən nəhəng dağ sistemlərindən biri olan Andlar əmələ gəlmişdir. Bu dağlıq zona çoxlu miqdarda vulkan yadigarları ilə zəngindir.

Regionda olan təbii sərvətlər ilk dövrlərdən az tədqiq olunmuşdursa və buranın qızıl və gümüşü avropalıları daha çox cəlb edirdisə, artıq XX əsrdən etibarən buranın qara, əlvan və nadir metalları, son illər isə neft və təbii qazı onları daha çox maraqlandırmağa başlamışdır. Ərazisinin istər And, istərsə də şərq praltforma hissəsinin təbii sərvətlərinin yerləşməsi və miqdarı olduqca rəngarəngdir. Dəmir filizinin zəngin ehtiyatları qədim platforma qalxmalarında xüsusilə də Braziliya yaylasının mərkəzi və kənar hissələrində, Boliviyada, Qviana yaylasının şimalında cəmləşmişdir. Bu hər iki yaylanın kristallıq bünövrəsinin aşınmış və səthə çıxmış hissələrində manqan və nikelin zəngin ehtiyatları vardır. Yaylaların, xüsusilə də Qviana yaylasının nisbətən rütubətli hissəsində cavan aşınma nəticəsində laterit-boksid ehtiyatlarının yaranmasına səbəb olmuşdur. Yaylaların nisbətən qədim intruziyalarında nadir elementlərdən olan berillium, niobi, radioaktiv və yer qabığında çox nadir hallarda rast gəlinən elementlər toplanmışdır.

Platformanın enən hissələrində, Amazonya və Pataqoniya tavasında neft, təbii qaz və əsasən də qonur kömür ehtiyatları vardır. Neftli-qazlı yataqlar əsasən dağətəyi hissələrində və And dağarası çökəkliklərindədir. Marakaybo və Maqdalena çökəkliyi və Quayakil körfəzi rayonunda da neft ehtiyatları aşkar edilmişdir. Dağ qurşağının şərqində, əsasən də Argentinada uran ehtiyatları tapılmışdır.

And dağları isə bütövlükdə əlvan və nadir metal filizi ehtiyatları ilə zəngindir. Əlvan metalların xüsusi çəkisinə görə daha çox yayılanı mis və onunla əlaqədar olan molibdendir. Bu filizin ehtiyatına görə Peru və Çili daha çox fərqlənir. Boliviyanın "qalay qurşağı" zonasında volfram, sürmə, vismut, gümüş, selen həmçinin sink-qurğuşun filizi ehtiyatları da çoxdur. Perunun Məkəzi Kordilyerlərində polimetal filizlərinin iri ehtiyatları cəmləşmişdir. Kolimbiyanın rütubətli And hissəsində səpinti halında platin və qızıl, quru iqlimə malik Atakama gölməçələrində biokimyəvi proseslərlə bağlı yaranan çili şorası olduqca geniş şöhrət qazanmşdır.

Latın Amerikası ərazisinin böyük hissəsi isti iqlim qurşağındadır. Şərq bölgəsinin düzənlik relyefi qışda Antarktikada soyuq hava kütlələrinin şimaladək təsir etməsinə zəmin yaradır. Pataqoniya platosunun temperaturunun - 35°-yə, enməsinə, Pampada soyuq "pamperos" küləkləri ayazlı, şaxtalı günlərin 2-3 ay davam etməsinə səbəb olur. Daxili düzənlik hissədə soyuq hava kütləsi Amazon sərhəddinədək gedib çatır ki, bu da temperaturun 12°-dək enməsinə gətirib çıxarır.

Alçaq enliklərdə yüksək temperatur şəraitində iqlim tipi yalnız düşən yağıntıların miqdarı ilə müəyyənləşir. Qərbi Amazoniya ekvatorial iqlim qurşağında yerləşdiyindən bol istilik və rütubət alır. And dağlanrının ekvatorial hissəsində orta aylıq temperaturların fərqi olduqca az, yağıntıların illik rejimi sabitdir. Lakin hündürlüyə qalxdıqca temperaturun azalması, sütkalıq amplitudun artması müşahidə edilir. Ekvatorial iqlim qurşağından şimala və cənuba doğru, bütövlükdə isə regionun şimal hissəsində, xüsusilə də, Braziliya yaylasında, Mamore və Pantanal düzənliyində, Peru Andlarında və Ekvadorun qərb hissəsində subekvatorial iqlim qurşağında yay isti və rütubətli, qış quru və tropik xarakterlidir.

20-30° cənub enliyi arasında yerləşən tropik qurşaqda passatların təsiri böyükdür. Atlantik okeandan bu passatlar çoxlu miqdarda rütubət gətirir. 5-27° s.e. arasında And dağlarının qərb yamacı və sahil əraziləri və səhralıqdır. Bu ərazilər yüksək təzyiqli cənubi Sakit okean antisiklonunun daimi təsiri altındadır. Qərbdə subtropik iqlim qurşağı zonası da həmin antisiklonun təsirinə məruz qalır. Yayı quraq keçsə də, qışda siklonlar yağış gətirərək, buranın özünəməxsus "Aralıq dənizi tipini" yaradır. Andlardan şərqə doğru getdikcə yağıntıların miqdarı artır.

Bütövlükdə, regionda yağıntıların miqdarı ən çox And dağlarının Kolumbiya yamacı, Çilinin cənub hissəsi, Qərbi Amazoniya, Qviana və Braziliya yaylalarının şərq yamacı, daxili hissələrə və daxili düzənliyinə düşür. Pampanın qərbi, Pataqoniya və Puna, tropik qərb sahil və And daha quraqlıqdır.

Rütubətliliyin paylanması çay sisteminin formalaşmasına, sıxlığına, bolsululuğuna təsir edir. And dağlarının meridianal istiqamətdə uzanaraq Sakit okean çaylarının normal qidalanmasını məhdudlaşdırır. Rütubətli ərazilərdə bu çaylar qısa, lakin hidroenerji ehtiyatlıdır. Atlantik hövzəsinin çayları geniş düzənliklərdən axaraq özləri ilə bol su gətirirlər. Karib hövzəsinə Andların ən iri çaylarından olan Maqdalena və Kauki çoxlu miqdarda şirin su gətirir. Hövzəsinin sahəsi 7 mln. km^2-dən çox olan Amazon dünyanın ən bol sulu çayıdır. Öz mənbəyini 4840 m yüksəklikdən götürən və Maranyon adlanan bu çay əvvəlcə şimala doğru axıb, dərin çay dərəsi əmələ gətirərək şərqə dönüb, özünün ikinci qolu olan Amerika Ukayalini qəbul etdikdən sonra Amazon adlanır. Çay il boyu bolsulu olsa da, lakin ən bol dövrü yağışların rejimindən asılıdır. Çay öz axarı boyu 4300 km məsafədə, sistemi üzrə isə 25 min km məsafədə gəmiçiliyə yararlıdır. Onun hidroenerji ehtiyatı 280 mln. kvt hesablansa da hələlik az miqdarda istifadə olunur. Regionun ikinci iri çayı olan Parananın da olduqca gözəl əlverişli təbii şəraiti vardır.

Regionda iqlimə uyğun, xüsusilə də rütubətlənmə səviyyəsinə görə torpaq-bitki örtüyü formalaşmışdır. Qərbi Amazoniyada yayla ətəklərinədək geniş bir sahədə Selva yerləşir. Selva - çətin keçilən rütubətli ekvatorial meşədir. Burada qırmızı-sarı ferralit torpaqlar yayılmışdır. Ekvatorial qurşağın əsas ehtiyatını təşkil edən qiymətli, rəngli oduncağı olan ağac növləri, nadir fauna və flora nümunələri burada cəmləşmişdir. Subekvatorial iqlim qurşağında seyrək meşəlik və savannalarda qırmızı-ferralit torpaqlar yayılmışdır. Mərkəzi tropik qurşaqda uzun müddət quraqlığa davamlı ağac növləri, qırmızı-qonur, boz-şabalıdı torpaqlar yayılmışdır. Burada olduqca qiymətli kebraço ağacı bitir. Tropik qurşağın nisbətən rütubətli şərq rayonlarında həmin meşələr və qırmızı torpaqlar yayılmışdır. Subtropik Şərqdə hündürboylu otlar üstünlük təşkil edir. Uruqvayda və şərqi Pampadakı geniş düzənliklərdə və çöl zonasında məhsuldar qırmızı-qara, qara torpaqlar üstünlük təşkil edir. Andlarda hündürlüyə qalxdıqca torpaq-bitki örtüyü enlik zonallığına uyğun gələrək getdikcə mürəkkəbləşir.

Cənubi Amerika ərazisinə ilk insanların gəlişi 15-17 min il bundan əvvəl olmuşdur. Bu Şimali Amerikaya vaxtilə gəlmiş hindu tayfalarının nümayəndələri olmuşdur. Onlar sərgərdan həyat keçirmiş, ovçuluq, balıqçılıq və yığıcılıqla məşğul olmuşlar. Sonralar əkinçilik və heyvandarlıq peşələrinə yiyələnmişlər.

Avropalıların gəlişinədək Andlarda möhtəşəm ilk imperiyası formalaşmışdır. Bu imperiya iki yüzillik dövrdə fəaliyyət göstərdikdən sonra ispan konkistadorları tərəfindən dağıdılmışdır. Hindu tayfalarının əksəriyyətinin təsərrüfatında ovçuluq və balıqçılıq sadə əkinçiliklə uyğunlaşdırılmışdır. Lakin son dövrlərdə aparılan tədqiqat işləri göstərir ki, o dövrün əkinçilik sistemi o qədər də bəsit və iqtisadi cəhətdən səmərəsiz olmamışdır. Amazon ovalığı, Mojos düzənliyi, Venesuela, Qayana və Surinamin bir çox rayonlarında intensiv əkinçilik mövcud olmuş, torpaqların qurudulması sisetemi yaradılmışdır. İnkişaf etmiş hindu əkinçilik mədəniyyəti dünya ölkələrinə bir çox məhsulları, o cümlədən kartof, qarğıdalı, maniok, balqabaq, araxis və başqa məhsulları hədiyyə etmişdilər. Materikin kəşfindən keçən bir əsr ərzində yerli hindu əhalisinin sayı kəskin sürətdə azalmağa başladı. Bu gün hindular bütün Latın Amerikası ölkələrində yaşasalar da, Boliviya və Ekvadordan başqa digərlərində o qədər də çox deyillər. Müasir hindular öz əcdadları kimi bir çox dil ailələrinə mənsub olub, öz dillərində də danışırlar. Hal-hazırda iri hindu tayfaları olan keçua, aymara və s. həmçinin də tropik meşələrdə yaşayan kiçik hinduqrupları öz dillərin və mədəniyyətlərini qoruyub saxlamışlar. Bir çox hindu etnik qrupları isə öz dil və mədəniyyətlərini çoxdan unutmuşlar.

Müstəmləkə dövründə plantasiyalarda işləmək üçün Afrikadan milyonlarla zənci-qullar gətirilmişdir. Bu üç irqin nümayəndələri müasir əhalinin formalaşmasının əsasını qoymuşlar.

Regionda demoqrafik vəziyyət təbii artımın yüksəkf səviyyəsi ilə xarakterizə edilir. Bu özünü daha çox tropik zonada göstərir. Son on ilin (1995-2005) təhlili göstərir ki, regionda təbii artım tədricən azalmağa meyllidir. Lakin əksər ölkələrdə təbi artımın sürəti keçən əsrin 70-ci illəri müqayisəd heç də azalmamışdır. Bəzi tədqiqatçılar bunu gənclərin ilkin nigaha aludəçiliyi ilə izah edirlər. Onların məlumatlarında qeyd edilir ki, Venesuelada nigahda bulunan gənclərin orta yaşı 20, Kolumbiyada 21 və sairədir. Digər tədqiqatçılara görə isə çoxuşaqlılığın saxlanılması artımın əsas səbəbi sayılır. Bəzi tədqiqatçılar təbii artımın yüksəkliyini regionda katolik kilsəsinin fəal təbliğatında, əhalinin savadsızlığında, sosial-iqtisadi inkişafın zəifliyində tibbi xidmətin və əhali arasında aparılan izahat işlərinin səviyyəsinin aşağı olmasında görürlər.

Təbii artımın səviyyəsi regionda əhalinin yaş strukturuna da təsir etmişdir. Region əhalisinin təxminən_40%-nin yaşı 15-dəkdir. Ayrı-ayrı ölkələrdə və iqlim zonalarında daha fərqlidir, həmçiinn ölkələrin sosial-iqtisadi inkişaf səviyyələrinə müvafiq olaraq uzunömürlülük fərqi daha qabarıq görünür. Belə ki, Argentina, Uruqvay və Venesuelada 66-72, Boliviyada 46-51 ildir. Son illər bir sıra region ölkələri demoqrafik siyasətin həyata keçirilməsində müəyyən fəallıq göstərirlər. Proqnozlar göstərir ki, 2010-20 l5-cu illərdə region ölkələrin əksəriyyətində, Boliviyadan başqa, əhalinin təbii artımı sabitləşəcəkdir. Boliviyada isə təbii artımın yüksək səviyyəsi uzunömürlüyün artması hesabına hələ xeyli müddət saxlanılacaqdır.

Latın Amerikasının ərazisində məskunlaşmanın xarakterində, əhalinin sıxlığında da fərqli cəhətlər vardır. Region üzrə orta sıxlıq təxminən 1 kv km-də 18 nəfərdisə, Karib hövzəsində 120 nəfərdən çoxdur. Əgər Fransız Qvianasında hər 1

kv km-də 1 nəfər məskunlaşmışsa, Kolumbiya və Ekvadorda bu 24-28 nəfər təşkil edir. Region əhalisi əsasən Andların yaylalarında, sahil zolaqlarında, Braziliyanın cənub şərqində, La-Platanın Atlantik okeanma qovuşduğu ərazilərdə məskunlaşmışdır. Geniş düzənliklər, Amazon ovalığı, tropik meşəlik olduqca seyrək və ya məskunlaşmamış haldadır.

Hindu şəhərləri mədəniyyət, din və inzibati mərkəzı funksiyalarını yerinə yetirirdi. Region avropalıların gəlişindən sonra tamamilə başqa görkəm almağa başladı. İspanlar və portuqallar qədim hindu şəhərlərini darmadağın etdikdən sonra onun xarabalıqları üzərində yeni inzibati mərkəzlər, ticarət və yeni-yeni əraziləri zəbt etmək üçün güclü dayaq məntəqələri yaratdılar. XVl-XVIII əsrlərdəki şəhərlər əsasən faydalı qazıntı yataqları yaxınlığında, vacib nəqliyyat qovşaqlarında, sahillərdə və kənd təsərrüfatının əlverişli inkişafı üçün seçilmiş ərazilərdə salınırdı. Bu şəhərlər əsasən düzbucaqlı planlı idi və o dövrün İspan və portuqal arxitekturasına əsaslanırdı. Müstəmləkə dövrünün şəhərləri adətən zəif inkişaf edirdi. Bu həmin dövrün siyasəti idi və metropoliyaya sərf edirdi. XIX-XX əsrlərdə regionda, xüsusilə də şəhərlərdə əhalinin artması prosesi getmişdir. Bir tərəfdən təbii artımın, digər tərəfdən isə imiqrasiyanın güclənməsi, ölkədaxili və ölkələrarası iqtisadi əlaqələrin intensivləşməsi şəhərlərin böyüməsinə və sayını artmasına səbəb olurdu. Bu ilk növbədə liman şəhərlərinə aid idi. Belə ki, bu şəhərlərdə xarici kapital cəmləşir, immiqrantlar məskunlaşır və dünya ölkələri ilə əlaqə başlayırdı.

XX əsr Latın Amerikası ölkələrinin yüksək urbanizasiya səviyyəsi bütöv region üçün 65%-dirsə, bu rəqəm Braziliyada 64%, Venesuelada 76%, Argentina, Uruqvay və Çilidə 80%-dən çoxdur. Regionda iri şəhərlərin böyüməsi daha sürətlidir. Belə ki, XIX əsrin 70-80-ci illərində əhalisinin sayı 100 min nəfərdən artıq olan şəhərlərin sayı dörd (Buenos-Ayres, Rio-de-Janeyro, Santyaqo və Lima) idisə, hazırda 200-dən çoxdur. Bu gün Mexiko, Buenos-Ayres, Rio-de-Janeyro, San-Paulu dünyanın ən iri şəhərlərindəndir.

Regionda sosial-iqtisadi inkişafın səviyyəsi artdıqca məskunlaşmada yaranmış problemlərdə də tədricən həllini tapır.

Latın Amerikası hərtərəfli və müstəqil iqtisadi inkişaf üçün bütün təbii və əlverişli imkanlara malikdir. Mülayim, subtropik və tropik iqlim qurşaqılarında istənilən növ kənd təsərrüfatı məhsullarının ildə 2-3 dəfə istehsalını da təşkil etmək olar. Regionun meşələri ölçülərinə və imkanlarına görə müqayisa edilməzdir. Burada həm sənaye, həm də ərzaq əhəmiyyətli bitkilər olduqca boldur. Məhsuldar torpaqları, bol sulu, hidroenerji ehtiyatlı çayları bioloji resurslarla zəngindir. Ətraf dənizləri biokütləsinin miqdarına və növ zənginliyinə görə çox əhəmiyyətlidir.

Belə yüksək təbii imkanlara malik olan regionun ölkələrində təəssüf ki, məhsuldar qüvvələrin inkişafı hələ kifayət səviyyəyə çatmamışdır. Regionda Braziliya, Argentina, Meksika kimi iri sənayeləşmiş təsərrüfatlara malik, dünya bazarında özünün istehsal vasitələri istehsalı məhsulları ilə tanınmasına baxmayaraq bütövlükdə zəif iqtisadi inkişaf hələ də əksər ölkələrdə saxlanmaqdadır. Ümumilikdə milli gəlir qonşu ABŞ-la müqayisədə 10 dəfə aşağıdır.

Region ölkələri arasında iqtisadi inkişaf, adam-başına milli gəlir olduqca müxtəlifdir. Sürətlə inkişa edən Braziliya, Argentina, Meksika ilə yanaş Venesuela, Çili, Uruqvayda hətta adambaşına milli gəlir bir sıra Cənubi Avropa ölkələrinin səviyyəsinə çatmış, hətta bəzilərini belə ötüb keçmişlər. Bununla belə, region ölkələrindən Boliviya və Paraqvayı bəz Afrika və Asiya ölkələri ilə müqayisə etmək olar. Regionun iri sənayeləşmiş ölkələri olan Braziliya, Argentina və Meksikada nəinki sənaye istehsalının həcmi, hətta xarici ticarətdə hazır məhsulun ixrac miqdarı da artmaqda davam edir. Yüksək inkişaf edən iqtisadiyyata malik olan bu "üçlük" nəinki dünya bazarında getdikcə daha çox maşınqayırma məhsulları ilə çıxış edir, hətta xarici ticarətdə müsbət saldoya malik olurlar. Bəzi mütəxəssislər onları inkişaf etmiş ölkələrlə eyni səviyyədə görürlər. Bu ölkələrdə avtomobil, təyyarə, gəmi istehsalı formalaşmış sənaye sahəsinə çevrilmiş, hərbi sənaye və atom energetikası yaranmışdır.

Latın Amerikasında hal-hazırda emaledici sənayenin ümumi daxili məhsul istehsalında xüsusi çəkisi 25%-dən çoxdur. Regionun sənaye məhsulu dəyərinin 4⁄5 hissəsi üç iri nəhəngin payına düşür.

Dünya təsərrüfatında regionun payı, %-lə

	1960	1970	1980	1990	2000	2005
Daxili Ümumi Məhsul	5,9	6,2	7,1	6,9	6,7	6,8
Kənd təsərrüfatı məhsulu	9,7	11,0	11,8	12,1	12,3	12,4
Sənaye məhsulu	5,6	6,4	7,2	7,0	6,8	6,8
O cümlədən emal	5,5	6,0	7,1	6,8	6,5	6,6
İxracat	7,1	4,9	4,5	3,7	3,3	3,4

Sənaye inkişaf edən region ölkələrinin qara metallurgiyası hələ də daxili bazar üçün işləyir. Tam silsiləli metallurgiya zavodları da bu üç ölkədə fəaliyyətdədir. Digər ölkələrin metallurgiya müəssisələri emaledici sənaye rayonlarında cəmləşmişdir. Regionda əlvan metallurgiya nisbətən inkişaf etmiş sahələrdən olub, daha yaxşı və aparıcı sahə kimi Çili, Pena və Boliviyada inkişaf etmişdir. Regionda maşınqayırma sənayesinin nisbətən inkişaf etmiş sahəsi nəqliyyat maşınqayırmasıdır. Bu sahə ümumi maşınqayırma məhsulu dəyərinin təxminən yarısını verir. Bir çox ölkələrdə istehsal olunan avtomobil müəssisələri daxili bazarı təmin etməyə istiqamətlənmişdir. Gəmiqayırma regionun bir çox ölkələrində mövcud olsa da Braziliyada daha yaxşı inkişaf etmişdir. Burada iri tonnnajlı gəmi istehsalı ilə yanaşı iri gəmi təmiri müəssisələri də vardır. Regionda aviasiya sənayesi iri sənayeləşmiş ölkələrdə mövcuddur və əsasən də kiçik təyyarə və vertelyot istehsal edir. Onlara aid olan mühərriklər isə xaricdən gətirilir. Region ölkələrinin demək olar ki, əksəriyyətində bu və ya digər dərəcədə kənd təsərrüfatı maşmqayırması inkişaf etmişdir. Braziliya, Argentina və Meksikada traktor

istehsal edilir. Son illər region ölkələrində elektronika və radioelektronika sənaye sahələri inkişaf etməyə başlamışdır. Qonşu ölkələrə bu məhsulların əsas ixracatçısı Argentina və Braziliyadır. Lakin region ölkələrinin bu məhsullara olan tələbatını ödəyə bilmədikləri üçün ABŞ, Yaponiya və Qərbi Avropadan da idxal edilir.

Son illər kimya və neft-kimya sənaye sahələri daha sürətlə inkişaf etməyə başlamışdır. Emaledici sənaye məhsulların dəyərinin 1/5-i bu sənaye sahələrinin payına düşür. Neftayırma müəssisələrinin istehsal gücünün getdikcə artması neft-kimya sənayesinin də inkişafına təkan verir. Regionda neftayırma sənayesi Venesuela və Meksikada daha yaxşı inkişaf etmişdir. Son illərdə Braziliya və Argentinada da inkişaf etmiş neftemalı sənayesi formalaşmışdır.

Latın Amerikasının Ümumi Daxili Məhsulunun strukturu, %-lə

	1960	1970	1980	1990	2000	2005
Kənd təsərrüfatı	17,8	15,6	14,3	13,1	11,9	10,7
Hasilat sənayesi	5,9	5,8	4,9	4,7	3,2	2,8
Emal senayesi	23,4	24,7	25,4	25,7	25,9	26,5
Elektrik, qaz-su təchizat	3,6	3,4	3,8	3,5	3,2	3,1
İnşaat	19,8	20,3	19,4	18,5	16,5	15,4
Nəqliyyat və rabitə	8,7	9,2	9,7	11,8	14,6	18,8
Maliyyə	11,3	11,4	1,3	10,4	9,9	8,3
Digər xidmətlər	9,5	9,6	11,2	12,3	14,8	14,4
Cəmi:	100,0	100,0	100,0	100,0	100,0	100,0

Bütövlükdə region ölkələrinin sənayesinin strukturunda əsas yeri ənənəvi sənaye sahələri tutur. Yeyinti sənayesi həm istehsal olunan məhsuluna, həm də müəssisələrində çalışanların sayına görə fərqlənir. Ət istehsalı, emalı və ixracı regionda daha yaxşı inkişaf etmiş sənaye sahələrindən olub, Meksika, Argentina, Brazihya, Uruqvay və Paraqvayda daha qabarıq şəkildədir. Hətta ət istehsalı və ixracının həcminə görə Argentina Avstraliyadan sonra dünyada ikinci yeri tutur. Region ölkələri müxtəlif növ içkilərin, tütün, süd və balıq məmulatlarının emalı və ixracı üzrə dəməşhurlaşmaqdadırlar.

Latın Amerikasının bir çox ölkələrinin sənayesində dağ-mədən sənayesi xüsusilə fərqlənir. Burada son illər daha sürətlə inkişaf edən sahə neft hasilatıdır. Meksika, Venesuela, Argentina, Ekvador, Kolumbiya xüsusilə fərqlənirlər. Son illər Braziliyda da neft sənayesi yeni yataqlar hesabına genişlənməkdədir. Peru və Çilidə dağ-mədən sənayesinin əsasını mis sənayesi təşkil edir və beynəlxalq iqtisadi əlaqələrində mühüm rol oynayır.

Ümumi daxili məhsul istehsalında kənd təsərrüfatı istehsalının xüsusi çəkisi getdikcə azalsa da, bütövlükdə, region ölkələrinin əksəriyyətinin iqtisadi həyatında hələ ki, əsas yerlərdən birini tutmaqdadır.

Bir çox ölkələrin ixrac məhsulları içərisində hələ da banan, qəhvə, pambıq, şəkər qamışı, buğda, ət va sitrus meyvələri üstünlük təşkil edir. Argentinadan

savayı, bir çox region ölkələri əsas ərzaq məhsullarının idxalına olduqca çoxlu miqdarda kapital sərf edirlər.

Maraqlı cəhəti odur ki, regionda kənd təsərrüfatı iri latifundiyalara əsaslanır, onlar da dünya bazarına istiqamətlənmişdir. Torpaqların çox hissəsi xarici şirkətlərin əlindədir. Latifundiya sahibləri ucuz işçi qüvvəsinə, texnikiya nisbətən daha çox üstünlük verir. Kiçik torpaq sahibləri isə qiymətli texnikadan, kübrə va elmin nailiyyətlərindən istifadə edə bilmir. Düzdür bu heç də əksər ölkələr üçün xarakterik deyildir. Belə ki son on ildə bir çox ölkələrdə kapitalist istehsal münasibətləri inkişaf etdirilməyə, texnika, kübrə və müasir aqrar münasibətlərindən səmərəli istifadə edilməyə başlanmışdır. Permer tipini xatırladan belə təsərrüfatlar artıq Meksika, Argentina, Braziliya, Çili və Venesuelada özünü göstərməyə başlamışdır. Onlarda da əmtəəlik məhsul xarici bazarlara istiqamətlənməkdədir.

Latın Amerikasında balıqçılıq son 15-20 ildə sürətlə inkişaf etməyə başlamışdır. Sahilyanı ərazilərdə balıq ovu və emalı çox da iri olmayan gəmilərlə həyata keçirilir. Meksika, Çili, Peru və Braziliyada nisbətən ən yaxşı inkişaf etmişdir və ixrac istiqamətlidir.

Braziliya, Çili, Argentina və bəzi region ölkələrinin iqtisadiyyatında meşə təsərrüfatının rolu az deyildir tikinti, mebel, kağız istehsalı ilə yanaşı, kauçuk, şirə və s. istehsalında da xüsusi əhəmiyyətli ağac növləri vardır.

Latın Amerikası ölkələrinin iqtisadi həyatında beynəlxalq iqtisadi əlaqələrin olduqca böyük əhəmiyyəti vardır. Uzun illər boyu müstəmləkə dövrü yaşayan, xarici bazarda xammalla çıxış edən, dar ixtisasa malik olmuş, indi isə müstəqillik şəraitində xarici kapitaldan asılı vəziyyətdə fəailyyət göstərən ölkələr getdikcə daha fəal surətdə dünya təsərrüfatına inteqrasiya olunur. Hələ də region ölkələrinin əksəriyyəti dünya bazarında bir-iki əmtəəlik kənd təsərrüfatı və ərzaq məhsulları ilə çıxış edir. Ölkələrinin əksəriyyəti idxaldan, xüsusilə də yeni texnoloji avadanlıq çatışmazlığından asılı vəziyyətdədir.

Bu regionda getdikcə xarici kapitaldan asılılığın artması, xarici borcların iqtisadiyyata tam nəzarət etməsinə, mononoliyaların isə əksinə, varlanmasına stimul yaradır.

Son illər sənayenin sürətlənməsi, meşələrin kütləvi şəkildə qırılmasına, dünya bazarında xammala tələbatın artması dağ-mədən sənayesinin intensivləşməsinə, nəticədə regionda ekosistemin pozulmasına səbəb olur. Yəqin ki, yaxın gələcəkdə Latın Amerikası ölkələri ərazilərinin səhralaşmasına, əsrarəngiz və təkrarolunmaz təbiətinə texnogen təsirin azaldılmasına nail olacaq, bəşəriyyətin oksigen bazasının bərpəsı uğrunda birgə səyə nail olacaqlar.

MEKSİKA

Sahəsi – 1958,2 min. km^2

Əhalisi – 106,4 mln. nəfər (2005-ci il)

Paytaxtı – Mexiko

Təbii şaraiti, təbii ehtiyatları və onların yerləşmə xiisusiyyətləri

Keçmiş dövrdə Meksikanın əhalisi onun müasir ərazisində bir-birindən təcrid olunmuş şəkildə müxtəlif areallarda yaşayırdılar. Lakin İspan dövrünə qədər getdikcə sivil mədəniyyətin inkişafı onları birləşdirmiş və Yeni İspaniya vitse-krallığı yaranmışdır. 1821-ci ildə ispan zülmündən xilas olan və müstəqillik əldə edən Meksikanın ümumi ərazisi 5 mln. km^2-ə qədər idi. Bu ərazi Solt-Leyk gölündən müasir Kosta-Rika sərhədlərinə kimi uzanırdı. Artıq 1824-cü ildə Mərkəzi Amerika dövlətləri federasiyası Meksika imperiyasından ayrılaraq özünün müstəqilliyinə nail oldu.

1846-1848-ci illərdə ABŞ-la müharibə nəticəsində onun ərazisinin təxminən yarısı, 2,2 mln. km^2 işğal olunmuş və müasir ABŞ ştatları olan Texas, Kaliforniya, Arizona, Nyu-Meksika, qismən Yuta, Kolorado, Oklaxoma, Kanzas ondan ayrılmışdır. Hal-hazırda ölkənin ərazisi 1958,2 min. km^2-dir, ərazisinin böyüklüyünə görə Braziliya və Argentinadan sonra Latın Amerikasının üçüncü dövlətidir. 1959-cu il konstitusiyasındakı dəyişikliyə əsasən 200 m dərinliyə qədər materik dayazlığı (şelf zonası) da ölkənin Milli ərazisi hesab edilmişdir. Əsasən dağlıq ölkə olan Meksikanın ərazisinin yarıdan çoxu dəniz səviyyəsindən 1000 m-dən yuxarıda, yalnız 1/3 hissəsi isə düzənlikdə yerləşir.

Meksika sahili boyu ensiz ovalıqlar uzanır. Onların böyük təsərrüfat əhəmiyyəti vardır. Ovalıqları kəsib keçən çaylar suvarma əkinçiliyinin inkişafına səbəb olmuşdur. Sakit okeanın sahili boyu uzanan ovalıqların eni 250 km-ə çatır. Ölkənin relyefi iqlimin, torpağın və bitki örtüyünün xarakterini müəyyənləşdirir. Dağ silsilələrinin mineral və meşə resursları bir çox rayonların əhalisinin təsərrüfat fəaliyyətinin əsasını təşkil edir. Məşhur Meksika tədqiqatçısı Kampilyo Saensin təsnifatına əsasən ölkə ərazisinda kifayət qədər qiymətli və nadir metallar, sink, qurğuşun, mis, manqan, civə, sürmə və digər metallar vardır. Qeyri-filiz ehiyatlarından kükürd, flüyerit, barit, qrafit, təbii qaz və tikinti materialları daha zəngindir.

Ölkə ərazisində iqlimin formalaşmasına onun coğrafı mövqeyi ilə yanaşı relyefin də böyük təsir vardır.

Yayda ən çox istilər tropik qurşaqda yerləşən ştatlarda yox, Sonora, Aşağı Kaliforniya, Koauila ştatlarının ərazisində qeyd edilir. Yağıntıların paylanmasında da relyefin rolu böyükdür.

Ölkə ərazisində rütubətli tropik, rütubətli mülayin və quru iqlim zonalarının ayrılması təsərrüfatın ixtisaslaşmasına güclü təsir etmişdir.

Rütubətli tropik zona orta illik temperaturun $+18^o$ orta illik yağıntının 750 mm-dək olması ilə xarakteriz olunur. Bu iqlim zonasına Yukatan yarımadası, Şərqi Syerra-Madre, Syerra Madre-de-Oaxaka, Serraniya-Nofte-de-Çyapasın 1000 m-dək hündürlüyü olan əraziləri, Meksika körfəzinin sahilindəki düzənliklər daxildir. Rütubətli mülayim zonada ən isti ayın orta temperaturu +18°, illik yağıntının miqdarının isə 600 mm-dək olması xarakterik haldır və əsasən dağlıq əraziləri əhatə edir.

Quru iqlim zonasında yağıntının illik miqdarı təxminən 250 mm, Altar səhrasında, Aşağı Kaliforniyanın şərqində 100 mm-dən çox deyildir. Meksikanın fiziki-coğrafı proseslərinə ətraf okean və dənizlərin təsiri olduqca böyükdür. Burada Meksika körfəzinin rolu daha böyükdür. Körfəz üzərində formalaşan hava kütlələri əraziyə olduqca çoxlu rütubət gətirir. Körfəzdən keçən isti Qolfstrim cərəyanı balıqçılığın inkişafı üçün əlverişli şərait yaradır. Kontinental şelfin zəngin neft ehtiyatları ölkə üçün böyük əhəmiyyət kəsb edir. Karib dənizi üzərində formalaşan hava kütlələri də əraziyə xeyli rütubət gətirir. Atlantik okeanından fərqli olaraq Sakit okean Meksikanın iqlim şəraitinə o qədər də ciddi təsir göstərmir. Meksika dağlıq ölkə olduğundan onun çayları hidroenerji ehtiyatlıdır, nəqliyyat kimi az istifadə edilir.

Ölkə ərazisində qırmızı-sarı laterit torpaqlar əsasən rütubətli tropik və rütubətli mülayim iqlim şəraitində formalaşır. Qırmızı laterit torpaqlar Verakrus ştatında, Nayarit ştatının sahil zonasında və Serraniya-Norte-de-Çyapas dağ silsiləsinin ayrı-ayrı ərazilərində, nisbətən bataqlıqlaşmış ərazilərdə qleyli torpaqlar, quru səhra və yarım səhra iqlimi şəraitində isə boz torpaqlar yayılmışdır. Daxili dağətəyi ərazilərdə qara, yüksək dağlıq yamaclarda dağ-qara və qonur, subtropik, tropik çöl və yarımsəhra iqlimi şəraitində boz-qonur torpaqlar yayılmışdır.

Əhalisi, əmək ehtiyatları, məskunlaşma formaları və problemləri

Meksika əhalisinin formalaşması əsasən yerli hindularla və sonradan İspaniyadan köçüb gəlmiş ispanların qarışığı əsasında baş vermişdir. Yavaş da olsa yeni metis etnik qrupu yaranıb, formalaşmışdır. Latın Amerikasının qədim mədəniyyətə malik ölkələrindən xusüsilə də Peru və Boliviyadan fərqli olaraq Meksik əhalisinin 85%-i metislərin payına düşür. Müstəmləkə dövründə bura bir qədər zənci qullar da gətirilmişdir.

1521-ci ildə siyahayaalmanın nəticəsində məlum olmuşdur ki, ölkə əhalisinin sayı 9.1 mln. nəfərdir və onun da 7,3 mln. nəfəri astek tayfalarıdır. Ölkə ərazisinin müstəmləkəyə çevrilməsi, hinduların kütləvi qırğını, sonradan isə onlar ücün yaradılan ağır şərait əhalinin getdikcə azalmasma səbəb olmuşdur. X əsrin əvvəllərində baş verən müharibələrdə də əhalini sayının azalması müşahidə edilmişdir. 1920-ci ildə sonra əhalinin sayı əvvəlcə sabitləşməyə və getdikcə artmağa başlamışdır. Əhalinin çox hissəsinin mərkəz ştatlarda cəmləşməsi həm təbii, həm də sosial-iqtisadi amillə əlaqədardır. Əhalinin, xüsusilə ispanların ölkənin mərkəzi rayonlarına, El-Baxio, Valye-de-Toluqa, Valye-de-ulba vadilərinin və yaylalarının yumşaq iqlimi, məhsuldar torpaqları, meşə massivləri, xarici ticarət üçün əlverişli limanları cəlb etmişdir.

İqtisadi tərəqqi, nəqliyyat vasitələrinin yaxşılaşması, yeni şəhərlərin yaranması, ölkədə əhalinin mərkəzdə yerləşməsinə baxmayaraq, daxili miqrasiya əsasında yeni kənd təsərrüfatı rayonlarında əhali getdikcə artır. Ölkənin şimal rayonlarının iqtisadiyyatında heyvandarlığın xüsusi çəkisinin artması da bura əhali miqrasiyasına şərait yaratmışdır. Neft hasilatının artması, müvafiq sənaye

sahələrinin yaranması, ABŞ-la sərhəd zonasında sənaye obyektlərinin və mərkəzlərinin yaranması, ticarət-iqtisadi əlqələrin genişlənməsi, turizm digər sahələr əhalinin yerləşməsi, sıxlığı və əmək ehtiyatlarının formalaşmasına təsir edən əsas amillər olmuşdur.

"Demoqrafik partlayış" şəraitində tropik, yarımsəhra və səhraların mənimsənilməsi mühüm əhəmiyyət kəsb etmişdir. Bu ərazilərin mənimsənilməsinə hələ müstəmləkə dövründə başlanılmışdır. XIX əsrdə avropa immiqrantları bu əraziləri mənimsəməyə cəhd göstərmiş, lakin ciddi dönüş yarada bilməmişdilər. Hal-hazırda yüksək urbanizasiyalaşmış mərkəzdə əhali sıxlığı problemini həll etmək üçün yeni torpaqların mənimsənilməsi dövlət tərəfindən planlı surətdə həyata keçirilir. Yeni-yeni sənaye sahələrinin yaradılması istehsal münasibətlərinin inkişafı şəhələrin artmasına, mövcud şəhərlərin isə böyüməsinə səbəb olmuşdur. Bütövlükdə ölkə üzrə əhalinin artımı üç iri mərkəzdə - Mexiko, Qvadalaxara və Monterreydə daha çoxdur. Belə ki, bu şəhərlərdə iri sənaye obyektləri cəmləşmiş, siyasi, mədəni, maliyyə, bazar münasibətləri funksiyaları çoxalmış, digər şəhər və rayonlarla əlaqələrinin artması nəticəsində infrastrukturlar xeyli yaxşılaşdırılmışdır. Güclü maliyyə imkanları və iqtisadi bazası olmayan şəhərlərdə isə artım demək olar ki, müşahidə edilmir. Ölkə əhalisinin məskunlaşmasında əsas problemlərdən biri hələ ispan konkistadorları dövründə öz ərazilərindən tamamilə qovulmuş və bugünə qədər əzab-əziyyət çəkən hindu problemidir. 21 müxtəlif hindu dilində danışan bu əhali iri rayonların sərhəddində yaşayır.

Təsərrüfatın ümumi səciyyəsi

Meksikanın inkişaf tarixində iqtisadiyyatın müxtəlif sahələri növbə ilə üstünlük təşkil edir. Belə ki, müstəmləkə dövründə dağ-mədən sənayesi üstün idisə, XX əsrin əvvəllərində əkinçilik və emal sənaye sahələri böyük əhəmiyyət kəsb etməyə başlamşdır. 1930-60-cı illərdə kənd təsərrüfatı ilə sənaye sahələrinin bərabərləşməsi birləşdirən kommunikasiyarm sənayenin ayrı-ayrı sahələrinin isə xüsusi çəkisinin artması başlanmışdır. Sənaye-aqrar ölkəsi olan Meksika Latın Amerikasında çox sürətlə inkişaf edən ölkələrdən biridir. Son illər ciddi maneələri dəf edən ölkənin milli iqtisadiyyatı böyük müvəffəqiyyətlərə nail olmuşdur. Son 5 ildə ümumi daxili məhsulun artımı 2-2,8% olmuşdur. Ölkədə iqtisadiyyatın dirçəldilməsi, dövlət vəsaitinə qənaət etməklə struktur dəyişilikləri etmək, neftin ixracından asıllığı azaltmaq, xarici kapitala şərait yaratmaq sahəsində böyük işlər görülmüşdür. Özəlləşdirmə prosesini sürətləndirməklə dövlət büdcəsi gəlir hesabına digər sahələrin inkişaf etdirilməsinə nail olmuş, dövlət nəzarətində əsas sahələr olan neft, qaz sənayesi, elektroenergetika, dəmir yol nəqliyyatını saxlamışdır. Yaxın gələcəkdə Meksika dünyanın sənaye məhsulu istehsalında, xüsusilə də toxuçuluq, yeyinti, kimya sənayesi, nefte emalı, dağ-mədən sənayesi, metallurgiya, nəqliyyat vəsaitləri və istehlak malları istehsal sahəsində inkişaf etmiş ölkələrin səviyyəsinə çatacaqdır.

a) Sənayesi. Müstəmləkə dövründə Meksikada əsasən qiymətli metallar istehsal edilirdi və başqa faydalı qazıntıların hasilatı barədə fikirləşilmirdi. Özünün

müstəqilliyini elan edənə kimi ölkə İspaniyanın xammal mənbəyi idi, hazır məhsulların hamısı İspaniyadan gətirilirdi. Ölkə müstəqilliyini əldə etdikdən sonra ilkin dövrlərdə, yəni 1821-1880-ci ildə sənayenin yenidən qurulmasına o qədərdə meyl etmirdi, lakin 1880-1925-ci illərdə xarici investisiyaların yavaş da olsa əraziyə axını başladı. Dəmir yolu çəkilişinin başlanması, filiz mədənlərinin və neft rayonlarınındəniz limanları və ABŞ-la sərhəd məntəqələrini birləşdirən kommunikasiyaların yaradıdılması, xarici şirkətlərə güzəştlərin həyata keçirilməsi başlandı. XIX əsrin əvvəllərində artıq kimya məhsulları istehsal edən müəssisələrin fəaliyyəti başladı.

Ölkənin yanacaq-energetika balansının əsəsını təşkil edən neft sənayesi 1938-ci ildə tamamilə milliləşdirilmişdir. Ölkədə neft ehtiyatlarının aşkar edilməsi mənimsənilməsi sahəsində böyük işlər görmüşdür.

Neft hasilatının əsas rayonu Meksika körfəzi sahilində ABŞ-la sərhəddən Qvatemalaya qədər olan ərazi sayılır. Neft-qaz hasılatını artırmaq məqsədilə geoloji axtarış işləri aparılır. Ölkənın şimal-qərbində yerləşən iri şəhərlərə neft və neft məhsulları xüsusi tankerlərlə daşınır. Əsas neft kəmərləri Posa-Rikodan Federal dairəyə, Salamanka və Qvadalaxaraya, Posa-Rikodan Tampiko və Monterreyə, Syudad-Pemeksdən Minatitlandan keçməklə Salina-Krusa və s. çəkilmişdir. Reynos-Matomaras, Mexiko və Syudad-Pemeks-Federal dairəyə Salamanka qaz kəmərləri fəaliyyət göstərir.

Meksikanın əsas təbii qaz ehtiyatları onun cənubunda, Posa-Riko və Reynos şəhərləri ətrafındadır. Bu ehtiayt ölkənin təbii qaza olan ehtiyacını tamailə ödəyir.

Ölkənin metallurgiyasına tələb olunan daş kömür Sabinas-Nueva-Rosita hövzəsindən çıxarılır. Yaki çayının yuxarı axarında, Oaxaka, Çiyaya, Çyapas və Gerrero ştatları ərazilərindəki kömür ehtiyatlarından da istifadə edilir.

Meksikanın iqtisadi inkişafı onun elektrik enerjisi istehsalının artmasından görünür.

Ölkədə ilk elektrik stansiyalan XIX əsrin sonunda xüsusi kapital əsasında Verakrus, Puebla ştatlarında və Federal dairədə tikilmişdir. Hal-hazırda ölkədə istehsal olunan elektrik enerjisinin 3/5-hissəsi İES, 2/5-i SES-ın payına düşür.

XIX əsrin ortalarından başlayaraq Meksikada qiymətli metallarla yanaşı digər faydalı qazıntıların da axtarışına və istehsalına başlanmışdır.

1910-1917-ci il inqilabı dövründəki müharibələr qurtardıqdan sonra amerika kapitalı Meksika iqtisadiyyatında vaxtilə üstünlük təşkil edən avropa şirkətlərini sıxışdırmağa başlayaraq dağ-mədən sənayesini öz əlinə keçirdi. Serrode-Merkadonun dəmir filizi, Sabinas-Nueva-Rosita hövzəsinin daş kömürünün hasilatı genişləndirildi. Qrafıt, maqnezit, duz, kükürd, sürmə, manqan, volfram, molibden hasilatı artırıldı.

Elə həmin vaxtdan da ölkənin dağ-mədən sənayesi xarici şirkətlərdən asılı vəziyyətə düşdü. Əlvan metalların əksəriyyəti xammal şəklində ixrac edilir, yalnız dəmir filizi, kömür və qalay ölkə daxilində emal və istehlak edilir. Yeni-yeni mədənlərin işə salınması, xususilə də, ölkənin şimal və şimal-qərb ştatlarında aparılan geoloji kəşfiyyat işləri xeyli səmərəli olmuşdur. Burada qurğuşun-sink,

gümüş, qızıl ehtiyatları olduqca çoxdur. Dəmir filizinin ümumi ehtiyatı 570 mln. ton hesablanmışdır. Manqan filizinin əsas yataqları Xamisko, Çiyaya və Sonora ştatlarının ərazisində cəmlənmişdir.

Sonora ştatı həmçinin əsas mis yataqları ilə fərqlənsə də burada son vaxtlar gümüş, qurğuşun sink, qızıl da istehsal edilir. Uran filizinin əsas ehtiyatları bir çox ərazilərdə o, cümlədən Quadalupe, El-Sotolar, Duranqo, Sonora və digər ştatlardadır. Kükürdün əsas ehtuyatı Teuantepek bərxəzindədir.

Ölkədə çuqun və polad istehsalına XX əsrin əvvəllərində başlanmışdır. O, hal-hazırda qara metallurgiyanın inkişaf səviyyəsinə görə Braziliyadan sonra regionda ikinci yeri tutur.

Meksika sənayesinin ən qocaman sahələrindən biri toxuculuq sənayesidir ki, o bu gün də sənayenin əsas sahələrindən biri hesab olunur. Ölkənin əksər rayonlarında onun müəssisələri yerləşmişdir.

Yeyinti sənayesi emaledici sənayenin həm ən qədim, həm də istehsal olunan məhsulun dəyərinə, çalışan əhalinin sayına görə fərqlənir.

Ölkədə sürətlə inkişaf edən maşınqayırma və metal emalı müəssisələrinin əksər hissəsi mərkəzi və onu əhatə edən rayonların ərazisindədir. Federal dairə, Mexiko ştatı və Monterrey aqlomerasiyası nəqliyyat maşınqayırmasının əsas mərkəzləri hesab edilir. Federal dairə, ona yaxın ərazilər və Mexiko ştatı ölkənin sənaye məhsulu istehsalının təxminən yarıdan çoxunu verir və mürəkkəb sahəvi struktura malikdir.

Neft-kimya və metallurgiya sənayesi yüksək səviyyədə təmərgüzləşməsi ilə seçilir. Ölkədə istehsal olunan çuqun və poladın 90%-dən çoxu 4 şirkətin, onunda 45%-i "Alltosorios-de Mexiko" şirkətinin payına düşür.

b) Kənd təsərrüfatı. İqlimin, relyefin və torpaq örtüyünün müxtəlifiiyi Meksikada bir çox kənd təsərrüfatı məhsulu istehsal etməyə imkan verir. Bununla yanaşı təbii şəraitin bəzi xüsusiyyətləri - musson xarakterli yağıntılar, dağ sistemlərinin şimal qərbdən cənub-şərq istiqamətində uzanması bununla da əlaqədar qış dövründə soyuq hava kütlərinin şimaldan asanlıqla əraziyə daxil olması əkinliyin nisbətən məhdudlaşmasına səbəb olur. İlin qalan dövrlərində təxminən ölkə ərazisi bütövlüklə quraqlıqdan əziyyət çəkir. Yalnız yüksək dağlıq ərazilər, dəniz sahili və aralıq dəniz iqlim tipinin mövcud olduğu Aşağı Kaliforniyanın şimal-qərbi, Tamaulikas ştatının məkəzi, Sonora ştatının şimal hissəsi istisnalıq təşkil edir.

Meksikada müxtəlif kənd təsərrüfatı məhsulları istehsal olunsa da onları iki əsas qrupa bölmək olar: daxili ehtiyacı ödəmək məqsədilə əkilən və ixrac istiqamətli ərzaq bitkiləri. Əsas ərzaq bitkisi qarğıdalı hesab edilir və əkin yerinin təxminən yansını əhatə edir. Ölkənin mərkəzi, cənub və şərq rayonları əhalisinin qida rasionunda qarğıdalı böyük rol oynayır.

Qarğıdalıdan başqa əhalinin rasionunda eyni zamanda buğda, çəltik, şəkər qamışı, lobya, bibər mühüm yer tutur. Şimal, Mərkəz və Şimal-Qərbin təsərrüfatlarında buğda nəzərəçarpacaq rol oynayır. Ölkə hal-hazırda daxili tələbatını tam ödəyir və qismini də ixrac edir. Vacib ixrac məhsullarına eyni

zamanda pambıq, qəhvə, şəkər qamışı və pomidor daxildir. Suvarma ərazilərində istehsal edilən meyvə tərəvəz daxili və xarici bazarlara çıxarılır.

İqlim dəyişkənliyinə, temperatur amplitudunun müxtəlifliyinə, quraqlığa, hündürlüyə asanlıqla davam gətirən qarğıdalı ölkənin əksər bölgələrində becərilir.

Əvvəllər az bir ərazidə becərilən buğda indi ölkənin bir çox ştatlarında, suvarılmayan ərazilərdə, çay vadilərində becərilir. Ölkənin iqlim şəraitinə uyğunlaşmış yeni buğda sortları ümumi məhsulun əsasını təşkil edir.

Ölkənin tropik və subtropik iqlim qurşaqlarında, suvarılan ərazilərdə çəltik istehsal edilir. Kənd təsərrüfatı istehsalında arpa mühüm yer tutur. İsti subtropik və isti mülayim iqlim şəraitində meyvəçilik bir çox ştatların ərazilərində yüksək məhsul verir. Sitrus bitkiləri içərisində ən geniş yayılmışı portağaldır. Son illər şərab istehsalı üçün texniki üzüm sortları əkin sahələrinin genişləndirilməsinə qayğı artırılmışdır. Meksika dünyada ən çox istiot istehsal edən ölkələrdəndir.

Son on ildə əlverişli təbii şəratdə becərilən şəkər qamışının istehsal həcmi artırılmaqdadır. Ölkədə banan, yer fındığı, kakao, sizal, pomidor, qəhvə, parnbıq və digər məhsul istehsalının həcmi artır.

Meksikada heyvandarlıq indikindən qat-qat güclü inkişaf etmə imkanlarına malikdir.

Təbii landşaftın müxtəlifliyi və təbii otlaqların rəngarəngiliyi onun güclü yem bazası hesab edilir. Təsadüfi deyildi ki, təbii otlaqların ümumi sahəsi meşə örtüyündən və əkin sahəsindən çoxdur. Deməli, heyvandarlığın inkişafının zəifliyi yem bazası ilə yox sosial-iqtisadi inkişafla əlaqədardır. İstər kənd yaşayış məntəqəsində, istərsə də şəhərlərdə yaşayan əhalinin alıcılıq qabiliyyəti aşağı olduğundan ət-süd məhsullarının kütləvi istehlakı da azdır və bu gəlir gətirən sahəyə çevrilə bilmir. Uzun illər ərzində ölkədə heyvandarlıq ixrac məhsulu istehsal etmişdir. Buna görə də indi ölkə iqtisadiyyatında, xüsusilə də kənd təsərrüfatında ciddi dönüş yaratmaq üçün ölkənin təbii komplekslərini daha yaxşı öyrənmək, eyni zamanda heyvanların cins tərkibinin yaxşılaşdırılmasına nail olmaq əsas vəzifədir.

Tədqiqatlar göstərir ki, təbii otlaqların sahəsi 70 mln. ha yaxındır və əsas otlaqlar ölkənin şimal, şimal şərq və şimal-qərb ştatlarındadır. İri buynuzlu mal-qaranın çox hissəsi Verakrus, Xalisko, Sonora, Sinaloa, Oaxaka, Tamaulinas ştatlarında, xırda buynuzlu mal-qara isə Koauila, Oaxaka, Nuevo-Leon, Sakatekas, San-Luis-Potosi və Gerrero ştatlarında cəmləşmişdir. Ölkə ərazisi əsasən dağlıq relyefə malik olduğundan ənənəvi qoşqu və minik heyvanları olan at, qatır və uzunqulaq saxlanması bütün ştatlarda əhəmiyyət kəsb edir. Son illər sənayenin güclü inkişafı ilə əlaqədar olaraq urbanizasiyanın səviyyəsi yüksəlmiş, şəhər əhalisi artmışdır. Buna görə də şəhər əhalisini ət və yumurta ilə təmin etmək məqsədilə əhalinin sıx məskunlaşdığı regionlarda və iri şəhərlərirl ətrafında sənaye quşçuluğu böyük əhəmiyyət kəsb etmişdir.

Daxili fərqləri, iri iqtisadi rayonları

Meksikanın ayn-ayrı regionlarının inkişafında qeyri-bərabərlik müşahidə edilir. İlkin inkişaf ölkənin mərkəzi regionlarında baş vermişdir. Əhalinin mərkəzi rayonlarda cəmləşməsi, emaledici sənayenin Meksika dağlıq yaylasının təbii resurslarına və çayların enerjisinə əsaslanmaqla inkişafı getdikcə artmağa başladı. Ölkədə neft sənayesinin milliləşdirilməsindən sonra neft emalı sənayesi inkişaf etməyə, şimal-qərb, şərq və Yukatan ərazilərindəki su resurslarından geniş istifadə ölkənin xalq təsərrüfatının yeni mərhələyə daxil olmasını sürətləndirdi. XX-əsrin 30-cu illərindən başlayaraq dərin dəyişiklərin həyata keçirilməsi nəticəsində ərazi vahidliyi möhkəmlənməyə başlamış, tropik vilayətlərin milli istehsala cəlb edilməsi sürətlənmişdir. Son illərdə suvarma sistemlərinin yaradrlması, elektrostansiyaların tikilməsi, aqrar islahatlar, neft və qaz kəmərlərinin çəkilməsi, kənd təsərrüfatına kreditin aynlması və digər tədbirlər Meksikanın iqtisadiyyatını xeyli möhkəmləndirmişdir. İqtisadi cəhətdən inkişaf etmiş regionlar daxilində hələ kifayət qədər geridə qalmış ərazilər də mövcuddur. Bu ərazilərin kənd təsərrüfatı, sənayesi və nəqliyyatı son dərəcə zəif inkişaf etmişdir.

Suvarılan torpaq sahələrinin 49%-dən 15%-i Şimal-Şərq, 13%-i Şimal rayonunun ərazisindədir. Neft-mədən sənayesi məhsulunun dəyərinin 70%-dən çoxu Şimal rayonunun payına düşür.

Şimal-Qərb iqtisadi-coğrafi rayonunun ərazisinə şərqdə Qərbi Syerra-Madre ilə qərbdə Sakit okeanın sahil xətti, şimalda isə ABŞ-la dövlət sərhəddində olan sahə daxildir. Rayonun iqlimi quru subtropikdən tropik savanna iqliminədək dəyişir.

Yağıntıların miqdarı cənub-şərqdən şimal-qərbədəklər tədricən azalır. Sakit okeanın hövzəsinə aid olan dağ çayları rayonun inkişafında müstəsna rol oynayırlar. Aşağı Kaliforniya, Sonora və Nayarit ştatlarının vahid bir iqtisadi rayonda birləşməsi onların suvarma əkinçiliyi istiqamətində ixtisaslaşmaları, daxili və xarici bazar üçün əmtəəlik kənd təsərrüfatı məhsulları istehsal etmələridir. Rayonun təsərrüfat birliyinin yaranmasında ikinci əsas amil yüksək inkişaf etmiş nəqliyyat sistemidir. O, kənd təsərrüfatı və digər məhsulların daşınmasını həyata keçirir. Rayonun ərazisindən keçən Sakit okean dəmiryol xətti və onun qolları, Qvadalaxara-Noqales avtomagistralı rayon ərazisini ölkənin əsas şəhər və rayonları ilə birləşdirir. Rayonəmələgətirici üçüncü amil inkişaf etmiş balıqçılıqdır. Digər amillər içərisində rayonun şimal və mərkəzində inkişaf etmiş heyvandarlıq, dağ-mədən sənayesi xüsusilə fərqlənir. Kananeya şəhəri yaxınlığında mis filizi, Sonora ştatında isə qrafit çıxarılır. Rayon ərazisində əhali qeyri-bərabər şəkildə məskunlaşmışdır. Əhalinin əsas hissəsi suvarılan ərazilərdə cəmlənmişdir. Rayon ərazisində iri mərkəz olmasa da mövcud şəhərlər arasında yaxşı nəqliyyat əlaqələri mövcuddur. Bu şəhərlər qarşılıqlı əlaqələr nəticəsində inkişaf edir, hətta bəziləri iri mədəniyyət mərkəzlərinə çevrilmişdir.Kaliforniya yarımadası rayonun əsas ərazisindən körfəzlə ayrılsa da iqtisadiyyatındakı mərkəzlik, suvarma əkinçiliyi dairələri inkişaf etmiş balıqçılıq onu iqtisadi rayonun tərkib hissəsinə çevirməyə imkan verir. Ölkənin Şimal-Qərb iqtisadi rayonu iqtisadi-coğrafi cəhətdən müxtəlif daxili fərqlərə malik olsa da

iqtisadiyyatı getdikcə daha sürətlə inkişaf edir. Kənd təsərrüfatında ixtisaslaşmagetdikcə dərinləşir və sənayeləşir, emaledici sənaye sahələrinin istehsal gücü artır, heyvandarlıq və balıq məhsullarının, habelə mis filizinin iri emal mərkəzləri formalaşır.

Şimal iqtisadi rayonu əsasən dağlıq relyefə malik olub, ABŞ-la dövlət sərhəddində yerləşir. Rayonun Cənub hissəsini iqtisadi-coğrafi cəhətdən ayırmaq bir qədər çətinlik törədir və qonşuluqdakı Mərkəz rayonu ilə oxşar cəhətləri çoxdur. Şimal rayonun ərazisində Şimal-Mesa, Bolson-de-Manimi,El-Salado-San-Luis vilayəti, Sakatekas dağlıq hissələri, həmçinin Syerra-Taraumara dağlıq rayonu daxildir. Relyefi hamar olan,hərdən bir yüksəkliklərə parçalanan ərazilər səhra və yarımsəhra xarakterlidir. Qərbi Syerra-Madra dağları qarışıq və enliyarpaq meşələrlə örtülüdür. Rayonun iqlimi qurudur. Rio-Bravo-del-Norte çayı, onun qolları və bir çox daxili çaylar rayonun məhdud su resurslarını təşkil edir. Əhali əsasən suvarılan və ya dəmyə əkinçiliyi mümkün olan əraziilərdə məskunlaşmışdır. Düzənlik ərazilərin torpaqları səhra, yarımsəhra və çöl, dağ yamaclarının torpaqları isə podzol və dağ-şabalıdı tiplidir. İqtisadi rayonun cənub sərhəddi ilə üst-üstə düşür. Burada ərazinin rayon əmələgətirici amilləri aşağıdakılardır:

a*)* suvarılan ərazilərdə kənd təsərrüfatının yüksək inkişaf səviyyəsi;

b) qara metallurgiya üçün xammal və yanacağın istehsalı;

c) əlvan metal istehsalı;

Təsərrüfatın strukturuna uyğun olaraq Şimal rayonunda bir çox ərazi-istehsal kompleksləri formalaşır. Sənayenin əsas sahəsi metallurgiya olsa da,maşınqayırma, yeyinti, yüngül sənaye, ağac emalı sürətlə inkişaf etməkdədir. Rayonun təsərrüfatında pamçılığın rolu böyükdür. İri buynuzlu mal-qaranın inkişafı ixraca, emal müəssisələrinə həm də daxili bazara istiqamətlənmişdir.

Rayon dəmiryolu və şosse yolları ilə yaxşı təmin olunmuşdur.Rayonun şimal, cənub və mərkəzlə sıx bağlayır. Enlik istiqamətdə yerləşən Duranqo-Torreon-Saltilyo yolunun əhəmiyyəti böyükdür. Monterrey rayonun digər əraziləri ilə daha sıx istehsal əlaqələrinə malikdir. Sakatekas ştatının şimal və mərkəz hissəsinin təsərrüfatının sturukturunda heyvandarlığın və faydalı qazıntıların çıxanlmasının üstünlüyü onu rayonun ərazisinə daxil etməyə imkan verir. Sakatekaz və San-luis-Potosi ştatlarının cənub ərazilərin təsərrüfat strukturu, əraziləri iqtisadi cəhətdən digər rayonun ərazisinə aid etmişdir.

Şimal-şərq iqtisadi rayonun təbii şəraiti şimal rayonuna çox oxşayır. Lakin qərbdə xeyli parçalanmış Şərqi Syerra-Madre dağlarının, şimalda ABŞ-la dövlət sərhəddinin və şərqdə Meksika körfəzinin sahil xətti arasındakı mövqeyi onu Şimal rayonundan xeyli fərqləndirir. Şimalın daxili rayonlarına nisbətən, az quraqdır. Meksika körfəzisinə tökülən bir çox iri çayla onun ərazisindən keçir. Bitki örtüyü mülayim iqlimə müvafiqdir. Şabalıdı və qara torpaqlar daha geniş əraziləri əhatə edir. Rayonun təsərrüfat strukturunda yüksək məhsuldar suvarma əkinçiilyi üstündür. Subtropik bitkiçilik və ekstensiv heyvandarlıq ixrac istiqamətində ixtisaslaşmışdır.

Şimal-şərq rayonu Şimaldan aşağıdakı əsas xüsusiyyətləri ilə fərqlənir:

a) ölkənin əsas dəniz limanı olan Tampikoda balıq sənayesinin yerləşməsi;

b) faydalı qazıntıların və metallurgiya sənayesinin olması;

c) rayonda son illər Tampiko və Nuevo-Laredo şəhərlərinin sürətlə inkişafına baxmayaraq Monterrey, Çiyaya və ya Terron kimi region mərkəzlərinin olmaması;

Bundan başqa hər iki rayon arasında olan kəskin fərqlərdən biri də onların enerjidaşıyıcılarla təmi olunma səviyyələrinin müxtəlifliyidir. Belə ki, Şimal şərq rayonu neft-qaz hasilatına görə ölkədə ikinci ye tutsa da burada daş kömür ehtiyatı yoxdur, Şimal isə ancaq daş komürə malikdir. Dəmiryolu və avtomobil yolları şəbəkəsi nisbətən yaxşı inkişaf etdiyindən ticarətin, xüsusilə də ABŞ-la sərhəd zonasının ehtiyacını tam ödəyir. Burada da Şimalda olduğu kimi ABŞ-ın böyük təsiri hiss edilir.

Qərbi Mərkəz rayonun ərazisi əsasən dağlıq relyefə malikdir. Quraq şimal rayonundan Sakit okeanın sahilində rütubətli tropikə keçid təbiətə malikdir. Rayon tipik Meksika əlamətləri, yəni kaktusları, sıx kənd və şəhər yaşayış məntəqələri, vaxtilə məşhur olan filiz yataqları ilə xarakterizə olunur. Onu əhatə edən rayonla sıx əlaqəyə malikdir.

Burada hündür dağlar, zəngin meşə və mineral resurslar, podzol və dağ-qonur torpaqlar üstünlük təşkil edir. Rayonun əhalisi hələ XVI əsrdən sıxlaşmağa başlamış və burada Xalisko, El-Baxio və Miçoakan ştatalarının ərazisində Leon, Salamanka, İrapuato, Selaya, Oketlan, La-Pyedad, Samora, Uruapan kimi iri ticarət və sənaye şəhərləri yaranmışdı. Rayonun əsas regional mərkəzi Qvadalaxaradır.

Emaledici sənaye son illər sürətlə inkişaf etmiş, Qvadalaxara əsas mərkəz kimi müxtəlif növ məhsul istehsalçısına çevrilmişdir. Leon, İrapuato, Salamanka, San-Luis-Potosi və Aquaskalyentes sənaye şəhərləri olmuşdur.

Yüksək inkişaf etmiş heyvandarlıq və əkinçilik daxili bazarın tələbatını ödəyir, Aquaskalyentes daha çox çili istiotu və üzüm, El-Baxio yem və taxıl bitkiləri islehsalı üzrə ixtisaslaşmışdır. Rayon tarixən Tepik, Puerto-Valyarta və San-Blas şəhərləri ilə ticarət və nəqliyyat əlaqələrinə malikdir.

Cənubi Mərkəzin sırf fiziki-coğrafı ümumiliyi yoxdur. Müxtəlif təbii şəraitə malik olan rayon iqtisadi-coğrafi amilin təsiri ilə formalaşmışdır. İqtisadi rayonun tərkibinə Valye-de-Toluka və Valye-de-Pueblo dağarası vadiləri, Mexiko dağarası hövzəsi və Köndələn Vulkanik Syerranın digər tərəfində yerləşən Morelos ştatı daxildir. Bu rayonun iqlimi də Qərbi Mərkəz kimi yarımsəhradan rütubətli tropikə keçidlə xarakterizə olunur. Bitki örtüyü olduqca müxtəlifdir. Keretaro və İdalqo ştatlarında yarımsəhra, hündür dağlıq ərazilərdə iynəyarpaqlı meşələr, Morelos ştatı və Pueblo ştatının bəzi ərazilərində tropik meşələr üstünlük təşkil edir.

Ərazinin müxtəlif təbii şəraitinə baxmayaraq onun vahid rayon kimi formalaşmasında aşağıdakı iqtisadi-coğrafi amillərin rolu böyük olmuşdur:

1. Rayonun bütün ərazisində kənd əhalisinin sıxlığı, ölkə əhalisinin ən çox Pueblo, Talaskala, Paçuka, Toluka, Keretaro və Kuernavaka şəhərlərində cəmləşməsi, Mexikonun yüksək səviyyədə aqlomerasiyalaşması; Mexikonun böyüməsinə bütün istiqamətlərdə dəmiryol və avtomobil yollarının kəsişməsi səbəb olmuşdur.

2. Mexikonun birbaşa təsiri. Sözsüz ki, digər şəhərlərin, xüsusilə də Pueblo, Paçuka, Toluka, Kuernavaka və Keretaro şəhərlərinin təsiri də az deyildir.

Mexikonun rayonəmələgətirmədə vacib təsiri olsa da, onun ölkənin əksər ərazilərinə təsiri az deyildir. Qərbi Mərkəz, Şimal və Meksika körfəzi sahil rayonlarından paytaxta müxtəlif xammal gətirilir. Ölkənin şimal və cənub rayonlarındakı SES-lərdən bura elektroenerjisi daxil olur. Mexiko hövzəsində və qonşu vadilərdə əhali yüksək sıxlığı ilə fərqlənir.

Sakit okeanın cənubu iqtisadi rayonuun tərkibinə Kolima, Çyapis, Gerrero və Oaxaka ştatları daxildir. Bu rayonun ərazisi üçün xarakterik landşaft tipləri aşağıdakılardır:

1. Meşə sənayenin, sadə əkinçilik və heyvandarlıq sahələrinin saxlandığı Cənubi Syerra-Madrenin dağ rayonları, La-Misteka vilayəti və Çyapas dağ qurşağı;

2. Puerto-Valyartadan Suçiate şəhərinədək ensiz sahil düzənliyi iqtsadi inkişaf üçün böyük təbii resurs ehtiyatına malikdir. Lakin ölkənin digər əraziləri kimi, xüsusilə də Yukatanın uzaq rayonları, uzaq şimalın bəzi əraziləri kimi nisbətən kasıb resurslara malik olan əraziləri;

3.Tyerra-Kalyente, dağarası Kerrero vadisi, La-Misteka vilayəti, Oaxaka ştatının mərkəzi yaylası rayonun daxilində qapalı landşafta malikdir. Qərbi və Cənubi-Smadre-de-Çyapasın iqlimi tropik savanna xarakterli olub, qış-yaz dövrləri daha quraq və uzunmüddətli olur. Yüksək dağlıq ərazilər üçün mülayim iqlim xarakterikdir.

İqtisadi rayonda relyefin regional inkişafa təsiri daha yaxşı hiss olunur. Ərazinin təbii resurslarla kasıb olması ispan konkistadorlarının ilk növbədə Oaxaka ştatına, Gerrero ştatının mərkəzi hissələrinə, sonradan isə Sakit okean sahillərinə gəlməsinə səbəb olmuşdur. Onlar bu ərazilərdən gələcəkdə dəniz ticarəti kimi istifadə etməyi nəzərdə tuturdular. Oaxaka ştatının dağ qurşağı bu ərazilərin təbii resurslarının mənimsənilməsini, əhalinin Çyapas ştatına və Mərkəzi Amerikaya miqrayasını həmişə çətinlişdirmişdir. İqtisadi rayonun əhalisi sıx deyildir və burada iri şəhərlər yoxdur.

Rayonun ərazisində sənaye mərkəzlərinin olmaması, ticarət dövriyyəsinin azlığı (Akapulko və Oaxakadan başqa) və turizmin zəif inkişafı xarakterik haldır. Buna görə də rayon iqtisadiyyatının əsasını sadə əkinçilik təşkil edir. Tyerra-Kalyentedə küncütün, pambığın, şəkər qamışının Çyapas ştatının mərkəzi hissələrində əmtəəlik plantasiya təssərrüfatı inkişaf etmişdir. Rayonun zəif inkişaf etmiş əkinçiliyi sürətlə inkişaf edən donuzçuluq, iri buynuzlu heyvandarlıq və qoyunçuluq hesabına rentabelləşir.

Balıq resursların bolluğu, La-Mistekanın əlçatmaz yüksəkliklərindəki zəngin daş kömür, Kolima və Miçoakan ştatlarının dəmir filizi, yüksək dağlıq ərazilərin geniş meşə resurstları rayonun gələcək inkişafının əlverişli amillərindəndir.

Rayon ərazisini bir neçə vacib dəmiryol və avtomobil yollu kəsib keçsə də daxili və xarici əlaqələri hələ zəifdir. Sakit okean sahili boyu keçən avtomobil yolu Miçoakan ştatın cənub-şərqini Gerrero ştatı və Oaxaka ştatının Kosta-Çika vilayəti ilə birləşdirir. Kolima ştatının sahili Xalisko ştatının cənubi ilə əlverişli şəraitdə

birləşdirən və Apastsinqan, Oaxaka, Kolima və Mansanilyo şəhərlərini əlaqələndirən avtomobil və dəmiryolları rayondaxili inteqrasiyasının əhəmiyyətini artırır.

Meksika körfəzi sahili iqtisadi rayonu dəqiq coğrafi sərhəddə malikdir. Şərqi Syerra-Madre və Syerra-Madre-de-Oaxaka dağlarının yamacı və sahil düzənliyi rayonun ərazisinə daxildir.

İqtisadi-coğrafi rayonun ixtisaslaşmasmda mövsümü əkinçiliyin (suvarılmayan) rolu böyükdür. Təbii-iqtisadi şəraitə uyğunlaşan bu sahə şəkər qamışı, tütün, qəhvə, ananas, banan, kakao, limon istehsalı üzrə ixtisaslaşmışdır. Verakrus, Tabasko ştatlarının düzənlikləri, La-Uasteka vilayəti zəngin təbii otlaq olub, məhsuldar heyvandarlığın inkişafı üçün əlverişli zəmin yaratmışdır. Çyapas ştatının şimalında, San-Luis-de-Potisi ştatının tropik zonalarında iri buynuzlu mal-qara saxlanılır. İqtisadi rayonun iqtisadiyyatında və ixtisaslaşmasında neft-qaz istehsalı və emalı müstəsna rol oynayır. Bu təbii resursların 90%-i Verakrus və Tabasko ştatlarında cəmləşmişdir. Neft və qazdan daha səmərəli istifadə məqsədilə rayonun ərazisində iri neft emalı zavodları tikilmiş, neft və qaz kəmərləri çəkilmiş, neft-kimya sənayenin inkişafı üçün əlavə stimullar yaradılmışdır. Rayon ərazisindəki çaylar ilboyu bolsuludur. Bu çayların elektrik enerjisi istehsalında böyük əhəmiyyətləri vardır. Rayon ərazisinin xeyli hissəsi meşə ilə örtülüdür. Verakrus və Tabasko ştatlarında, Çyapas ştatının şimalmda tropik meşələr yayılmışdır. Əlverişli coğrafı mövqe, müxtəlif təbii resurslarla zənginlik rayon əhalisinin sıxlığına şərait yaratmışdır. Rayonda bir neçə sənaye arealı fəaliyyət göstərir. Onlardan Orisaba-Rio-Blanko, Papaloan çayının mənsəbindəki şəkər emalı sənaye rayonu çoxdan formalaşmışdır.

Cənub-Şərq (Yukatan yarımadası) iqtisadi rayonu ərazisinin yekcinsliyi, yəni bütünlüklə yarımadanı əhatə etməsi ilə fərqlənir. Yarımadanın səthi hamar düzənlikdir və şaquli zonallığı müşahidə edilmir. Yarımadanın şimal hissəsinin iqlimi quru tropikdir. Yukatan ştatının şimal-qərbində quraqlıq daha uzunmüddətli olur, illik yağmtının miqdarı 500 mm-i keçmir, amma Kintana-Roo ştatının şərqində bəzən 1300 mm-ə çatır. Ərazidə cənub-şərqdən şimal-qərbə doğru quraqlıın artması tropik meşə örtüyünün də həmin istiqamətdə getdikcə yanmsəhra landşaftına keçməsi ilə müşayət olunur. Yarımadada səth suları çox azdır, əksəriyyəti az suludur. Yarımadanın sahil zolağının torpaqları şor, bataqlıq, qleyli və mərkəzi hissələrində lateritlidir. Əhali qeyri-bərabər yerləşmişdi, hətta Kintana-Roo, Kampeçe ştatının cənub-şərqi və Yukatan ştatının meşələrində əhali yoxdur. Lakin Merida ilə Proqreso şəhərləri arası zolaqda əhalinin sıxlığı artaraq hər km^2-də 75 nəfərə çatmışdır.

Su və digər resurslarının azlığı sənayeni inkişafı üçün lazım olan enerji istehsalını digər regionlarından gətirilən neftdən asılı vəziyyətə salmışdır. Bütövlükdə yanmadanın iqtisadiyyatı, təsərüfatının strukturu, mövcud resurslardan istifadə səviyyəsi olduqca aşağıdır. Bu iqtisadi rayonı inkişafını, əhalinin sosial-iqtisadi şəraitini yaxşılaşdırmaq üçün iri həcmli kapital qoyuluşu gərəkdir.

NİKARAQUA RESPUBLİKASI

Sahəsi – 129,5 min km^2
Əhalisi – 5,0 mln. nəfər (2007-ci il)
Paytaxtı – Manaqua

Coğraji mövqeyi, təbii şəraiti və təbii ehtiyatları

Nikaraqua Respublikası Mərkəzi Amerika regionunda yerləşir. Ərazisinin ölçüsünə görə Mərkəzi Amerika ölkələri arasında ən böyüyüdür. Əhalisinin sayına görə isə «banan respublikaları» arasında 4-cü yeri tutaraq Kosta-Rika, Ranama və Belizdən üstündür. Ölkənin adı hindu qəbələlərindən birinin başçısı - Nikaraqonun şərəfinə adlandırılmışdır. Ölkə şima-şərqdə 922 km məsafədə Honduras ilə, cənubda 309 km uzunluğunda Kosta-Rika ilə həmsərhəddir. Sərhədlərinin ümumi uzunluğu 1231 km, sahil xəttinin uzunluğu isə 910 km-dir. Ölkənin sahillərini şərqdən Karib dənizinin, qərbdən isə Sakit okeanın suları əhatə edir. Okeanlar arası mövqeyi vacib strateji əhəmiyyət kəsb edir. Əlverişli və ucuz dəniz nəqliyyatı vasitəsilə bir çox ölkələr ilə iqtisadi əlaqələr yarada bilmişdir. Nikaraqua yaxın qonşu ölkələr ilə də yaxşı münasibətlər qurmuşdur. Ölkənin çox əlverişli iqtisadi, siyasi-coğrafi mövqeyi vardır.

Nikaraqua respublikasının təbii şəraiti özünün müxtəlifliyi ilə xarakterizə olunur. Ərazisindəki dağ siilsilələri, tüstüləyən vulkanları, bataqlaşmış düzənlikləri iri, böyük mavi gölləri, iti axınlı çaylar üzərində günəş şüaları altında parlayan şəlalələri, geniş və keçilməz həmişəyaşıl rütubətli meşələri landşaftın əsas tiplərini müəyyən edirlər.

Ölkə təbii resurslarla yaxşı təmin olunmuşdur. Onun kənd təsərrüfatında hələ istifadə olunmayan geniş sahədə məhsuldar torpaq sahələri və qiymətli oduncağın böyük ehtiyatları vardır. Nikaraqua faydal qazıntı ehtiyatlan ilə də zəngindir. Lakin bu təbii resurslar hələlik lazımi səviyyədə öyrənilməmişdir.

Nikaraquanın relyefi çox mürəkkəbdir. Ölkə ərazisinin yarısını yaylalar tutur.

Nikaraquanın Sakit okean sahili zəif parçalanmışdır. Yalnız şimalda Honduras ilə həmsərhəd olan yerdə geniş Fonseka körfəzi yerləşir. Sahilin qalan yerlərində okeandan uzun dillərlə ayrılmış laqunlar vardır. Ən əlverişli Laqunda, qumlu adada ölkənin əsas dəniz portu - Korinto yerləşir.

Sakit okeanın sahil düzənliyinin torpaqları çox məhsuldardır. Bu torpaqlar qonşu vulkan lavalarının və vulkan küllərinin hesabına formalaşmışlar. Ölkənin bu ərazisi intensiv kənd təsərrüfatı rayonudur.

Nikaraqua tektonik çökəkliyi Fonseka körfəzindən başlayır. Bu körfəzin yaxınlığında Kosiquana vulkanı yerləşir. Bu vulkanın 1835-ci ildə güclü püskürməsi nəticəsində geniş ərazi qalın vulkan külü altında qalmışdır.

Vulkanların yaxınlığında yerləşən şəhərlər, qəsəbələr və başqa yaşayış məntəqələri dəfələrlə vulkan püskürmələri və baş verən zəlzələlər hesabına çox zərər çəkmişlər. 1931-ci ildə güclü zəlzələ nəticəsində ölkənin paytaxtı - Manaqua şəhəri tam dağılmışdır. Daha bir faciə bu şəhərdə 1972-ci ildə baş vermişdir. Dekabrın 23-də şəhərdə 9-10 bal gücündə zəlzələ baş verdi. Bir neçə saniyə ərzində şəhərin 70 min evindən 60 mini tam dağılmış və 10 mindən çox insan həlak olmuşdur. Bununla əlaqədar qərara alındı ki, Manaqua şəhərindən 18 km cənub-şərqdə yeni paytaxt inşa olunsun. Manaquanın faciəsilə əlaqədar bir çox ölkələr ona kömək əlini uzatmışdır. Nikaraqua aktiv tektonik ərazidə yerləşdiyinə görə gələcəkdə onu çoxlu süprizlər gözləyə bilər. Lakin münbit və məhsuldar vulkanik torpaqların və gözəl iqlim şəraiti olan Manaqua sakinlərini heç nə qorxutmur.

Sıx tropik meşələrlə örtülən şərq hissədə əhali seyrəkdir. Nikaraquanın Mərkəzi yaylası zəif öyrənilsə də artıq burada qızıl, gümüş, sink, qurğuşun, mis, volfram, dəmir filizi, sürmə, fosforid, mərmər, prit və gips yataqları aşkar edilmişdir.

Moskid sahili adı ilə məşhur olan geniş şərq ovalığı çayların gətirdiyi çöküntü materiallarının hesabına yaranmışdır. Moskid sahilinin çox hissəsi rütubətli meşələrlə örtülüdür. Plantasiya təsərrüfatları istisna olmaqla burada əhali çox az və seyrək məskunlaşmışdır.

Nikaraqua ərazisinin çox hissəsində iqlim tropik-passat xarakterlidir. Nikaraqua çökəkliyindən cənub-qərbdə isə iqlim subekvatorialdır. Orta aylıq temperatur 25-28° C təşkil edir. Yalnız dağlarda 1500 m-dən yüksəklikdə «soyuq» ayın - yanvarın orta temperaturu 16° C-dir. Okean üzərindən əsən passatlar çoxlu rütubət gətirir. Külək tutan dağ yamaclarına (passata yönəlmiş) ildə 5 min mm-dən artıq yağıntı düşür. Qərbə doğru getdikcə, xüsusilə külək tutmayan dağ yamaclarında yağıntılar az düşür. Burada ilin iki fəsli müşahidə olunur: quru «qış» (oktyabrdan aprelə kimi) və rütubətli yay (maydan oktyabra kimi). Manaquada illik yağıntılar 1450 mm-dən artıqdır.

Ölkənin daxili sularının, o cümlədən çaylarının göllərinin formalaşmasında başlıca yeri relyef və iqlim xüsusiyyətləri tutur. Ölkənin relyef və iqlim şəraitindən asılı olaraq bol sulu çaylarının axın istiqaməti Karib dənizinə tərəfdir. Sakit okean sahilində çay şəbəkəsi seyrək və az suludur. Çaylarının çoxu ölkənin qərbində yerləşən Nikaraqua və Manaqua göllərinə tökülür.

Atlantik okeanı hövzəsinə aid olan çoxlu çaylardan ən əhəmiyyətlisi Seqoviya, Rio-Qrande, Rio-Eskodido və San-Xuan çaylarıdır. Bu çaylardan ən uzunu olan Seqoviya orta və aşağı axınında Hondras ilə sərhəd təşkil edir. Bu çay 210 km məsafədə aşağı axınında gəmiçilik üçün yararlıdır. Rio-Qrande və Rio-Eskodido qısa məsafələrdə gəmiçilik üçün istifadə edilir.

Mərkəzi Amerika regionunda ən böyük Nikaraqua gölüdür. Onun sahəsi 8430 km^2, dərinliyi isə 70m-ə çatır. Göldən gəmiçilik məqsədi üçün istifadə edilir. Manaqua gölü Nikaraqua gölündən bir neçə dəfə kiçik olub, sahəsi 1489 km^2, dərinliyi 80 m-dir. Dəniz səviyyəsindən 37 m yüksəkdə yerləşmiş bu göl tektonik mənşəlidir.

Ölkə ərazisinin 35%-i meşə və kolluqlarla örtülüdür. Meşələrdə qiymətli ağac növləri (sidr, qırmızı ağac, makaqone, çürüməyə davamlı kimpero, kauçuklu bitkilər və b.) vardır. Sahillərdə manqa ağacları bitir. Dağların hündür yamaclarında iynə yarpaqlı və palıd meşələri yerləşir. Nikaraquanın qərb hissəsində savannalarda kçerofit kolluqlar yayılmışdır. Nikaraqua ərazisində zəngin heyvanat aləmi qalmaqdadır. Bunlara: enliburun meymun, qarışqayeyən, tapir, maral, vəhşi donuz, qara ayı, yaquar, müxtəlif quşlar və s. aiddir. Ölkənin çaylarında, göllərinində və dəniz sahillərində çoxlu balıq növləri və tısbağalar, çaylarda və göllərdə isə timsahlar yaşayırlar.

Tarixi inkişafı, dövlət quruluşu və əhalisi

Nikaraqua Respubilkasının ərazisində qədimdən hindu tayfaları - asteklər və tolteklər məskunlaşmışlar. Ispanlar (X.Kolumb) ilk dəfə Nikaraqua ərazisinə gəlmiş, 1522-ci ildə isə onu müstəmləkəyə çevirməyə başlamışlar. İspan konkistadorları yerli hinduların müqavimətini qıraraq ilk müstəmləkənin əsasını qoydular. İspanlar hindu əhalinin çox hissəsini silah gücünə yaxud buraya gətirmiş olduqları xəstəliklərin hesabına məhv etmişlər.

XVI əsrdən başlayaraq plantasiyalarda işləmək üçün Afrikadan zənci-qullar gətirilirdi, lakin bu fəhlə qüvvəsindən nisbətən kiçik miqyasda istifadə olunurdu. Ərazidəki müstəmləkələr inzibati cəhətdən Qvatemala General-kapitanlığına daxil idi.

İspaniyanın Latın Amerikasındakı müstəmləkələrinin istiqlaliyyət uğrunda apardıqları mübarizədə (1980-1926-cı illər) Nikaraqua xalqı da fəal iştirak etmiş və 1821-ci ildə öz müstəqilliyini qazanmışdır. Lakin bir ildən sonra Meksika imperiyasının tərkibinə qatılmışdır. İmperiyanın ləğvindən sonra Nikaraqua Mərkəzi Amerikanın birləşmiş federasiyasına daxil olmuşdur.

1838-ci ildə bu federasiya dağılmış və həmin ildə Nikaraqua istiqlaliyyət qazanmışdır.

XIX əsrin ortalarından Nikaraquaya Şimali Amerika kapitalı daxil olmağa başladı. Amerika şirkətiəri hasilat sənayesinə və dəniz nəqliyyatına nəzarət edirdi. «Standart frut» şirkəti isə burada ucuz qiymətə böyük torpaq sahələrini alaraq, plantasiya təsərrüfatı üçün istifadə edirdi.

Nikaraqua xalqı öz istiqlaliyyətini qorumaq üçün uzun müddət ABŞ təcavüzkarlarına qarşı mübazrizə aparmışdır. Nikaraquanın milli qəhrəmanı general Sezar Auqusto Sandinonun rəhbərliyi ilə 1927-ci ildə Amerika müdaxiləçilərinə və onların Nikaraquadakı əlaltılarına qarşı xalq hərəkatının parlaq səhifəsini təşkil edir. Üsyançı ordunun müdaxiləçilərə qarşı müvəffəqiyyətli mübarizəsi ABŞ-ı 1933-cü ilin yanvarında öz qoşunlarını bu ölkədən çıxarmaq məcburiyyəti qarşısında qoydu. Lakin 1934-cü ilin 1 yanvarında Nikaraquanın milli qvardiyasının rəisi general A.Samosa ABŞ səfirliyi ilə sövdələşərək Sandinonun xaincəsinə öldürülməsini təşkil etdi. 1936-cı ildə isə dövlət çevrilişi edərək hakimiyyəti ələ aldı. Nikaraquada hərbi-polis diktaturası bərqərar oldu. İkinci dünya müharibəsindən sonra (1939-1945-ci

illər) ABŞ Latın Amerikasında milli-azadlıq hərəkatını boğmaq üçün Nikaraquanı istinadgaha çevirdi. 1960-cı illərin ortalarından ölkədə sinfi ziddiyyətlər dərinləşmiş, Samosa diktaturasına qarşı mübarizə daha da kəskinlənmişdi. A.Samosa (oğul) 1974-cü ildə siyasi fırıldaq yolu ilə yenidən özünün prezident «seçilməsinə» nail olduqdan sonra diktatura əleyhinə hərəkat daha geniş vüsət aldı. 1978-ci ildə bu hərəkat silahlı partizan müharibəsinə çevrildi. 1979-cu ilin əvvəllərindən Sandino adına milli azadlıq cəbhəsi başçılığı ilə Samosa diktaturasına qarşı geniş miqyaslı silahlı mübarizə başlandı. Vətənpərvərlərin zərbələri altında 1979-cu ilin aprel ayının 19-da diktatura devrildi. Samosa ölkədən qaçdı. Yeni hakimiyyət orqanları yaradıldı. İnqilabçı hökumət zəhmətkeş xalq kütlələrinin mənafeyinə cavab verən geniş antiimperalist islahatlar proqramı işləyib hazırladı. İnqilabı Nikaraqua qeyri kapitalist inkişaf yolu ilə gedəcəyini, bolklara qoşulmamaq siyasəti yeridəcəyini, ictimai quruluşundan asılı olmayaraq bütün ölkələr ilə münasibətləri genişləndirəcəyini bildirmişdir. Nikaraqua hökuməti bir sıra ölkələrlə iqtisadi, texniki, mədəni, elmi əməkdaşlıq və s. haqqında sazişlər bağlamışdır.

Nikaraqua — respublikadır. Ölkə 17 inzibati rayonlara bölünmüşdür. Ali qanunverici hakimiyyət orqanı - Milli Assambleyadır.

Ölkədə bir çox siyasi partiyalar fəaliyyət göstərir. Ən nüfuzlu siyasi partiyalar: Sandino adına Milli Azadlıq Cəbhəsi, İnqilabın vətənpərvərlər Cəbhəsi, Konservativ-Demokratik Partiya, Müstəqil Liberal Partiya və başqalarıdır.

Nikaraquada 1960-cı ildə 1,5 mln. nəfər əhali yaşadığı halda, 1980-cı ildə 2,9 mln. nəfər, 2007-ci ildə isə bu göstərici 5,0 mln. nəfərə çatmışdır. Son 40 ildə demək olar ki, ölkənin əhalisi 3 dəfə artmışdır. Bunu aşağıdakı cədvəl və qrafikdən də aydın görmək olar.

İllər	1960	1970	1980	1990	2000	2007
mln. nəfər	1,5	2,1	2,9	3,6	4,5	5,0

Əhalinin təbii artımı yüksəkdir. Hər min nəfərə görə doğulanların sayı 33, ölənlərin sayı 7 nəfər, təbii artım isə 26 nəfərdir (2007-ci il).

Nikaraquada əhali ərazi üzrə qeyri-bərabər yerləşir. Ölkədə əhalinin orta sıxlığı bir kv km-ə 38,5 nəfər təşkil edir. Əhalinin 80%-i ölkənin qərbində Nikaraqua çökəkliyində və Sakit okeanı sahilində yerləşir.

Əhalinin 70%-i metislərdən, 16%-i avropalılardan, 9%-i afrikalılardan, 5%-i isə hindulardan ibarətdir.

Dövlət dili - ispan dilidir. Dindarların 80%-i katolik, 10%-i isə protestantdır.

Nikaraquada orta həyat ömrü: kişilər üçün – 61il, qadmlar üçün isə 67 il təşkil edir.

Urbanizasiyanın səviyyəsi yüksəkdir. Ölkə əhalisinin 60%-i şəhərlərdə yaşayır. Nikaraquada əhalisi 100 min nəfərdən artıq olan dörd şəhər vardır. Bu

şəhərlərdən ən böyüyü ölkənin paytaxtı – Manaqua şəhəridir. Onun əhalisi 1,3 mln. nəfərdir. Ölkənin 2-ci şəhəri əhalisi 560 min nəfər olan Leon şəhəridir.

İspanlar XVI əsrdə Manaqua şəhərinin əsasını köçürülmüş hindu məskəninin yerində qoymuşlar.

Manaqua şəhəri ölkənin siyasi, inzibati, maliyyə və mədəniyyət mərkəzidir. Şəhər Manaqua gölünüa cənub-şərq sahilində, Panamerika şosse yolunun kənarındadır. Dəniz və avtomobil yollan qovşağıdır. Şəhərin kənarında beynəlxalq əhəmiyyətli Las-Mersedes aeroportu yerləşir.

Ölkənin qərbində yerləşən Leon şəhəri eyni adlı departamentin inzibati mərkəzidir. Dəmir və avtomobil yolları qovşağıdır. Şəhərdə sənaye müəssisələri ilə yanaşı milli universitet və qədim tarixi-memarlıq abidələri vardır. Leon şəhəri 1524-cü ildə salınmışdır. XIX əsrin ortalarına qədər Nikaraquanın paytaxtı olmuşdur.

Nikaraquanın təşərrüfatının ümumi səciyyəsi. Kənd təsərrüfatı və sənayesi.

Nikaraqua zəif inkişaf etmiş aqrar ölkəsidir. 1979-cu ilədək ölkənin iqtisadiyyatında ABŞ inhisarlan (ağac tədarükünün 90%-nə, fıliz-mədən sənayesinin 80%-nə, emaledici sənayenin 40%-nə, xarici və daxili ticarətə nəzarət edirdi) və diktator Samosa ailəsi (milli sərvətin 1⁄3-nə yiyələnmişlər) hakim mövqe tuturdu. 1979-cu ildə diktatorun və onun ətrafında olan qohumlarının, yüksək vəzifə sahiblərinin əmlakları müsadirə edilmişdir. Banklar, sığorta şirkətləri, xarici ticarət və qabaqcıl sənaye müəssisələrinin bir neçəsi milliləşdirildi. Ölkənin bütün təbii sərvətləri dövlətin nəzarətinə keçdi. Qarışıq iqtisadiyyatın əsasında güclü dövlət sektoru yarandı. 1983-cü ildə Ümumi Daxili Məhsulun 35%-i dövlət sektorunun payına düşürdü.

İqtisadiyyatın hərbiləşdirilməsi, ABŞ-ın ticarət-iqtisadi blokadası, sosial-iqtisadi siyasətdə buraxılan səhvlər, kənd təsərrüfatı və sənaye istehsalı həcminin azalmasına, əhalinin həyat səviyyəsinin aşağı düşməsinə və xarici borcun artmasına gətirib çıxarmışdır. Nikaraquada iqtisadiyyatın əsasını kənd təsərrüfatı təşkil edir. 2007-ci ilin məlumatına görə kənd təsərrüfatının payı daxili milli məhsulda 23% təşkil etmişdir. Təsərrüfatının bu sahəsində iqtisadi cəhətdən fəal əhalinin 40%-i çalışır. Kənd təsərrüfatı qəhvə, şəkər qamışı və pambıq (bunlar əsas ixracat bitkiləridir) becərilməsi ilə ixtisaslaşmışdır.

Nikaraquanın kənd təsərrüfatı ixracat bitkilərin istehsalı üzrə ixtisaslaşmışdır. Kənd təsərrüfatın yararlı torpaqların yalnız 1⁄3 hissəsi mənimsənilmişdir. Ona görə də ölkə üçün torpaq fondunun zəif istifadəsi xarakterikdir. Bitkiçilik kənd təsərrüfatı məhsulları dəyərinin 3⁄4 hissəsini verir.

İnqilabın qələbəsinə qədər kənd əhalisinin yarıdan çoxu torpaqsız idi. Onlar torpaq sahibkarlarının latfundiyaçıların torpaqlarında və plantasiyalarında işləyirdilər. Torpağın feodal icarə forması geri yayılmışdır.

Əkinçilik Nikaraquada qədimdən inkişaf etmişdi. Konkistadorların ölkəyə gəlməsindən çox-çox qabaq yerli hindilər meşələri qırıb yandıraraq yerində qarğıdalı yetişdirirdilər. Əkinçiliyin bu sistemi (meşəni yandırmaq və torpaqları

becərmə) indiyə kimi qalmaqdadır. İspanların dövründə göllər ətrafı, xüsusilə Nikaraqua və Manaqua gölləri arasındakı torpaqlar plantasiya təsərrüfatının əsas rayonu olmuşdu.

Hal-hazırda Nikarakuanın əsas ixracat bitkisi - pambıqdır. Ölkə pambıq istehsalına görə Mərkəzi Amerika regionunda (Meksika istisna olmaqla) birinci yeri tutur. Nikaraquada ixracat üçün pambıq istehsalı ikinci dünya müharibəsindən sonra inkişaf etməyə başlamış və artıq 1950-ci illərdə qəhvə istehsalını birinci yerdən sıxışdırıb çıxarmışdır.

Nikaraquada kənd təsəriifatı məhsullarının istehsalı (min tonla)

Məhsulun adı	1960	1970	1980	1990	2000	2005
Pambıq	42	75	81	85	121	124
Qəhvə	26	42	43	45	52	55
Kakao	18	35	38	41	43	44
Qarğıdalı	135	167	253	307	324	331
Sorqo	92	105	116	115	124	127
Banan	98	116	118	125	127	129
Naringi	39	56	57	62	65	66
Şəkər qamışı	97	193	235	278	284	290
Ananas	28	31	34	35	37	38
Lobya	23	34	35	37	45	49

Pambığın əksər hissəsi suvarılmadan dəmyə yolu ilə böyük ixtisaslaşmış təsərrüfatlarda yetişdirilir. Əlverişli aqroiqlim şəraiti pambığın yüksək keyfiyyətini təmin etməsinə baxmayaraq məhsuldarlıq o qədər də yüksək deyil.

Nikaraquanın ikinci vacib ixracat bitkisi olan qəhvə və burada XIX əsrin ortalarından becərilir və 1955-ci ilə kimi əsas ixracat bitkisi olmuşdur. Qəhvə 500 metrdən 1000 metrə qədər olan yüksəklik qurşaqda yetişdirilir. Ölkədə qəhvənin əsas istehsal rayonları Manaqua, Diryamba və Xinoto şəhərinin cənub-qərbində, həmçinin Mataqalpa şəhərinin yaxınlığında yerləşir. Nikaraquada qəhvə yığımının çox hissəsini xırda təsərrüfatlar həyata keçirir. Ölkədə bu qiymətli bitkinin məhsuldarlığı ildən-ilə artırılır. 1960-cı ildə 26 min ton, 2005-ci ildə isə 55 min ton qəhvə istehsal olunmuşdur. Onun yığımı üçün mövsümü fəhlələr cəlb olunur. Nikaraquanın digər əmtəəlik kənd təsərrüfatı bitkiləri: şəkər qamışı, banan, küncüt, kakao və tütündür. Onlar özlərinin ixracat əhəmiyyətinə görə pambıq və qəhvədən geri qalırlar.

Kubada inqilabın qələbəsindən sonra və Kuba şəkərinin ABŞ-a gətirilməsinə qadağa qoyulması ilə əlaqədar (embarqo) Nikaraquada şəkər qamışı istehsalı artmağa başladı. Ölkədə şəkər qamışı plantasiyaları əsasən Çinandeqa departamentində və ölkənin qərbində yerləşir.

Əvvəllər banan istehsalı Nikaraquanın əsas ixracat bitkisi olmuşdur. İkinci dünya müharibəsindən sonra təsərrüfatın bu sahəsi zəiflədi.

Keçmişdə vacib ixracat bitkisi sayılan küncüt zəif inkişaf edir. Hazırda pambıqçılıq bu bitkini həm yağ istehsalına (daxili bazarda), həm də lif ixracına görə sıxışdırmışdır. Göllərin yaxınlığında çoxdan bəri tütün bitkisi yetişdirilir. Xüsusülə Masaya şəhəri yaxınlığmda daha çox və həm də keyfiyyətli tütün becərilir. Lakin ölkədə tütün istehsalı o qədər də çox deyil və ölkənin daxilində istifadə olunur.

Nikaraquada daxili tələbat üçün əsas ərzaq bitkiləri sayılan: qarğıdalı, çəltik və sorqo becərilir. Qarğıdalı ölkə əhalisinin əsas qida məhsuludur. Bu bitki ölkənin hər yerində, əsasən orta və kiçik təsərrüfatlarda becərilir. Çəltik isə başlıca olaraq böyük və orta təsərrüfatlarda yetişdirilir. Kənd təsərrüfatı texnikasından (traktor, kombayn və s.) yalnız orta və böyük təsərrüfat sahələrində istifadə olunur. Ölkənin qərb hissəsindəki əksər təsərrüfat sahələri dəmyə şəraitində becərilir. Lobya ölkənin əksər rayonlarında becərilsə də, lakin məhsul yığımının təqribən yarısı şimal departamentlərinin payına düşür. Ölkənin quraq rayonlarında sorqo, Leon şəhəri ətrafında isə buğda becərilir.

Nikaraquada geniş təbii yaşıl otlaqlar və biçənəklər olsa da, lakin heyvandarlığın inkişafı ekstensiv xarakter daşıyır. ölkədə iri buynuzlu mal-qara heyvandarlığın başlıca sahəsidir. 2005-ci ildə ölkədə mal-qaranın sayı 2.630 min başa çatdırılmışdır.

Ölkədə donuzçuluq (620 min baş), atçılıq, quşçuluq və s. inkişaf edir. Nikaraqua dünya bazarına ət ixrac edir (əsasən qaramal əti). Manaqua şəhəri

ətrafında südlük-ətlik istiqamətli heyvandarlıq inkişaf etdirilir.

Nikaraquanın dəniz sahilləri, gölləri və çayları balıq və başqa su heyvanları ilə zəngindir. Ölkə ovlanan dəniz heyvanlarını və həmçinin timsah dərilərini ixrac edir.

Ölkənin şərq hissəsinin təsərrüfat strukturunda başlıca yeri meşə tədarükü və onun mexaniki emalı tutur. Moskit sahilində meşə tədarükü və ağac emalı ixracat əhəmiyyətlidir.

Nikaraquada sənaye zəif inkişaf etmişdir. Daxili milli məhsul istehsalında emaledici sənayenin payə cəmi 20% təşkil edir. Sənayedə iqtisadi cəhətdən fəal əhalinin yalnız az hissəsi çalışır. Ölkənin sənaye strukturunda qabaqcıl yeri yüngül (paltar, ayaqqabı), yeyinti, kimya məhsulları ishesalı tutur.

Ölkənin kifayət qədər hidroenerji ehtiyatlarına baxmayaraq enerji bazası zəifdir. 2005-ci ildə cəmi 1600 mln. kvt saat elektrik enerjisi istehsal olunmuşdur. Nikaraquada çoxlu faydalı qazıntı yataqları olsa da, dağ-mədən sənayesi zəif inkişaf etmişdir. Lakin qızıl ixracına görə Nikaraqua Latın Amerikası ölkələri arasında birinci yeri tutur. Mis filizi ölkənin şərqin yerləşən Rosita mədənində hasil edilir. Bundan əlavə ölkədə sink-qurğuşun filizləri, tikinti daşı və duz (dəniz suyundan buxarlanma-qurutma yolu ilə) hasil edilir.

Emaledici sənayesində çoxlu kustar və yarımkustar emalatxanalar fəaliyyət göstərir. Onlar pambıq-parça və ipək-parça, paltar, dəri və ayaqqabı, çörək, konservlər, kibrit, siqaret, sabun, boyalar, keramika s. istehsal edirlər. Ölkənin paytaxtı və ən böyük sənayə mərkəzi olan Manaqua şəhərində toxuculuq fabriklərindən başqa neft emalı, maşınqayırma və metal emalı, kimya, yeyinti

sənaye sahələri (ət, süd, şəkər, qəhvə, siqaret və s.), tikinti materialları (sement, dəmir-beton və s.) istehsal müəssisələri fəaliyyət göstərir. Həmçinin Leon, Qranada, Mataqalpa və Korinto şəhərində bir neçə yüngül və yeyinti sənaye müəssisələri yerləşir.

Nikaraquanın nəqliyyatı, iqtisadi əlaqələri va daxili fərqləri

Nikaraquanın nəqliyyat sistemi zəif inkiş etmişdir. Ölkənin mərkəz və şərq rayonlarında nəqliyyat şəbəkəsi çox seyrəkdir. Dəmir yollarının ümumi uzunluğu 376 km-dir. Bunun 300 km-dən çoxu dövlətə məxsus olan Sakit okean yoludur. Nikaraquanın ümumi yük dövriyyəsində öncül rolu avtomobil nəqliyyatı oynayır. Ümumi uzunluğu 15285 km şosse yollarının 1598 km-i bərk örtüklüdür. Daxili su yollarının uzunluğu 2220 km-dir. Manaqua şəhərindən şərqə tərəf, dağlıq mərkəzdə və şərqdə yerli yük daşımalarda, qoşqu heyvanlardan istifadə olunur. Ölkənin mərkəz hissəsində yağışlar mövsümündə bu yollarda hərəkət çox çətindir. Bataqlaşmış Moskitdə yollar az və seyrəkdir.

Nikaraquada hava nəqliyyatı zəif inkişaf etmişdir. Manaqua şəhəri yaxınlığındakı beynəlxalq əhəmiyyətli Mersedes aeroportu reaktiv təyyarələri qəbul edə bilir. Bu aeroport bir sıra beynəlxalq aviaşirkətlər tərəfindən istifadə edilir.

Bütün xarici daşımalar dəniz nəqliyyatı vasitəsilə həyata keçirilir. Xarici ticarətdəki yük dövriyyəsinin 60%-i Sakit okean portu Karintonun payına düşür. Yük dövriyyəsinə görə 2-ci yeri Sakit okean portu San-Xuan-del-sur tutur. Karib dənizi sahilində yük dövriyyəsinə görə Puerto - Kavesas və El - Vlaf portları fərqlənir.

Nikaraquanın iqtisadi həyatında xarici ticarət böyük rol oynayır. Onun strukturu isə (avadanlıqlar və sənaye məhsulları) ölkə təsərrüfatının xarici ölkələrdən güclü asılılığını göstərir. 2005-ci ildə ölkənin ticarət dövrüyyəsində ixracat 550 mln. dollar, idxalat isə 1 mlrd. dollar təşkil etmişdir. Ölkənin pul gəlirinin həcmi pambıq və qəhvə ixracının həcmindən asılıdır. Nikaraquadan pambıq və qəhvə ilə yanaşı şəkər, ət, oduncaq, qızıl və s. ixrac edilir. İdxalatında maşın və avadanlıqlar, nəqliyyat vasitələri, neft, yazır məmulat və s. başlıca yer tutur.

Nikaraqua əsəsən Avropa İttifaqı, Latın Arnerikası ölkələri, Yaponiya və digər ölkələr ilə ticarət əlaqələri saxlayır.

Nikaraquanı iqtisadi cəhətdən 4 rayona ayırmaq olar: 1) Sakit okean sahili; 2) Tektonik çökəklik; Mərkəzi Yayla; 4) Şərq rayonu.

Ölkənin Sakit okean sahili zəif parçalanmışdır. Şimalda Honduras ilə həmsərhəd olan yerdə geniş Fonseka körfəzi yerləşir. Sahilin qalan yerlərində okeandan uzun dillərlə ayrılmış laqunlar vardır. Ən əlverişli laqunda ölkənin əsas dəniz portu – Korinto yerləşir. Sakit okean sahil düzənliyinin torpaqları münbit və məhsuldardır. Bu iqtisadi rayon ölkənin intensiv kənd təsərrüfatı rayonudur. Burada qəhvə, şəkər qamışı, pambıq plantasiyaları, həmçinin qarğıdalı, çəltik, tərəvəz, tropik meyvələr və s. yetişdirilir. Heyvandarlıq təsərrüfatında iribuynuzlu

mal-qara, quşçuluq və donuzçuluq sahələri inkişaf etməkdədir. Bu iqtisadi rayonda El-Vyeko, Korinta, Leon, San-Rafael-del-Sur, Çinandeqa, Puerto-Morasan və s. yaşayış məntəqələri yerləşir. Bunlardan ən böyüyü Leon şəhəridir. Şəhərdə toxucuuq, yeyinti, inşaat və digər sənaye müəssisələri, həm də mebel fabriki fəaliyyət göstərir.

İkinci rayon - Tektonik çökəklik, yaxud göllər rayonudur. Nikaraqua tektonik çökəkliyi Fonseka körfəzindən başlayır. İqtisadi inkişaf səviyyəsinə görə rayon ölkədə birinci yeri tutur. Burada ölkənin paytaxtı siyasi, iqtisadi, inzibati, maliyyə və mədəni mərkəzi olan Manaqua şəhəri yerləşir. Manaqua şəhərinin yaxınlığında beynəlxalq əhəmiyyətli aeroport fəaliyyət göstərir. Şəhərdə maşınqayırma və metal emalı, kimya, tikinti materialları, neft emalı, yüngül və yeyinti sənaye müəssisələri işləyir.

Qranada şəhəri - Nikaraqua gölünün şimal-qərb sahilində limandır. Şəhər dəmir yolu ilə Manaqu şəhəri və Sakit okean sahilində yerləşən Korinto portu ilə əlaqələnir. Qranada kənd təsərrüfatı rayonu olmaqla ticarət və sənaye mərkəzidir.

Nikaraquamn üçüncü iqtisadi rayonu - Mərkəzi Yayladır. Qədim Mərkəzi Yayla mürəkkəb dağlıq sistemindən ibarətdir. Honduras ilə sərhəd boyu Kordilyer - İsabelya silsiləsi (ölkənin ən hündür zirvəsi bu silsilədədir - 2438) uzanır və qərbdə Kordilyer-de-Daryen silsiləsinə qovuşur. Bu bölgə Nikaraquanın ən ucqar və zəif məskunlaşmış, az mənimsənilmiş rayonudur. Rayonun sıx tropik meşə ilə örtülmüş şərq hissəsi olduqca seyrək məskunlaşmışdır.

Mərkəzi Yayla faydalı qazıntılarla zəngindir. Burada qızıl, gümüş, sink, quğuşun, mis, sürmə, volfram, dəmir filizi, fosfatlar, mərmər, gips və prit yataqları kəşf olunmuşdur. Rayonda dağ-mədən və emaledici sənaye ilə yanaşı kənd təsərrüfatı inkişaf edir. Rayonun ən böyük şəhəri Mataqalpadır. Şəhərdə toxuculuq və yeyinti sənaye sahələri fəaliyyət göstərir.Rayonda qəhvə plantasiya təsərrüfatı, şəkər qamışı, qarğıdalı, çəltik, tərəvəz, kakao, banan, ananas, sitrus bitkiləri yetişdirilir. Əkin sahələri əsasən rayonun qərb hissəsində yerləşir. Əkin sahələrindən yığılan məhsullar şəhərlərdəki müəssisələrdə emal olunur.

Dördüncü iqtisadi rayon - geniş şərq ovalığı, Moskit sahili adı ilə məşhurdur. Çayların gətirdiyi çoxlu çöküntü materialları hesabına hamar allüviil ovalıq yaranmışdır. Çaylar öz başlancığını Mərkəzi Yayladan götürüb şərqə axırlar. Ovalığın çox hissəsində bataqlıqlar yayılmışdır. Moskit sahilin demək olar ki, hamısı meşə ilə örtülüdür. Bu rayonun ərazisində əhali plantasiya təsərrüfatları istisna olmaqla çox seyrək məskunlaşmışdır. Rayon ərazisinda polimetal filizləri, qızıl, gümüş və başqa faydalı qazıntı yataqları istismar olunur. Heyvandarlıq ekstensiv xarakter daşıyır. Rayonda meşə təsərrüfatı, o cümlədən: ağac emalı sellüloz kağız istehsalı inkişaf etməkdədir. Rayon ərazısində yaşayış məntəqələri azdır. Əsas iri yaşayış məntəqələri: Terto-Kabesas, El-Vlaf, Blufuld və cənubda San-Xüan-del-Norte qəsəbələridir.

HONDURAS RESPUBLİKA

Sahəsi – 112 min km^2
Əhalisi – 6,4 mln. nəfər (2007-ci il)
Paytaxtı – Tequsiqalpa

Honduras — Mərkəzi Amerika ölkəsidir, sahəsinə görə regionda ikinci, əhalisinin sayına görə isə üçüncü ölkədir. Cənubda Nikaraqua ilə (sərhəddin uzunluğu -922 km), qərbdə Qvatemala ilə (256 km), cənub-qərbdə isə Salvador ilə (324 km) həmsərhəddir. Şərqdə və şimalda Karib dənizi ilə, cənub-qərbdə isə Sakit okean Huları ilə əhatələnir.

Honduras - dağlıq ölkədir. Ərazisinin 2⁄3 hissəsi meşə ilə örtülmüş dağlar və yüksəkliklərdir.

Relyefini əsasən 1000-2000 m hündürlüyündə olan geniş yayla təşkil edir. Yaylanın qərb hissəsi daha hündürdür (Selake dağı 2865 m) - Yayla dərin çay dərələri ilə parçalanmışdır. Şimalda Karib dənizi sahilində düzənlik - bataqlıq Moskit sahili yerləşir.

Honduras müxtəlif faydalı qazıntılarla zəngindir. Gümüş, qızıl, polimetal, mis və dəmir fılizi hasil edilir. Lakin hasilat azdır. Həmçinin kömür, sürmə, civə, nikel, boksit, neft və s. vardır.

Ölkənin iqlimi tropik passatdır. Temperaturun fəsli dəyişməsi böyük deyil. Düzənliklərdə və qərb ranyonlarında iyulun orta temperaturu 24-28° C, şərqdə və cənub-şərqdə 28°-dən yuxarı, yanvarda isə bundan 3-4° az olur. Şimalda və külək tutan dağ yamaclarında ildə 1500-2000 mm yağıntı düşür. Ölkənin daxili hissələri və cənubu daha quraqdır. Bu yerlərdə quraq dövr qışda və baharda 5-6 ay davam edir. Ölkənin paytaxtı Tequsiqalpa şəhəri də bu ərazidə yerləşir. Şəhərdə yanvarın orta temperaturu 19°, iyulda 24°C-dir.İl ərzində 900 mm-ə qədər yağıntı düşür.

Ölkənin ən böyük çayları Ulya, Aquan, Patuka və başqalırdır. Bu çaylar aşağı axınlarında gəmiçiliyə yararlıdır. Çayların dağlıq ərazilərdə axan yuxarı hissələri hidroenerji əhəmiyyətlidir.

Hondurasda iqlim və relyef şəraitinə müvafiq olaraq torpaq örtüyü formalaşmışdır. Ölkə ərazisində əsasən qırmızı-sarı ferralit torpaqlar yayılmışdır. Şimal düzənliklər və dağ yamacları həmişəyaşıl rütubətli tropik meşələrlə örtülüdür. Ən qiymətli ağac növləri palmalar, kauçuk və qırmızı makaqoni ağacıdır. Sahilboyu ərazilərdə çətin keçilən manqr kolluqlar yerləşir.

Ölkənin mərkəz hissəsində qarışıq meşələr, həmişəyaşıl palıd və şam ağacları altında qəhvə-qırmızı ferralit torpaqlar formalaşmışdır.

Heyvanat aləmi müxtəlif olub, Mərkəzi Amerika üçün tipikdir. İri heyvanlardan yaquar, puma, meymunlar, tapir və vəhşi donuzlar (pekar) yayılmışdır. Zirehlilərdən qarışqayeyən, həmçinin çoxlu yarasa və çaylarda timsah yaşayır. lquanalar və ilanlar ölkə üçün xarakterik heyvanlardır. Quşlardan ən çox kalibri və müxtəlif növ tutuquşular, tukanlar qışlamaq üçün şimaldan uçub gələn çoxlu quşlar olur. Çaylar və sahil sular balıqlarla zəngindir.

Əhalisi. Honduras sahillərini 1502-ci ildə X.Kolumb kəşf etmişdir. Böyük coğrafi kəşflər dövründə indiki Hondurasın ərazisi müxtəlif hindu tayfaları tərəfindən məskunlaşmışdır. Onlar ibtidal icma quruluşu şəraitində yaşayırdılar, primitiv əkinçilik və heyvandarlıq və müxtəlif növ peşəkarlıq ilə məşğul olurdular. Yerli əhali qonşu Meksikada yaşayan asteklərlə ticarət aparırdılar. II əsrdə indiki Hondurasın qərb hissəsində mayya tayfası hakimlik edirdi.

1523-cü ildə Alvarado başda olmaqla ölkəni ispan konkistadorları işğal etdilər. Sahilləri dərin yarğanlar olduğu üçün ölkə sonradan onduras (ispanca onduras - dərin deməkdir) adlandırıldı. 1821-ci ildə Honduras müstəqillik qazandı. Honduras respublikadır. 1982-ci il Konstitusiyası qüvvədədir. Dövlət başçısı 4 il müddətinə seçilən prezidentdir. Qanunverici hakimiyyət Milli konqresə, (birpalatalı parlament) icra hakimiyyətini isə prezident həyata keçirir.

Hondurasın əhalisi 5,5 mln. nəfərdir (2007-ci il). Əhalinin ölkədə orta srxlığı 1 km^2-də 57 nəfərdir. Metislər (90%) və hindilər (6%) əhalinin əksəriyyətini təşkil edir, afrikalılar — 2%, avropalılar da — 2% təşkil edir. Hakim din katolizmdir. Rəsmi dil - ispan dilidir.

Şəhər əhalisi təqribən 50%-dir. İşləyənlərin 45%-i kənd təsərrüfatında çalışır. Ən böyük şəhərləri: ölkənin paytaxtı Tequsiqalpa, 2-ci San-Pedro-Sula şəhəridir.

Honduras respublikasının paytaxtı - Tequsiqalpa şəhərində 800 min nəfərdən çox əhali yaşayır. Ölkənin mühüm siyasi, iqtisadi və mədəniyyət mərkəzidir. O, 1524-cü ildə salınmış və 1880-ci ildən ölkənin paytaxtı olmuşdur.

İnzibati cəhətdən Honduras 18 departamentə bölünür. Honduras Latın Amerikasında iqtisadi cəhətdən ən zəif və ABŞ şirkətlərindən ən çox asılı olan ölkələrdəndir.

İqtisadiyyatın əsasını kənd təsərrüfatı təşkil edir. Kənd təsərrüfatında iqtisadi cəhətdən fəal əhalinin yarısı çalışır. İxracata gedən bütün əmtəə məhsulunun demək olar ki, hamısını kənd təsərrüfatı istehsal edir. Kənd təsərrüfatında əsasən plantasiya əkinçiliyi və heyvandarlıq inkişaf edir. Onların da əksəriyyətin xarici kapital nəzarət edir (əsasən ABŞ kapitalı) kənd təsərrüfatına yararlı torpaqların çox hissəsi yerli latifundiyaçıların və Amerika şirkətlərinin əlindədir.

Kənd təsərrüfatında aqrotexniki səviyyə və əmək məhsuldarlığı çox aşağıdır. Monobitkiçilik istehsalı kənd təsərrüfatının inkişafını əhəmiyyətli dərəcədə ləngitmişdir.

İstehsal olunan kənd təsərrüfatı məhsulunun əsas hssəsi (banan, qəhvə, pambıq, şəkər qamışı, tütün, ət) ixrac olunur. Qiymətli ağac növləri də ixrac olunur. Daxili tələbat üçün çəltik, qarğıdalı, lobya, darı və b. yetişdirilir.

Heyvandarlıq ekstensiv xarakter daşıyır.

Sənaye ölkədə zəif inkişaf etmişdir. Fəal əhalinin 9%-i sənayedə çalışır. Mədən və emal (əsasən kənd təsərrüfatı məhsullarını emal edən) sənaye sahələri inkişaf edir.

Sənayedə manufaktur xarakterli kustar istehsalı üstündür, bununla yanaşı bir sıra müasir tipli müəssisələr də fəaliyyət göstərir. Onlara xarici, birinci növbədə amerika şirkətləri tərəfindən nəzarət olunur. Onların əksəriyyəti ölkənin ikinci şəhəri sayılan San-Pedro-Sulada və Tequsiqalpa şəhərində yerləşir.

İqtisadi-coğrafi cəhətdən Honduras bir-birindən fərqlənən üç rayona bölünür. Şimal Atlantikyanı düzənlik rütubətli tropik iqlimə malikdir. Bu ölkə də məhsuldar rayondur. Burada plantasiya təsərrüfı inkişaf edir, şimali amerika meyvə şirkətləri tərəfindən nəzarət olunur. Burada banan, qəhvə, tütün, şəkər qamışı və pambıq yetişdirilir. Daxili tələbat üçün qarğıdalı, lobya, çəltik və darı yetişdirilir. Bu rayonun əsas iqtisadi mərkəzi San-Pedro-Suladır.

Ondan cənubda ölkənin geniş yayla hissəsi yerləşir. Kənd təsərrüfatı zonası olan bu ərazidə seyrək və kiçik yaşayış məntəqələri vardır. Eyni zamanda bu ərazidə faydalı qazıntılar hasil edilir. Bu rayonun əsas mərkəzi - ölkənin paytaxtı Tequsiqalpa şəhəridir. Rayonun cənub-qərbində və mərkəzində qarğıdalı, qəhvə, şəkər qamışı becərilir və mal-qara saxlanılır.

Şimal-şərq hissə - Maskitiya Honduras ərazisinin 1⁄3-i tutur. Zəif mənimsənilmiş rayondur. Rayon ərazisində çox seyrək məskunlaşmış əhali primitiv əkinçilik və meşə tədarükü ilə məşğuldur. Ərazinin geniş meşə örtüyünə malik olmasına baxmayaraq, meşə təsərrüfatı zəif inkişaf edir. Yalnız ixrac məqsədi üçün qırmızı ağac tədarük edilir.

Honduras nəqliyyat şəbəkəsi ilə zəif təmin olunmuşdur. Ümumi uzunluğu 9 min km olan avtomobil yollarının 2 min km-i bərk örtüklüdür. Əsasən ölkənin şimal hissəsində yerləşən dəmir yollarının uzunluğu 1780 km-ə çatır. Daxili su yollarının uzunluğu 465 km-dir. Əhəmiyyətli dəniz portları: Puerto-Kartes, Tela, Truxiliya və Laseybadır. Ölkədə beynəlxalq əhəmiyyətli 3 port fəaliyyət göstərir.

QVATEMALA RESPUBLİKASI

Sahəsi – 108,9 min km^2
Əhalisi – 13 mln. nəfər (2007-ci il)
Paytaxtı – Qvatemala

Qvatemala — Mərkəzi Amerika respublikaları arasında ən şimalda yerləşən dövlətdir. Şimalda və qərbdə Meksika ilə həmsərhədir (sərhəddin uzunluğu - 962 km), şərqdə Beliz ilə (266 km), cənub-şərqdə Salvadorla (203 km) və Hondurasla (256 km) sərhəddədir. Cənubda Qvatemala Sakit okean suları ilə, şərqdə isə Karib dənizinin Honduras körfəzi ilə əhatələnir. Onun sahəsi Belçika, Niderland və Danimarkanın birgə ərazisinə bərabərdir. Əhalinin sayına görə Mərkəzi Amerika ölkələri arasında birinci yerdədir. İnzibat cəhətdən ölkə 22 departamentə bölünür.

Qvatemala ərazisinin təqribən yarısı - yayladır (hündürlüyü 1000-2000 m). Sakit okean sahil boyu ensiz (eni 50 km) düzənlik yerləşir. Ölkədə az miqdarda faydalı qazıntılar var: qurğuşun, nikel, volfram xrom, sink, gümüş, qızıl, manqan, neft və s.

Ölkənin iqlimi tropik passatlı - mussonlu, kifayət qədər yumşaqdır. Orta aylıq temperatur ovalıqda 23 -27°S, yaylada 15-20°S-dir. Dağlıq rayondarda orta illik temperatur 10-20°S-dir. İllik yağıntı şimal-şərq yamaclarda 2500-4000 mm, cənub-qərbdə 2000 mm-ə qədərdir.

Ölkənin dağ çayları sürətlə axır, göllərin gözəlliyi isə xalq mahnılarında oxunur. Yayladan axan çaylar Karib və Sakit okean hövzəsinə aiddirlər.

Ən böyük çayı Usumasintadır. Onu çox vaxt Mərkəzi Amerikanın Nili adlandırırlar. Meşə axıdılmasında istifadə olunur. Qvatemalanın təsərrüfat

əhəmiyyətli çayları: Motaqua, Poloçik, Rio-Dulse və Sapstundur. Onların hamısı Karib dənizinə tökülür.

Qvatemalanın gölləri çoxdur və onlar çox gözəl və cazibədardırlar. İsabal, Atitlan, Amatitlan, Qnika, Ateskatempa və Peten-İtsa göllərinin sahillərində yerli əhali istirahət edir.

Ərazinin yarıya qədəri həmişəyaşıl meşələrlə örtülüdür. Bütün Mərkəzi Amerikada Qvatemala florasının zənginliyi ilə fərqlənir. Xüsusilə endemik bitkilər çoxdur.

Qvatemalanın meşələrində çoxlu miqdarda ekzotik tropik heyvanları görmək olar. Ölkədə 2000 növ quşlar vardır. Çaylarda - kaymanlar, lamantin, piranya və b. yaşayır.

Əhalinin 55%-i hindulardır, qalanları (44%) ispan-dilli metislərdir, 1% avropalılar vardır. Əhalinin orta sıxlığı hər 1 km^2-də 100 nəfərdir. Hakim din - kuiolizimdir (əhalinin 70%-i), protestantların da sayı artır. Rəsmi dil- ispan, həmçinin yerli hindu dialektləri yayılmışdır. Hər 1000 nəfərə görə doğumun sayı 34 nəfər, ölənlərin sayı 7 nəfər, təbii artım - 27 nəfər təşkil edir.

İşləyən əhalinin 60%-i kənd təsərrüfatında, qalanı sənaye, ticarət və b. sahələrdə çalışır.

Qvatemala - respublikadır. Ölkə 22 departamentdən ibarətdir. Dövlət başçısı – prezidentdir. O, hökuməti təyin edir. Qanunverici hökumət birpalatalı parlament ilə təmsil olunur - Milli Konqress. Ən böyük siyasi partiyalar: Milli Mərkəz İttifaqı (MMİ), Qvatemala Əmək partiyasıdır (QƏP).

1523-cü ildə başda Pedro-de-Alvareş olmaqla ispa konkistadorları Qvatemala ərazisinə soxularaq Hindu tayfaları arasındakı düşmənçilikdən istifadə edib yerli əhalinin müqavimətini qırmağa və Qvatemala ərazisini tutmağa nail oldular. Bir çox hindu tayfası, demək olar ki, tamamilə məhv edildi. Qvatemala İspaniyanın müstəmləkəsinə çevrildi. Metropoliyanın hökmranlığı Qvatemalada məhsuldar qüvvələrin inkişafını ləngitdi. Qvatemalada azadlıq hərəkatının inkişafına İspaniyanın Amerikadakı müstəmləkələrinin istiqlaliyyət uğrunda mübarizəsi (1810-1826-cı illər) böyük təsir göstərdi. 1821-ci il sentyabrın 15-də Qvatemala şəhərinin kreol əhalisinin Nümayəndələr Məclisi Qvatemalının istiqlaliyyəti barədə bəyannamə qəbul etdi.

Qvatemala bir sıra diktatura və dövlət çevrilişlərinin həyatını görüb keçmişdi. Nəhayət, 1985-ci ildə ölkədə ilk azad seçkilər aparıldı və hakimyyətə mülki hökumət gəldi.

Qvatemala geridə qalmış aqrar ölkəsidir, onun iqtisadiyyatı ABŞ kapitalından güclü surətdə asılıdır.

Becərilən torpaqlann 3⁄4-ü mülkədarların və xarici şirkətlərindir. Orta və xırda təsərrüfatların payına torpaqların cəmi 14%-i düşür. Ölkədəki plantasiya bitkilləri əkin sahəsinin təqribən 1/3-ni tutur və ümumi məhsulun yarısından, ixracat məhsulunun 9/10-dan çoxunu verir. Əsas ixracat bitkisi qəhvə və pambıq, şəkər qamışı və banandır, həmçinin efir yağlı bitkilər, tütün, ərzaq bitkilərdən qarğıdalı, çəltik, kartof, müxtəlif tərəvəz yetişdirilir.

Kənd təsərrüfatı məhsulları ixracat gəlirinin 2/3-ni verir.

Qvatemalada heyvandarlıq zəif inkişaf etmişdir. Ölkədə 2 mln. baş qaramal, l,2 mln. donuz, 1,2 mln. qoyun var.

Ümumi milli məhsulda emal sənayesinin payı 16%, nəqliyyat və rabitə 7%, mədən sənayesi 0,4%, xidmət sahələri 42%-dir.

1970-ci illərin axırlarından başlayaraq sənaye istehsalının inkişafı zəifləmişdir. Sənaye məhsulunun yarıdan çoxunu ərzaq məhsulları, içkilər, tütün məmulatları, 35% inşaat materialları və toxuculuq məmulatları verir. Bunlardan əlavə ölkədə polad əritmə, neft-kimya, şin-təkər istehsalı zavodları işləyir. Dağ-mədən sənayesi zəif inkişaf edir. Ölkədə sürmə, civə, volfram, az miqdarda qurğuşun, sink və nikel hasil edilir.

Bütün sənaye müəssisələrinin əksəriyyəti ölkənin paytaxtı Qvatemaladadır (yeyinti, toxuculuq, gön-dəri, ayaqqabı, ağacemalı, metalemalı və s.), Kısaltenayqoda (toxuculuq və yeyinti sənayesi), Matias-de-Qalvesdə (neftemalı, polad əritmə, məişət cihazları, televizorlar və fotoparatlar). Bu müəssisələrin hamısı ABŞ, AFR və Yaponiya kapitalının hesabınadır. Dəmir yollarının ümumi uzunluğu 884 km, avtomobil 26429 km, daxili su yolların uzunluğu 260 km-dir (il ərzində gəmiçilik üçün yararlıdır). Əsas portları: Livinqston, Puerto-Barrios, San-Xose, Çampirikodur. Panamerikanın şossesinin 511 km-i Qvatameladan keçir. Qvatemala şəhərində beynəlxalq aeroport var. Pul vahidi - ketsaldır.

Ticarət əsasən dəniz yolları vasitəsilədir. Ölkə qəhvə, pambıq, banan, efir yağı, şəkər, ət, tərəvəz, çay, meşə materialları, krevetka ixrac edir.

Ərzaq, istehlak malları, nəqliyyat vasitələri, neft və neft məhsulları, maşınlar, avadanlıqlar və s. idxal edir.

Əsas ticarət partnyorları: ABŞ, Mərkəzi Amerika ölkələri, Yaponiya, AFR, Meksika və başqalarıdır.

PANAMA

Sahəsi — 77 min km^2
Əhalisi — 3,1 mln nəfər (2008-ci il)
Paytaxtı — Panama

Panama Mərkəzi Amerikada, Panama bərzəxində dövlətdir. Qərbdə - Kosta-Rika ilə həmsərhəddir (sərhəddin uzunluğu 330 km), şərqdə - Kolumbiya ilə (225 km) sərhədlənir. Ölkə cənubda Sakit okean, şimalda Karib dənizi ilə əhatələnir. Sərhədlərin ümum uzunluğu 555 km-dir, sahil xəttinin uzunluğu 2490 km, ölkənin ümumi sahəsi 77 min km^2-dir (qurunu sahəsi 76990 km^2). Panamaya 1600-dən çox kiçik ada (o cümlədən 1000-dək Sakit okeanda) məxsusdur. Əhalisi -3,1 mln. nəfər, paytaxtı isə Panama şəhəridir. Panama inzibati cəhətdən 9 əyalətə bölünür.

Panamanın ərazisi Mərkəzi Amerikanın ən dar hissəsindədir (eni 48-200 km). Sahilləri əsasən düzənlikdir. Tez-tez zəlzələ olur, vulkanlar püskürür.

Panamada bir çox faydalı qazıntı yataqları aşkar edilmişdir. Mis, qızıl, gümüş, qalay, sink, boksit, asbest, manqan, tikinti materialları üçün xanım yataqları vardır.

Panamanın iqlimi subekvatorial, isti və rütubətlidir. Orta aylıq temperatur 25-28°S-dir. İllik yağıntı 2000-3700 mm. Karib dənizi sahilində tropik selvada yağıntı il boyu düşür. Sıx çay şəbəkəsi var.

Panamanın şərq hissəsi və sahili rütubətli tropik meşələrlə - selva ilə örtülüdür. Ölkədə çoxlu qiymətli ağac növləri vardır: bakayt ağacı, yaxud quayakan və b. Panamanın bitki dünyasının gözəl bəzəyi - arxideylərdir (300 növ).

Panamanın çətin keçilən rayonlarında hələ yaquarlar, pumalar, otselotlar qalmaqdadırlar. Burada zirehhdaşıyanlar, tapirlər, meymunlar vardır. Dağ meşə massivlərində marallar və pekarilər yaşayırlar. Quşların 850 növü mövcuddur. Çoxlu ilanlar, əqrəblər, müxtəlif həşəratlar var.

Panamanın yerli əhalisi hinduları ölkənin şimal- şərq sahilləri, meşəlik və dağ rayonlarında yaşayırlar.

Başqa ölkələrdən gəlmələr çoxdur. Əhalinin əksəriyyəti (70%) metislərdir, 14%-i vest-hindular 10%-i avropalılar, 6%-i hindular təşkil edir. Dövlət dili ispan dilidir. Hindular öz dillərini də saxlayırlar. Dindarları katoilk (90%), bir qismi protestantlardır (6%).

Əhali ölkədə qeyri-bərabər yerləşmişlər. Əhalinin orta sıxlığı 1 km^2-də 36 nəfərdir. Panama şəhəri və Kolon şəhəri rayonlarında (bu yerlərdən Panama kanalı keçir) əhalinin yarıdan çoxu yaşayır.

Panama kanalından qərbdə kənd rayonları yerləşir və burada kiçik yaşayış məntəqələri (hərəsində 50 nəfər və s.) yerləşir.

Hər 1000 nəfərə görə doğulanların sayı 24 nəfər, ölənlərin sayı 5 nəfər, təbii artım isə 19 nəfər təşkil edir. Orta həyat ömrü kişilər - 72 yaş, qadınlar – 78 yaşdır. Əhalinin 50%-i şəhərlərdə yaşayır. Ən böyük şəhəri onun paytaxtı - Panama şəhəridir.

İkinci böyük şəhəri - Karib dənizinin sahilində Kolon şəhəridir. Onun əhalisi 200 min nəfərə çatır.

İspaniya işğalına qədər Panama ərazisində hindu tayfaları məskunlaşmışdır. 1501-ci ildə ispan konkistadorlan Panama ərazisinə soxularaq burada bir sıra yaşayış məskəni saldılar; 1519-cu ildə Panama şəhərinin əsasını qoydular. İspaniyanın Amerikadakı müstəmləkələrinin istiqlaliyyət uğrunda müharibəsi (1810-1826-cı il) gedişində, Panama 1821-ci ildə İspaniyadan ayrılaraq Yeni Qrenadaya birləşdi və onunla birgə Böyük Kolumbiyanın tərkibinə daxil oldu. Fransa 1879-cu ildə Panama kanalının çəkilməsi üçün şirkət yaratdı. Onun fəaliyyəti iflasa uğradıqdan sonra bu işi ABŞ öz üzərinə götürdü. 1903-cü ildə Panama respublikası ABŞ-la qeyri-bərabər müqavilə imzalamağa məcbur edildi. Müqaviləyə əsasən kanal üçün nəzərdə tutulan ərazi «əbədi» olaraq ABŞ-a verildi. Kanal zonasının ABŞ-ın sərəncamına keçməsi ilə Panama iki hissəyə parçalandı. 1979-cu ildən başlayaraq kanal zonası tədricən Panamanın tabeliyinə keçir, ABŞ kanaldan istifadə etməyin əvəzində Panamaya hər il 80-100 mln dollar verməyi öhdəsinə götürürdü. 1982-ci ildə Panama kanalı zonası üzərində ABŞ-ın siyasi

hüququ dayandırılmış, kanal zonasında ictimai asayişin qorunması funksiyaları Panama dövlətinin səlahiyətinə keçmişdir. Panama kanalı — süni su yoludur. Atlantik və Sakit okeanları bir-biri ilə əlaqələndirir. 1914-cü ildə (rəsmi surətdə 1920-ci ildə) istifadəyə verilmişdir. Panama kanalının uzunluğu 81,6 km, ən ensiz yeri 150 m dərinliyi 13,5 m. Kanala 40 min tonadək yük götürən gəmilər daxil ola bilər.

Panamanın müstəqilliyi 3 noyabr 1903-cü ildə elan edilmişdir (ondan qabaq Kolumbiyanın tərkibində idi). Dövlətin və hökumətin başçısı prezidentdir. Qanunverici hakimiyyət bir palatalı parlamentlə - Qanunverici assambleya ilə təmsil olunur. Ən böyük siyasi partiyalar: Demokratik Müxalifət Alyansı bloku (DMA), Həqiqi Liberal Partiya, Xristian-Demokratik Partiyası (XDP), İnqilabi-demokratik partiyadır (İDP).

Panama iqtisadi cəhətdən zəif inkişaf etmiş aqrar ölkədir. Təsərrüfatında ABŞ şirkətləri hakim mövqe tutur. 1969-cu ildən aqrar islahatlar həyta keçirilir. Təqribən 300 kooperasiya yaradılmışdır. Lakin kəndlilərin əsas hissəsi aztorpalı və ya torpaqsızdır. ərazinin 1⁄5-i kənd təsərrüfatına yararlıdır. Əsas ixracat bitkiləri: banan və qəhvədir, həmçinin şəkər qamışı, çəltik, qarğıdalı, lobya, tütün, ananas, sitrus meyvələri, pambıq, kartof becərilir.

Heyvandarlıq (o cümlədən quşçuluq) və balıqçılıq inkişaf etmişdir. Krevet ovlanır.

Sənayesi, əsasən, kiçik yeyinti, toxuculuq və dəri-ayaqqabı sənayesi müəssisələrindən ibarətdir. Neft emalı, tikinti materialları, kağız və karton istehsal sahələri işləyir. Sənaye müəssisələri Panama, Kolon, La-palma və başqa şəhərlərdə və qəsəbələrdə fəaliyyət göstərir.

Panama qızıl, mis, kömür ilə zəngindir. Neft də aşkar edilmişdir. Ən əhəmiyyətlisi mis yatağıdır. Ən böyük yataq – Syerra- Koloradodur. O, 1960-cı illərində aşkar edilmişdir.

Quraşdırılmış elektrik stansiyaların gücü 800 min kvt., elektrik enerji istehsalı isə 3 kvts.-dir. Son onillikdə SES-lərin inşası hesabına idxal neft məhsullarının payı üç dəfə azalmışdır.

Dəmir yollarının uzunluğu – 238 km, avtomobil yollarının uzunluğu 8530 km, daxili su yolları 800 km-dir (bunlardan 82 km-i Panama kanalının uzunluğudur).

Ölkənin ixracatı əsasən banan, neft məhsulları, krevetka, şəkər, qəhvə və b., idxalatı: xam neft, ehtiyat hissələri, tələbat malları, maşınlar və avadanlıqlar, nəqliyyat vasitələri, ərzaq və b. məhsullardır.

Əsas ticarəti ABŞ, AFR, Avropa iqtisadi birliyi, Yaponiya, Mərkəzi Amerika ölkələri və başqaları ilədir.

KOSTA-RİKA

Sahəsi – 51100 km^2
Əhalisi – 3,8 mln. nəfər (2007-ci il)
Paytaxtı – San-Xose

Kosta-Rika Respublikası Mərkəzi Amerikada yerləşir. Cənub-şərqdə Panama ilə sərhədlənir (sərhəddin uzunluğu 330 km-dir), şimalda – Nikaraqua ilə (309 km), qərbdə və cənub-qərbdə Sakit okean, şərqdən isə Karib dənizilə əhatələnir. Sərhədlərinin ümumi uzunluğu 639 km, sahil xəttinin uzunluğu 1290km-dir.

Ərazinin çox hissəsi dağlıqdır. Kosta-Rikanı şimali-qərbdən cənub-şərqə doğru üç əsas dağ silsilələri kəsb keçir. Kosta-Rikada çoxlu vulkanlar var. Onlardan ən böyükləri - İrasu (3432 m) və Turialbadır (3329 m). Dağ silsilələri arasında və dəniz sahili boyunda düzənliklər yerləşir. Ölkə faydalı qazıntılarla zəngindir. Dəmir filizi, kükürd, boksit, qızıl, gümüş, manqan, civə, mis, inşaat materialları üçün xammal aşkar edilmişdir.

İqlimi subekvatorialdır. Orta aylıq temperatur 23-25° C-dir. Karib dənizi sahilində və dağların şərq yamaclarında çoxlu yağıntı düşür (ildə 3000 mm). Yağıntıları şimal-şərqi passatlar gətirir.

Sakit okean sahilində və dağların qərb yamclarında iqlim elə də rütubətli deyil. Yayda yağıntılar az düşür (ildə 1000 mm, bəzi yerlərdə 1500 mm), ilin 4 ayı isə quraq keçir.

Əkin üçün yararlı torpaqların əsas hissəsi Mərkəzi platodadır. Bu ərazi qəhvə zonası sayılır. Bu zonada orta illik temperatur 18-24°-dir. Iki mövsüm fərqlənir: rütubətli (may-noyabr) və quru (dekabr-aprel). Dağlarda yağıntıların miqdarı hündürlükdən asılıdır. Bəzi daxili dağ dərələrinin iqlimi hətta quraqdır.

Dağlardan axan çaylar həm qısa, həm də su toplama hövzələri kiçikdir. Dağlıq relyef gur axımı yaradaraq, hidroenerji ehtiyatları ilə fərqlənirlər. Artıq bu çayların üzərində su elektrik stansiyalar quraşdırılıb. Atlantik hövzəsi çayları Sakit okean hövzəsi çaylarına nisbətən il boyu bol suludurlar. San-Xuan, Rio-Frio, Saksaola və başqa çayların aşağı axınları gəmiçilik üçün yararlıdırlar.

Kosta-Rikanın geoiqlim şəraiti bitki aləminin zənginliyini müəyyən edir. Karib düzənliyinin meşələrində çoxlu qiymətli ağac növləri bitir: makaqoni, qara, çəhrayı, palmaların bir-neçə növü yetişir. Sakit okean sahili düzənliyində enli yarpaqlı meşələr və mimozalı savannalar üstündür.

Kosta-Rikanın faunası Mərkəzi Amerika üçün tipikdir: puma, yaquar, maral, meymunlar və 700-dən çox quş növlərinə rast gəlinir. Dəniz tısbağaları, sahil sularında balıqlar, lanqust, krivet və b. zəngindir.

Kosta-Rikanın hidroresursları ölkənin əsas təbii resurslarını təşkil edir. Şumlanan torpaqlar ölkə ərazisinin 16%-ni, otlaqlar və biçənəklər - 45%-ni, meşə və kolluqlar - 34%-ni təşkil edir.

Əhali əsasən (96%) metislərdən və avropalılardan (əsasən ispanlardan), kiçik bir hissəsi - qara afrikalılardan və hindulardan ibarətdir. Hər 1000 nəfərə görə doğum - 25 nəfər, ölüm - 5 nəfər, təbii artım isə 20 nəfərdir.

Rəsmi dil - ispan dilidir. Katolik dininə əhalinin 95%-i etiqad edir. İqtisadi fəal əhali 1 mln. nəfərdir. Onun 45%-i kənd təsərrüfatında çalışır. Əhalinin 3⁄4 hissəsi Mərkəzi platoda yerləşir.

Ölkədə əhalinin 55%-i şəhərlərdə yaşayır. Əsas inzibati, siyasi, maliyyə və mədəni mərkəzi - paytaxtı San-Xose şəhəridir. Şəhərdə 1 mln-dan artıq əhali yaşayır. San-Xose şəhərinin bünövrəsi 1737-ci ildə qoyulmuşdur, lakin 1837-ci ildən, yəni yüz ildən sonra bu şəhər paytaxt olmuşdur. San-Xose şəhəri geniş çökəklikdə yerləşir. Şəhər şosse və dəniz yolları vasitəsilə ölkənin bütün rayonları ilə əlaqə saxlayır.

Kosta-Rika ərazisində qədim dövrlərdən müxtəlif hindu tayfaları məskunlaşmışdır. Kosta-Rikanı 1502-ci ildə X.Kolumb kəşf etmiş və Nuevo Kartaqo (Yeni Karfagen) adlandırmışdır. Kosta-Rika adı ona 1540-cı ildən sonra verilmişdir. 1513-cü ildən Kosta-Rikanın işğalına başlayan ispanlar hindu tayfalarının əksəriyyətini qırdılar. 1560-cı ildə Kosta-Rika ərazisi Qvatemala general-kapitanlığına daxil edildi. Feodal-təhkimçilik münasibətləri bərqərar oldu. İspaniyanı Amerikadakı müstələkələrinin istiqlaliyyət uğrunda müharibəsi (1810-1826-cı illər) dövründə Kosta-Rika əhalisi də azadlıq mübarizəsinə qalxdı. 1821-ci il sentyabrın 15-də Kosta-Rika müstəqil dövlət elan olundu. 1823-cü ildə isə Mərkəzi Amerikada Birləşmiş Əyalətlər Federasiyasına daxil edildi. 1838-ci ildə Kosta-Rika müstəqil respublika elan olundu.

Ölkənin tam adı - Kosta-Rika respublikasıdır. Dövlət quruluşu - prezidentli respublikadır. Ölkə 7 əyalətə bölünmüşdür. Dövlətin və hökumətin başçısı - prezidentdir. Qanunverici hakimiyyət – birpalatalı parlament - Qanunverici assambleya ilə təmsil olunur. Ən əhəmiyyətli və təsiredici siyasi partiya - Milli Liberat partiyadır (MLP).

Kosta-Rika - aqrar ölkəsidir. İqtisadiyyatında xarici kapital (xüsusilə ABŞ-ın) əsas yer tutur.

İqtisadi aktiv əhalinin 37%-i kənd təsərrüfatın çalışır. Orta və xırda təsərrüfatlar üstündür. Ölkə ərazisinin 16%-i becərilir. Kənd təsərrüfatı ölkə iqtisadiyyatının əsasıdır. Əsas ixracat bitkiləri - qəhvə, banan, kakao istehsalına görə dünyada ilk on ixrac ölkələrin tərkibindədir. Daxili tələbata görə qarğıdalı, çəltik və lobya yetişdirilir.

Heyvandarlıq da inkişaf edir: ölkədə iri buynuzlu mal-qara - 2,1 min baş, donuz - 850 min baş, qoyun - 678 min baş bəslənilir. Meşə təsərrüfatı inkişaf edir.

Sahil sularında balıq, krevet, tısbağa ovlanılır.

Milli sənaye xırda yarımkustar tipli yeyinti (qəhvə və kakao emalı, şəkər istehsalı), toxuculuq və gön-dəri, ayaqqabı müəssisələri ilə təmsil olunmuşdur.

Dağ-mədən sənayesi elə də böyük rol oynamır. Manqan və dəmir filiz yataqları, boksitlər, kükürd, civə, qızıl, gümüş və b. faydalı qazıntı aşkar edilmişdir. Lakin yalnız qızıl və gümüş hasil edilir.

Elektrik stansiyaların gücünün 70%-i və elektrik istehsalının 90%-i SES-lərin payına düşür.

Sənaye müəssisələri əsasən paytaxtda - San-Xosedə

maşınqayırma, metal emalı, kimya, neftemalı, ağacemalı, tikinti materialları, yeyinti, toxuculuq sənaye sahələri inkişaf edir. ;

İkinci böyük şəhəri Alaxueladır ki, bu şəhərdə maşınqayırma və metal emalı, yüngül və yeyinti, inşaat materialları sənaye sahələri inkişaf edir.

Gözəl dəniz çimərlikləri, çoxlu toxunulmamış təbiət mənzərəsi Kosta-Rikaya ildən-ilə daha da çox xarici turistləri cəlb edir.

Dəmir yollarının ümumi uzunluğu - 950 km , avtoyollar isə 15400 km-dir (7030 km - bərk örtüklüdür). Əsas portları: Qolfito, Kardera, Moin, Puerto-Oimon, Puntarenasdır. Ölkədən Panamerikan şosse yolu keçir. Paytaxt yaxınlığında beynəlxalq aeroport yerləşir.

Kosta-Rika qəhvə, banan, şəkər, ət, tərəvəz, konserv və b. ixrac edir. Xammal, sənaye malları, nəqliyyat vasitələri və avadanlığı, yanacaq, ərzaq idxal edir.

Xarici ticarəti, əsasən, ABŞ, AFR, Yaponiya, Mərkəzi Amerika, Qərbi Avropa, Meksika, İsrail ölkələri ilə həyata keçirir.

BELİZ

Sahəsi – 23 min km^2
Əhalisi - 0,3 mln nəfər (2008-ci il)
Paytaxtı – Belmopan

Mərkəzi Amerikanın şimal-şərqində dövlətdir. Qərbdə və cənubda Qvatemala ilə (sərhəddin uzunluğu 266 km), şimal-qərbdə - Meksika ilə (250 km) sərhədlənir. Sərhədlərin ümumi uzunluğu 516 km-dir. Ölkənin ərazisi Yukatan yarımadasının şərq hissəsində, Karib dənizinin sahilindədir. Paytaxt – Belmopan şəhəridir. Beliz inzibati cəhətdən 6 mahala bölünür.

Dövlətin çox hissəsi düzənliklərdən ibarətdir. Bəzi yerlərdə bataqlıqlar, çoxlu göllərdən və laqunlarından, cənubda isə hündürlüyü 1122 m-ə çatan Mayya dağlarından ibarətdir. İqlimi tropik passatdır. Orta aylıq temperaturu 25-27 ^{o} C-dir. Şimali-şərqi passat çoxlu yağıntılar gətirir. Onların miqdarı şimaldan cəranuba artaraq ildə 1300 mm-dən 3500 mm-ə çatır. Ölkənin ən böyük çayları - Rio-Ondo və Belizdir. Onlar gəmiçilik üçün (kiçik) aşağı axarlarında yararlıdırlar.

Ərazinin 44%-i rütubətli tropik meşəllərlə örtülüdür. Sahil boyu manqr kolluqları uzanır. Meşələrdə qiymətli ağac növləri bitir, bunlardan təsərrüfat əhəmiyyətli makaqoni və şam ağaclarıdır.

Belizin heyvanat aləmi müxtəlifdir. Burada enliburun meymunlar, yaquarlar, zirehlilər, böyük kərtənkələ - iquanlar və b. heyvanlar yaşayır. Çoxlu quşlar, o cümlədən tutuquşular və balaca kalıbrilər vardır. Ölkənin sahillərində dəniz suları balıq, xərçənglər və tısbağalar ilə zəngindir.

Əsas etnik qrupları kreollar - (40%), metislər (33%), mayya (9%), qarifuna (7%), şərqi hindulardır (2%). Əhalinin 60%-i katolizm təriqətinə, qalanları (30%) protestantların müxtəlif istiqamətlərinə (bunların içində anqlikanlar 12%, metodistlər -6%) etiqad edirlər. Rəsmi dil ingilis, başqa dillər - ispan və kreol dialektləridir. (mayya, qarifuna-karib). Hər 1000 nəfərə görə doğulanların sayı 34 nəfər, ölənlərin sayı 6 nəfər,təbii artım isə 28 nəfər təşkil edir. Əmək qabiliyyətli əhali 61,5 min nəfərdir. Mühüm yaşayış məntəqələri: Beliz və Belmopandır.

Paytaxtı - Belmopan şəhəridir. Beliz-Siti ölkənin ən böyük_şəhəridir (əhalisi 50 min nəfərdir). 21 sentyabr 1981-ci ildə Beliz müstəqil dövlət elan edilmişdir. Milli bayramı - Azadlıq günü - sentyabrın 21-də qeyd olunur. Millətlər birliyinin üzvüdür. İcra hakimiyyəti Britaniya manarxına məxsusdur,general – qubernator ilə təmsil olunur. Milli yığıncaq Senatdan (yuxarı palata) və Nümayəndələr palatasından (aşağı paata) ibarətdir.

Belizdə XVI əsrin əvvəllərinədək hindu tayfaları yaşayırdı.. XVI əsrdə İspaniya Mərkəzi Amerikanı işğal edəndən sonra Belizin şimal hissəsi «Yeni İspaniyanın» (Meksika), cənub hissəsi isə Qvatemala general-kapitanlığının tərkibinə daxil oldu. 1638-ci ildən Beliz çayı sahillərində ingilis məskənləri meydana gəldi. XVII- XVIII əsrlərdə ingilis kolonistləri ilə İspaniya işğal orqanları arasında bir sıra münaqişə baş verdi. 1798-ci ildə ispanların ingilis məskənlərini ləğv etmək cəhdləri məğlubiyyətlə qurtardı. 1840-cı ildən ingilislər Belizi Britaniya Hondurası adlandırmağa başladılar. 1862-ci ildən isə Beliz rəsmən İngiltərənin müstəmləkəsi elan edildi və İngiltərənin əlavə aqrar-xammal bazasına çevrildi. XX əsrin əvvəllərindən Belizə ABŞ inhisarları soxuldu. Xüsusən 30-cu illərdən Beliz xalqının müstəmləkə zülmünə qarşı güclənən mübarizəsi Böyük Britaniya 1961-ci ildə Belizə daxili özünüidarə hüququ verməyə məcbur etdi. 1981-ci ildə müstəqil dövlət elan olunmuşdur.

Beliz zəif inkişaf etmiş aqrar ölkədir. İqtisadi cəhətdən İngiltərə və Amerika kapitalından asılıdır.Təqribən xarici kapital qoyuluşunun 3/4-ü kənd təsərrüfatında təmərgüzləşmişdir. 50 min ha torpaq sahəsi becərilir ki, bunun da çoxu xarici şirkətlərindir. İqtisadiyyat əsasən kənd təsərrüfatına əsaslanır və kənd təsərrüfatı məhsullarının emalı, ticarət, turizm inkişaf edir. Əhalinin əksəriyyəti kənd təsərrüfa oduncaq tədarükü, meşə məhsulları yığmaq balıqçılıqla məşğuldur.

Ölkənin kənd təsərrüfatı ixracat bitkilərin yetişdirilməsi ilə ixtisaslaşmışdır; (şəkər qamışı və sitrus bitkiləri, əsasən qreyfrut, portağal, narıngi). Həmçi kakos palması, ananas, banan və kakao becərilir. Əkin sahəsinin 1/3-i şəkər qamışı altındadır. Tropik əkinçiliyin ixracat məhsulunun əhəmiyyətli hissəsi Amerika kompaniyası «Yuneyted Brends» və in gilis kompaniyaları tərəfindən nəzarət edilir.

Daxili tələbat üçün qarğıdalı, lobya, çəltik və tərəvəz yetişdirilir. Ölkənin cənub-dağlıq hissəsində buynuzlu mal-qara yetişdirilir.

Meşə resursları dövlətin vacib gəlir mənbəyi kimi qalmaqdadır. Sahil sularında balıq, krevet, xərçənglər və tısbağa ovlanır.

Belizin sənayesi zəif inkişaf edir və meşə materialları və kənd təsərrüfatı xammalı emalına əsaslanır. Şəkər istehsalı, sitrus bitkilərdən şirə və konservlər istehsal olunur. Sənaye və tikinti ümumi məhsulun 27%-ni verir. Əsas sənaye mərkəz - Beliz şəhəridir ki, burada bir neçə yeyinti və ağacemalı sənayesi vardır. Şimalda Korasal və Orınc-Uolk şəhərləri yaxmlığında iki şəkər zavodları yerləşir, Sann-Krik şəhərində isə sitrus meyvələri emal edən fabrik yerləşir. Beliz şəhəri yaxınlığında SES işləyir (Beliz çayı üzərində qurulmuşdur). Ölkədə turizm inkişaf edir.

Dəmir yolları yoxdur. Avtomobil yollarının ümumi uzunluğu 2710 km-dir (500 km-i bərk örtüklüdür). Əsas dəniz portu Beliz-Siti şəhəridir. Aeroportu var.

Ölkə şəkər, şəkər xammalı, dəniz məhsulları, sitrus meyvələri, meyvə konservi, qiymətli ağac və s. ixrac edir. İdxalatı: maşınlar və nəqliyyat avadanlığı, ərzaq, sənaye malları, yanacaq, kimya məhsulları, əczaçılıq (dərmanlar) məhsullarıdır. Pul vahidi – Beliz dollandır.

Ticarəti əsasən - ABŞ, Böyük Britaniya, Kanada, Yamayka, Meksika, Niderland və Vest-Hind dövlətləri ilə həyata keçirilir.

EL-SALVADOR RESPUBLİKASI

Sahəsi — 21,4 min km^2

Əhalisi — 6,6 mln. nəfər (2008-ci il)

Paytaxtı — San-Salvador

El-Salvador Respublikası - Mərkəzi Amerikada dövlətdir. Qərbdən və şimal-qərbdən Qvatemala (203 km), şərqdən və şimaldan (342 km) Honduras ilə həmsərhəddir. Cənubda isə Sakit okeanla əhatələnir. Sərhədlərinin ümumi uzunluğu 545 km, sahil xəttinin uzunluğu 307 km-dir.

Ölkə ərazisinin çox hissəsini hündürlüyü 600-700 metr olan yayla təşkil edir. Yaylanın şimal və cənub kənarında fəaliyyətdə olan vulkanlar ilə yanaşı tez-tez zəlzələlər baş verir. Ölkənin şimal hissəsi tektonik çökəklikdir. Sakit okean sahili boyunca ovalıq (eni 10-30 km) uzanır. Əsas təbii resurslarına neft, təbii qaz, qızıl, gümüş, mis, sink, kükürd və başqalarını misal göstərmək olar.

Ölkənin ərazisi tropik iqlim qurşağında yerləşir. Orta aylıq temperatur 21-27°C, illik yağıntının miqdarı 600-2500 mm-dir. Ən iri çayı Lempadır. Ərazisində çoxlu vulkanik mənşəli göllər vardır. Əsasən qəhvəyi, qırmızı-qonur dağ torpaqları yayılmışdır. Sakit okeanı sahilində palıd-şam meşələri yerləşir. Salvadorda bir neçə min unikal balzam ağacları bitir. Digər qiymətli ağac növlərindən ispan şamı, sarı ağac, qırmızı ağac və s. göstərmək olar.

Ölkənin heyvanat aləmi müxtəlif və zəngindir. Burada tapir, qanşqayeyən, zirehlilər, enliburun meymun, yarasa, goreşən, yaquar,

puma, antilop, sürünənlərdən kərtənkələ, bir neçə növ zəhərli ilanlar, gəmiricilər, çoxlu quşlar və həşəratlar yaşayır.

Əhalisi. Salvador mərkəzi Amerikada əhalisi ən sıx olan ölkədir. Əhalinin 89%-ni metislər, 10%-ni hindular, 1%-ni isə avropalılar təşkil edir. Rəsmi dil - ispan dilidir. Əhalinin 75%-i katolik dininə etiqad edir. Hər min nəfərə görə təbii artım isə - 26,2 nəfərdir. Şəhər əhalisi təqribən 50%-dir. İri şəhərləri: San-Salvador (1 mln. nəfər), Santa-Ana, San-Migel və s.-dir. Fəal əhalinin 40%-i kənd təsərrüfatında çalışır (meşə və balıqçılıq təsərrüfatı da daxil olmaqla). Orta həyat ömrü: kişilər üçün 65 il, qadınlar üçün 70 ildir.

Ölkənin paytaxtı - San-Salvador şəhəri dövlətin əsas iqtisadi və mədəniyyət mərkəzidir. Dəmir və avtomobil yolları qovşağıdır. Amakas çayı vadisində, San-Salvador vulkanının ətəyində, dəniz səviyyəsindən 700 m hündürlükdə yerləşir. Ölkənin sənaye məhsulunun 1/4-indən çoxunu San-Salvadorun sənaye müəssisələri verir. Şəhərdə toxuculuq, yeyinti və metal emalı, gön-dəri-ayaqqabı, sement, metallurgiya, neftayırma, istilik elektrik stansiyaları işləyir.

Şəhərdə çoxlu tarixi-memarlıq abidələri vardır.

Ölkənin ikinci böyuk şəhəri Santa-Anadır, eyni adlı departamentin inzibati mərkəzidir. Dəmir yolu və avtomobil yolu qovşağıdır. Əhalisi 200 min nəfərdən çoxdur. Qəhvə yetişdirilən rayonun mərkəzidir. Şəhərdə yeyinti, toxuculuq, dəri və ağac emalı sənayesi vardır. İnzibati cəhətdən ölkə 14 departamentə bölünür. Salvador respublikadır. Dövlət başçısı 5 il müddətinə seçilən prezidentdir. İcra hakimiyyətini prezident və onun təyin etdiyi nazirlər həyata keçirir. Salvadorun ərazisi qədimdən hindu tayfaları (əsasən mayya) tərəfindən məskunlaşmış və Kuekatları adlanmışdır. 1523-cü ildə Alvarado başda olmaqla konkistadorlar Salvador ərazisini işğal etdilər və onu

Salvador adlandırdılar. 1525-ci ildə San-Salvador şəhərini, 1528-ci ildə isə Sansonate şəhərinin bünövrəsini qoydular. 1560-cı ildən Salvador Qvatemala general-kapitanlığının tərkibinə daxil edildi. İspaniyanın Amerikadakı müstəmləkələrinin istiqlaliyyət uğrundakı müharibəsi (1810-1826) gedişində 1821-ci il sentyabnn 15-də Qvatemala general-kapitanlığı müstəqillik əldə etdi. Lakin Salvador yalnız 1841-ci ildə istiqlaliyyət qazandı.

İqtisadiyyatın əsas bölməsi olan kənd təsərrüfatı ÜDM-un 25%-ni təmin edir. Emal sənayesinin payı 20%, nəqliyyat və rabitənin 5, xidmət sahələrinin payı 50%-dir.

Salvadorun iqtisadiyyatında xarici kapital (əsasən ABŞ) mühüm yer tutur. Xarici kapital praktiki olaraq dəniz, dəmir yolu və hava nəqliyyatının, rabitənin və elektrik enerjisinin paylanmasına nəzarət edir.

Kənd təsərrüfatı ishehsalında təsərrüftın iki əsas: kapitalist əmtəə və xırda natural qrupu fərqlənir. Kapitalist təsərrüfatları - pambıq, heyvandarlıq, qəhvə, jenşen, şəkər qamışı plantasiyaları - yerli iri və orta mülkədarlara məxsusdur. Onların təsərrüfatlarında, xüsusilə pambıqçılıqda torpağın yeni becərmə və suvarma metodları, heyvandarlıqda isə müasir texnika tətbiq olunur.

Ölkə ərazisinin 2/3 hissəsindən kənd təsərrüfatında istifadə edilir. Əsas ixracat bitkiləri: qəhvə, pambıq və şəkər qamışıdır. Salvadorun əsas ərzaq bitkiləri olan çəltik, qarğıdalı, paxla, sorqo və başqalan əsasən kiçik təsərrüfatlarda yetişdirilir.

Ölkənin başlıca kənd təsərrüfatı bitkisi qəhvədir. İxracat həcminin 45%-i onun payına düşür. Qəhvə yığımının yarısı Santa-Ana, Auarapan, Sonsonate, la-Libertod və Usulutan departamentlərinin payına düşür.

Salvadorda əhəmiyyətinə görə ikinci ixracat bitkisi - pambıqdır. Vaxtilə pambığın məhsuldarlığına görə Misiri və ABŞ-ı ötüb keçmişdi, lakin 70-ci illərin axırlarında dünya bazarında pambığın qiymətinin aşağı düşməsi onun əkin sahələrinin və istehsalının azalmasına səbəb oldu.

Ölkənin vacib ixracat bitkilərindən biri də şəkər qamışıdır. İstehsal olunan şəkərin yarısını ABŞ alır._Digər ixracat bitkiləri jenşen, küncüt və s. yerli tələbat üçün kakao, meyvə, tərəvəz və s. yetişdirilir.

Heyvandarlıq ekstensiv xarakter daşıyır. Onun əsas rayonları Lempa çayının orta axınındakı savannalar və ölkənin şimal hissəsidir.

Ölkədə 1,5 mln baş iri buynuzlu mal-qara, 450 min baş donuz vardır. Mal-qaranın məhsuldarlığı aşağıdır. Krevet ovlanması və ixracatı artmışdı. Ölkədə hər il xeyli balıq ovlanır.

Meşə təsərrüfatı ölkənin iqtisadiyyatında elə də böyük rol oynamır.

İkinci dünya müharibəsinə qədər sənaye əsasən manufaktur və kustar xarakter daşıyırdı. 50-60-cı illərdə yeni nisbətən iri sənaye müəssisələri yarandı və sənaye istehsalı artmağa başladı. 60-70-ci illərdə sənaye məhsulunun orta illik artım sürəti Salvadorda bütövlükdə Latın Amerikasına nisbətən 2 dəfə artıq idi. Mərkəzi Amerikada Salvador nisbətən sənaye cəhətdən inkişaf edən dövlətdir. Onu hərdən «Mərkəzi Amerikanın Ruru» adlandırırlar.

Ölkədə hasilat sənayesi o qədərdə inkişaf etməmişdir. Minas-San-Kristobal, Los-Enkuentros, Monte-Kristo, Santa-Rosa-de-Limada qızıl və gümüş hasil edilir. San-Sebastyan mədənində az miqdarda sink, qurğuşun və mis filizi çıxarılır.

Salvadorda mineral yanacağın olmaması ilə bağlı hidrogenerjinin istifadəsinə xüsusi fıkir verilir. Akakutla şəhərində neftemalı və böyük sement zavodları vardır. Ölkədə polad, prokat və avtomobilyığma, sement və azbes-sement məmulatları, kabel, alüminium məmulatları, mis naqil, gündüz işıq lampaları, televizorların yığımı, kimya sənayesi müəssisələri, o cümlədən kükürd turşusu, plastik kütlə istehsal edən zavodlar fəaliyyət göstərir.

Lakin böyük müəssisələrin əksəriyyəti, xarici kapitalın iştirakı ilə tikilmişdir. Ən əsası isə bir neçə böyük sənaye müəssisələri salvador sənayesinin ümumi radikal strukturunu dəyişdirə bilməmişdir. Onun əsas sahələri əvvəllərdə oldugu kimi qida məhsulları, parçalar, geyim, ayaqqabı, tütün məmulatları və digər geniş istehlak mallarının istehsalı və sairdir.

Sənaye müəssisələri ölkədə qeyri-bərabər yerləmişdir. Bütün böyük müəssisələrin 80%-i San-Salvador rayonunda yerləşir.

Dəmir yollarının uzunluğu 602 km, avtomobil yollarının uzunluğu 10 min km-dir (5 min km-i bərk örtüklüdür). Əsas dəniz portları: Akakutel, Kutuk La-Unyondır. San-Salvador şəhəri yaxınlığında beynə xalq aeroport vardır.

Qəhvə, pambıq, şəkər və krevetkalar ixrac olunur. İdxalatda sənaye avadanlığı, yarımfabrikatlar, nəqliyyat vasitələri, sənaye malları, ərzaq başlıca yer tutur.

Əsas ticarəti ABŞ, AFR, Yaponiya, Mərkəzi Amerika ölkələri, Meksika, Venesuela ilə aparır.

KUBA

Sahəsi -111 min km^2

Əhalisi – 11,4 mln. nəfər(2008-ci il)

Paytaxtı – Havana

Təbii şəraiti, təbii ehtiyataları və onların təsərrüfat cəhətdən qiymətləndirilməsi

Ərazinin 94%-ni Kuba, qalanını isə onu əhatə edən xırda adalar təşkil edir. Bu adalardan çoxu mərcan mənşəlidir, ən böyüyü Xuventud adasıdır. Sahil xəritələrində riflərin olması gəmilərin sahilə yan almasını çətinləşdirir. Adanın relyefi əsasən təpəli düzəniklərdən təşkil olunmuş, cənub-şərqində nisbətən hündür Seyerra-Maestra dağları yerləşir. Tropik və passat küləkləri ada iqliminin formalaşmasında mühüm rol onayır. Yanvar ayının orta temperaturu 22,5° C, iyul ayınınkı isə 27,8°C-dir. İllik yağıntının miqdarı düzənlik ərazilərdə 1000-1200 mm, dağlıq ərazilərdə isə 2000 mm-dək artır. Temperaturun illik amplitudunun azlığı, günəş radiasiyasının bolluğu il ərzində mütəmadi olaraq bitkilərin vegetasiyası üçün əlverişli şərait yaradır. Əraziyə düşən yağıntı ilin isti dövrünə, yəni tropik hava kütləsinin rütubətlənərək əraziyə gətirdiyi dövrə təsadüf edir. Ölkənin əlverişli aqroiqlim ehtiyatları bir çox kənd təsərrüfatı bitkilərinin, xüsusilədə, şəkər qamışının inkişafı üçün olduqca əlverişlidir. Ərazinin çox hissəsində məhsuldar qırmızı və tünd-qonur torpaqlar yayılmışdr ki, bu da yüksək aqrotexniki qaydaların tətbiq edilməsi ilə əlaqədar ildə 2-3 dəfə məhsul götürməyə imkan verir. Bütövlükdə Kubanın aqroiqlim ehtiyatları müxtəlif kənd təsərrüfatı bitkilərinin istehsalını genişləndirməyə imkan verir. Ada ərazisində çayların çox olmasına baxmayaraq onlar qısa və az suludur. İlin isti aylarında onlardan yalnız suvarmada istifadə edilir.

Ölkə ərazisində kifayət qədər mineral resurslar vardır. Onlardan nikel ehityatına görə dünyada ikinci istehsalına görə isə üçüncü yeri tutur. Bundan əlavə kobalt, manqan, dəmir filizi, mis, xrom, asbest, daş, duz, fosforitlər və tikinti materialları da sənaye əhəmiyyətlidir. 1984-cü ildə ölkənin qərbində perspektivli

neft və təbii qaz ehtiyatları aşkar edilmişdir. Əsasən dağətəyi və dağlıq ərazilərdə, ümumi ərazinin 15%-ı təşkil edən meşələrdə qiymətli ağac növləri vardır.

Bütövlükdə ölkənin təbii sərvətlərindən səmərəli istifadə etməklə sənayenin ayrı-ayrı sahələrini inkişaf etdirmək olduqca əlverişlidir. Lakin ölkədə iqtisadi böhran, blokada şəraiti və xarici investisiyanın az cəlbi onu inkişaf etdirməyə qoymur.

Əhalisi, əmək ehtiyatları və məskunlaşma formaları.

İnzibati ərazi bölgüsü

Vest-Hind ölkələri qrupuna aid olan Kuba 1492-ci ildə X.Kolumb tərəfindən kəşf olunmuş, ispan konkistadoru D.Velaskes tərəfindən 1511-ci ildə tamamilə işğal olunmuşdur. Adanın bütöv ərazisi İspan kralının mülkiyyəti elan edilərək qəsbkarlar tərəfindən bölüşdürüldü. İspanlar digər müstəmləkələrində olduğu kimi Kubaya da şəkər qamışı gətirərək onun plantasiyalarını yaratdılar, Adanın əlverişli coğrafi mövqeyi, təbii şəraiti və aqroiqlim ehtiyatları şəkər qamışı istehsalını sürətləndirdi. Bu vaxtlar istər İspan bazarında, istərsə də dünya bazarında şəkərə olan tələbat getdikcə artırdı. İspaniyadan köçüb gələn əhali (kreollar) yerli tayfalar və zəncilərlə qarışıb mulatları, metisləri əmələ gətirirdi. Artıq XVII-XVIII əsrlərdə Kuba və Vest-Hindin ən iri şəkər qamışı istehsalçısına və ixracatçısına çevrilmişdi. Lakin ölkənin iqtisadi vəziyyəti yaxşılaşmır, mədənlərdə, plantasiyalarda dözülməz vəziyyətlər əhali arasında zidiyyətlərə, üsyanlara səbəb olurdu. Ölkədə ardı-arası kəsilməyən etirazlar, üsyanlar nəhayət 1886-cı ildə köləliyin ləğvinə və kapitalizmin inkişafına səbəb oldu. 1898-ci ildə gərginləşmiş İspaniya-Kuba münsibətlərinə müdaxilə edən ABŞ bir neçə ay ərzində Kuba ərazisində olan ispan ordularını məğlub edərək İspaniya ilə Kuba münasibətlərinə dair müqavilə imzalayır. Bu müqaviləyə əsasən Kuba ABŞ-ın köməyi və nəzarəti altında müstəqil inkişaf etməyə başlayır. 1959-cu ildə F.Kastro Rusun başçılığı ilə Kubada inqilabi hökumət yaradılır və ölkədə sosialist dövlətinin əsası qoyulur.

Müasir Kuba əhalisinin formalaşmasında ispanlar, hindular, zəncilərlə yanaşı haitililər, çinlilər və digər xalqlar da iştirak etmişdir. Latın Amerikasının digər ölkələri kimi Kubada da əhalinin təbii artımı yüksəkdir. Hazırda əhalinin artımı əsasən təbii yolla, getdiyindən kişilərin qadınlara nisbətən miqdarı artıqdır. XX əsrin 30-cu illərindən başlayaraq Kubaya köçüb gələnlərin sayı azalmış, lakin ölkədaxili miqrasiyalar artmışdır. Bu da urbanizasiya səviyyəsinin artması, kənd təsərrüfatında çoxukladlılıq, yeni sənaye mərkəzlərinin yaranması, limanların və xidmət sahələrinin artması ilə əlaqədardır. Ölkədə urbanizasiyanın səviyyəsi 70%-dir. Əhalinin (şəhər əhalisinin) əksəriyyəti Havana, Santyaqo-de-Kuba, Kamanquey, Olkin, Santa-Klara, Quantanamo, Matansas, Syenfuyeqos, Pinar-del-Rio və Bayamo şəhərlərində cəmləşmişdir. Ölkə əhalisinin 20%-ni özündə cəmləşdirən Havana həm paytaxt, mədəni mərkəz, həm də mühüm sənaye

mərkəzidir. Havana adanın əvvəlcə inzibati mərkəzi, 1902-ci ildən paytaxtına çevrilmişdir. Ölkənin idxal etdiyi məhhsulların beşdə üçü, ixrac məhsullarının isə dörddə bir hissəsi Havana limanının payına düşür. O liman şəhəri adını almaqla yanaşı, həm də mühüm dəmiryol, avtomobil və hava yollarının qovşağıdır.

Kuba Respublikası inzibati cəhətdən 14 əyalətə bölünür. Ərazinin çox hissəsi sıx məskunlaşmış, yarıya qədəri isə iri şəhərləri birləşdirən yolun hər iki tərəfi boyu yerləşmişdir. Ölkənin bəzi dənizsahili bataqlıq ərazilərində sıxlıq azdır.

Kənd əhalisinin məskunlaşmasında son 20 ildə xeyli dəyişikliklər olmuşdur. 1959-cu il inqilabına qədər kəndlilərin əsas hissəsi bir-birindən xeyli aralı tikilmiş sadə komalarda yaşayırdı. İnqilabdan sonra kənd yaşayış məntəqələrinin abadlaşdırılması, onların hər birinin mənzillə təmin olunması barədə tədbirlər gönrülməyə başlamış, məhsuldar torpaqları zəbt etməmək məqsədilə çoxmənzilli abad evlər tikilib istifadəyə verilmişdir.

Təsərrüfatının ümumi səciyyəsi

Müstəmləkəçiliyin ilk mərhələsində ispanlar Kubada iri nadir metal ehtiyyatları aşkar etməyə ciddi maraq göstərir, lakin bunun mümkün olmadığını gördükdə kənd təsərrüfatını inkişaf etdirməyə başladılar. Əhalinin əsas hissəsi daha yaxşı şərait malik olan Havanada və onun ətrafında məskunlaşmışdı. Kənd təsərrüfatı üçün daha yaxşı şəraitə malik olan çay vadiləri, tütünçülük daxili rayonlar isə heyvandarlıqla məşğul olmağa başladı.

Ölkə təsərrüfatının özünə məxsus xüsusiyyətləri mövcuddur. Bu ilk növbədə XIX əsr ərzində dünya miqyasında ancaq şəkər qamışı üzrə ixtisaslaşan bir ölkəyə aid xüsusiyyətlərdir. Şəkər qamışı Kuba iqtisadiyyatında həmişə aparıcı rol oynamış, sənaye və kənd təsərrüfatı sahələrinin müəyyən dərəcədə inkişafı şəkər məhsulu satışından əldə olunan gəlir sayəsində müəssər olmuşdur. Hal-hazırda ölkənin kənd təsərrüfatında əkinçiliyin xüsusi çəkisi böyükdür. Belə ki, kənd təsərrüfatı məhsullarının dəyərinin 75%-i əkinçiliyin payına düşür. Müasir emaledici sənaye sahələrinin inkişaf etdirilməsi və yeni kənd təsərrüfatı istehsalı rayonlarının yaradılması xalq təsərrüfatı kompleksinin səmərəliliyini artırmış, xüsusilə ölkənin mərkəzi və şərq hissələrində məhsuldar qüvvələrin yerləşdirilməsini yaxşılaşdırmışdır. Kənd təsərrüfatı iri dövlət müəssisələrində birləşdikcə digər sahələr də inkişaf etməyə başladı. Şəkər istehsalı ilə yanaşı tünçülük, qəhvə, kakao, çəltik, qarğıdalı, sorqo, bostan və digər bitkilərin inkişafı sürətləndi. Əvvəllər ölkədə zəif inkişaf etmiş heyvandarlıq, balıqçılıq və digər dəniz məhsulları istehsalı artmağa başladı.

a) Sənayesi.

Kuba dünyanın ən iri şəkər sənayesi kompleksinə malik ölkələrdən biridir. Ölkədə fəaliyyət göstərən 154 şəkər zavodu ildə orta hesabla 7-8 milyon ton şəkər intehsal edir. Ölkənin dağ-mədən sənayesinin inkişafı üçün yaxşı imkanları vardır. Nikel filizinin ehtiyyatına görə dünyada 2-ci, istehsal həcminə görə 3-cü yeri tutur. Bundan başqa ölkədə müəyyən qədər kobalt, manqan, dəmir filizi, mis, xromit, asbest, daş duz, fosforit, tikinti sənayesi üçün müxtəlif

xammal ehtiyyatları vardır. 1984-cü ildə ölkənin qərbində perspektivli təbii qaz və neft ehtiyyatları aşkar edilmişdir.

Ölkənin sənəyesi şəkər qamışının emalından alınan tullantılar əsasında mal-qara üçün yem, spirt, sellüloz-kagız, plastik kütlələr istehsalı sahələrini yaratmışdır. Ölkənin şəkər sənayesi müasir texnoloji avadanlıqlar həsabına daha da genişlənə bilir. Lakin xalq təsərrufatının maddi - texniki bazasının zəifliyi, əsas müttəfiqi olan keçmiş SSRİ-nin dağılması, ABŞ tərəfindən blokadaya alınması hələlik buna imkan vermir. Kubanın ağır sənaye sahələri arasında neft emalının özünəməxsus yeri vardır. Neft Havana və Santyaqo-de-Kubada emal edilir.

Ölkənin iqtisadiyyatı üçün olduqca mühüm əhəmiyyətə malik maşınqayırma sənayesi müəssisələri vaxtilə keçmiş SSRİ-nin köməkliyi ilə yaradılmışdır. Gəmiqayırma müəssisələrində balıq ovu gəmilləri istehsal və təmir edilir. Həmin dövrlərdə ölkədə rəngli televizor, aliminium boru, sellüloz-kağız müəssisələri də istifadəyə verilmişdir. Sənayenin və tikintilərin tələbatını ödəmək üçün iri sement sənayesi yaradılmışdır.

Şəkər sənayesi kimi, tütün yetişdirilməsi də keçən əsrdən ixrac əhəmiyyətinə malik bir sahədir. Dünya tütün məhsulu istehsalında ölkənin xüsusi çəkisi böyük olmasa da, keyfiyyətli tütün yetişdirilməsinə görə bütün dünyada məşhurdur. Ölkənin yeyinti sənaye sahələrində çalışanların 20%-i tütün sənayesində çalışır. Məşhur Havana siqarları Pinar-del-Rio əyalətində yetişdirilir. Yeyinti sənayesinin digər sahələri içərisində taxıl üyütmə, makaron, şərab istehsalı sahələri də yaxşı inkişaf etmişdir. Əvvəllər ABŞ-a faraş meyvə və tərəvəz ixrac edən, oradan isə həmin meyvə və tərəvəzin konservini idxal edən Kuba, hazırda ancaq konservləşdirilmiş meyvə və tərəvəz ixrac edir.

Ölkədə yüngül sənayeinin əsasını toxuculuq, tikiş, gön-dəri və mebel sənayesi təşkil edir. Ümumi sənaye məhsulunun 10%-ni özündə cəmləşdirən yüngül sənaye hələlik ölkənin daxili tələbatını ödəmir. Yüngül sənaye sahələrində çalışan fəhlələrin beşdə üçu toxuculuq sənayesində çalışır. Toxuculuq sənayesinin ən inkişaf etmiş sahələri şəkəri qablaşdırmaq üçün yerli kənafdan və gətirilmə cutdan hazırlanan kisələr tikən müəssisələrdir. Toxuculuq sənayesində çalışanların 85%-i Havana sənaye kompleksinin payına düşür.

b) Kənd təsarrüfatı.

Kubanın kənd təsərrüfatının özünəməxsus xüsusiyyətləri vardır. Bu ilk növbədə XIX əsr ərzində dünya miqyasında ancaq şəkər qamışı üzrə ixtisaslaşan bir ölkəyə aid xüsusiyyətlərdir. Ölkədə F.Kastronun rəhbərliyi ilə qələbə çalan xalq inqilabından sonra becərilən torpaq sahələri iki dəfədən çox artmış, yararlı torpaq sahələrinin 80%-i sosialist təsərrüfatlarında cəmləşmişdir. Əvvəlki illərdə olduğu kimi indi də əkinçilik kənd təsərrüfatının aparıcı sahəsidir. Ölkənin kənd təsərrüfatı məhsullarının dəyərinin 75%-i əkinçiliyin payına düşür. Ölkənin aqroiqlim şəraiti şəkər qamışı istehsalı üçün olduqca əlverişlidir. Plantasiyaları nəinki düzənliklərdə, hətta dağğətəyi maili yamaclarda da inkişaf etdirmək mümkündür.

Burada il ərzində hər hektardan orta hesabla 50-52 tona qədər məhsul götürmək mümkündür. Hal-hazırda şəkər qamışı plantasiyaları 1,7 mln. ha sahəni əhatə edir. Bu bitkinin becərilməsi, doğranması ilə əlaqədar mürəkkəb və çox zəhmətli əməliyyatlar mexanikləşdirilmişdir. Kubanın kənd təsərrüfatının, eləcə də bütün iqtisadiyyatının nüvəffəqiyyətli inkişafı şəkər qamışı istehsalının gələcək artımından bilavasitə asılıdır, çünki onun ixracından gəlir hesabına ölkə üçün zəruri olan xeyli maşın, avadanlıq və başqa məhsullar alınır. Hal-hazırda ölkənin milli gəlirinin formalaşmasında onun xüsusi çəkisi çox böyükdür.

Kubanın kənd təsərrüfatında tütünçülüyün də əhəmiyyəti böyükdür. Həcminə görə ölkədən ixrac olunan kənd təsərrüfatı məhsulları arasında o üçüncü yeri tutur. Ölkədə tütün yetişdirilməsinə XVII əsrdə başlanmışdır. Onun ixracatı isə XIX əsrin birinci rübünə təsadüf edir ki, bu da dünya bazarında tütünə olan ehtiyacın sürətlə artması ilə əlaqədar idi. Çox yüksək keyfiyyətli Kuba tütününün alıcısı çoxdur, belə ki, bu tütünün başqa tütündən fərqi ondadır ki, onun tərkibində nikotinin faizi bir qədər az, dad keyfiyyəti isə çox yaxşıdır. Tütünçülük çox gəlirli, lakin ağır zəhmət tələb edən bir sahədir. Respublikanın bütün rayonlarında sitrus bitkiləri plantasiyaları yaradılmışdır. Xuventud adasındakı, Syenfuyeqas və Matansas portlarına yaxın zonalardakı plantasiyaların xüsusi əhəmiyyəti vardır. Kubanın kənd təsərrüfatında qəhvə becərilməsi də mühüm yer tutur. Qəhvə plantasiyaları ölkənin dağlıq hissələrində daha geniş sahələri əhatə edir. Toplanmış məhsulun çox hissəsi yerli ehtiyacı ödəyir, az bir hissəsi ixrac olunur.

Ərzaq bitkilərindən ən geniş yayılanları çəltik va kökümeyvəlilərdir. Çəltiyin becərilməsinə xüsusi diqqət yetirilir. Bu bitki əsasən Kauto çayı hövzəsinin və Pinar-del-Rio əyalətinin suvarılan torpaqlarında becərilir. Qarğıdalı və sorqo kimi dənli bitkilər əsasən yem bitkiləri kimi yetişdirilir. Yağ verən bitkilərdən kakos palması, lifli bitkilərdən kənaf əkini üstünlük təşkil edir. Ölkənin aqroiqlim şəraiti bostan bitkilərinin və tropik meyvəçiliyin inkişafı üçün də çox əlverişlidir.

Əvvəllər Kubada heyvandarlıq çox zəif inkişaf etmişdi. İndi bu kənd təsərrüfatının mühüm sahələrindən birinə çevrilmişdir. Kənd təsərrüfatı məhsulu istehsalının üçdə biri onun payına düşür. Əsas etibarı ilə təbii otlaqlardan istifadəyə əsasanan heyvandarlıq ekstensiv xarakter daşıyır. Quraq olmayan aylarda mal-qara gecə-gündüz açıq havada olur və yaxşı məhsul verir.

Heyvandarlığın inkişaf etmiş sahələrindən biri də donuzçuluqdur. İri şəhərlərin ətrafında cəmləşən donuzçuluq təsərrüfatlarında bir milyon başdan artıq donuz saxlanılır. Bu sahənin inkişafı əhalinin ətə olan ehtiyacının xeyli hissəsini ödəyir. Kubanın ən böyük heyvandarlıq rayonları şərq və mərkəz əyalətləridir. Bu əyalətlərdə ölkənin təbii otlaqlarının 80%-i, iribuynuzlu mal-qaranın 90%-i cəmləşmişdir. Əhalinin ərzaqla təmin olunmasında balıqçılığın da əhəmiyyəti böyükdür.

Əsas müttəfiqi olan SSRİ -nin dağılmasından sonra ölkə iqtisadiyyatı xüsusilə də kənd təsərrüfatı böhran vəziyyətindədir. Kənd təsərrüfatı məhsulu istehsalının həcmi getdikcə azalmaqdadır. Bitkiçiliyin bütün sahələri, heyvandarlıq isə tamamilə çıxılmaz vəziyyətdədir.

v) Nəqliyyatı, daxili va xarici iqtisadi əlaqələri.

İnqilabdan əvvəl əsas rabitə yolları əsas rabitə yolları şəkər istehsal edən rayonları portlarla birləşdirirdi.İnqilabdan əvvəl Kubada ticarət donanması demək olar ki, yox səviyyədə idi. İndi ticarət donanmasının tonnajına görə Kuba Latın Amerikası ölkələri arasında yalnız Braziliya və Argentinadan geridə qalır. Fəaliyyətdə olan 38 portun ümumi ticarət dövriyyəsi 25 mln. tona çatmışdır. Ən iri portları Havana, Santyaqo-de-Kuba, Mantansas, Syefuyeqos, Nuevitas, Mariyol, Quayabaldır. Ölkənin ticarət-iqtisadi əlaqələrinin həyata keçirilməsində xarici ticarətin əhəmiyyəti olduqca böyükdür.

Kuba dünyanın bir çox ölkələri ilə ticarət əlaqələri saxlayır. Əgər inqilaba qədər onun ticarət dövriyyəsinin 75-80%-i ABŞ-ın payına düşürdüsə, indi əksinə, ABŞ-ın xüsusi çəkisi azalmış, avropa və digər region ölkələrinin xüsusi çəkisi artmışdır. İnqilabdan sonra ölkənin xarici iqtisadi əlaqələrində keçmiş SSRİ və sosialist sisteminə daxil olan ölkələrin xüsusi çəkisi artmış, onlardan idxal etdiyi enerji daşıyıcılar və digər xammallar hesabına iqtisadiyyatının ayrı-ayrı sahələrinin ehtiyaclarını ödəyirdi. Həmin ölkələrə isə şəkər, əlvan metallar (xüsusilə də nikel), sitrus meyvələri, tütün məhsulları ixrac edirdi. Sosialist sisteminin dağılması Kuba iqtisadiyyatına onun xarici ticarət balansına böyük zərbə vurmuş, onu böhran vəziyyətinə gətirmişdir.

Ölkə ərazisinin nisbətən kiçik olmasına baxmayaraq, onu iqtisadiyyatının ixtisaslaşmasına və inkişaf xüsusiyyətlərinə görə üç iqtisadi rayona ayırmaq olar:

Qərb rayonuna Havana şəhəri, Havana vilayəti və Pinar-del-Rio vilayəti daxildir. Havanada ölkənin emaledici və tikinti sənayelərinin əsas sahələri yerləşdirilmişdir.

Havana ölkənin ən iri sənaye şəhəri olmaqla yanaşı, iri portu, siyasi, mədəni və iqtisadi mərkəzidir. Şəhərin özündə və ətrafında müxtəlif sənaye sahaləri formalaşmışdır. Havana Latın Amerikasında ən gözəl dənizsahili şəhərlərindən biridir.

Mərkəz rayonu əsasən şəkər sənayesi və heyvandarlıq üzrə ixtisaslaşmışdır. Rayon böyük əmək ehtiyatına, əlvan metal filizləri ehtiyatlarına və şəkər qamışı əkilmiş münbit torpaqlara malikdir. Onun başlıca mərkəzləri Santa-Klara, Syenuyeqos Kamaqueydir.

Şərq rayonu ölkənin ən böyük rayonudur. O, ağır sənayenin ilk növbədə isə nikel istehsalının başlıca bazasına çevrilmişdir. Hazırda şəkər sənayesi birinci dərəcəli əhəmiyyət kəsb edir. Güclü kapital qoyuluşu hesabına burada aqrar-sənaye kmopleksini inkişaf etdirmək, ağır sənayeni formalaşdırmaq mümkündür. Şərq rayonunun əsas mərkəzi Santyaqo-de-Kuba şəhəridir. O, əhalinin sayına və sənaye istehsalına görə ölkədə ikinci mərkəzidir.

DOMİNİKAN RESPUBLİKASI

Sahəsi – 48,5 min km^2
Əhalisi – 8,6 mln. nəfər (2007-ci il)
Paytaxtı – Sabta-Dominqo

İnzibati ərazi bölgüsü - 26 əyalətdən və 1 milli dairədən ibarətdir.

Vest-Hinddə, Haiti adasının şərq hissəsində (Böyük Antil adaları) yerləşən dövlətdir. Qərbdə yeganə quru sərhəd Haiti ilə (sərhəddin uzunluğu - 275 km) keçir. Cənubdan ölkə Karib dənizi ilə, şimaldan Atlantik okeanı ilə, şərqdən Mona boğazı Haiti adasını Puerto-Riko adasından ayırır.

Dağlar və dağlıq yaylalar ərazinin 1/2-dən çoxunu tutur. Ölkənin şərqində, sahil boyunda və silsilələr arasında məhsuldar düzənliklər yerləşir. Qərb və mərkəz hissələrindən paralel dağ silsilələri keçir, onlar çayların dərələri ilə bir-birindən ayrılmışlar. Şumlanan torpaqlar ümurai torpaq fondunun 23%-ni otlaq və çəmənliklər 43%-ni, meşə və kolluqlar 13%-ni tutur.

Əsas faydalı qazıntılar: nikel, qızıl, gümüş, boksit, dəmir filizi, neft, kobalt, titan, duz, gips və s.-dir.

İqlimi tropik passatdır. Orta aylıq temperatur ovnlıqlarda 25-27°C-dir. İllik yağıntı 1000-2000 mm-dir. Tez-tez tropik tufanlar olur. Dağ yamaclarının çox hissəsi həmişəyaşıl tropik meşələrlə, nisbətən quraq rayonlar enliyarpaqlı meşələr, savanna və kolluqlarla örülüdür.

Ölkənin heyvanlar aləmi kasıbdır - tısbağa, xırda gəmiricilər, quşlar, həşəratlar və bu cəhətdən qonşu Haitinin faunasından fərqlənmir.

Domonikan Respublikasının əhalisi 2007-ci ildə 8,6 mln nəfər olmuşdur. Əhalinin orta sıxlığı hər kv km-də 177 nəfərdir. Sahillərdə və düzən yerlərdə əhalinin sıxlığı orta kəmiyyətdən 2-3 dəfə çoxdur. Ən böyük etnik qrupu - rənglilərdir (əhalinin 73%-i) ağlar - 16%, afrika mənşəli qaralar isə 11 % təşkil edir. Dövlət dili - ispan dilidir. Dinə etiqad edən əhalinin 95%-i katoliklərdir. Əmək qabliyyətli əhalinin yarıya qədəri kənd təsərrüfatında çalışır.

Əhalinin 52%-i şəhərlərdə yaşayır.

Dominikan - respublikadır. Dövlət və hökumət başçısı prezidentdir. Qanunverici hakimiyyət Milli Konqresə (2 palatadan - senat və deputatlar palatasından ibarət parlament) məxsusdur. İcraedici hakimiyyəti prezidentin təyin etdiyi hökumət həyata keçirir.

XV əsrin sonunadək Haiti adası müxtəlif hindu tayfaları tərəfindən məskunlaşmışdı. 1492-ci ildə X.Kolumb adanı kəşf edərək onu Espanyola adlandırdı. Hinduların böyük bir qismi məhv edildi. XVI əsrin əvvəlində ispanlar burada öziərinin kaloniyasını yaratdılar. 1697-ci ildə adanın qərb hissəsi (indiki Haiti ərazisi) Fransaya verildi və San-Dominqo adlandırıldı, şərq hissəsi isə (indiki Dominikan Respublikasının ərazisi) İspaniya hökmranlığında qaldı. İspaniyanın Amerikadakı müstəmləkələrinin istiqlaliyyiəti uğrunda müharibəsi (1810-1826-cı illər) gedişində 1821-ci ildə Santo-Dominqo İspaniya ağalığından xilas oldu. Lakin 1822-ci ildə Santo-Dominqo yenidən müstəqilliyini itirərək adanın qərbində yaradılmış Haiti respublikasının tərkibinə daxil edildi. Yalnız 1844-cü il üsyanı nəticəsində Santo-Dominqo müstəqillik qazandı və Dominikan Respublikası adlanmağa başladı.

Dominikan Respublikası iqtisadi cəhətdən zəif inkişaf edən ölkədir. Təsərrüfatın başlıca sahələri ABŞ şirkətlərinə məxsusdur. Ölkənin xarici kapitaldan asılılığı güclənir. Kənd təsərrüfatının və sənaye sahələrinin çox hissələrində (birinci növbədə şəkər) amerika şirkəti fəaliyyət göstərir.

İkinci dünya müharibəsindən sonra dağ-mədən sənayesinin əhəmiyyəti artmağa başlamışdır. Onun əsası boksit hasilatıdır (ixrac üçün). Cənub-qərb hissədə Haiti ilə sərhəddə amerika şirkəti «Alkoa» boksit hasil edir (ildə 1 mln t-dən çox). Ölkədə alüminium kompleksi yaradılması üçün kifayət qədər hidroenerji resurstlarının olmasına baxmayaraq çıxarılan boksit xammalı ABŞ-a göndərilir. Ferronikel filizlərin istismarına bu yaxınlarda başlanıb. ABŞ və Kanada kapitalının nəzarəti altında olan Dominikan şirkəti nikel hasil edir və bu filiz cənub sahildə tikilmiş kombinatda emal olunur.

Sənaye balıqçılığın inkişafı zəifdir.

Dəmir yollarının uzunluğu 1655 km-dir, avtomobil yollarının 12 min km-dir. Əsas portları Puerto-Plata, Santa-Dominqo, San-Pedro-de-Makaras, 6 böyük aeroport və 14 dəniz portu vardır.

Əsas ixracat məhsulları şəkər (16%), qızıl və gümüş (11,2%), dəmir-nikel konsentratı (34,7%), kakao-paxlalılar (7%), qəhvə (7,4%); maşınlar və avadanlıq, neft və neft məhsulları nəqliyyat vasitələri, tələbat malları, ərzaq, tikinti materialları idxal olunur. Əsas ticarət partnyorları: ABŞ, Venesuela, Meksika, Yaponiya, AFR, İspaniya, Kanada ölkələridir.

Ölkə iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. İqtisadi fəal əhalinin 40%-i kənd təsərrüfatında çalışır, o ixracat gəlirinin 55%-ni verir. Əsas ixracat bitkisi - şəkər qamışıdır. İxracat üçün həmçinin qəhvə, kakao, tütün becərilir.

Heyvandarlıq ekstensiv xarakter daşıyır.

Sənaye zəif inkişaf edir. Sənaye əsasən kiçik müəssisələrlə təmsil olunur - əsasən kənd təsərrüfatı xammalının emalı və istehlak məhsulları istehsalı inkişaf edir. Sənaye sahəsində iqtisadi aktiv əhalinin 20%-i çalışır. Emal sənayesinin istehsal həcminin 60%-dən çoxu qısa müddətli tələbat mallarının, 30%-i yarımfabrikatların və 3%-ə yaxını istehsal vasitələrin payına düşür. Yeyinti sənayesi sənayenin digər sahələrinə nisbətən yaxşı inkişaf edir (sənaye məhsul dəyərinin 50%-dən çoxu). Son illər kiçik kimya sənayesi müəssisələri yaradılmış və süni parça istehsal edən fabriklər tikilib istifadəyə verilmişdir. Ölkədə həmçinin toxuculuq, meşə sənayesi (ağacemalı), mebel sənayesi inkişaf edir. Bunların məhsulları ancaq daxili bazara göndərilir. San-Kristobal şəhəri yaxınlığında neft emalı zavodu işləyir.

HAİTİ RESPUBLİKASI

Sahəsi – 28 min km^2

Əhalisi – 7 mln. nəfər (2007-ci il)

Paytaxtı – Porto-Prens

Haiti Respublikası Vest-Hind subregionunda müstəqil dövlətdir. Haiti adasının qərb hissəsində və onun yaxınlığındakı adalarında yerləşir. Şimalda Atlantik okeanı, cənubda Karib dənizi ilə əhatələnir. Haiti respubilkası Küləktutan boğaz vasitəsilə Kuba dövlətindən ayrılır. O şərqdə Dominikan Respublikası ilə 275 km məsafədə həmsərhədir. Dəniz sahili xəttinin uzunluğu 1771 km-dir.

Haitinin relyefi əsasən dağlıqdır. Adanın sahillərində ensiz ovalıqlar yerləşir. Haitidə alüminium xammalı, mis, qızıl, gümüş, molibden və s. faydalı qazıntı ehtiyatları aşkar edilmişdir.

Haiti tropik iqlim zonasında yerləşir. Orta ililk temperatur sahil zonada və ölkənin paytaxtı Port-of-Prensdə 27°C təşkil etdiyi halda, dağlarda bu göstərici l6°C-yə qədər enir. Haitidə yağıntılar dövrü apreldən iyuna kimi, daha sonra sentyabrdan noyabr ayına kimi davam edir. İllik yağıntıların miqdarı 1000-2000 mm-dir. Payızda çox vaxt qasırğalar olur. Quayamuk və Artabonis Haitinin ən iri çaylarıdır. Burada əsasən qırmızı-qonur torpaqlar yayılmışdır. Bitki örtüyündə yarpağını tökən tropik və həmişəyaşıl meşələr əsas yer tutur. Burada palmanın bir-neçə növünə (kral və kokos), mapu müqəddəs ağacına, antil palıdına (hündürlüyü 30 m-ə çatan) rast gəlinir. Meşələrdə həmçinin qırmızı ağac, kampeşe ağacı, palisand kimi qiymətli ağac növləri qalmaqdadır.

Ölkənin insan təsirinə məruz qalmış bir çox fauna növləri məhv edilmişdir. Az miqdarda da olsa kaymanlar, flaminqo və digər tropik fauna növlərinə rast gəlinir. Burada iri məməlilərdən aquti və manqust yaşayır. Sahil sularda çoxlu dəniz tısbağaları, balıqlar, krevetkalar vardır.

Ölkə əhalisinin 90%-dən çoxu XVI-XVIII əsrlərdə Afrikadan gətirilmiş zənci qulların nəsilləridir. Haiti əhalisinin 1%-ni mulatlar və digər etnik qruplar təşkil edir. Ölkə əhalisinin 85%-i iki rəsmi dil - fransız va kreol dillərində danışır. Dindarların əksəriyyəti katolik (80%) və protestantlardır. Haitidə hər 1000 nəfərə görə təbii artım 20 nəfər təşkil edir.

Haiti - respublika dövlət quruluşuna malikdir. Dövlət və hökumət başçısı ümumsəsvermə yolu ilə 6 il müddətinə seçilən prezident geniş səlahiyyətlərə malikdir. Qanunverici hakimiyyət orqanı 6 il müddətinə seçilən Milli Məclisdir. İcra hakimiyyəti prezidentə məxsusdur. 1804-cü ildə müstəqillik qazanmışdır.

Ən böyük siyasi partiyaları: Vahid hakimiyyət və İnqilabi fəaliyyət partiyası (1957-ci ildə yaradılmışdır).

Haiti adasını 1492-ci ildə X.Kolumb kəşf etmiş və Espanyola adlandırmışdır. O vaxtdan Haiti ərazisində hindu tayfaları (başlıca olaraq aravaklar) yaşayırdı. Onların bir qismi oturaq həyata keçmiş, digəri isə köçəri həyat tərzi keçirərək ovçuluqla məşğul olurdular. Haitinin müstəmləkəyə çevrilməsi XVIII əsrin axırlarınadək davam etmişdir. XVII əsrin sonunda adanın qərb hissəsi Fransanın hökmranlığı altına keçmiş və San-Dominqo adlandırılmışdır.

XX əsrin əvvəlləri üçün Haitidə Amerika kapitalının ekspansiyası xüsusilə gücləndi. Haitinin müstəqilliyini «qorumaq» pərdəsi altında 1915-ci ildə ölkəyə ABŞ qoşunları yeridildi və əslində Haiti ABŞ-ın protektoratına çevrildi.

Haiti iqtisadi cəhətdən Qərb Yanmkürəsinin ən geri qalmış aqrar ölkəsidir. İqtisadiyyatda xarici, əsasən, ABŞ kapitalı üstündür (bütün kapitalın 70%-i ABŞ-a

məxsusdur), iqtisadiyyatın vacib sahələrinə (şəkər istehsalı, sizal, boksit hasilatı və b.) nəzarət edir. Dövlətə yalnız bir neçə sizal fabriki, daxili hava nəqliyyatı, tütün və kibrit şirkətləri məxsusdur.

Kənd təsərrüfatında iqtisadi aktiv əhalinin 74%-i çalışır və ixracat dəyərinin 40%-ni verir, DMM-da kənd təsərrüfatının payı 40%-dən artıqdır. Kənd təsərrüfatında başlıca yeri əkinçilik tutur. Kənd təsərrüfatında iri mülkədarlıq və latfundiya qalmaqdadır. Ölkədə kənd təsərrüfatına yararlı torpağın 1⁄3-i istifadə olunur. Əsasən ixracat bitkilərinin istehsalı üzrə ixtisaslaşmışdır. Ölkədə şəkər qamışı, qəhvə, pambıq, kakao və sizal becərilir. Eyni zamanda daxili tələbat üçün qarğıdalı, çəltik, sorqo və lobya becərilir.Ölkədə heyvandarlıq ekstensiv xarakterlidir.

Ölkənin sənaye sahələrində iqtisadi aktiv əhalinin 14%-i çalışır. Burada hasilat sənayesi II Dünya müharibəsindən sonra yaradılmışdır. Haitidə başlıca olaraq boksit, duz, mərmər və başqa tikinti materialları hasil edilir. Həmçinin ölkədə ixrac üçün geyim-paltar, ayaqqabı, beysbol topu, dərman preparatları və sadə elektron qurğuları istehsal edilir. Ölkədə daxili bazara xidmət məqsədi üçün yeyinti (şəkər, tütün məmulatları) və yüngül sənaye sahələri (əsasən toxuculuq), sənətkarlıq (sizal, qırmızı və səndəl ağaclarından məmulatlar) sahələri inkişaf etdirilir.

Ölkədə dəmir yollarının uzunluğu 376 km-dir. Ümumi uzunluğu 4000 km olan avtomobil yollarının 600 km-i bərk örtüklüdür. Haitinin əsas dəniz portları Porto-o-Prens və Kap-Qanteyndir.

Ölkənin ixracatında: qəhvə, kakao, şəkər, sizal; idxalatında: maşın və avadanlıqlar, nəqliyyat vasitələri, ərzaq, neft məhsulları başlıca yer tutur.

Haitinin əsas ticarət portnyorları: ABŞ, Yaponiya, Fransa, Kanada və AFR-dir.

BAHAM ADALARI BİRLİYİ

Sahəsi – 13,9 min km^2
Əhalisi – 0,4 mln. nəfər (2005-ci il)
Paytaxtı – Nassau

Baham adaları Florida yarımadasından cənub-şərqdə geniş Baham arxipelağında yerləşir. Arxipelaq 650-dən artıq xırda adalardan ibarətdir. Adaların yalnız 30-da əhali yaşayır.

Baham adaları əsasən mərcan tipli əhəngdaşlarından ibarətdir. Düzənlik səthə malik olan adalarda karst relyef formaları geniş yayılmışdır. Əksər adaların sahillərində narın qumlu gözəl çimərliklər uzanır. İqlimi tropik rütubətli olub, may ayından oktyabr ayına kimi yağıntılı dövrüdür. Yanvarın orta temperaturu 20-23°C, iyul 28°C-dir. İyul ayından oktyabra kimi adalarda tez-tez güclü qasırğalar olur, yağıntının miqdarı 1100-1700 mm-dir. Çaylardan məhrum olan adalarda çoxlu duzlu-şor göllər vardır. Yağıntıların karst burulğanlarından keçərək yaratdığı yeraltı sular ada sakinləri üçün şirin su mənbəyidir.

Adaların bitki örtüyü nisbətən kasıbdır. Savannalar, həmişəyaşıl tikanlı kolluqlar, xeyli sahədə şam meşələri mövcuddur. Böyük adalarda - Androsda və Böyük Abakoda həmişəyaşıl meşələr qalmaqdadır. Sahil zonalarda kakos palmaları yayılmışdır. Adaların heyvanat aləmi çox kasıbdır, ancaq müxtəlif quşlarla təmsil olunmuşdur. Çox vaxt köçəri və üzən quşlara, eləcə də kərtənkələ və uçan yarasalara rast gəlinir.

Əhalinin əksəriyyəti (85%-i) zənci və mulatlardır, avropalılar - əsasən britaniyalılar, amerikalılar, kanadalılar əhalinin 15%-ni təşkil edir. Rəsmi dil - ingilis dili, həmçinin kreol dili də yayılmışdır. Dindarların əksəriyyəti xristiandır: batistlər (32%), anqlikan (20%), katoliklər (19%). Hər 1000 nəfərə görə 19 nəfər doğulur, 6 nəfəri ölür, təbii artım 13 nəfərdir.

Baham adaları Birliyi Millətlər birliyi tərkibində müstəqil dövlətdir. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır; onu general-qubernator təmsil edir. Qanunverici hakimiyyət orqanı ikipalatalı parlamentdir. İcraedici hakimiyyət baş nazirin başçılıq etdiyi hökumətə məxsusdur.

Baham adalarını 1492-ci ildə X.Kolumb kəşf etmişdir. 1629-cu ildən Böyük Britaniyanın müstəmləkəsi olmuşdur. 1969-cu ildə daxili özünüidarə hüququ almış, 1973-cü ildə müstəqil dövlət elan edilmişdir. Həmin ildə BMT-yə qəbul olunmuşdur.

Baham Adalarının iqtisadiyyatında xarici kapital, birinci növbədə ABŞ, Böyük Britaniya, Kanada və AFR güclü mövqe tutur. İqtisadiyyatın əsasını xarici turizm tutur. Baham adaları - dünyanın qabaqcıl beynəlxalq maliyyə mərkəzlərindən biridir. İşçi qüvvəsinin 10%-i bank və maliyyə-sığorta sahəsində çalışır.

İqtisadi cəhədən fəal əhalinin 2%-i çalışan kənd təsərrüfatı daxili tələbatın 25%-ni ödəyir və ixracat dəyərinin 10%-ni verir. Kənd təsərrüfatına yararlı torpaq sahəsi 16 min hektardır. Əsas kənd təsərrüfatı bitkilərindən şəkər qamışı, banan, tomat və xiyar ABŞ-a və Kanadaya ixrac olunur.

Sahil dənizlərdə lanqust (ixrac üçün), tunes, ustris ovlanır. Andros və Böyük Abako adalarında meşə tədarükü aparılır.

Baham adaları Birliyində əczaçılıq fabriki, sement zavodu rom istehsal edən müəssisələr, meyvə-tərəvəz konserv zavodları və lanqust emalı zavodu fəaliyyət göstərir.

Ümumi gücü 350 min kvt olan elektrik stansiyalarında ildə 1 mlrd kvt.s elektrik enerjisi istehsal olunur.

Baham adalarında dəmir yolu yoxdur. Avtomobil yollarının uzunluğu 2400 km-dir. Adalarda 2 beynəlxalq aeroport vardır (Nassau və Frinportda). Baham adaları dünyada 3-cü ölkədir ki, (Liberiyadan və Panamadan sonra) ticarət gəmiləri çoxdur, onların' əksəriyyəti xarici gəmi sahibkarlarına məxsusdur.

Ölkənin ixracatında: neft məhsulları, əczaçılıq sənayesi, balıq və s., idxalında: neft, çay, ərzaq, avadanlıq, avtomobil və b. əsas yer tutur.

Əsas ticarət ABŞ, Kanada, Böyük Britaniya, İran, Yaponiya və b. aparır. Pul vahidi - baham dollarıdır.

YAMAYKA

Sahəsi — 11 *min km*^{2}
Əhalisi — 2,8 mln. nəfər (2008-ci il)
Paytaxtı — Kinqston

Yamayka Kuba adasından 140 km cənubda Karib dənizində eyni adlı adada yerləşən dövlətdir. Kuba, Haiti və Puerto-Riko ilə birlikdə Vest-Hindin Böyük Antil adalarına daxildir. Yamayka Amerika ölkələri arasında əhalisi ən sıx olan ölkələrdən biridir (1 km^2-ə 235 nəfər).

Yamaykanın çox hissəsi əhəngdaşlı yayladır. Burada karst relyef forması geniş yayılmışdır. Qərbdən-Şərqə Beu-Mauntin qırışıq dağları uzanır. Adanın cənub və qərb sahilboyu allüvial mənşəli ovalıqlardır. Ərazidə çoxlu vulkan izləri və termal bulaqlar vardır. Burada tez-tez zəlzələ hadisəsi baş verir.

Yağış suları və çaylar əhəngdaşlı suxurların yayıldığı ərazilərdə mağaralar yaratmışdır. Adada karst mağaraları dünyası mövcuddur. Ərazidə 300-dən artıq mağara aşkar edilmişdir. Atmosfer yağıntılarının xeyli hissəsi yerə hoparaq mağaralarda çaylar və göllər əmələ gətirmişdir.

Yayla boksitlə çox zəngindir. Adada boksitlərin ehtiyatı 2 mlrd. tondur, onun ehtiyatına görə dünyada birinci yerlərdən birini tutur. Başqa faydalı qazıntılardan xüsusilə tikinti materialları istehsalı üçün gips və sement xammalı ilə zəngindir. Ölkədə xeyli miqdarda mis, dəmir filizi, qurğuşun və kobalt ehtiyatları aşkar edilmişdir.

Yamayka rütubətli tropik iqlimə malikdir. Orta temperatur yanvarda 24-25°C, iyulda 26-27°C-dir. Dağlarda isə temperatur bir neçə dəfə az olur. Daimi passatlar tropik istiləri yumşaldır. Şimal-şərq passatları çoxlu yağıntı gətirir. Con Xrou dağlarında və Mavi dağların şimal yamaclarına ildə 5000 mm yağıntı düşür. Orta illik yagıntı isə 2000 mm-dir. Yamaykada yağıntı mövsümü may ayından oktyabr ayına kimi, quraq mövsüm isə noyabrdan aprelə kimi uzanır.

Əsas çayları Blek-River (aşağı axını gəmiçiliyə yararlıdır) və üzərində hidroelektrik stansiyaları qurulmuş Planteyn-Qarden-river, Rio-Kobre və başqalarıdır.

Əhalinin təsərrüfat fəaliyyəti nəticəsində Yamaykanın fauna və florası əhəmiyyətli dərəcədə ziyan çəkmişdir. Avropalılar gələnə qədər ada başdan-başa meşələrlə örtülü olduğu halda, hazırda meşələr ərazinin cəmi 28%-ni tutur. Meşələrdə ağac növlərinin tərkibi güclü surətdə azalmışdır. Tropik meşələr Mavi dağların şimal-şərq yamaclarında və yayla hissəsində qalmışdır. Adada əsasən dağ-qəhvəyi və qırmızı-qonur torpaqlar yayılmışdır. Yamaykanın cənub-qərb və cənub hissəsindəki düzənliklərdə savanna bitkiləri xarakterikdir.

Adanın faunası daha güclü zərər çəkmişdir. Heyvanlardan uçan yarasa, ada dovşanı, timsah, tısbağa, iquan və s. çoxlu endemik quşlar vardır. Yamaykanın dəniz sahilləri balıq ehtiyatı ilə zəngindir.

Əhalinin 90%-dən çoxu yamaykalılardır. Ölkə sakinlərinin əksəriyyəti afrikalılardır. Metislər 15% təşkil edir. Ölkədə həmçinin avropalılar, hindistanlılar, çinlilər və b. yaşayır. Dövlət dili ingilis dilidir. Ölkədə kreol dili də geniş yayılmışdır.

Əhalinin 56%-ni protestantlar və 5%-ni katoliklər təşkil edir. Dindarların arasında müsəlmanlar, industlər, yəhudilər var. Təbii artım yüksəkdir.

İşləyən əhalinin 33%-i kənd təsərrüfatı, meşəçilik, balıqçılıq sahəsində, 15%-i sənayedə, 32%-i xidmət sahəsində, qalanları ticarətdə, nəqliyyatda, rabitədə və s. sahələrdə çalışır.

Urbanizasiyanın səviyyəsi yüksəkdir. Əhalinin 50%-dən çoxu şəhərlərdə yaşayır.

Yamaykanın paytaxtı Kinqston adanın cənub sahilində ən böyük portdur. Dəmir və avtomobil yolları qovşağıdır. Yaxınlıqda beynəlxalq aeroport yerləşir. Əhali 3 il müddətinə bələdiyyə şurası seçir: şuraya Yamayka parlamentinin aşağı palatasının Kinqetondan olan deputatları daxil edilir.

Yamaykanın ən qədim əhalisi aravak dilləri ailəsindən olan hindular olmuşlar. 1494-cü ildə X.Kolumb adanı kəşf etmiş, Santyaqo adlandırmışdı. Yamayka adı hindu dilində - «bulaqlar ölkəsi» deməkdir. İspan müstəmləkəçiliyi nəticəsində yerli əhali demək olar ki, tamamilə məhv edilmişdir. 1513-cü ildən başlayaraq buraya Afrikadan qul gətirməyə başladılar. Yamaykanı 1655-ci ildə ingilislər tutmuş və Yamayka dünyanın ən iri qul alveri bazarlarından birinə çevrilmişdir. Qulların amansız istismarı XVII-XVIII əsrlərdə dəfələrlə üsyanlara səbəb olmuşdu.

1833-cü ildə köləliyin ləğvi haqqında qanun verildi. Keçmiş kölələrin plantasiyalardan getməsi ölkənin şəkər sənayesində böhran doğurdu. XX əsrin əvvəllərində ABŞ kapitalı Yamaykanın iqtisadiyyatında hakim rol oynamağa başladı. 1962-ci ildə Yamayka müstəqil dövlət elan edilərək BMT-yə qəbul olundu. 1969-cu ildən Amerika Dövlətləri təşkilatının, 1973-cü ildən isə Karib birliyinin üzvüdür.

Yamaykanın dövvlət başçısı İngiltərə kralıdır (kraliçasıdır); onu general-qubernator təmsil ellir. Millətlər birliyinin üzvüdür. Qanunverici hakimiyyəti general-qubernatordan və 2 palatadan (Nümayəndələr Palatası və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti baş nazir başda olmaqla hökumətə məxsusdur. Hökumətin tərkibini parlament təsdiq edir.

Yamayka Karib hövzəsində iqtisadi cəhətdən ən çox inkişaf etmiş ölkələrdən biridir. İqtisadiyyatında ABŞ və Böyük Britaniya kapitalı mühüm rol oynayır. Yamaykanın iqtisadiyyatı müstəmləkə dövründən qalmış beynəlxalq əmək bölgüsündə aqrar-xammal ixtisaslaşması ilə çıxış edir. Onun əsasını - ixracat üçün boksit çıxarılması və alüminium oksidi və alüminium əridilməsi təşkil edir. Xarici kapital boksit hasilatına elektrik enerjisi istehsalına, ixrac üçün kənd təsərrüfatı bitkiləri, emal sənayesi və bütün alüminium oksidi istehsalına nəzarət edir.

Yamayka boksit ehtiyatına görə dünyada 10-cu, hasilatına görə Avstraliya və Qvineyadan sonra 3-cü yeri tutur. Emal sənayesində yüngül və yeyinti sənaye sahələri üstünlük təşkil edir. Alüminium oksidi, şəkər, pambıq-parça, ayaqqabı, neft məhsulları, tikinti materialları istehsal olunur.

Kənd təsərrüfatı əsasən ixracat məhsulları istehsalı üzrə ixtisaslaşmışdır. Əsas kənd təsərrüfatı bitkilərindən - şəkər qamışıdır. Banan əsasən ixracat əhəmiyyətlidir, həmçinin sitrus bitkiləri. Kiçik miqdarda ixracat üçün qəhvə,

kakao, ananas, kokos, qozu, yamayka bibəri, tütün becərilir. Əsas tələbat bitkiləri batat, maniok, kartof, paxla, qarğıdalı, çəltik də becərilir.

Heyvandarlıq zəif inkişaf etmişdir.

Dəmir yollarının uzunluğu 294 km, avtomobil yolların 18200 km, o cümlədən 5,4 min km-i bərk örtüklü yollardır. Əsas portlar - Kinqston və Monteqo-Beydir. Bu limanların yaxınlığında beynəlxalq əhəmiyyətli aeroportlar yerləşir.

Yamaykanın ixracı: boksit, alüminium oksidi, kənd təsərrüfatı məhsulları; idxalı: avadanlıq və nəqliyyat vasitələri, yanacaq, istehlak mallarıdır. Əsas ticarət partnyorları: - ABŞ (mal dövriyyəsinin 40%-dən çox), Böyük Britaniya, AFR, Kanada, Venesuela, Trindad və Tabaqo və b-dır.

Pul vahidi - yamayka dollandır.

PUERTO-RİKO

Sahəsi – 9,1 min km^2
Əhalisi – 4,3 mln. nəfər (2007-ci il)
Paytaxtı – San-Xuan

Təbii şəraiti, təbii ehtiyatları, əhalisi və məskunlaşma xüsusiyyəti

Puerto-Rikonun relyefi çox mürəkkəbdir. Adanın şimalında Atlantik okeanının ən dərin çökəkliyi olan Puerto-Riko çökəkliyi yerləşir. Böyük Antil adaları içərisində ən daglıq adadır. Adanın mərkəzi hissələri dağ və təpəliklərlə, yalnız sahil zolağı düzənliklərlə əhatələnmişdir. Şimal və cənub sahillərində nisbətən geniş düzənliklər vardır ki, onların da eni şimalda 13-20 km, cənubda 3-13 km-dir. Mərkəzi sıra dağlarda adanın ən hündür zirvəsi olan Serro-de-Punta (1341 m) yerləşir. Bu sıra dağların daha çox rütubətlənən şimal yamacı çaylar və bulaqlar tərəfindən çox parçalanmış, onun təbiətini daha füsunkar etmişdir. Burada meşələr qırıldıqdan sonra başlamış erroziya prosesi bəzi ərazilərin tamamilə çılpaqlaşmasına, əhəng daşlarının səthə çıxmasına səbəb olmuşdur. Əhəngdaşları asanlıqla yuyulduğundan karst relyef formaları yaranmağa başlamışdır. Bu relyef formaları adanın şimal-qərb hissəsində daha çoxdur.

Ölkədə müxtəlif növ faydalı qazıntılar vardır, lakin onların çoxu sənaye əhəmiyyətli deyildir. Ən geniş yayılmışı manqan və yüksək keyfiyyətli dəmir filizidir. Bundan başqa qızıl, gümüş, mis, qurğuşun, qalay, civə platin, nikel ehtiyatları da vardır. Bunlardan demək olar ki, istifadə edilmir. Tikinti materiallarından kaolin, mərmər, əhəng, qranit və s. istehsal edilir.

Puerto-Rikonun iqlimi tropik, dəniz iqlimidir. Ada daimi olaraq şimal-şərq passatlarının təsirinə məruz qalır. Yanvar ayının orta temperaturu 24°C, iyulun

28°C-dir. Passatların Atlantik okeanından gətirdikləri rütubət adanın şimal və şərq ətəklərinə çoxlu yağıntı verir. Burada il ərzində orta hesabla 1400-2500 mm yağıntı düşür.

Adanın cənub hissəsi nisbətən quraqdır. Burada orta hesabla hər il 800 mm yağıntı düşür. Şəkər qamışı plantasiyalarında suvarma olmadan yüksək məhsuldarlıq əldə etmək mümkün olmur.

Avqust-oktyabr aylarında güclü küləklər adanın təsərrüfat fəaliyyətinə və təbiətinə olduqca böyük ziyan vurur.

Adada 50-yə qədər çay vardır. Bu dağ çayları uzun olmasa da bolsulu, şəlaləli və iti axandır. Çayların əksəriyyəti şimala doğru istiqamətlənmişdir. Rio-de-la-Plata, Qrande-de-Manati və Qrande-de-Aresibo çayları üzərində SES-lər tikilmişdir. Adada mədəni landşaft üstünlük təşkil edir. Tropik meşə haqqmda təsəvvürlər yalnız qoruqlarda yaranır.

İspanlara qədər Puerto-Riko əhalisi Borike hindularından ibarət olub, 80-100 min nəfər idi. Yüksək mədəniyyətə malik olan borikenlər asteklərə və inklərə nisbətən zəif olsalar da əkinçilik sahəsində böyük müvəffəqiyyət qazanmışdılar. Onlar qarğıdalı, maniok, kartof, müxtəlif dənli bitkilər yetişdirirdilər. İspanlara qədərki dövrü xarakterizə edən amerika coğrafiyaşünası P.Ceyms yazırdı: "Məhsuldar torpaqlardan çoxlu məhsul götürən hindular üçün Puerto-Riko bir cənnət idi". Artıq 1515-ci ildə adada bir neçə min hindu qalmışdı və onlar içərilərə doğru qovulmuşdu, ispanlar ucuz işçi qüvvəsi kimi onlardan istifadə edə bilmirdi. Buna görə də XVI əsrdən başlayaraq onlar Afrikadan zənci-qul daşımağa başladılar. Qul ticarəti ləğv edildikdən sonra zəncilərin sayı azalmağa başladı və onlar ispanlarla qarışaraq müasir kreolların nəslinə çevrildilər. Müasir Puerto-Riko əhalisinin əsasını ispaniyadan köçüb gəlmiş kreollar təşkil edir. Onlar ümumi əhalinin 73%-ni, zəncilər 4%-ni, mulatlar isə 23%-ni təşkil edirlər. Puerto-Riko üçün əhalinin təbii artımının yüksəkliyi xarakterikdir. 2005-ci ildə iqtisadi cəhətdən fəal əhalinin 3,2%-i kənd təsərrüfatında, 16,1%-i sənayedə, 8,1%-i tikintidə və nəqliyyatda, 57,2%-i ticarət və xidmət sahələrində çalışmışdır. Adada əhalinin məskunlaşması qeyri-bərabərdir. Belə ki, əhalinin əsas hissəsi sahil zolağında cəmləşmişdir və burada iri yaşayış məntəqələri salınmışdır.

Puerto-Riko ABŞ-la sərbəst birləşmiş müstəqil ərazidir. Dövlət başçısı ABŞ prezidentidir. Puerto-Rikonun ən iri şəhəri və paytaxtı San-Xuandır. O gözəl limanın sahilində yerləşmiş və əsası 1510-cu ildə qoyulmuşdur. Bu şəhəri çox vaxt Vest-Hindin Venetsiyası da adlandırırlar. Ölkənin əsas sənaye və port şəhəri olan San-Xuanın əhalisi 1,5 mln. nəfərdən çoxdur. Adanın şimal-qərb burnunda qədim El-Morro qalası yerləşir və o San-Xuan körfəzini qoruyur. Hal-hazırda burada ABŞ-nın hərbi bazası yerləşir.

San-Xuan şəhərindən cənub-qərb istiqamətində 10 km aralıda Bayamon şəhəri yerləşir. İkinci dünya müharibəsindən sonra burada sənaye sürətlə inkişaf etməyə başlamışdır. Hal-hazırda ölkənin ikinci iri şəhəri sayılan Ponse sənaye və port əhəmiyyətlidir. XIX əsrin ortalarına qədər Ponse ölkənin ən iri şəhəri idi. ABŞ

dövləti adanı zəbt etdikdən sonra Ponse öz əhəmiyyətini azaltmış və yerini San-Xuana vermişdir.

Puerto-Rikonu əhatə edən adaların içərisində ən irisi Vyekesdir. Bu adanın əhalisi uzun müddət şəkər qamışı və ananas istehsalı ilə məşğul olmuşdur. İkinci dünya müharibəsindən sonra amerika hərbçiləri buranı bazaya çevirmiş və bağlı ərazi etmişdir. Kənd təsərrüfatında çalışan işçi qüvvəsi əsasən şəkər qamışı plantasiyalarında bir neçə ay müddətində, yəni qamış yığımı dövründə işlə təmin olunur. Şəkər qarmşının yığım müddəti qurtardıqdan sonra əhalinin durğunluq, yəni bekarçılıq dövrü başlayır.

Təsərrüfatının ümumi xarakteristikası

Ölkənin müstəmləkə formasında inkişafı onun iqtisadiyyatına güclü təsir etmişdir.

XVI əsrin sonunadək Puerto-Riko İspaniyanın ən miskin müstəmləkəsinə çevrilmişdi. Adanın əlverişli strateji əhəmiyyətini başa düşən ispanlar XVI əsrin sonlarında burada mühüm istehkamlar tikməyi başladılar. Müstəmləkəçi hökumət Puerto-Riko əhalisinin Meksika, Peru və digər İspaniya müstəmləkə ərazilərinə gedişini qadağan etdilər. Adada plantasiyi təsərrüfatı inkişaf etməyə başladı.

Puerto-Rikonun əsas kənd təsərrüfatı bitkisi olan şəkər qamışı, adanı X.Kolumb kəşf etdikdən sonra gətirilmişdir. Şəkər qamışı çox qədim zamanlardan Hindistanda Taiq çayının sahillərində becərilirdi. Ərəb dənizçiləri onun toxumunu Afrika və Kiçik Asiyaya, sonradan Siciliyaya gətirmiş, 1420-ci ildə portuqaliyalılar Madeyra adasında əkmişlər. XVI əsrdə ispanlar şəkər qamışının toxumunu Vest-Hind adalarına gətirtmiş, buranın daha əlverişli təbii şəraitində sürətli inkişaf etməyə başlamışdır. XVII əsrdə Puerto-Rikonun əsas kənd təsərrüfat bitkisi zəncəfil idi. Bundan başqa tütün, pambıq, kakao kimi məhsul istehsalı da artır.

XVIII əsrin əvəllərində qəhvənin sahələri artırılmağa başladı. İspan bazarında xüsusi ətri olan Puerto-Riko qəhvəsinə tələbat artmışdı. Həmin dövrdə adanın əsas İxrac məhsullarına kofe, zəncəfil, tütün, şəkər qamışı, mal-qara dərisi aid idi. XIX əsrdə Puerto-Rikonun əsas ixrac məhsulları qəhvə, dəyərinə görə ikincisi şəkər idi. İspaniya və Kuba ölkənin kofe məhsullarının təxminən hamısını alır, digər ölkələrə satırdı. Bu dövrdə ada iqtisadiyyatına ABŞ kapitalı fəal surətdə daxil olmağa başlayır. ABŞ-ın zəbt etməsindən sonra ölkənin iqtisadiyyatı kəskin surətdə iki amerika bankının "Çeyz-Neynl-Bank" və "Neyşnl-Siti-Bank" təsiri altına düşür. Şəkər qamışının istehsalı tütün tədarükü amerika bazasında daha tez satılmağa, istehsalının isə genişlənməsinə şərait yaratdı. Yeni şəraitdə ölkə ABŞ bazarında digər ölkələrlə tütün və şəkər rəqabətinə qoşuldu. Bununla yanaşı Puerto-Riko ABŞ-dan bütün ərzaq məhsullarını, sənaye avadanlıqlarını almağa, onun gəmilərində ölkəyə gətirməyə məcbur oldu. Şəkər qamışı plantasiyaları və şəkər istehsalı bütövlükdə ABŞ monopolitasının təsiri altına düşdü. Şəkər qamışı və tütün digər yerli ərzaq məhsulları istehsalını sıxışdırmağa başladı. Əhali xaricdən alınan bahalı ərzaq

məhsullarından asılı vəziyyətə düşdü. Amerikanların zəbt etməsinə qədər Puerto-Rikoda hər il 3 min ton tütün istehsal olunurdusa, artıq 1927-ci ildə tütün istehsalının həcmi 27 min tona qalxdı, lakin 1929-33-cü illərdəki ümumdünya böhranı zamanı onun istehsalı bir qədər azaldı. ABŞ monopoliyası bütün diqqətini şəkər istehsalına cəmləşdirdi. Bu da öz növbəsində tütünçülərə böyük zərbə oldu. Azacıq da olsa torpaq sahələri olan kəndlilər şəkər qamışı plantasiyalarında çalışmağa məcbur oldu.

1929-33-cü il ümumdünya iqtisadi böhranı zamanı şəkər istehsalı və ixracı azalmağa, həmin müəssisələrdə iş yerlərinin ixtisar olunmasına və işsizliyə səbəb oldu. Lakin II dünya müharibəsi dövründə məhsul istehsalının həcmi yenidən artmağa başladı. Kubada inqilabın qələbəsi nəticəsində ona qarşı blokada daha da genişləndiyindən Puerto-Riko şəkərinə olan tələbat artdı.

İkinci dünya müharibəsindən sonra Puerto-Rikonun yüngül sənayesi nəzarəçarpacaq dərəcədə inkişaf etdi. 1954-cü ildə ölkənin hökuməti xarici şirkətlərə güzəştlər barədə qanun qəbul etdi. Milll gəlirdə sənayenin xüsusi çəkisi kənd təsərrüfatını ötüb keçməyə başladı.

Sənayesi, kənd təsərrüfatı və inkişaf perspektivləri

Puerto-Rikonun sənayesi uzun müddət hasilat xarakterli olmuş, iqtisadiyyatı müstəmləkə quruluqfl almışdır. 1954-cü ildə vergi haqqında qərarın qəbul edilməsi ilə əlaqədar xarici şirkətlərin axını başlamışdır. Qısa müddətdə, 1954-60-cı illərdə sənaye məhsulu istehsalı 90% artdı. Müharibədən sonra toxuculuq, ayaqqabı, yeyinti sənaye sahələri inkişaf etməyə, maşınqayırma və elektrotexnika sahələri isə yığma sexləri ilə təmsil olunmağa başladı. Həmin dövrdə sənayenin əsas və aparıcı sahəsi şəkər istehsalı idi. Emaledici müəssisələr əsasən sahil rayonlarında yerləşirdi. İşçi qüvvəsinin ucuzluğu, vergi azlığı ABŞ işgüzarlarına Puerto-Rikoda toxuculuq müəssisələri tikməyə imkan yaratdı. Şəkər və tütün sənayesindən fərqli olaraq toxuculuq sənayesi gətirilmə xammala əsaslanırdı.

Dağ-mədən sənayesi o qədər də yüksək inkişaf etməmişdir. Ölkədə manqan və dəmir filizi istehsalı amerika şirkəti olan "Atlantik or"un nəzarətindədir və hasil olan xammal ABŞ-a göndərilir. Qeyri-metal faydalı qazıntılarından nisbətən geniş hasilata mərmər və əhəng daxildir. Hasil olunan kaolin və kvarslı qum yerli tələbatı ödəmək məqsədilə istifadə edilir. Adanın cənubundakı Kabo-Roxo burnunda duz mədənləri yerləşir.

Ölkənin sənaye müəssisələri və məişət obyektləri üçün elektrik enerjisi əsasən istilik-elektrik stansiyalarında duru yanacağın hesabına istehsal olunur. Hər il yerli tələbatı ödəmək məqsədilə l4-15 mlrd kvt-saat elektrik enerjisi istehsal olunur.

Puerto-Riko zəngin Venesuela neftinin ABŞ-a daşınma yolunun üstündə yerləşir. Adanın əlverişli coğrafi mövqeyindən istifadə edən amerikanın neft şirkətləri ikinci dünya müaribəsindən sonra burada iki neftayırma zavodu tikmişlər. Ölkənin əsas sənaye sahəsinə çevrilmiş neft emalı gətirilmə xammalına əsaslanır. Emal olunmuş neft məhsullarının 60%-i daxili tələbat üçün istifadə olunur, qalan hissəsi isə emal olunaraq ABŞ-a ixrac

edilir. Sənayenin digər əsas sahəsi olan kimya sənayesi əsasən tullantı xammalına əsaslanır. Son illərdə kimya sənayesi daha sürətlə inkşaf etməyə başlamış, kimya-formasevtika sənayesinin əsası qoyulmuşdur. Elektrotexnika və maşınqayırma sənaye sahələri çox da iri olmayan müəssisələrdə yerləşir. Onlar yığma sexlərinə əsaslanır. Ölkənin əsas sənaye rayonu sayılan San-Xuan-Katanyo-Bayamon adanın şimal sahillərində yerləşir. Burada sənayenin əsas sahələri olan neftayırma, kimya, maşmqayırma, ayaqqabı, yeyinti, yüngül, tütün, şəkər və s. cəmləşmişdir.

Adanın cənub sahillərinin əsas iqtisadi mərkəzi Ponse şəhəridir. Burada şəkər sənayesi, neft emalı, toxuculuq və rom istehsalı müəssisələri cəmləşmişdir.

Ponsedən şərqdə şəkər istehsalının digər mərkəzi sayılan Quayama yerləşir. Qərb sahillərinin əsas sənaye mərkəzi Mayaquesdir. Mayaquesdən şimalda yerləşən Aquadilyerdə çətir istehsalı inkişaf etmişdir.

Puerto-Rikonun kənd təsərrüfatına yararlı torpaq sahələrinin 4⁄5 hissəsi ABŞ monopoliyalarına məxsusdur. Ölkədə kiçik kəndli torpaqları çoxdur. Kənd yaşayış məntəqələrində yaşayan torpaqsız kəndlilərin sayı getdikcə artmağa başlayır. Kubadan başqa heç bir Latın Amerikası ölkəsində şəkər qamışı istehsalı Puerto-Rikodakı kimi dominant deyildir. Hal-hazırda şəkər qamışı plantasiyaları daha məhsuldar sahil zolağında cəmləşmişdir. Bu bitkinin əkin sahəsi yararlı torpaq sahələrinin təxminən yarasını təşkil edir. Kənd təsərrüfatı məhsulu dəyərinin təqribən 2⁄3 hissəsi onun payına düşür.

Şəkər qamışı istehsalı üzrə ixtisaslaşmış fermalar əsasən çox da böyük olmayan qəsəbələri əhatə edir. Qəsəbədə kənd təsərrüfatı işçilərinin evləri, maşın *və* avadanlıq, həmçinin heyvanlar üçün tikililər yerləşir. Fermaların tutduğu ərazi adətən 90-100 hektardan artıq olmur. Belə fermaların əksəriyyəti əsasən geniş plantasiyaları əhatə edərək iri şirkətlərə və ya iri torpaq sahibkarlarına məxsusdur. Orta hesabla 1 ton şəkər istehsal etmək üçün 7,5-10 ton şəkər qamışı cəlb olunur. Son illər orta hesabla hər il 9-10 mln. ton şəkər qamışı istehsal edilir.

Sahil zonasından fərqli olaraq adanın daxili dağlıq hissələri kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə tam ixtisaslaşmamışdır. Torpaq sahələrinin çox hissəsini az məhsuldar otlaqlar təşkil edir. İstehsala cəlb olunan torpaqlarda isə tütün, qəhvə, meyvə və digər bitkilərin əkin sahələri vardır.

İri şirkətlərlə rəqabətə tab gətirməyən xırda kəndli təsərrüfatları öz məhsullarını çox aşağı qiymətlərə satmağa məcbur olur. Buna görə də əhalinin əksəriyyəti ya sahil rayonlarına köçməyə, ya da ABŞ ərazisində iş tapmaq üçün oraya köçməyə məcbur o olur. Beləliklə də, boşalmış torpaqlarda ABŞ monopoliyaları ananas və sitrus bitkilərinin iri plantasiyalarını yaratmağa başlamışlar. Ölkədə şəkər qamışından başqa digər məsulların istehsalı ikinci dərəcəli olmuşdur. Son illər şəkər qamışının da istehsal həcmi azalmaqda davam edir. Tütün və qəhvə istehsalı son illər xeyli azalmışdır. Bunun bir çox səbəbləri vardır. Əvvəla adada istehsal olunan tütün siqar istehsalı üçün ABŞ-a ixrac edilirdi. ABŞ-a ixrac olunan tütünün təxminən yarısı Puerto-Rikonun payına düşürdü. Sonradan bu tütün ixracı xeyli azalmış, əksinə, bəzi tütün məmulatları ABŞ-dan gətirilməyə başlamışdır. Bu da sözsüz ki, bütün istehsalçılarına ciddi zərbə

vurmuşdur. Şəkər qamışı istehsalçıları olan fermalar iri olduğu halda, tütün istehsalı üzrə ixtisaslaşmış fermaların sahələri 12-18 hektardır. Kiçik fermalarda xüsusi təsərrüfatlar, iri fermalarda isə icradarlar daha ucuz işçi qüvvəsindən istifadə edirlər. Eyni zamanda ixtisaslaşmış fermalarda digər istehlak məhsulları da istehsal edilir.

Adanın daxili rayonlarında dağ yamaclarında qəhvə plantasiyaları yerləşir. Digər məhsullardan fərqli olaraq qəhvə plantasiyaları puerto-rikolulara məxsusdur. XX əsrin əvvəllərindən qəhvə əsas bitki kimi olmuş, lakin sonralar onun istehsal həcmi azalmağa başlamışdır. Puerto-Rikonu itirən İspaniya bu ölkədən gətirilən qəhvəyə kömrük vergisini artırmış, ABŞ-da isə yüksək keyfiyyətli və ətirli Puerto-Riko qəhvəsinə o qədər də maraq yox idi. Amerikalılar əsasən Braziliya qəhvəsinə uyğunlaşmışdılar. Amerikalılar adada qəhvə istehsalının həcminin artırılmasında o qədər də maraqlı deyillər və buna görə də onun istehsal həcmi ildə 10-15 min tonu keçmir. Qəhvə istehsalı üzrə ixtisaslaşmış fermaların ərazisi 45-90 hektardır.

Ananas və digər bitkilərin əkini və məhsul ixracı nisbətən cavan sahələridir. Adada meyvə istehsalı bütün il boyu davam edir. Meyvə fermaları əsasən ABŞ-dan köçüb gələnlərə məxsusdur və onların ərazisi xeyli böyükdür. Belə ki, ananas fermalarının sahələri 50-130 hektar təşkil edir. Fermalarda məhsulun saxlanması və qablaşdırılması üçün xüsusi binalar inşa edilmişdir. Məhsulun əsas hissəsi ixrac edilir.

Adanın əsas ərzaq məhsulu istehsalına çəltik, qarğıdalı, zəncəfil və tərəvəz daxildir. Bu məhsulun istehsal həcmi heç yerli tələbatı ödəmir. Belə ki, tək qarğıdalının illik istehsal həcmi 12-18 min tondur. Ada əhalisinin əsas qida rasionunu çəltik təşkil edir ki, bu da ABŞ-dan gətirilir. Yerli tələbatı ödəmək məqsədilə üzüm, batat əkilir.

Adada bitkiçilikdən fərqli olaraq heyvandarlıq getdikcə inkişaf edir.

Puerto-Riko sahillərini yuyan dəniz suları balıqla zəngin olsa da balıq ovu o qədər də inkişaf etməmişdir. Kiçik gəmilərdə balıq ovu getdikcə artır və hal-hazırda onun illik ovu 1,1 min ton təşkil edir.

Puerto-Riko nəqliyyatı əsasən ABŞ şirkətlərinə məxsusdur. 755 km uzunluğa malik dəmiryolu bütün sahil zonanı əhatə edir və qurşaq şəklindədir. Ondan kənarlara kiçik qollar ayrılır ki, onlar da yerli xarakter daşıyır. Dəmiryolla daşınan yükün əsas hissəsi şəkər qamışı və şəkər-xammalının payına düşür. Şosse yollarının ümumi uzunluğu 13,8 min km-dir. Ən yaxşı və rahat yollar şəkər qamışı plantasiyaları ilə emal zavodları arasında salınmışdır.

Ada portları arasında yük dövriyyəsinə görə San- Xuan, Ponse, Mayaques fərqlənir. Fəaliyyətdə olan 2 dəniz portu vardır, bundan başqa San-Xuan və Aquadisyedə beynəlxalq aeroportlar fəaliyyət göstərir. Dənizlə daşınan yüklər əsasən ABŞ gəmiləri ilə həyata keçirilir, çünki ölkənin öz tərsanəsi yoxdur. Şəkər xammalı ixracında San-Xuan və Ponse portları üstünlük təşkil edirlər. San-Xuan portu Vest-Hind ölkələri içərisində ən yaxşısı hesab edilir. Onun ixrac etdiyi məhsul əsasən neft-kimya, elektron, elektrotexnika, formasevtika sənayesi məhsullarıdır. İdxal məhsulları içərisində sənaye xammalı

və yarımfabrikatlan, ərzaq məhsulları, maşın və avadanlıqlardır. Adanın xarici ticarətində ABŞ üstünlük təşkil edir. Belə ki, ixrac məhsullarının 70%-i, idxal məhsullarının isə 50%-i onun payına düşür. Bununla belə Yaponiya, Venesuela, Dominikan Respublikası ilə ticarət-iqtisadi əlaqələri getdikcə inkişaf edir. Turizmin inkişafı durmadan artır. Onlardan 3/4 hissəsi ABŞ, Kanada, Dominikan Respublikası, Venesuela, Meksika və İspan turistləridir.

TRINIDAD VƏ TOBAQO RESPUBLIKASI

Sahəsi – 5,1 min km^2
Əhalisi – 1,3 mln. nəfər (2005-ci il)
Paytaxtı – Port-of-Speyn

Trinidad və Tobaqo Respublikası Karib dənizində, cənubi Amerika sahilləri yaxınlığındakı Trinidad, Tobaqo və digər 5 kiçik adadan ibarətdir. Adaların sahil xətlərinin uzunluğu 362 km-dir.

Adalar bir-birinə yaxın yerləşmələrinə baxmayaraq, onlar geoloji strukturu, heyvanat aləmi, həm də iqlim şəraitinə görə fərqlənirlər. Trinidad - Cənubi Amerika materikinin kiçik bir hissəsidir. Onu materikdən Pariya körfəzi, Bokas-del-Draqon (əjdaha ağzı) Boka-del-Syerpe (ilan ağzı) boğazları ayırır.

Hər iki ada tropik rütubətli iqlimə malik olmalarına baxmayaraq, Tobaqonun havası daha təmiz olub orta aylıq temperatur 25-27°C-dir. Adaların qərbinə ildə 1200 mm yağıntı düşdüyü halda, şimal-şərq hissəyə 3000 mm-dən artıq yağıntı düşür.

Əsasən düzənliklərdən ibarət olan Trinidad adasının şərqində bataqlıqlar, cənub sahil boyu palçıq vulkanları yerləşir.

Başlanğıcını dağlardan götürən çoxlu qısa çaylar gəmiçilik üçün yararsızdır. Əsas çayları Pariya körfəzinə, Nariva çayı isə Atlantik okeanına tökülür. Manqr kolluqları ilə örtülmüş çay mənsəblərində bataqlıqlar əmələ gəlmişdir. Trinidad adasının qərb sahilləri Pariya körfəzinə qədər daha yaxşı mənimsənilmişdir. Burada ölkənin paytaxtı - Port-of-Speyn şəhəri, bütün əsas limanlar neftin hasil və emal mərkəzləri yerləşir (neft şelf zonada çıxarılır). Trinidad adasındakı dağlar və yüksəkliklər həmişəyaşıl rütubətli tropik meşələrlə örtülüdür. Ağac növlərinin müxtəlifliyinə və zənginliyinə görə ada, regionda birinci yeri tutur. Burada ispan kedri (sedrelo), makaqoni, qırmızı səndəl və 50-dən çox başqa qiymətli ağac növlərinə rast gəlinir.

Lakin dağların külək tutan yamaclarında va adanın mərkəzində meşələrin çox hissəsi doğranmışdır. Burada və ölkənin qərbində kakao və kakos palması plantasiyaları salınmış antropogen Savanna üstünlük təşkil edir.

Adanın fauna tərkibi Cənubi Amerika faunası ilə oxşardır. Burada pekari, atselot, aquti, meymunlar və uçan yarasalar yaşayır. Həm də çoxlu tısbağa, kərtənkələ, ilanlar və timsahlar da vardır.

Trinidad adasında quşlar daha çoxdur. Burada kalibri quşunun 40-dan artıq növü yaşayır.

Tobaqo adası Trinidaddan 30 km məsafədə yerləşir. Adanın mərkəzi hissəsini tutan və çox da hündür olmayan dağ silsiləsi yaşıllığa bürünmüşdür. Dağ silsiləsi qısa çayların dərələri ilə çox yerdə kəsilib parçalanmışdır. Adanın münbit vadiləri və cənub sahili kakao və kakos palmaları ilə örtülüdür. Bunlar adanın əsas mədəni bitkiləridir. Tobaqo yaşıl meşələri, ağ narın qumlu çimərlikləri, sahil yaxınlığında yerləşən mərcan riflərnin gözəlliyi ilə diqqəti cəlb edir.

Hətta çoxmillətli Vest-Hinddə Trinidad etnik tərkibinin çeşidi ilə fərqlənir. Zəncilər və mulatlan əhalinin 43%-ni, həqiqi hindlilər (Hindistan) 40%-ni təşkil edir. Ölkədə həmçinin avropalılar və çinlilər yaşayır. Avropalılardan əsasən ispanlar, portuqallar, ingilislər və fransızlar yaşayır. Bunlardan əlava adalarda venesuelalılar, amerikanlar, hindilərdən -aravaklar məskunlaşmışlar.

Trinidad və Tobaqoda dövlət dili - ingilis dilidir. Eyni zamanda ölkədə hindu, ispan və putya (fransız dili əsasında dialekt) dilləri də yayılmışdır.

Dindarların 32%-i katolik, 24%-i indiuzm, 14%-i anqilikan, 14%-i protestant, 6%-i islam dininə etiqaq edir.

Ölkədə təbii artım kəçən əsrin 60-cı illərinin əvvəllərində 3%-dən artıq olduğu halda, bu göstərici 70-ci illərdə 1,8%-ə enmişdir. Hazırda təbii artım hər 1000 nəfərə görə 10 nəfər təşkil edir.

Əhalinin əsas hissəsi Trinidadın qərb sahilində Port-of-Speyn və San-Pernando şəhərləri ətrafında və onların arasında, kənd təsərrüfatı rayonunda yerləşir. Bataqlıq şərq və cənub sahilləri demək olar ki, heç məskunlaşmamışdır.

Əhalinin 65%-i şəhərlərdə yaşayır. Ən böyük şəhəri onun paytaxtı - Port-of-Speyndir. Port-of-Speyn ölkənin baş inzibati, maliyyə-sənaye və mədəni mərkəzidir. Karib dənizində ən böyük portdur. Şəhər ispan qəsəbəsi olan Puerto-de-İspaniyanın yerində əmələ gəlmişdir. Pariya körfəzi sahilindəki bu böyük portun bünövrəsi XVIII əsrdə qoyulmuşdur. Ölkənin ticarət və nəqliyyat mərkəzidir. Şəhərdə neft-kimya, yeyinti, ağac emalı, toxuculuq, inşaat materialları istehsalı, neft emalı zavodları və tərsanə vardır.

Pariya körfəzi sahilində yerləşən və əhalisi 60 min nəfər olan San-Fernando əhəmiyyətinə və böyüklüyünə görə 2-ci şəhərdir.

Tabaqo adasının inzibati mərkəzi Skarbaro şəhəridir.

Trinidad və Tobaqo - respublikadır. B.Britaniyanın başçılıq etdiyi millətlər birliyinin üzvüdür. Konstitusiyası 1976-cı ildən qüvvədədir. Dövləün başçısı prezidentdir. Qanunverici hakimiyyət Nümayəndələr palatası və senatdan ibarət parlamentə məxsusdur. İcra hakimiyyətini baş nazir başda olmaqla hökumət həyata keçirir. .

Trinadad və Taftoaqo adalarını 1498-ci ildə X.Kolumb kəşf etmişdir. İspan işğalından (XVI əsrdən) sonra yerli əhalinin bir qismi müstəmləkəçilər tərəfindən məhv edildi. Plantasiya təsərrüfatında işləmək üçün kolonistlər Afrikadan zənci qullar gətinnəyə başladılar. 1797-ci ildə Trinidad, 1814-cü ildə Tobaqo İngiltərənin hökmranlığına keçdi. 1866-cı ildə Trinidadın cənub-qərbində neft aşkar edildi, təsərrüfatın iqtisadi strukturu tədricən dəyişdi, sənaye proletariatı

meydana gəldi. Milli azadlıq hərəkatının genişlənməsi Böyük Britaniyanı 1950-ci ildə Trinidad və Totbaqoya daxili özünüidarə hüququ verməyə məcbur etdi. 1956-cı ildə yaranmış Xalq Milli Hərəkat Partiyası adalara istiqlaliyyət vermək tələbini irəli sürdü. Böyük Britaniya 1962-ci ildə Trinidad və Tobaqoya müstəqillik verdi.

Trinidad və Tobaqoya Karib hövzəsi ölkələri içərisində iqtisadi cəhətdən inkişaf edən ölkələrdən biridir. Ölkədə zəngin neft və təbii qaz yataqları vardır. Ölkədə iqtisadiyyatın əsasını neft hasilatı təşkil edir. ÜMM-də neftin payı 15%, ixracat həcminin isə 80%-ni neft va neft məhsulları tutur. Kənd təsərrüfatının ÜMM-də payı cəmi 5%, dağ-mədən sənayesi və neft emalı 30%, digər emal sənayesinin payı isə 7% təşkil edir.

Ölkədə intensiv olaraq aparılan kəşfiyyat işlərinə baxmayaraq neftin hasilatı getdikcə azalır. Ölkədə qaz hasilatının artırılması nəzərdə tutulmuşdur. Piç-Leyk rayonunda unikal yataqdan yüksək keyfiyyətli təbii asfalt istehsal edilir.

Ölkədə kimya sənayesi (o cümlədən azot kübrəsi istehsalı), əczaçılıq, yeyinti, toxuculuq, ayaqqabı, tikinti materialları istehsalı və digər sənaye sahələri inkişaf etdirilir. 1981-ci ildə Poynd-Lisas şəhərində (Karib hövzəsində birinci) ildə 700 min ton polad istehsal edən tam silsiləli metallurgiya kombinatı tikilib istifadəyə verilmişdir. Ölkədə gətirilmə xammal əsasında iri alüminium zavodu fəaliyyət göstərir. Trinidadda çox da böyük olmayan yığma və təmir müəssisələri (avtomobillərin, televizorların, soyuducuların və məişət kondisionerləri işləyir. Ölkədə təbii qaza əsaslanan elektroenergetika inkişaf etməkdədir. Ölkənin kənd təsərrüfatında əsas rolu transmilli korporasiyalar oynayır.

2005-ci ildə ölkədə 1.017 min ton şəkər qamışı, 2 min ton kakao, 1,9 min ton qəhvə, 6,7 min ton çəltik, 2 min ton sitrus meyvələri toplanmışdır. Heyvandarlıq və balıqçılıq məhsulları daxili tələbatı ödəmir. Ət və ət məhsullarının 75%-i idxal hesabınadır.

Valyuta gəlirinin başlıca mənbəyi - xarici turizmdir. Ölkəyə ildə 200 min nəfərdən çox turist gəlir. Ölkəyə gələn turistiərin çox hissəsi Tobaqo adasının payına düşür.

Uzunluğu 8 min km olan avtomobil yollarının 4 min km bərk örtüklüdür. Port-of-Speyn böyük tranzit portudur. Paytaxtın yaxınlığında Piarkoda beynəlxalq airoport yerləşir. Ölkədə boru kəmərinin rolu artmaqdır.

Əsas ticarət portnyorları: ABŞ, Yaponiya, Niderland, Karib hövzəsi ölkələri, Venesuela, AİB-dir.

Ölkənin pul vahidi - Trinidad və Tobaqo dollandır.

DOMİNAKA BİRLİYİ

Sahəsi -0,8 min km^2

Əhalisi – 70 min nəfər (2008-ci il)

Paytaxtı – Rozo

Vest-Hindin şərqində Karib hövzəsində, eyni adada Kiçik Antil adaları qrupunda yerləşən dövlətdir. Sahil xəttinin uzunluğu 148 km-dir. Relyefi əsasən dağlıqdır. Əsas təbii sərvətləri oduncaq, pemza və əhəngdaşıdır. Hazırda Dominika adasında fəaliyyətdə olan vulkan yoxdur. Qeyzerlər və istibulaqlar rayonunda olan qayalar çox mənzərəlidir. Bəzi yerlərdə sahilboyu qara və sarı qumlu çimərliklər uzanır.

Adanın tropik rütubətli iqlimi isti şimal-şərq passat küləklərinin təsiri ilə yumşalır. Orta aylıq temperatur 25-27°C arasındadır. Ən əlverişli havalar noyabr-mart aylarında olur. İllik yağıntıların miqda 2500 mm olub, ərazi üzrə qeyri-bərabər paylanır. Dominikanın şərq hissəsindəki dağların külək tutan yamaclarına 5000 mm, ölkənin paytaxtı Rozo şəhərinə isə ildə 2000 mm yağıntı düşür. Vulkan mənşəli münbit torpaqları tropik bitkilərdən yüksək məhsul götürməyə imkan verir. Dağlardakı zümrüd yaşıllıqlar arasındakı axan çoxlu xırda çaylar üzərində gözəl şəlalələr yaranmışdır.

Dominikanın bitki örtüyü çox zəngindir. Hətta paytaxtın adı da bitki mənasını daşıyır (fransız dilində «rozo» qamış deməkdir). Dağ yamaclarında sıx rütubətli tropik meşələr qiymətli ağac növləri ilə zəngindir. Meşədə çoxlu bambuk və müxtəlif palma ağacları vardır.

Heyvanat aləmi əsasən quşlarla təmsil olunur. Ətraf dəniz suları müxtəlif balıq növləri ilə zəngindir.

Dominika Birliyinin əhalis2008-ci ildə 70 min nəfər olmuşdur. Dominikanın əhalisinin əksəriyyəti qara afrikalılar və mulatlardır (90%). Həmçinin hindu tayfası - kariblər və avropalılar (ingilislər, fransızlar və b.) yaşayır. Rəsmi dil - ingilis dilidir, həmçinin kreol dili də yayılmışdır. Dinə etiqad edən əhalinin 77% ni katoliklər, 15%-ni isə protestantlar təşkil edir. Təbii artım hər 1000 nəfərə 13 nəfərdir.

Şəhər əhalisi ümumi əhalinin 50%-ni təşkil edir. Rozo ölkənin ən böyük şəhəridir (30 min nəfər). Əhalisinin sayına görə Poremut (10 min nəfər) 2-ci şəhərdir.

Dominika adası X.Kolumb tərəfindən 1493-cü ildə kəşf edilmişdir. Adada ilk avropa məskəninin əsasını 1632-ci ildə fransızlar qoymuşlar. XVII-XVIII əsrlərdə Dominika gah Fransanın, gah da İngiltərənin tabeliyində olmuşdur. 1815-ci ildə Vyana sazişinə əsasən ada Böyük Britaniyaının tabeliyinə keçdi. Avropalılar adada qul əməyi əsasında plantasiya təsərrüfatı yaratdılar.

1978-ci ildə isə Böyük Britaniya ona müstəqillik vermişdir. Millətlər birliyinin üzvüdür.

Dövlət quruluşuna görə parlamentli respublkadır. Qanunvericilik ingilis mülki hüquq sisteminə əsaslanır. İcra hakimiyyəti prezidentin və baş nazirin əlindədir. Qanunverici hakimiyyət bir palatalı parlamentdə - Nümayəndələr palatası ilə təmsil olunur.

Vest-Hind regionunda Dominika zəif inkişaf etmiş aqrar ölkələrdən biridir. Ölkə iqtisadiyyatının əsasını kənd təsərrüfatı və turizm təşkil edir. DMM-un 30%-i kənd təsərrüfatının payına düşür. Əmək qabliyyətli əhalinin 40%-i kənd təsərrüfatında çalışır.

Kənd təsərrüfatının və meşə təsərrüfatının vacib sahələri, faydalı qazıntıların hasilatı və emalının əsas sahələri xarici kapitala məxsusdur.

Ölkə güclü surətdə xarici maliyyə yardımından asılıdır (əsasən Böyük Britaniya, Kanada və ABŞ-dan).

Kənd təsərrüfatında şumlanan torpağın çox hissəsi banan plantasiyaları və sitrus bitkiləri altındadır. Ölkədə həmçinin qəhvə, kakao, vanil, kakos qozu vəl manqo becərilir. Heyvandarlıq və balıqçılıq nisbətən inkişaf edir. Ölkə ərazisinin 40%-dən çoxu meşələrlə örtülüdür. Burada xarici şirkətlər oduncaq tədarükü ilə məşğuldur.

Sənaye müəssisələrində əsasən şirələr, efir yağları, rom, kopra, sərinləşdirici içkilər, meyvə konservləri, siqarlar və başqa məhsullar istehsal olunur.

Avtomobil yollarının ümumi uzunluğu 752 km-dir. Bundan 370 km-i bərk örtüklüdür. Əsas portları: Rozo və Portemutdur.

Ticarət balansının kəsiri xarici turizmin hesabına ödənilir. Əsas xarici ticarət partnyorları - Böyük Britaniya, ABŞ, Kanada, Karib birliyi ölkələri və b.-dir.

Pul vahidi - şərqi Karib dollarıdır.

SENT-LÜSİYA

Sahasi — 0,6 min km^2
Əhalisi — 0,2 mln nəfər (2008-ci il)
Paytaxtı — Kastri

Ölkə Vest-Hinddə, Kiçik Antil adaları arxipelağının cnub-şərq hissəsində, eyni adlı adada yerləşir. Sahil xəttinin uzunluğu 158 km-dir. Təbii şəraiti insan həyatı üçün əlverişli olan adanın turizmin inkişafı üçün bir çox cəlbedici xüsusiyyətləri vardır.

Yaxınlığındakı adalar kimi Sent-Lüsiya adası da vulkan mənşəlidir. Dağlardan axan çoxlu qısa çaylardan münbit vadilərin suvarılmasında istifadə edilir. Bəzi çaylar üzərində şəlalələr əmələ gəlmişdir.

Hündürlüyü 700 m-dən artıq olan sönmüş Qros-Pliton və Pti-Piton vulkanlarının konusları çox mənzərəli meşələrlə örtülüdür.

Adanın iqlimi tropik passatdır. Orta aylıq temperatur 26°C, orta illik yağıntıların miqdarı 2500 mm-dir. Adanın şərq yamacları 3450 mm, qərb hissəsi isə 1500 mm yağıntı alır. Daimi əsən şimal-şərq passatlarının adanın iqliminə böyük təsiri vardır. Adada quraq mövsüm yanvardan aprelə kimi, yağıntılı dövr isə maydan-avqusta kimi davam edir. Adanın bitki örtüyü çox zəngindir. Ərizinin 20%-ni tutan tropik meşələr qiymətli ağac növləri və arxideya gülü ilə zəngindir.

Sent-Lüsiyanın heyvanat aləmi kasıb olub, əsasən müxtəlif quş növləri ilə təmsil olunur. Adanı əhatə edən dəniz suları çoxlu balıq, xərçəng və molyuskalarla zəngindir.

Ölkə əhalisinin sayı 196 min nəfərdir (2008-ci il). Adanın əsas əhalisi - zəncilər və mulatlardır. Rəsmi dil ingilisdir. Lakin əhalinin əksəriyyəti fransız dilinin yerli dialektində (patua) danışır. Dindarları - katolikdir (əhalinin 90%-i). Əmək ehtiyatları, əsasən, kənd təsərrüfatı, sənaye və s. sahələrdə çalışırlar. Şəhər əhalisi ümumi əhalinin 42%-ni təşkil edir. Ən iri şəhərləri: Kastri (60 min nəfər), Labori (5 min nəfər).

Sent-Lusiya Millətlər Birliyi tərkibində müstəqil dövlətdir. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır, onu qubernator təmsil edir. Qanunverici orqan əhalinin 5 il müddətinə seçdiyi ikipalatalı (senat və məclis palatası) parlamentdir. İcra hakimiyyəti hökumətə məxsusdur.

Sent-Lusiya adasını 1502-ci ildə X.Kolumb kəşf etmişdir. Adaya sahib olmaq uğrunda İngiltərə ilə Fransa arasında uzun müddət mübarizə getmiş, nəhayət 1814-cü ildə Sent-Lusiya qəti olaraq Böyük Britaniyanın müstəmləkəsinə çevrilmişdir. 1979-cu ilin fevralında istiqlaliyyət qazanmışdır.

Sent-Lusiya iqtisadiyyatının əsası kənd təsərrüfatı və turizmdir. Kənd təsərrüfatında iqtisadi aktiv əhalinin 43%-i çalışır. Banan, kakos qozu ən vacib ixracat mallarıdır, kakao, sitrus bitkiləri, üzüm yetişdirilir. Qərbi Avropa ölkələrinə bu məhsulları ixrac etmək üçün (manqo, avokado, qreypfrut) yeni plantasiyalar salınır.

Heyvandarlıq asılı rol oynayır. İri buynuzlu mal-qaranın sayı 12 min baş, donuzlar 12 min baş, qoyun 15 min baş, keçi 12 min baş olmuşdur (20005-ci il). Həmin il 2,1 min ton balıq ovlanmışdır.

Ölkə faydalı qazıntı növləri cəhətdən kasıbdır. Kanada şirkəti neft və təbii qaz axtarışı üçün kəşfiyyat işləri aparır. Emal sənayesində əsas rolu xarici şirkətlərin filialları oynayır. Onlar xarici xammal vəl ucuz yerli işçi qüvvəsindən istifadə etməklə ixracat üçün elektrik cihazları, plastik kütlələrdən müxtəlif məmulatlar və paltar istehsal edirlər.

Turizm ölkə iqtisadiyyatının 3-cü sahəsidir. Ada Vest-Hinddə nadir ərazilərdən biridir ki, təbii landşaftına toxunulmamışdır. Adanın çimərlikləri və Suyriyedə kükürdlü bulaqlar məşhurdur.

Ölkədə 760 km uzunluğunda avtomobil yolları vardır. Vye-Forun yaxınlığında «Xevanorra» beynəlxalq airoportu yerləşir.

Əsas ticarət partnyorları - Böyük Britaniya, ABŞ, Kanada, Yaponiya və Karib birliyi ölkələridir.

Pul vahidi - Şərqi Karib dollarıdır.

BARBADOS DÖVLƏTİ

Sahəsi – 0,4 min km^2
Əhalisi – 0,3 mln. nəfər (2005-ci il)
Paytaxtı – Brictaun

Barbados - Vest-Hinddə, Kiçik Antil adaları qrupunda eyni adlı adada dövlətdir. Sahil xətti uzunluğu 77 km-dir. Səthi yastıdır. Çökmə süxurlardan, əsasən əhəngdaşından ibarətdir. Adanın bəzi yerləri mərcan rifləri ilə əhatələnmişdir. Əsas təbii resursları - neft və təbii qaz, balıqdır. Şumlanan torpaq ölkə ərazisinin 77%-ni tutur.

İqlimi tropik passatdır. Orta temperatur ən isti ayı (sentyabr) 27°C, ən soyuq ayı (fevral) 25°C-dir. İllik yağıntı 1400 mm-dir. Tez-tez fırtınalar olur. Yağıntılar iyundan oktyabr ayına kimi düşür. Münbit qəhvəyi-qırmızı lateritləşmiş torpaqlar yayılmışdır. Tropik meşələri var.

Ölkədə əhalinin sayı 2005-ci ildə 300 min nəfər idi. Əhalinin əksəriyyəti qara afrikalılardır (80%-i), Avropalılar 4%, metistlər 16%-dir. Dövlət dili ingilis dilidir. Dindarları: protestantlar 67%, digər protestant cərəyanları 12%, katoliklər 4%. Təbii artım yüksək deyil. Hər 1000 nəfərə 16 nəfər doğulub, 8 nəfər ölüb, təbii artım 8 nəfərdir. Əhalinin 50%-dən çoxu şəhərlərdə yaşayır. Ən böyük şəhəri onun paytaxı Brictaun şəhəridir (100 min nəfər).

Barbados Millətlər birliyi tərkibində müstəqil dövlətdir. Qüvvədə olan konstitusiyası 1966-cı ildə qəbul edilmişdir. Dövlət başçısı Böyük Britaniya kraliçası; onu general-qubenator təmsil edir. Qanunverici hakimiyyət parlamentə məxsusdur. İcraedici hakimiyyətini baş nazir başda olmaqla hökumət həyata keçirir.

Avropalılar gələnədək adada hindlu tayfaları, aravaklar və kariblər yaşayırdı. 1518-ci ildə adada olmuş ispanlar ona Barbados adını verdilər (ispanca barbado-saqallı sözündən; üzərində saqqala bənzər ot bitən çoxlu əncir ağacı olduğu üçün). 1605-ci ildə adaya gələn ingilislər 1625-ci ildə Barbadostda öz kaloniyalarını yaratdılar. 1628-ci ildə isə Brictaun şəhərinin əsasını qoydular. Şəkər qamışı plantasiyalarının inkişafı ilə əlaqədar Barbadosa Afrikadan qullar gətirilməyə başlandı. 1838-ci ildə Barbadosda quldarlıq ləğv edildi.

Barbados 1958-ci ildə Böyük Britaniyanın yaratdığı Vest-Hind Federasiyasına daxil edildi. 1961-ci ildə Barbados daxili özünüidarə hüququ aldı. 1966-cl ildə Barbadosa istiqlaliyyət verildi, dekabr ayında isə BMT-yə qəbul olundu. 1975 ci ildə Latın Amerikası İqtisadi Şurasına daxil olmuşdur.

Barbados - zəif inkişaf etmiş ölkədir, coğrafi əmək bölgüsündə asılı mövqedədir. İqtisadiyyatı ABŞ, Böyük Britaniya və Kanadanın kapitalından asılıdır. İqtisadiyyatın əsasını kənd təsərrüfatı və turizm təşkil edir.

Kənd təsərrüfatında iqtisadi fəal əhalinin 8,5%-i çalışır, ÜDM-un 7,2%-i və ixracat dəyərinin 1⁄4 onun payına düşür. Kənd təsərrüfatında ərazinin 77%-i istifadə olunur. Əsas bitki - şəkər qamışıdır ki, əkin sahəsinin 1/2-ni tutur. Bu, birinci növbədə plantasiya təsərrüfatıdır. Tərəvəzçiliyin və bahqçılığın əhəmiyyəti artmışdır. Heyvandarlıq zəif inkişaf etmişdir. 2005-ci ildə 20 min baş iri buynuzlu mal-qara, 50 min baş donuz, 60 min baş qoyun və 35 min baş keçi olmuşdur.

Emal sənayesinin başlıca sahəsi yeyinti sənayesidir. Bu sahədə şəkər istehsalı fərqlənir. 2005-ci ildə 80 min ton şəkər istehsal edilmişdir. Şəkər

istehsalatından əlavə ölkənin yeyinti sənayesində rom, müxtəlif yağlar və başqa məhsullar əsas yer tutur. Yüngül sənaye (toxuculuq və tikiş) sənayesidə inkişaf etməkdədir.

Gəlirin əsas mənbəyi – xarici turizmdir. Xarici turistlərin 40%-i ABŞ-ın payında düşür.

Avtomobil yollarının ümumi uzunluğu 1,6 min km-dir. Bunun 4⁄5 hissəsi bərk örtüklü yollardır. Əsas portu – Brictaundur. Paytaxtdan 18 km aralı beynəlxalq airoport yerləşir.

Əsas ticarət portnyorları: Karib hövzəsi ölkləri, ABŞ, Böyük Britaniya, Kanada, Yaponiya, Venesuela və AFR-dir. Pul vahidi – Barbados dollarıdır.

ANTİQUA VƏ BARBUDA

Sahəsi – 0,4 min km^2
Əhalisi – 67,5 min nəfər (2007-ci il)
Paytaxtı – Sent-Cons

Vest-Hinddə ada dövləti olub, Karib dənizinin şərq hissəsində yerləşər. Sahil xəttinin uzunluğu - 153 km-dir. Ölkə - Antiqua, Barbuda və Redonda adalarından ibarətdir. Təbii resursları az olan bu mərcan mənşəli və əhəngdaşlı adalarda tez-tez vulkanlar püskürür.

Mövsümi temperaturun azacıq tərəddüd etdiyi adaların iqlimi tropik rütubətlidir. İldə 1100-1200 mm yağıntı düşür. Hava şəraiti quru mövsümdə (noyabrın axırından mayın əvvəlinə kimi) daha əlverişlidir. Belə hava şəraiti, palmalarla əhatə olunmuş gözəl qumlu çimərliklər həm də ABŞ, İngiltərə, Kanada və başqa ölkələrdə hava nəqliyyatı vasitəsi ilə əlaqə yaranması Antiqua və Barbudanı (eləcə də Vest-Hindin bəzi adalarını) dəbdə olan qış kurort yerlərinə çevrilmişdir.

Təbii bitki və heyvanat aləmi əhalisi az olan Barbuda adasında daha yaxşı qalmışdır. Barbuda adası Antiqua adasından 48 km şimalda yerləşir. Düzən relyefı mərcan mənşəli adanın qərb hissəsindəki gölməçələrdə qoruq şəraitində çoxlu su quşları qalmaqdadır. Adada quşlardan başqa gətirilmiş marallar da saxlanılır.

Ölkə əhalisinin 60 min nəfəri Antiqua adasında yaşayır. Sakinlərin əksəriyyəti Afrika mənşəlidir, az bir hissəsi Böyük Britaniyadan və Portuqaliyadan gələnlərdir. Rəsmi dili - ingilis dilidir.

Əhalinin 45%-i şəhərlərdə yaşayır. Ən böyük şəhəri ölkənin paytaxtı Sent-Cons şəhəridir.

Antiqua və Barbuda 1981-ci ildə siyasi müstəqillik qazanmışdır. Dövlətin başçısı İngiltərə monarxıdır, general-qubernatorla təmsil olunur. İcra hakimiyyəti baş nazirə məxsusdur. İkipalatalı parlament - yuxarı (senat) palatadan və aşagı (nümayəndələr palatası) palatadan ibarətdir.

1493-cü ildə X.Kolumb tərəfindən kəşf olunmuş Antiqua və Barbuda adaları İspaniyanın müstəmləkəsinə çevrilmişdi. 1632-ci ildə adalar Böyük Britaniyanın idarəsinə keçmişdi. 1967-ci ildə Böyük Britaniya ilə assosiasiya yaratmışdı. 1981-

ci ildə isə müstəqillik əldə edib Britaniyanın rəhbərlik etdiyi Millətlər Birliyinə üzv olmuşdur. Dövlət başçısı Böyük Britaniya monarxıdır.

Antiqua və Barbuda iqtisadiyyatı birtərəfli inkişafl edən ölkədir.

İqtisadi fəal əhalinin 25%-i xairci turistlərə xidmət ilə bağlıdır. 2005-ci ildə ölkəyə 300 min turist gəlmişdir. Bunlardan 125 min nəfərini ABŞ, Böyük Britaniya və Kanadadan gələn turistlər təşkil edir.

Kənd təsərrüfatında əsas bitki şəkər qamışıdır. Bundan əlavə pambıq, tərəvəz bitkiləri, qarğıdalı və banan da becərilir. Ölkədə iri buynuzlu mal-qara, donuz, qoyun, keçi bəslənilir. Lazım olan ərzaq məhsullarının 1⁄4-i idxal olunur. Ölkədə şirin suyun çatışmaması kənd təsərrüfatının inkişafını çətinləşdirir.

Sənayenin əsas sahələri: yeyinti (şəkər, rom istehsalı) paltar, məişət elektrik cihazları, avtomobil təmiri zavodu fəaliyyət göstərir.

Avtomobil yollarının ümumi uzunluğu 960 km-dir. Antiqua adasında 97,5 km uzunluğunda dəmir yolu vardır. Əsas dəniz portu Sent-Consdur. Antiqua adasında beynəlxalq aeroport, Borbuda adasında isə yerli aeroport fəaliyyət göstərir.

Əsas ticarət portnyorları: Böyük Britaniya, ABŞ, Trinidad və Tobaqo, Baham adaları və Venesueladır.

SENT-VİNSENT VƏ QRENADİNA

Sahəsi – 0,4 min km^2
Əhalisi 120 min nəfər (2008-ci il)
Paytaxtı – Kinqstaun

Sent-Vinsent və Qrenadina dövləti Kiçik Antil adalarında, Vest-Hinddə, Külək tutan adalar qrupunda yerləşir. Sahil xəttinin uzunluğu 84 km-dir.

Sent-Vinsent vulkan mənşəli adadır. Adanın ən yüksək yeri fəaliyyətdə olan Sufriyer vulkanıdır (hündürlüyü 1234 m). Bu vulkanın kraterində dərinliyi 600 m-ə çatan göl yerləşir.

Adaların iqlimi tropik, passatdır. Orta aylıq temperatur 26°C-dir. İl ərzində 2500 mm yağıntı düşür. Lakin adaların şərq yamacları qərb və cənub yamaclara nisbətən iki dəfə çox yağıntı alır.

Quraq mövsüm dekabrdan aprelə kimi davam edir.

Adanın mərkəzi hissəsi meşə ilə örtülüdür. Dominika və Sent-Lüsiya kimi Sent-Vinsent özünün gözəl limanları və buxtaları, palma ilə əhatələnmiş ağ qumlu çimərlikləri ilə Vest-Hinddə seçilən adalardan biridir. Kinqistaunda 200 il bundan öncə gözəl botanika bağı salınmışdır.

Adaların heyvanat aləmi əsasən quşlarla təmsil olunur. Sahil suları balıq, xərçənc və molyuskalarla

zəngindir.

Əhalisi, əsasən zəncilər və mulatlar. lkədə həmçinin ingilislər, portuqallar və hindilərdir. Dövlət dili ingilis dilidir. Dindarların əksəriyyəti protestantlardır. Təbii

artım hər 1000 nəfərə görə 20 nəfərdir. Ölkənın paytaxtı Kinqistaun, digər şəhərləri Corctaun, Şatobeler Sent-Vinsent adasında, Port-Elzabet Bekiya adasındadır.

Sent-Vinsent və Qrenadinanın 1978-ci ildə qəbul edilmiş konstitusiyası qüvvədədir. Böyük Britaniyanın rəhbərlik etdiyi birliyin üzvüdür. Dövlət başçısı ingilis kraliçasıdır (qubernatorla təmsiI olunur). Qanunverici orqanı 5 il müddətinə seçilən Məclis Palatasıdır. İcra hakimiyyəti hökumətə məxsusdur.

Sent-Virsent və Qrenada 1498-ci ildə X.Kolumb tərəfindən kəşf edilmişdir. 1763-cü ildən İngiltərənin müstəmləkəsinə çevrilmişdir. 1979-cu ildə müsləqillik qazanmışdır. 1980-ci ildən BMT-nin üzvüdür.

Ölkə iqtisadiyyatının əsasını kənd təsərrüfatı və turizm təşkil edir. İqtisadi fəal əhalinin 40%-i kənd təsərrüfatında çalışır.

Sent-Vinsent adasının 1⁄3 hissəsi kənd təsərrüfatı üçün yararlıdır. Daha məhsuldar torpaqlar, eləcə də meşə massivləri xarici kapitala və yerli plantatorlara məxsusdur. Əsas kənd təsərrüfatı bitkiləri: banan, muskat qozu, kakos qozu, manqo, qəhvə və kakao becərilir. Sent-Vinsent - arrourutdan (nişastası olan kökü meyvə) un istehsal edən qabaqcıl ölkədir. Dünya üzrə bu bitkidən alınan un məhsulunun 90%-ni verir. Ölkədə həmçinin maniok, batat, yams və yerkökü də becərilir. Sent-Vinsentdə 10 min baş iri buynuzlu qaramal, 9 min baş donuz, 13 min baş qoyun, 5 min baş keçi vardır. Ölkədə ildə 1,2 min ton balıq ovlanır. Sənayesi əsasən yerli kənd təsərrüfatı xammalının emalı ilə məşğuldur. Ölkədə mebel və paltar istehsal edən sənaye müəssisələri fəaliyyət göstərir. Ümumi gücü 10 min kvt olan elektrik stansiyalarında ildə 35 mln kvts enerji istehsal edilir.

Sent-Vinsentdə dəmir yolu yoxdur. Avtomobil yollarının uzunluğu 1785 km-dir. Əsas portu Kinqstaun şəhəridir. Ernos-Veyl beynəlxalq əhəmiyyətli aeroportdur.

QRENADA

Sahəsi – 0,3 min km^2
Əhalisi – 90 min nəfər (2007-ci il)
Paytaxtı – Sent-Corces

Karib hövzəsində, Vest-Hind subregionunda müstəqil dövlətdir. Kiçik Antil adalarında yerləşir. Ölkənin yerləşdiyi eyni adlı Qrenada adasının sahəsi 311 km^2-dir. Sahil xəttinin uzunluğu 121 km-dir. Əsasən dağlıq relyefə malik olan Qrenada və başqa adalar vulkan mənşəlidir. Adanın ən yüksək yeri San-Katerik zirvəsidir (840 m).

Karib hövzəsinin digər adaları kimi Qrenadanın da iqlimi tropik, passatdır. Qrenadada yağıntılı dövr may ayından oktyabra qədər davam edir. İldə orta hesabla 1500-1600 mm yağıntı düşür. Orta aylıq temperatur 26°C-dir. İyuldan oktyabr ayına kimi tez-tez qasırğalar baş verir. Adada çoxlu bulaqlar və kiçik su axınları vardır. Ona görə də adalar şirin su ilə təmin olunmuşdur.

Qrenadanın başlıca təbii sərvəti vulkan mənşəli münbit torpaqlardır. Adaların iqlim şəraiti ilboyu kənd tasərrüfatı bitkilərinin becərilməsinə imkan yaradır. Qrenadada nisbətən qiymətli ağac növləri olan rütubətli meşələr var. Adaların heyvanat aləmi əsasən quşlarla təmsil olunur. Adaları əhatə edən dəniz suları müxtəlif balıq növləri, xərçəng və molyuskalarla zəgindir.

Karriaku adasının səthi ovalıq-düzənlikdir. Buranın əlverişli qumlu çimərlikləri çoxlu turistləri özünə cəlb edir.

Qrenadanın əhalisi 90 min nəfərdir. Ən böyük etink qruplar afrikalılar (50%-dən çox) və mulatlardır (40%). Ölkədə həmçinin hindular və avropalılar da yaşayır. Dindarların 64%-ni katoliklər, 22%-ni protestantlar təşkil edir. Rəsmi dil - ingilis dilidir. Həmçinin fransız dilində də danışırlar. Ölkədə təbii artım yüksək olub, hər 1000 nəfərə 23 nəfər təşkil edir.

Ən böyük şəhəri - onun paytaxtı Sent-Corcesdir. Vest-Hind regionunda ən gözəl şəhərlərdən biridir. Əhalinin sayına və sənayenin inkişafına görə Sent-Corcesdən sonra Qrenvill ölkənin 2-ci şəhəri hesab edilir. Əhalisinin sayına görə 3-cü yeri Soter şəhəri tutur.

Qrenada Britaniyanın rəhbərlik etdiyi birliyin üzvüdür. 1974-cü ildə Böyük Britaniyadan siyasi müstəqillik almışdır. General-qubernatorla təmsil olunan Britaniya monarxı (kraliça) dövlət başçısı sayılır. Ölkədə icra hakimiyyəti baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur.

Avropalılar Qrenadaya gələnə kimi, adada Karib hinduları yaşayırdı. Adanı 1498-ci ildə X.Kolumb kəşf etmişdir.

Qrenada iqtisadi cəhətdən zəif inkişaf edən ölkədir.

Ölkə iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Muskat qozu yığınıına görə dünyada İndoneziyadan sonra 2-ci yeri tutur. Bunlardan əlavə ölkədə pambıq, şəkər qamışı, kakos qozu və sitrus bitkiləri də becərilir.

Ölkədə heyvandarlıq, balıqçılıq və meşə təsərrüfatı da inkişaf etməkdədir.

Qrenadanın sənayesində başlıca yeri kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan yeyinti və yüngül sənaye tutur. Ölkədə şəkər, bitki yağı, rom, pivə, siqarət, alkoqolsuz içkilər, meyvə şirələri, konservlər və paltar istehsal olunur. Ümumi gücü 10 min kvt olan elektrik stansiyalarında ildə 30 mln kvt enerii istehsal olunur.

İqtisadi aktiv əhalinin 30%-dən çoxu xarici turistlərə xidmət edir.

Uzunluğu 1000 km-dən artıq olan avtomobil yollarının 770 km-i bərk örtüklüdür. 1984-cü ildən beynəlxalq aeroport fəaliyyət göstərir. Başlıca dəniz portu, ölkənin paytaxtı Sent-Corcesdir.

Əsas ticarət portnyorları: ABŞ, Kanada, Böyük Britaniya, Karib birliyi ölkələridir.

SENT-KİTS VƏ NEVİS FEDERASİYASI

Sahəsi – 0,3 min km^2

Əhalisi – 40 min nəfər (2008-ci il)

Paytaxtı – Baster

Vest-Hindin şərqində, Kiçik Antil arxipelağının Küləktutmayan adalar qrupuna daxil olan adalarda yerləşir.

Təbii şəraitinə görə Sent-Kits (Sent-Kristoferdə deyilir) yaxınlığında yerləşən (3 km) Nevis adası ilə çox oxşardır. Vulkan mənşəli olan bu iki ada demək olar ki, eyni hündürlüyə malikdirlər. Bu Sent-Kitsdə sönmüş Mizeri vulkanı (1155 m) və Nevisdə-Nevis-Pik (985 m) vulkanıdır. Meşələrlə örtülü olan bu adaların dağları çox mənzərəlidir. Sent-Kits adalarındakı böyük dairəvi Brimetoun yüksəkliyi (225 m) turistlər arasında çox məşhurdur. Bu yüksəklikdə vaxtı ilə ingilis qarnizonu yerləşən qala XVIII əsrdə tikilmişdir. Britaniya Vest-Hindinin əsasını qoyan, bir neçə on illiklər ərzində silah və pul gücünə Böyük Britaniya üçün yeni müstəmləkələr əldə edən Tomas Uarner bu qalada basdırılmışdır. Həmin rayonda hindu məskənlərinin qalıqları aşkar edilmişdir. Sahil xəttinin uzunluğu 135 km olan adaların sahillərində gözəl narın qumlu çimərliklər yerləşir. Bəzi çimərliklər vulkan mənşəli qara qumlarla örtülüdür.

İsti iqlimi tropik-passat xarakterlidir. Orta illik temperatur 20-24°C-dir. İl ərzində orta hesabla 1100 mm yağıntı düşür.

Adalar qiymətli ağac növləri olan tropik meşələrlə örtülüdür. Qonşu ölkələrdə olduğu kimi bu adalarda da heyvanat aləmi kasıbdır. Sahil suları balıq, xərçəng və molyuskalarla zəngindir.

Adalar əsasən afrikalı mənşəli zənci və mulatlarla məskunlaşmışdır. Dövlət dili - ingilis dilidir. Dinə etiqad edənlərin əksəriyyəti protestantlar və katoliklərdir. Ölkənin paytaxtı Baster onun ən böyük şəhəridir. Nevis adasında isə əhalisi 3 min nəfər olan Çarlztaun şəhəri yerləşir.

Britaniyanın rəhbərlik etdiyi birliyin üzvüdür. Ölkədə qanunvericilik ingilis ümumi hüquqi əsasına söykənir. Dövlətin başçısı - britaniya monarxıdır, general-qubernator ilə təmsil olunur. Baş nazir başda olmaqla icra hakimiyyəti hökumətə məxsusdur. Ali qanunverci orqan - Milli yığıncaqdır (birpalatalı parlament).

Adaları 1493-cü ildə X.Kolumb kəşf etmişdir. Əvvəlcə İspaniyanın, 1625-ci ildən isə Böyük Britaniyanın müstəmləkə mülkünə çevrilmişdir. 1983-bü ildən müstəqil dövlət elan edilmişdir.

Ölkə iqtisadiyyatının əsasını kənd təsərrüfatı və xarici turizm təşkil edir. ÜDM-un 13%-i kənd təsərrüfatının, 14%-i sənayenin, 30%-dən artığı (turizm daxil olmaqla) xidmət sahəsinin payına düşür. Sent-Kits adasında əkin sahəsinin 1⁄3 hissəsi şəkər qamışı plantasiyaları tutur. Nevis adasında isə pambıq, kakos palması və ananas yetişdirilir. Kənd təsərrüfatı ölkə tələbatının yarısını ödəyir.

Sənayedə əsas yeri yeyinti sahələri tutur. Ölkədə həm də toxuculuq, ayaqqabı məmulatı istehsal edən müəssisələr və elektrik cihazları yığımı fabirkləri vardır. 1983-cü ildən Nevis adasında pambıq və kakos yağları istehsal edən fabriklər fəaliyyət göstərir.

Əsas portları: Baster (Sent-Kits adasında) və Çarlstaundur (Nevis adasında). Baster şəhərində 3 km aralıda Qolden-Rok beynəlxalq aeroportu yerləşir.

2005-ci ildə DMM-ul 210 mln. dollar (DMM-da adam başına düşən gəlir 5300 dollar) təşkil etmişdir. Pul vahidi - Şərqi Karib dollarıdır.

Sent-Kits və Nevisin əsas ticarət partnyorları: ABŞ, Böyük Britaniya, Trinidad və Tobaqo, Karib dənizi birliyi ölkələri və s.-dir.

PERU

Sahəsi – 1285,2 min km^2
Əhalisi 28 mln. nəfər (2005-ci il)
Paytaxtı – Lima

Təbii şəraiti, təbii ehtiyatları və onların iqtisadi cəhətdən qiymətləndirilməsi

And dağları ilə Sakit okean arasında dar zolaq şəklində sahilboyu Kosta səhrası uzanır ki, bu da ölkə ərazisinin təxminən 11%-ni əhatə edir. Bu səhraya paralel olaraq meridianal istiqamətdə And sıra dağları və yaylası uzanır. İspan dilində Syerra adlanan bu dağlıq hissə ölkə ərazisinin 30%-ni əhatə edir. Ərazinin yarıdan çoxunu, yəni 59%-ni əhatə edən düzənlik keçilməz rütubətli ekvatorial meşələrlə örtülmüşdür. Bu ərazilər ispanca Selva adlanır ki, mənası da «tropik meşə» deməkdir. Bir-birindən kəskin şəkildə fərqlənən bu üç təbii rayon nəinki səth örtüyü, həmçinin iqlimi, torpaq-bitki örtüyü və heyvanat aləmi ilə də fərqlənir.

Ölkənin ərazisi dünyanın ən seysmik qurşaqlarından birində yerləşir. Burada tez-tez vulkan püskürmələri, zəlzələlər baş verir. Yüksək dağlıq ərazilərdə yağan leysan yağışları güclü sellərin yaranmasına, dağ çaylarının məcrasından çıxmasına, uçqunların əmələ gəlməsinə, insanların və onların təsərrüfat fəaliyyətlərinə güclü zərbə vurmasına səbəb olur.

KOSTA. Bir çox səyyahlar və coğrafıyaşünaslar Perunun Sakit okean sahilini «aylı» adlandırırlar. Burada gətirilmə materialları, qayalar, «daş meşələri», oraq şəkilli tirələr, cansız təpələrin fantastik uzlaşması müşahidə edilir. Şimaldan cənuba doğru təxminən 1900 km məsafədə səhranın müxtəlif relyefi və rəngi müşahidə edilir. O bəzən 10 km-ə dək daralır, gah da genişlənərək şimalda 200 km-ə çatır. Sahildəki adalar çox da iri olmayıb, əsasən krislalik süxurlardan təşkil olunmuş, bir çox dəniz quşlarının dayanacağına çevrilmişdir. Səhranı 50-dən çox çay kəsib keçsə də yalnız 10-nu il boyu sulu olur. Çayların əksəriyyəti yayda dağlarda yağış yağan zaman və ya qarlar əriyən zaman sulu olur. Həmin dövrlərdə bir çox çay yatağı boyu bitki örtüyü formalaşır.

Sahil zonasının iqlimi olduqca özünəməxsus şəkildə formalaşmışdır. Belə ki, bura tropik qurşaqdakı kimi həddən artıq isti və yağıntılı deyildir və bunun da əsas səbəbi sahil boyu üstünlük təşkil edən soyuq Peru cərəyanıdır. Cənubdan şimala doğru saatda 1 km sürətlə hərəkət edən okean cərəyanı sahil boyu eni 400 km-ə çatan çay təsəvvürü yaradır. Bu "çayı" əmələ gətirən Peru cərəyanı (buna bəzən dahi alman təbiətşünası Humboltun şərəfinə humbolt cərəyanı da deyirlər) suyunun emperaturu okean suyunun temperaturundan 8°C aşağıdır. Passat

küləkləri sahilə doğru rütubətliliyi aşağı olan soyuq hava kütləsi gətirir. Quru üzərində hava qızsada yağıntı düşə biləcək dərəcədə kondensasiyaya uğramır. Yaranan temperatur cəbhələşməsi (aşağı qatlarda temperatur daha aşağı olur) yağıntıların düşməsinə mane olur. Buna görə də Kostanın iqlimi qurudur. Onun şimal hissəsində, yəni ekvator yaxınlığında ildə 20-50 mm həcmində yağıntı düşə bilir. Kostanın mərkəzində yerləşən Limaya yağıntı demək olar ki, düşmür. Bununla belə hava xırda damladan ibarət dumanla örtülü olur. Kosta üçün havanın nisbi rütubətliliyinin yüksək (80-100%) olması xarakterik haldır. Soyuq okean cərəyanı quru üzərində temperaturu xeyli aşağı salır. Ölkə paytaxtında orta illik temperatur 19,3°C-dir. Limada ən isti ayın (fevralın temperaturu 23,5°C, ən soyuq (avqust) 16,l°C-dir. Limada ilin fəsilləri temperaturla deyil, havanın vəziyyəti ilə müəyyənləşdirilir. Kostanın bitki örtüyü olduqca kasıbdır. Digər ərazilərdə isə daimi bitki örtüyü yox dərəcəsindədir. Kostanın ekvatora yaxın şimal hissəsi rütubətli olduğundan bitki örtüyü ilə nisbətən yaxşı təmin olunmuşdur. Alqarrobo adlı ağac növü nisbətən geniş yayılmışdı. Onun 20 m dərinliyinə gedə bilən kökləri həm rütubət ala bilir, həm qum tirlərinin hərəkətini dayandırır, həm də təsərrüfat əhəmiyyətlidir. Onun meyvəsi yeməlidir, müxtəlif şirə istehsalında istifadə edilir.

AND. Kostadan şərqdə Syerra - dünyanın ən nəhəng dağ sistemlərindən biri yerləşir. Peru ərazisində And dağlarının ən hündür hissələri yerləşir. Burada olan 200-dən çox zirvənin hündürlüyü 5000 m-dən, 40-nın isə 6000 m-dən hündürdür. Hündür, keçilməz dağlar enli qurşaq şəklində ölkənin bütün ərazisi boyu şimaldan cənuba doğru uzanır. Şimalda onun eni 200 km, cənubda isə 3 dəfədən artıqdır. Andların Peru ərazisində ən alçaq sahəsi onun şimalındadır. And cənubda daha keçilməz olub, çay vadiləri ilə parçalanaraq Qərb, Mərkəz və Şərq Kordilyerlərinə bölünür. Qərbi Kordilyerlər daha hündür olub, 7 km-ə qədər hündürlüyə və daimi qar örtüyünə malikdirlər. İkibaşlı Uaskaranın mütləq hündürlüyü 6768 m-dir. Onun zirvəsində uzunluğu 6 km olan buzlaq əmələ gəlmişdir. Qərbi Kordilyerlər mərkəzi hissədə daha möhtəşəmidir. Burada ölkənin ən gözəl guşəsi olan Santa çayının vadisi dünyanın hər yerindən turistləri və alpinistləri cəlb edir. Yaşıl vadi, Santa çayının coşğun axını mavi dağ gölləri, buzlaqları, şiş uclu zirvələr klassik alp görkəmi yaradır və yerli əhali buranı Peru İsveçrəsi adlandırır. Boliviya və Çili ilə sərhəddə yerləşən hündür yayla Kolyao mesasi adlanır və hündürlüyü 4000 m-dir. Onun şərqində Boliviya ilə sərhəddə dünyanın ən hündür dağ gölü olan Titikaka (3812 m) yerləşir. Sahəsi 8300 km^2 olan gölə 40-dan çox çay tökülür və ancaq yeganə çay olan Desaquadero öz mənbəyini bu göldən başlayır.

Andların iqlimi dağ silsilələrinin Sakit vo Atlantik okeanına nisbətən oriyentasiyasından asılıdır. Qəri yamacları səhra xarakterlidir, kaktus və quru otlaqlardan ibarətdir. Şərq yamacları isə əksinə, rütubətliliyin üstünlüyü şəraitində sıx meşələrla örtülüdür. 1000-1500 m hündürlüyədək

olan zona Tyerra Kalyente (ispanca «isti torpaq») adlanır. İqlim xüsusiyyətlərinə görə o, şərqdə yerləşən Selvadan az fərqlənir.

3500 m hündürlüyədək olan zona Tyerra fria, yəni «soyuq torpaq» adlanır. Peru coğrafiyaşünası X.Pulqar Vidal bu zonanı Keçua adlandırır və Peru əhalisinin əsas məskunlaşma zonası hesab edir. Qədim inklər buranı «mülayim iqlimin torpaqları» adlandırmışlar. Hindu əhalisi də əsasən bu zonada cəmləşmiş və Syerranın iri şəhərləri də məhz buradadır. Doğrudan da Peruda insanın yaşaması və təsərrüfat fəaliyyəti məhz Keçua zonası şəraitində daha məqsəduyğundur, çünki bu zonada günəş radiasiyası, ilin yağmurlu və quru dövrləri, yağıntıların normal miqdarı (700-800 mm) mülayim temperatur və məhsuldar torpaqlar digər ərazilərdən daha fəal seçilir. Buna görədir ki, ölkənin əsas ərzaq məsələləri məhz bu zona daxilində həll edilir. Keçua zonasından yuxarı qalxdıqca iqlimin sərtləşməsi və ərazinin səhralaşması müşahidə edilir. Keçua dilində bu zonaya puna (səhra ərazisi) deyilir. 4000-dən yuxarı Tyerra elada - buzlu, soyuq zona yerləşir. Çılpaq qayalıqlar, daimi qar və buz örtüyü zona üçün xarakterik landşaftdır.

SELVA. Ölkənin şərq düzənliyini tamamilə örtən tropik meşə zonasına yerli əhali Selva deyir. Dünyanın ən bol sulu çayı olan Amazonun qərb hövzəsi Perunun ərazisindədir. Bu sahəyə Sakit okeanın təsiri yoxdur, amma Atlantik küləkləri üçün açıqdır. Böyük tropik meşə zonası iki qeyri-bərabər hissəyə bölünür. Balaca, nisbətən hündür hissəyə yüksək Selva (ispanca Selva Alta), Amazon ovalığı isə Alçaq Selva (ispanca Selva Baxa) adını daşıyır. Onların hər ikisinin iqlim şəraiti təxminən eynidir, yalnız Yüksək Selvada yağıntıların miqdarı nisbətən azdır (2000 mm-dən az). Yüksək Selvanın məhsuldar torpaqlarından tropik meyvəçilik üçün geniş surətdə istifadə edilir. Həqiqi Selva Amazon ovalığındadır. İstiliyin və yağıntıların miqdarı burada bitki örtüyünün sürətlə inkişaf etməsinə şərait yaradır.

Amazoniyanın rütubətli ekvatorial meşələri özünəməxsus bir dünya, orijinal ekoloji sistemdir. Meşə əsasən üç mərtəbəlidir. Üst mərtəbənin ən əhəmiyyətli ağaclarından biri süd ağacıdır ki, onun şirəsindən yem kimi istifadə edilir. Peruda kaoba adlanan qırmızı ağac daha qiymətli sayılır. Qırmızı və qonur-qırmızı rəngli oduncaq mebel sənayesində, otaqların bəzədilməsində və bəzək əşyaları hazırlanmasında geniş istifadə edilir. Məşhur kauçuk ağacı olan heveya əsasən rütubətli ərazilərdə yetişir.

Selvanın florasından fərqli olaraq heyvanat aləmi nisbətən kasıbdır və əsasən ağaclarda yaşamağa vərdiş etmişlər.

Keçua hinduların dilində Amazon ovalığı Omaqua adlanır ki, mənası da «şirin su balıqlarının çoxaldığı yer» deməkdir. Həqiqətən də Amazon və onun qolları 1000-ə yaxın şirin su balıq növləri ilə zəngindir. Bunlar arasında daha çox fərqlənəni arapayme və ya pançe adlanan nəhəng balıqdır. Boyu 4m, çəkisi 200 kq-dək olan bu balığa yalnız Cənubi Amerikada Amazon hövzəsində və Orinoko çayında rast gəlinir. Emal əhəmiyyətli ikinci dərəcəli balıq iri sunqarodur. İri çaylarda təsərrüfat əhəmiyyətli canlılardan biri də boyu 1 m, çəkisi 40 kq olan çaraha adlı tısbağadır ki, onun ətindən və yumurtasından istifadə edilir.

Peru ərazisindən başlanan Amazonun mənbəyi Maranyon və Ukayali çaylarıdır. Ona görə də bu vaxtadək onun mənbəyinin hansı olması mübahisəli qalmışdır. Mənbə Maranyondan hesablansa onun uzunluğu 6400 km, Ukayalidən 7000 km-dən çox olur. Bir çox Peru coğrafiyaşünsları çayın mənbəyinin Ukayali olmasını daha düzgün hesab edirlər.

Çaylar əsas rabitə vasitəsi olub, əhalinin və yaşayıl məntəqələrinin yerləşməsinə böyük təsir etmişlər. Aleksandr Humbolt təbii ehtiyatlarını nəzərə alaraq, Perunu "qızıl çələng üzərində kasıba" bənzətmişdir. Doğrudan da ölkənin müxtəlif və zəngin təbii ehtiyatları vardır. Bunların bir qismi kəşf edilmiş, bir qismi isə öz tədqiqatçılarını gözləməkdədir. Ərazidə aparılan çoxsaylı-arxeoloji tədqiqatlar göstərir ki, ölkənin qədim əhalisi müxtəlif metallardan və tikinti materiallarından istifadə etmişlər.

Qədim Çili sivilizasiyasına qızılın emal mədəniyyəti yaxşı məlum idi. Keçua qəbiləsinin «anta» sözü (bu qədim dildə «anta» mis deməkdir) planetimizin ən nəhəng dağ sistemlərindən birinin adına çevrilmişdir. Ən geniş yayılmış faydalı qazıntı da məhz mis filizidir. Bu filizin ehtiyatına görə Peru Latın Amerikası ölkələri içərisində Çilidən sonra ikinci yeri tutur.

Peru qitə ölkələri içərisində tərkibində qurğuşun və sinkin xüsusi çəkisi çox olan polimetal filizlərin miqdarına görə birinci yeri tutur. Polimetal filizlərinin tərkibi eyni zamanda mis, gümüş, qızıl, vismut, kadmium və digər qiymətli metallarla da zəngindir. Mis filizi yataqlarından başqa geniş yayılmış metallardan biri də molibdendir ki, onun miqdarına görə ölkə Latın Amerikasında birinci yerlərdən birini tutur. A.Humbolt ölkənin qızıl çələngi üzərində oturmasını heç də əbəs yerə demirdi. Ölkə qiymətli və nadir metalların böyük ehtiyatlanrına malikdir. Gümüşə adətən mis-qurğuşun-sink filizi yataqlarında rast gəlinir. Bu qiymətli filizin ehtiyatları regionda əsasən Meksika və Peruda cəmləşmişdir. Qızıl filizinin əsas ehtiyatları Sakit okean boyu vulkanik zonada, səpinti halında isə Apurimak, Paçiltea və Napo çaylarının hövzələrindədir. Dəmir filizinin ən böyük ehtiyatı çox da hündür olmayan dəniz sahilindədir. Sakit okean sahilinin şimalında neftin çıxması hələ inklər dövrünə təsadüf edirdi. Hindular neftdən bir sıra milli bayramlarda çıraqların yandırılmasında istifadə edirdilər. Neftin əsas ehtiyatları Amazon hövzəsi hesab edilsə də kontinental şəlfdə, Titikaka gölü hövzəsinin şimal-qərbində də onun müəyyən ehtiyatı vardır. Digər enerji daşıyıcılarından nisbətən əhəmiyyətlisi daş kömürdür ki, onun ehtiyatı 2,3 mld. tondur. Ölkə çaylarının hidroresursları olduqca böyükdür. Mövcud SES-da itehsal olunan elektroenerjinin yarıdan çoxu Sakit okean hövzəsi çaylarının payına düşür.

Ərazinin və əhalisinin formalaşması, inkişaf tarixi və məskunlaşma formaları

Peru paytaxtının 300 km-lik məsafəsində dağarası vadidə çox da iri olmayan Çavin-de-Uantar şəhərlərinin qalıqları aşkar edilmişdir. Burada hələ XVI əsrdə naməlum qədim mədəniyyət qalıqları olmuşdur. Peru arxeologiyasının atası sayılan

Xulio Sesar Telyo l919-cu ildə elm üçün yenilik gətirən tədqiqatları sayəsində qədim Peru mədəniyyətinin mənşəyi barədə fərzəriyyə yaratmağa nail olmuşdur.

Nisbətən cavan mədəniyyətin Peru ərazisində formalaşması b.e.ə. I minilliyə aid edilir. Nisbətən maraqlı mədəniyyət nümunələri Limadan 250 km cənubda Parakas yarımadasında rast gəlinmişdir. Parakas nümunələrində toxucuların yaratdıqları mədəniyyət nümunələri diqqəti daha çox cəlb edir.

Toxucuların yaratdıqları parçalar nəinki texniki cəhətdən, hətta rənginin parlaqlığı və uzunömürlüyü ilə seçilmişdir. Bunların bəzilərində isə hələ elmə məlum olmayan xüsusiyyətlər vardır. Belə ki, bəzi fiiqurlara horizontal və ya şaquli ox üzərində fırladaraq baxılsa bu füqurun tamamilə başqasına çevrildiyi görünər.

Parakas mədəniyyətinin ardınca həmin rayonda Naska mədəniyyəti yaranmış və daha geniş əraziləri əhatə etmişdir.

Peru ərazisində son aborigen dövlət məşhur ink imperiyası olmuşdur. Onun ərazisinə müasir Ekvador, Peru ilə yanaşı Boliviya, Çili və Argentinanın çox hissəsi, Kolimbiyanın cənub rayonları daxil idi. İnk dövləti kənd təsərrüfatının yüksək inkişafı fərqlənmişdir.

1532-ci ilin aprelində indiki Tumbas şəhərinin yaxınlığında, Fransisko Pisarronun başçılığı ilə 250 nəfərdən ibarət ispan dəstəsi sahilə çıxdı. Bir ildən sonra isə inklərin paytaxtı olan Kusko işğal edillir. 1535-ci ildə F.Pissaro Cənubi Amerikada olan ispan müstəmləkələrinin paytaxtı olan Limanı inşa edir. Bu müddət ərzində çox da böyük olmayan ispan dəstələri böyük və güclü ink imperiyasını zəbt etdi.

Asanlıqla varlanmaq eşqilə Peruya gələn ispanlar yerli əhalini incitməyə, var-dövlətini qarət etməyə başladı ki, bu da sonrakı dövrlərdə ümumxalq qəzəbinə səbəb oldu. Bu xalq hərəkatları getdikcə genişlənməyə və milli-azadlıq müharibələrinə səbəb oldu. Nəhayət, 1821-ci ildə Peru öz müstəqilliyini elan etdi. Təxminən 300 illik ispan əsarəti ölkəyə olmazın fəlakətlərini gətirdi.

Peru Latın Amerikasında iri hindu dövlətlərindən biridir. Ölkə əhalisinin yarıdan çoxu hindulardır ki, onun da təxminən 60%-i Keçua hindularıdır. Aborigen əhalinin ikinci ən iri qrupunu nisbətən konpakt yaşayan aymarlar təşkil edir. Onlar əsasən ölkənin cənub-şərqində, hündür Titikaka gölünün ətrafında məskunlaşmışlar.

Ölkə əhalisinin əsas hissəsini ispan dilli perulular təşkil edir. Onlar vaxtilə əraziyə gəlmiş ispanların qarışığı, kreollar ilk ispanların törəmələrinə daxildir. XVI əsrin ikinci yarısında Peruda yeni bir etnik qrup, plantasiyalarda işləmək üçün Afrikadan gətrilən zəncilər formalaşmağa başladı. Həmin vaxtdan başlayaraq metislərlə yanaşı mulatlar və sambolar da yaranmağa başladı. 1854-cü ildə quldarlığın ləğvindən sonra müasir Peru əhalisi formalaşmağa başlamışdır.Bu ən çox sahil zolağında müşahidə edilsə də hündür qurşaqlarda hindular öz saflığını saxlaya bilmişlər.

XIX əsrin ikinci yarısında kənd təsərrüfatında çalışmaq üçün xeyli miqdarda çinlilər gəlmişlər.

Əsasən sahil zolağında şəkər qamışı istehsal edən çinlilər kənd yaşayış məntəqələrində məskunlaşmağa, müəyyən hissəsi isə ticarətlə məşğul olaraq sahil şəhərlərində yerləşməyə başladı. Digər Latın Amerikası ölkələrindən fərqli olaraq (xüsusilə də Atlantik okeanı sahillərində yerləşən) Peruya avropalıların miqrasiyası o qədər də çoxsaylı olmamışdır. Ölkə müstəqilliyini elan etdikdən XIX əsrin sonunadək bura 30-40 min nəfər ispan, alman, irland, italyan və fransız mənşəli adamlar köçmüşlər. Hal-hazırda Peru əhalisinin 1⁄2-ə qədəri ağlar və metislər, 1⁄2-ə qədəri hindular, 1%-i asiyalılar və zəncilərdir. Ölkənin bütün yüksək dağlıq əraziləri Keçua və aymara hinduları, Selva rayonları isə meşə hinduları ilə məskunlaşmışlar.

Hindular üçün kənd təsərrüfatı əsas məşğuliyyət növü olaraq qalsa da son vaxtlar onların xeyli hissəsi dağ mədənlərində fəhlə sinfinə çevrilmişlər. Yeni şaraitdə, yeni istehsal münasibətlərinə çətinliklə alışsalar da özlərinin adət və ənənələrini qoruyub saxlaya bilirlər.

Dağ kəndlərinin əhalisinin əsas məşğuliyyəti kənd tasərrüfatı olsa da qadın əməyi əsasən toxuculuğa istiqamətlənmişdir. Toxuculuq qədim ink mədəniyyətinin ən parlaq nümunəsi olduğundan böyük ənənəyə malikdir. Bütün Peruda ən maraqlı və qədim, sonralar isə ispanlar tərəfindən daha təkmilləşdirilən sənətkarlıq sahəsindən biri də ağac üzərində naxş, mebel, qab-qacaq, bəzək əşyaları, mis| və dəri məmulatlarından əşyaların hazırlanmasıdır.

Keçən əsrin 80-ci illərinədək ölkənin hindu əhalisinin 60%-i orta və yüksək dağlıq ərazilərdə yaşayırdısa, son on ildə onlar getdikcə əvvəlki yaşayış zonalarına, sahil rayonlarına və Selvaya doğru miqrasiya etmişlər.

Təxminən 450 ildən çoxdur ki, Lima şəhəri Perunun həyat mərkəzinə çevrilmişdir. Bu müddət ərzində o iqtisadi, inzibati və mədəniyyət mərkəzi kimi formalaşmışdır. Limanın yaxınlığında yerləşən Kalyao limanı ölkənin əsas dəniz qapısıdır. Syerranın şəhərlərinə XX əsrin təsiri nisbətən az olmuşdur.

Əhalisinin sayına görə ikinci şəhər sayılan Arekipa dəniz səviyyəsindən 2360 m yüksəklikdə, fəaliyyətdə olan Misti vulkanının ətəyində, gözəl mənzərəsi olan vadidə yerləşir. Çoxlu ağ daşdan ibarət evləri, kilsa və monastırlarına görə yerli əhali onu «ağ şəhər» də adlandınr. And dağlarının qoynunda Amerikanın arxeoloji mərkəzi, qədim ink imperiyasının paytaxtı Kusko yerləşir. Qədim ink və ispan mədəniyyətinin qovuşması bu qədim və əsil hindu şəhərində öz heyrətamizliyi ilə seçilir.

XVI əsrin əvvəllərində burada həmin dövrün ən böyük şəhəri sayılan Londondan çox əhali yaşayırdı.

Titikaka gölü sahilində eyni adlı əyalətin mərkəxi olan Puno şəhəri 1663-cü ildə ispanlar tərəfindən salınmışdır. Selvanın ən iri şəhəri olan İkitos Amazon çayının sahilində yerləşir. Hal-hazırda Amazon j üzərində ən iri limanlardan biridir.

Təsərrüfatı. Peru inkişaf etmiş hasilat sənayesinə malik olan aqrar-sənaye ölkəsidir. Milli iqtisadiyyatını əsasən kənd təsərrüfau təşkil edir ki, bura iqtisadi fəal əhalisinin 40% cəlb olunmuşdur. Son on ildə kənd təsərrüfatı istehsalında məşğul olanların sayının getdikcə azalması müşahidə edilir.

Analoji hadisə ölkənin emaledici sənayesində müşahidə edilir ki, bu sahə ümumi daxili məhsulun 20%-ni verir. Son 15 ildə xarakterik xüsusiyyət kimi nəzərə çarpacaq hadisə fəhlə qüvvəsinin getdikcə ticarət və xidmət sahələrinə daha çox cəlb edilməsidir.

Peru dünyada və Latın Amerikasında vismutun, qyrğuşunun, gümüşün, sinkin, misin istehsalında birinci yerlərdən birini tutur.

Bir çox Latın Amerikası ölkələrində olduğu kimi Peru da öz əhalisini ərzaq məhsulları ilə tam təmin edə bilmir, məhsulun çox hissəsini xaricdən, xüsusən də ABŞ-dan gətirir. Bütövlükdə ölkə iqtisadiyyatı hələ də idxaldan asılıdır. İdxal məhsullarına əsasən maşın və avadanlıq, tikinti materialları daxildir. Perunun ixrac etdiyi mis, istehlak malları və sənaye avadanlıqlarına çəkilən xərci belə ödəmir. Xarici ticarətdə olan mənfi balans xroniki olaraq inkişaf etməkdə olan ölkələr üçün xarakterikdir.

İnkişaf etmiş ölkələrin ixrac etdiyi maşın və avadanlıqların dünya bazarında qiyməti getdikcə artmağa, inkişaf etməkdə olan ölkələrin ixrac etdikləri xammalın dəyəri isə azalmaqda davam edir. Bu da beynəlxalq aləmdə inkişaf etməkdə olan ölkələri iqtisadi, maliyyə və s. cəhətdən getdikcə asılı vəziyyətə salır. Bu çətinliklər Perudan da yan keçmir və ölkənin xarici borcu getdikcə artmaqdadır.

Sənayesi. Son illər ölkənin iqtisadi inkişafını yüksəltmək barədə dövlətin gördüyü tədbirlərə baxmayaraq, hələlik sənayenin strukturunda dağ-mədən, əlvan metallurgiya üstünlük təşkil edir ki, onlar da ixrac üzrə ixtisaslaşmışlar. Ölkənin emaledici sənayesi xaricdən alınan maşın və avadanlıqlardan olduqca asılıdır.

Ölkə iqtisadiyyatında təbii resursların tədqiqi və hasilatı uzun müddət əsas sahə olmuş və xaici şirkətlərin əsil qazanc mənbəyi olmuşdur. Son illər milliləşdirilmiş xarici şirkətlərin bazasında güclü dövlət müəssisələri yaradılmış və iqtisadiyyatın asılılığının aradan qaldırılması sahəsində müəyyən işlər görülmüşdür. Hasilat sənayesi üçün xammal bazasının geniş olmasına baxmayaraq, kifayət qədər kapital qoyuluşu olmadığından onları mənimsəmək səviyyesi hələ kifayət deyildir.

Metal filizlərinin əksəriyyəti yüksək dağlıq ərazilərdə hasil edilsə də dəmir filizi Sakit okean sahilində yüksək olmayan yayladakı Markona yatağından hasil edilir.

İqtisadiyyatın ən yaxşı sahələrindən biri də nefl hasilatıdır. 70-ci illərin əvvəllərində neft hasilatının 2⁄3 hissəsi Sakit okeanın şimal-qərb sahilində (Talra, Sorritos) və dənizin şelf hissəsində aparılırdı. Onun az bir hissəsi isə Selvanın payına düşürdü. Hərbi hökumətin milliləşdirmə tədbirləri nəticəsində milli neft hasilatı sənayesi yaradıldı. Ölkə neftinin çox hissəsinin emalı dövlət sektorunun payına düşür. Yanacaq-energetika sənayesinin digər sahəsi olan kömür sənayesi yerli qara yə əlvan metallurgiyanın ehtiyacının ödənilməsinə yönəldilmişdir. Pasko, Kaxamarka və Libertad əyalətlərində istehsal edilən kömür sənayesinin istehsal həcminin artırılması ölkənin enerjiyə olan tələbatını ödəyə bilər. Güclü energetika bazasına malik olsa da ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinin elektrik enerjisinə olan tələbatı hələ də tam ödənilmir.

Son 10-15 ildə sənayenin strukturunda böyük dəyişikliklər baş versə də hələlik, dəyər baxımından yeyinti və toxuculuq sənayesi üstünlük təşkil edir.

Perunun emaledici sənayesinin ən gənc sahələri olan metalemaledici və maşınqayırma ölkəniniqtisadiyyatının gələcəyini müəyyən edir. Ölkədə sənaye sahələrinin, xüsuilə də maşınqayırma sənayesinin mərkəzləşməsinin qarşısının alınması barədə tədbirlər görülür. Ölkənin şimal və cənub ərazilərində yerləşdirilən bu sənaye sahələrinin əsas vəzifəsi neft hasilatı, dağ-mədən, emaledici, energetika, tikinti və kənd təsərrüfatı sahələri üçün avadanlıq istehssalıdır.

Gəmiqayırma sənayesi ölkənin kiçik və orta tonnajlı gəmiyə olan tələbatını ödəyir və regionda gəmi istehsalına görə ikinci yeri tutur.

Ölkədə gənc sənaye sahələrindən biri də avtomobil və kənd təsərrüfatı maşınlarının yığma sahələridir.

Kənd təsərrüfatı. Son 10-15 il ərzində Perunun kənd təsərrüfatının strukturunda böyük dəyişikliklər baş vermişdir. Aqrar islahatlar və dövlətin kooperativ təsərrüfatlara yardımının genişlənməsinə baxmayaraq kənd təsərrüfatında məhsuldarlıq hələ də aşağı səviyyədədir.

Digər Latın Amerikası ölkələrində olduğu kimi Perunun kənd təsərrüfatı istehsalında bitkiçiliyin xüsusi çəkisi böyükdür. Kənd təsərrüfatı məhsulunun dəyərinin 70%-i onun payına düşür. Ərzaq və texniki bitkilərin becərilməsi üçün təbii şərait o qədər də əlverişli deyildir, əksinə yararlı torpaq sahələrinin böyük əksəriyyəti az rütubətlənən, quraqlıq ərazilərindədir və suvarma sistemi tətbiq edilmədən məhsul yetişdirmək mümkün deyildir.

Ölkənin əsas ərzaq bitkiləri olan qarğıdalı, çəltik, buğda, habelə kartof və maniokdur. Uzun müddət Peru Latın Amerikası ölkələri arasında kartofun əkin sahəsinin böyüklüyünə və məhsulunda həcminə görə birinci yeri tutmuşdur. Son illər o Braziliya və Argentinadan geri qalmağa başlamışdır. İspanların bura gətirdikləri buğda ilk dəfə sahil düzənliklərində, sonradan isə müəyyən hündürlüklərdə başlamışdır. Son illər buğdanın əkin sahələri həm sahildə, həm də dağlıq ərazilərdə azalmağa başlamışdır. Sahil rayonlarda bu çəltiyin getdikcə onu sıxışdırması, dağlıq ərazilərdə isə pivəbişirmədə arpaya orpaya tələbatın artması ilə əlaqədardır. Kostada son illər ərzaq məhsuluna çevrilmiş çəltik əkini genişlənməkdədir. Əsas ixrac məhsuluna çevrilən pambıq ölkədə çoxdan becərilir. Uzunlifli Peru pambığı dünya bazarında qiymətlidir. Pambıq üçün əsas təbii şərait sahil zolağındadır. Ölkənin şimalındakı suvarılan torpaqlarda becərilən şəkər qamışı məhsulun əsas hissəsini təşkil edir. Qamışın məhsuldarlığına görə Peru dünyada birinci yerlərdən birini tutur.

Üçüncü ixrac bitkisi olan qəhvə plantasiyaları əsasən dağlıq rayonlarda yerləşir. And dağlarının şərq yamacları qəhvənin inkişafı üçün daha əlverişlidir. Yığılan məhsulun 30%-i ABŞ-a ixrac edilir.

Əsrin əvvəllərində istehsalına başlanan çay And dağlarnın şərq vadisində becərilir. Digər bitkilərdən tütün, sitrus bitkiləri, üzüm, kənaf, cut və küncüt də becərilir.

Məhsulun dəyərinə görə heyvandarlıq bitkiçilikdən geri qalır. Yaxşı otlaq sahələri olan dağlıq ərazilərdə ətlik-südlük heyvandarlığı inkişaf etmişdir. Peruda ən geniş yayılmış heyvan lamadır. O, həm qoşqu, həm də ətlik kimi istifadə edilir. Donuzçuluq bütün rayonlarda, qoyunçuluq isə Syerrada saxlanılır. Son illər quşçuluq sürətlə inkişaf edir və onların yemlənməsində balıq unundan geniş istifadə edilir.

Nəqliyyatı. Keçilməz tropik meşələrin geniş ərazini əhatə etməsi, And silsiləsinin əlçatmazlığı, tez-tez baş verən təbii fəlakətlər (leysan yağışlar, sel və daşqınlar, dağ uçqunları) quru nəqliyyatın inkişafında ciddi maneələrə çevrilmişdir. Dəmiryol və avtomobil yollarının saxlanması böyük kapital qoyuluşu tələb edir. Əsas avtomobil yolları ikinci dünya müharibəsindən sonra çəkilməyə başlanmışdır. Müasir avtomobil yolları ölkə ərazisində qeyri-bərabər çəkilişi ilə fərqlənir, yəni onların sıxlığı qərbdən-şərqə doğru azalır. Əsas yol sayılan və ölkə ərazisində uzunluğu 3 min km olan Panamerika magistral yolu şimalda kvador, cənubda Çili ərazisini də əhatə edir.

Əgər ölkənin And dağlarının qərbində yerləşən şəhərlər və yaşayış məntəqələrinin əksəriyyəti Panaamerika magistralına çıxışı olub, meridianal istiqamətdə əlaqəlidilərsə, şərqdə belə əlverişli şərait yoxdur.

1851-ci ildə Latın Amerikasında ilk dəfə dəmir yolu dağ mədənini portla birləşdirmişdir. Müasir dövrdə ölkədə olan dəmir yolları bir-biri ilə əlaqəli deyildir və ölkənin dəmiryol qovşağını əmələ gətirmir. Əsas və həyatı vacib sayılan dəmiryol xətti Mərkəzi yol adlanır ki, o ölkənin paytaxtını və Kalyao portunu dağ ətəyinin mərkəzi olan Ankaşa ilə birləşdirir.

Syerra və Selva rayonlarından Mərkəzi yolla Limaya dağ-mədən sənayesinin və əlvan metallurgiyanın məhsulları, kənd təsərrüfatı malları və meşə materialları, əks istiqamətdə isə yüngül və yeyinti sənayesi məhsulları, dağ-mədən avadanlığı, neft məhsulları, emaledici sənayenin məhsulları daşınır.

Perunun şərq rayonlarında çay nəqliyyatının əhəmiyyəti böyükdür. Amazon və onun qolları əsas əlaqəni təmsil edir. Titikaka gölü vasitəsilə də əlaqələr yaradılır.

1977-ci ildən Peruda yeni nəqliyyat növü olan boru nəqliyyatı yaranmışdır. Selvanın dərinliklərindən, Maranyon çayının aşağı axarındakı hasilat rayonlarından boru kəməri And silsiləsini keçməklə Sakit okean portu olan Bayovara daxil olur.

Ölkənin Sakit okean sahili xətinin uzunluğu dəniz nəqliyyatının əhəmiyyətini artırır. Xaricdən iqtisadi əlaqələrin böyük hissəsi dəniz nəqliyyatı ilə həyata keçirilir. Bu əlaqələrin 90%-i Sakit okean portu olan Kalyaonun payına düşür.

Selva əhalisinin əksəriyyəti üçün hava nəqliyyatı tanış deyildi. Bu nəqliyyat növü neft ehtiyatlarının kəşf və istismarı ilə əlaqədar yaranmışdır. Hal-hazırda burada İkitosa hava limanı reaktiv təyyarələri də qəbul edə bilir.

Daxili fərqləri

Peruda iqtisadi rayonların, ümummilli bazarın formalaşması ilə əlqədar Kosta və Syerra rayonları arasında təsərrüfat əlaqələri getdikcə fəallaşır. Amazon hövzəsi ümummilli iqtisadiyyata fəal surətdə qovuşmağa başlamışdır. Təsərrüfat fəaliyyətlərinə görə ölkə ərazisini şimal, mərkəzi, cənub və şərq rayonlarına bölmək olar.

Şimal rayonuna Sakit okean sahili şimal əyalətləri olan Tumbes, Pyura, Lambaeke, Libertad, əsasən də dağ əyalətləri olan Kaxamarka, Amazonka və Ankaş daxildir. Sahil zolağında rayon ərazisi iqlim xüsusiyyətlərinə görə mərkəz və cənuba nisbətən əlverişlidir. Bütövlükdə rayonun təbii şəraiti kənd təsərrüfatının inkişafı üçün əlverişlidir. Rayon təbii resurslarla, xüsusilə də neft, mis, qurğuşun, sink və dəmir filizi ilə zəngindir. Şimal qədim plantasiya rayonu olub, müasir dövrə kimi daxili bazara şəkər qamışı, pambıq çıxarmış və ixrac etmişdir. Tumbes əyaləti isə ölkədə tütün ishesalı ilə fərqlənir. Günəş radiasiyasının çoxluğu, torpağın kifayət qədər rütubətliliyi yüksək səviyyədə kənd təsərrüfatı məhsulu götürməyə imkan verir. Şimal rayonu çəltik və qarğıdalı kimi ərzaq məhsulu istehsalında fərqlənir. Daxili bazar üçün buğda, maniok, kartof, arpa, meyvə, şərqi kordilyerlərin vadilərində isə qəhvə, çəltik, tütün, sitrus bitkiləri və banan istehsal edilir. Şimal rayonunun heyvandarlığı da fərqlənir. Yüksək dağlıq ərazinin təbii otlaqları iribynuzlu mal-qara üçün əsas təbii yem bazası hesab olunur.

Rayonda neft emalı, qara və əlvan metallurgiya inkişaf etmişdir. Rayon ölkənin əsas qara metallurgiya bazasıdır. Truxilyoda kənd təsərrüfatı maşınqayırması, Çimbotedə isə gəmiqayırma ixtisaslaşmış maşınqayırma mərkəzləridir.

Sənayenin sürətli inkişafı burada şəhər əhalisinin artmasına, xüsusən də Kalyao, Arekipa kimi iri şəhərlərin formalaşmasına səbəb olmuşdur.

İspan qəsbkarlarının burada başçısı olan Fransisko Pisarro Sakit okean sahilində Limadan bir ay əvvəl müasir Libertad əyalətinin mərkəzi olan Truxilyo şəhərinin əsasını qoymuşdur. Bu şəhər ölkə şimalının iri sənaye və mədəni mərkəzinə çevrilmişdir. Truxilyo Peru tarixinə ispan zülmündən qurtarıb, 1820-ci ildə öz müstəqilliyini elan etmiş şəhər kimi daxil olmuşdur və müəyyən müddət respublikanın paytaxtı olmuşdur. Sahil zolağının digər şəhərləri kimi Truxilyo və Panamerka magistralının üzərində yerləşir. Lamaks əyalətlərinin paytaxtı olan Çiklayo sahilyanı zonanın yeganə iri şəhəridir ki, əsası ispan konkistadorları tərəfindən qoyulmamışdır. Əsası 1720-ildə fransız kahinləri tərəfindən qoyulan Çiklayo şəhər statusunu 1836-cı ildə almışdır.

Kaxamarka keçua dilində buzlu yer deməkdir. Dəniz səviyyəsindən 2750 m yüksəklikdə dağarası vadidə, Sakit okean sahili zonasını Amazon hövzəsi ilə birləşdirən yolayrıcıda yerləşir.

Mərkəz rayonu Perunun iqtisadi həyatında əsas rolu oynayır. Onun təsərrüfatının nüvəsini Lima, Pasko, Xunin, Kalyao və onların ətrafında yerləşən Uanuko, Uankavelika, Ayakuço əyalətləri təşkil edir. Ölkənin əsas sənaye qovşağı sayılan rayon ölkənin ümumi sənaye məhsulu istehsalının 70%

emaledici sənayenin isə 30%-ni verir. İqtisadiyyatının əsasını dağ-mədən sənayesi, metal emalı və maşınqayirma təşkil edir. İnkişaf etmiş kənd təsərrüfatı əmtəəlik pambıq, şəkər qamışı, buğda, qarğıdalı, kartof, meyvə və qəhvə istehsalı üzrə ixtisaslaşmışdır. İri şəhərlərin ətrafında südlük-ətlik heyvandarlığı və tərəvəzçilik inkişaf etmişdir. Əlverişli coğrafi mövqeyə malik olu Lima ölkənin ən iri iqtisadi və nəqliyyat qovşağına çevrilmişdir. Rayonun əsas dəniz portu olan Kalyao vasitəsilə xarici iqtisadi əlaqələr həyata keçirilir. Rayonun əsas sənaye mərkəzləri Lima, Kalyao, Uaniayo, İka, Serro-de-Pasko şəhərləridir. Lima ilə yanaşı yerləşən Kalyao ölkənin dənizə açılan qapısı sayılır.

Cənub rayonu Apurimak, Urubamba və Tambo çay dərələri ilə parçalanmış yüksək yaylada yerləşir. Yaylanın cənub-şərqində, Boliviya ilə sərhəddə Titikaka gölü yerləşmişdir. Dağ vadilərinin və bütövlükdə rayonun təbii şəraiti əkinçilik və otlaq heyvandarlığı üçün olduqca əlverişlidir. Sahil zonada isə suvarma əkinçiliyi inkişaf etmişdir. Qədim əkinçilik mədəniyyətinə Titikaka ətrafı ərazilər də malikdir. Rayonun əsas ixtisaslaşmış sahəsi heyvandarlıqdır. Rayon faydalı qazıntılarla, xüsusilə də metal filizləri ilə zəngindir. Onun iqtisadiyyatının əsası dağ-mədən sənayesi, mis mədənləri və misəritmə müəssisələri ilə təmsil olunur. Dağ əyalətlərinin əhalisi iri şəhərlərdə və portlarda məskunlaşmışdır. Perunun ikinci iri şəhəri sayılan Arekipa dəniz səviyyəsindən 2360 m yüksəklikdə fəaliyyətdə olan Misti vulkanının ətəyində yerləşir.

Peru Andlarının lap ürəyində qədim ink imperiyasının paytaxtı olmuş Kusko şəhəri yerləşir. Tipik hindu şəhəri olan Kusko vacib nəqliyyat qovşağı və mədəniyyət mərkəzidir.

And dağlarının qərb yamacları və Amazon zolağının bir hissəsini əhatə edən *Şərq rayonu* böyük əraziyə malikdir. Ərazisinin sahəsinə görə ölkənin ən iri rayonu olsa da əhalinin nisbətən az məskunlaşmağı, öz iqtisadi inkişafını və mənimsənilməsini gözləyən rayondur. Çox da iri olmayan yaşayış məntəqələri bir-birindən xeyli aralıdır. Ən iri şəhəri İkitos və Pulkalpadır. Rayonun sənayesi neft hasilatı və ağac emalı ilə bağlıdır. Bu məhsulların emalı İkitos və Pukalpada yerləşir. Əkinçilik yalnız And dağlarının şərq yamacları boyu vadilərdə inkişaf etmişdir. Burada sitrus bitkiləri, qəhvə, pambıq becərilir.

KOLUMBIYA

Sahəsi – 1141,7 min km^2

Əhalisi – 44,3 mln. nəfər (2007-ci il)

Paytaxtı –Boqota

İqtisadi coğrafi movqeyin formalaşmasına təsir edən amillər

Kolumbiyanın müasir hinduları qədim çibçi, karib, keçua və aravakların nəslindəndir. İspanların təcavüzünə qədər çibçilər Kosta-Rika sərhəddindən şimali Ekvadora qədər geniş ərazilərdə məskunlaşmış və ümumi əhalisinin sayı 1,2 milyon nəfərə qədər idi. Onlar ağac və daş alətlərlə yer şumlayır, qarğıdalı, kartof, lobya, tütün və digər məhsullar yetişdirirdilər, Sənətkarlar qızıldan, gümüşdən, misdən müxtəlif əşyalar, rəsm əsərləri, bəzək şeyləri düzəldirdi.

1499-cu ildə X.Kolumbun ikinci səyahəti zamanı bura ilk avropalılar gəldi. 1536-cı ildə Xillkes Kesadın başçılığı ilə ekspedisiya Maqdalena çayının axarının əksi boyu ölkənin daxilinə doğru hərəkət etmiş, indiki Boqota şəhərinin yerləşdiyi ərazisini tutaraq Santa-Fe qalasının əsasını qoydular. Qitənin digər ərazilərində olduğu kimi burada da yerli hindu tayfaları kütləvi şəkildə qırılmış, yerli əhali məcburi işlərə cəlb edilmişlər. İşğal olunmuş çibçilər ərazilərində qızıl, gümüş, zümrüd istehsalı ilə məşğul olmağa məcbur edilmişlər.

Getdikcə güclənən xalq hərəkatı 1819-cu ildə Simon Bolivarın başçılığı ilə yekunlaşmış, Böyük Kolumbiya Respublikası elan edilmişdi. Böyük Kolumbiyaya həmçinin Venesuela və Ekvador daxil idi. 1829-cu iddə Venesuela, 1830-cu ildə Ekvador ayrılaraq müsdəqil dövlətlərini yaratdılar. Hələ İspaniya ilə müharibə dövründə Böyük Britaniya Kolumbiyaya iqtisadi yardım göstərir, onu öz sənaye məhsullarının alıcısına çevirir, ucuz xammalını və tropik məhsullarını idxal edirdi. Ölkədə qızıl, gümüş, platin, banan, kakao, qəhvə digər məhsulları idxal edən ingilis işbazları ölkəyə hazır məhsulları gətirməklə sənətkarlığa böyük zərbə vururdu.

Lakin XIX əsrin axırlarında ingilis şirkətləri getdikcə zəifləyir. ABŞ şirkətləri isə onu əvəz etməyə başlamışdır. Panama kanalının çəkilişini boynuna götürmüş fransız şirkətələri müvəffəqiyyətsizliyə uğramış, daxili səbatsızlıqdan istifadə edən ABŞ hökuməti Panamada ixtişaş yaradaraq ona kömək edib, müstəqil Panama dövlətinin yaranmasına müvəffəq oldu. Panama dövləti ilə razılıq əldə edən ABŞ kanalın tikintisini həyata keçirdi.

1929-cu ildə dünyada baş verən iqtisadi hərci-mərçlik yenicə inkaşaf yoluna düşmüş Kolumbiya sənayesinə güclü təsir etdi. Qəhvəyə və digər kənd təsərrüfatı məhsullarına azalan tələbat kəndlilərin müflisləşməsinə səbəb oldu.

Hal-hazırda ABŞ şirkətləri ölkənin bir çox sənaye sahələrini monopoliyatlaşdırmış, onu ucuz xammal mənbəyinə çevirmişdir.

Kənd təsərrüfatının coğrafiyası və inkişafı

Kolumbiya aqrar ölkəsi olub, iqtisadi fəal əhalinin 54%-i kənd təsərrüfatına cəlb edilərək ümumi daxili məhsulun 37%-ni verir. Bitkiçilik və heyvandarlığın inkişafı üçün əlverişli təbii şəraiti olan ölkədə kənd təsərrüfatı intensiv xarakter daşımır. Burada qiymətli bitkilərdən qəhvə, kakao, banan, tütün, pambıq, şəkər qamışı istehsalı üçün gözəl təbii şərait vardır. O, dünya üzrə rstehsal olunan qəhvənin 13-15%-nə malikdir və ölkə ixrac məhsullarının 70%-i onun payına düşür

Qəhvə, banan, tütün və şəkər qamışı ölkəyə daxil olan valyuta fondunun 80%-ni təşkil edir.

Maqdalina, Kauki və Atrato çaylarının vadiləri buğda, qarğıdalı, arpa, çəltik əkini üçün olduqca əlverişlidir. Bu məhsullar ancaq daxili taləbatı ödəmək üçün istehsal edilir.

Ərzaq məhsulları ilə əhalinin tələbatını edəməyən ölkə bəzi məhsulları idxal etməyə məcburdur. Məhsuldar torpağın cox olmasına baxmayaraq o, təhlil otlaqlar altındadır. Lakin ölkənin heyvandarlığı ekstensiv xarakter daşıyır.

Aqrar münasibətlərin yarımfeodal xarakteri bütövlükdə iqtisadiyyatın inkişafına mane olur, sənayenin yüksəlişini ləngidir.

Əkin sahələrinin struktur analizi göstərir ki, kənd təsərrüfatı istehsalının daha xarakterik cəhəti odur ki, o ixrac istıqamətlidir. Ölkədə qəhvə monokultur kənd təsərrüfatı bitkisi hesab edilir. Bundan əlavə buğda, pambıq, tütün və banan da geniş ərazilərdə becərilir.

Kolumbiyada qəhvə XVIII əsrin əvvəllərində yayılmış, XIX əsrin 30-cu illərində isə ixrac edilməyə başlanmışdır.

Qəhvənin əkin sahələrinin genişlənməsinə həm əlverişli iqlim şəraiti, həm də əkinçiliyin strukturu təsir etmişdir. Mülayim iqlimə malik olan bölgələrdə 800-1500 m yüksəklikdə yüksək keyfiyyətli qəhvə sortları becərilir. Dünyada ən böyük qəhvə ixracatçısı olan Braziliyadan fərqli olaraq burada kofe iri plantasiyalarda deyil, xırda kəndli təsərrüfatlarda qəhvə ağaclarına daha yaxşı xidmət edilir, vaxtı-vaxtında daranır, yetişmiş meyvələri yığılır. Ölkədə qəhvə ağacları kölkədə inkişaf edir, meyvəsi gec yetişir və buna görə də Braziliya qəhvəsinə nisbətən kofeini yüksək və keyfiyyətli olur.

Qəhvənin monokultura olması ölkənin sosial-iqtisadi strukturunda həlledici olmasını və ABŞ-dan asıllığını

artırır. Belə ki, ölkədə istehsal edilən qəhvənin 80%-ni ABŞ idxal edir və Nyu-York birjasında qəhvənin qiymətinin dəyişməsi ölkəyə xeyli zərər vurur. Buna görə də son illər dövlət və milli federasiya qəhvə istehsalını azaltmaqla banan, şəkər qamışı və pambığın istehsalını, ixracını atırmaq üçün tədbirlər görür. Banan əsasən isti tropik iqlim qurşağında, yağışların çox düşdüyü ərazilərdə, süni suvarma üçün əlverişli şərait olan Maqdalena çayı vadisində becərilir.

Son vaxtlar Atlantik sahilində Uraba və Turbo rayonlarında iri banan plantasiyaları salınmışdır. İxrac məhsulu olan banan plantasiyaları «Yunayted frut kompani» və onun filialı «Maqdalena frut kompani» şirkətləri tərəfindən nəzarətdədir.

Atlantik sahilində istehsal edilən banan üçün ən böyük təhlükə qasırğalardır. Lakin son illər onun qarşısının alınması üçün müəyyən qoruyucu tədbirlər həyata keçirilir.

Şəkər qamışı ölkəyə İspaniyadan gətirilmişdir və yerli əhaliyə məlum deyildir. Şəkər qamışını əsas istehsal edən əyalət Valyedir ki, ölkədə istehsal olunan məhsulun 90%-i onun payına düşür. Bundan başqa şəkər qamışı Tolima, Kaldes, Antiokiya və digər əyalətlərdə də becərilir. 1960-cı illərədək Kolumbiya

şəkər ixrac etmirdi, lakin ABŞ-la Kuba arasında münasibətlərin kəskinləşməsi ölkəni şəkər qamışı istehsalını artırmağa vadar etdi. Bununla da ölkə qəhvənin qiymətinin dünya bazarında aşağı düşməsi, bununla da ölkəyə dəyən ziyanın ödənməsi şəkər istehsalının artırılmasına təsir etdi.

Hələ aqrar mədəniyyəti dövründən Amerika üçün ənənəvi taxıl məhsulu qarğıdalı olmuşdur və buradan o bir çox regionlara və ölkələrə yayılmışdır. Bu gün də Latın Amerikasında qarğıdalı əsas ərzaq məhsullarından biri kimi istifadə olunur. Qəhvənin əkin sahəsindən sonra qarğıdalı ikinci yeri tutur və bütün əyalətlərdə istehsal edilir. Lakin son illər əmtəəlik məhsul olan şəkər qamışı, pambığın istehsal sahələri genişləndiyindən qarğıdalı sahələri xeyli azalmışdır.

Taxıl məhsullarından vacib olan buğda Kolumbiyaya XVI əsrdə ispanlar tərəfindən gətirilmişdir. Onun ilkin əkin sahələri 1500-cü ildə Boyaka və Kundinamarka əyalətlərində meydana gəlmiş və sürətlə bütün ölkəyə yayılmışdır.

Taxıl məhsullarının nisbətən geniş yayılmış növündən biri də arpadır. Bu məhsul növü pivə istehsalında geniş istifadə edilir və demək olar ki, daxili tələbatı ödəyir. Arpanın ən geniş istehsal edildiyi ərazi Kundinamarka əyalətidir ki, onun payına ümumi istehsalın 70%-i düşür. Bu əyalətdə «Bovariya» birliyinin çoxlu pivə zavodları yerləşir.

Ərzaq məhsulları arasında qarğıdalıdan sonra ikinci yeri çəltik tutur. Digər taxıl bitkiləri istehsalından fərqli olaraq çəltik əkini daha da genişlənir. Çəltik istehsalı ilə əsasən iri xüsusi təsərrüfatlar məşğul olur.

Ölkənin kənd təsərrüfatında pambıqçılıq özünəməxsus yer tutur. Onun əkini hələ ilkin yerli əhali olan çibçilərə məlum idi və onlar zərif pambıq parçaları toxuya bilirdilər. XIX əsrin ortalarında ölkədə pambıq istehsalı xüsusi yer tuturdu və Kolumbiyadan Avropaya daşınırdı. Lakin sonradan daha keyfiyyətli Misir pambığının dünya bazarına çıxarılması ölkədə onun istehsalının azalmasma təsir edir. Bununla yanaşı ölkədə pambıq-parça istehsal edən toxuculuq sənayesi inkişaf etməmişdi. Lakin XX əsrin 40-cı illərindən etibarən ölkədə yaranan toxuculuq sənayesi əkin sahələrin artmasına və istehsal məhsulların ixrac edilməsinə şərait yaratmışdır. Əkin sahələrinin artması, məhsulların yaxşılaşması hesabına ölkə nəinki daxili tələbatı ödəməyə, hətta pambıq ixrac etməyə başlamışdır. Son illər, xüsusilə də, XX əsrin 60-cı illərində şəkər istehsalında çatışmazlıq onun əkin sahələrinin genişlənməsinə səbəb olmuşdur. Amerika əhalisinin ən qədim əkin bitkilərindən biri də tütündür. XVI əsrdən etibarən bütün Avropaya yayılmağa başlamışdır. Kolumbiyada tütün əkini müstəmləkəçilik dövründən başlanmış və artıq XIX əsrin ortalarında Kolumbiyada ixrac məhsullarının 45%-i təşkil edirdi. Demək olar ki, ölkənin bütün əyalətlərində tütün yarpağı istehsal etmək üçün əlverişli iqlim şəraiti vardır.

Cənubi Amerikaya kakao ilk dəfə Meksikadan gətirilmişdir. Ölkənin qədim əhalisi olan asteklər ondan şokalad və kakao yağı istehsal edirdilər. Müstəmləkə dövründə kakao bütün Latın Amerikası ölkələrində

becərilirdi. 1866-cı ilədək Kolumbiyada kakao əsas ixrac məhsullarından biri idi. Bu ölkənin kakaosu yüksək keyfiyyəti ilə fərqlənirdi. Hal-hazırda da Kolumbiya əhalisinin ənənəvi içkilərindən biri, kakao unundan, vanilin, qarğıdalı və bibərdən hazırlanır. XIX əsrin sonunda ağaclara düşən xəstəlik nəticəsində kakaonun əkin sahələri azalmağa başladı. Kolumbiyada yağlı bitkilərdən küncüt, soya, zeytun da becərilir.

Cənubi Amerika daha iki kənd təsərrüfatı məhsulunun vətənidir. Onlardan kartof dünyanın əksər ölkələrinə yayılmış və indi də sürətlə istehsal edilməkdədir. İkincisi olan yukka Afrika və Amerikada istehsal edilir. Kartof Kolunıbiyanın bir çox rayonlarında becərilir, amma Boyaka və Narinyo əyalətlərində daha çox istehsal edilir. Maniokun bir növü olan yukka alçaq boylu kol olub, yoğun kökə malikdir. Onun kökündən hindular un, yarma, kraxmal istehsal edir, milli içkilər düzəldirlər.

Amerikanın qədim əhalisi ev heyvanlarını tanımırdılar. At, iri buynuzlu mal-qara və donuz Kolumbiyaya İspaniyadan ilkin dövrlərdən gətirilmişdir. Yüz il ərzində Avropadan, Asiyadan gətirilən müxtəlif növ iri buynuzlu mal-qara iki müasir çinsin-orefineqro və zebuların yaranmasına səbəb olmuşdur. Orefineqrolar mülayim iqlimin yüksək dağlıq ərazilərində, sebular isə isti tropik rayonlarda formalaşaraq müasir çamışların nəsli olmuşdur. Otlaq sahələrinin çox olmasına baxmayaraq heyvanların sayı o qədər də çox deyildir. Heyvandarlığın ekstensiv inkişafı məhsuldarlığın aşağı olmasının əsas səbəbidir. Son illər ölkədə bu nöqsanların aradan qaldırılması sahəsində müəyyən işlər görülür. Mal-qaranın cinslərinin yaxşılaşdırılması, sayının artırılması və kökəldilməsinə şərait yaradılır. Məhsul istehsalının strukturunda edilən dəyişikliklər intensiv inkişaf üçün zəmin yaratmalıdır.

Sənayenin coğrafiyası

Kolumbiya Latın Amerikası ölkələri içərisində orta inkişaf səviyyəsinə malikdir. Ölkə sənayesi «qitənin böyük dördlüyü» adlanan Braziliya, Argentina, Meksika və Çilidən xeyli geridə qalır. Bununla belə Ekvador, Peru, Paraqvay kimi ölkələrdən xeyli irəlidir. O, adambaşına düşən gəlirə görə də orta mövqe tutur.

İkinci dünya müharibəsindən sonra ölkədə sənaye məhsulu istehsalı ləng artsa da getdikcə kənd təsərrüfatı məhsulları istehsalının həcminə nisbətən artmaqdadır.

Kolumbiya sənayesinin əsas sahələri II dünya müharibəsinin gedişində və sonra inkişaf etməyə başlamışdır. 1940-45-ci illərdə sənaye məhsulu istehsalının artım səviyyəsi 6,4%, 1946-53-cü illərdə isə 9,1% olmuşdur. Bu onunla bağlı idi ki, ölkənin kənd təsərrüfatı məhsullarına tələbat böyük idi və ixracdan ölkəyə xeyli valyuta ehtiyatı toplanmışdı. Daxili bazarda ölkənin sənaye məhsulları xarici rəqabətə rast gəlmirdi.

Bu da öz növbəsində sənayenin sürətli inkişafını təmin edirdi. Artıq 1955-ci ildən sonra ölkə sənayesi xarici məhsulların rəqabətinə düçar oldu ki, bu da sənaye məhsulu istehsalının həcminə və dəyərinə küllü miqdarda zərər vurmağa başladı.

Buna görə də həmin dövrlərdə sənaye məhsulu istehsalının inkişafı ləngiməyə başladı. 1960-cı illərin ortalarında ümumi sənaye məhsulu istehsalının artım həcmi 5% təşkil edirdi.

Ölkənin ayrı-ayrı sənaye sahələrinin inkişafında, sahə daxili strukturunda böyük uyğunsuzluqlar mövcuddur. Belə ki, texnologiya, xarici investisiya ilə yaradılan iri sənaye sahələri ilə yanaşı kiçik, xırda və yarım kustar fəaliyyət göstərən müəssisələr və sahələr də vardır.

Kolumbiya müxtəlif mineral resurslarla neft, dəmir filizi, əlvan metallar, daş duz, qızıl, gümüş, platin, zümrüd, uran filizi və b. zəngindir. Lakin neft, daş duz, qiymətli metallardan başqa digər mineral resurslardan istifadə olduqca zəifdir və demək olar ki, ölkənin həmin məhsullara olan tələbatı ödənilmir.

Ölkənin xeyli miqdarda neft ehtiyatları vardır. BMT-nin ekspertlərinin hesablamalarına görə ölkədə 100-120 mln. ton neft ehtiyatı vardır. Neft sənayesindi xarici kapitalın, xüsusilə də Amerika kapitalının rolu böyükdür. İkinci dünya müharibəsində Qərbi Avropa ölkələrində neft və kömür sənayesi dağıldıqdan və dünya bazarında neft qıtlığı yarandığından Kolumbiya neftinə maraq daha da artmış, Amerika kapitalının ölkəyə axını başlamışdır. İndiyədək ölkənin neft sənayesinin inkişafını xarici kapital ləngitməkdədir.

Əgər keçən əsrin illərində neft hasilatında xarici şirkətlərin xüsusi çəkisinin azalması müşahidə edilirdisə, bu ölkənin neft barədə qanununun qəbul edilməsi ilə bağlı idi. Ölkənin konqresi bu qanunu qəbul etdikdən sonra neft hasilatında irəliləyişlər baş verdi. Amerika şirkətləri yeni yataqları aşkar etməyə və onun istismarını sürətləndirməyə başladı. Son illər ABŞ hökuməti Kolumbiya neft sənayesinə kapital qoyuluşunu artırmış, ölkənin neft məhsullarına olan tələbatı ödəmək üçün yeni yataqların istismarını sürətləndirməyə başlamışdır.

Kolumbiya Latın Amerikası ölkələri içərisində ən çox kömür ehtiyatına malikdir. Ekspertlərin hesablamalarına görə ölkədə 18-40 mlrd. ton həcmində daş kömür ehtiyatı vardır. Kömürün böyük hissəsinin yatağın üst laylarından sadə mexanizmlər və əl ilə çıxarıldığından onun dəyəri yüksəkdir. Bir çox yataqların istifadəsini yolun olmaması, təbii şəraitin çətinliyi ləngidir. Müasir texnologiyaların, maşın və avadanlığın olmaması daha dərin şaxtalardan istifadəni çətinləşdirir.

Lakin ölkədə kömür istehsalının artımına həm investisiya qoyuluşu üçün vəsait çatışmamazlığı, həm də xarici neft monopoliyaları mane olur. Onlar qorxur ki, kömür hasilatı artsa ölkə daxilində neft məhsullarına taləbat azalacaqdır. Amerika neft maqnatlarının təsiri ilə Kolumbiya digər ölkələrlə kömür istehsalını artırmaq barədə aparılan danışıqları, təklif olunan kreditləri inkar etməyə məcbur oldu.

Ölkədə 25-dək dəmir filizi yataqları olsa da, onun istehsal həcmi böyük deyildir. Təxmini hesablamalara görə onun geoloji ehtiyatı 120 mln. t-dur. Dəmir filizinin əsas ehtiyatları Kuvdinamarka və Boyaka əyalətlərindədir. Burada ilk metallurgiya kombinatları olan «Aserias pas del Rio» fəaliyyət göstərir. Çox qədim dövrdən ölkədə daş duz istehsal edilir. Hal-hazırda daş və dəniz duz istehsalı

Dövlət monopoliyasmın əlindədir və daxili tələbatı ödəyir. Digər faydalı qazıntıların (mis, sink, molibden, qurğuşun, sürmə, barit, kükürt, asbest, gips və s.) istehsal həcmi böyük deyildir.

1956-cı ildən etibarən ölkədə uran filizinin istehsalına başlanmışdır. Onun ehtiyatları hələ 1909-cu ildə Şərqi Kordiryerlərdə tapılmışdı. Hal-hazırda uran ehtiyatlarının tədqiqi ABŞ və ölkənin atom institutları tərəfindən aparılır. Onun istehsalına həmçinin kanada və ingilis kapitalı da cəlb edilmişdir.

Nadir metalların istehsalı çox qədimdə, qədim çibçi tayfaları tərəfindən həyata keçirilmişdir. İspanlar ərazini işğal etdikdən sonra onun istehsalını daha da artırmış, yeni yataqlar aşkar etmişlər. Hal-hazırda qızıl və gümüş istehsalının həcmi olduqca azalmışdır.

Platin fılizi istehsalına görə Kolumbiya dünyada üçünçü yeri tutur. Onun əsas ehtiyatları Çoko əyalətinin ərazisindədir. Platin istehsalı bütövlükdə amerika şirkəti «Saut ameriken qold end platinum»un əlindədir. Platinə olan ehtiyacın artması ilə əlaqədar olaraq çıxarılan filiz bütövlükdə ABŞ-a aparılır.

Qızıl səpinti halında Maqdalena, Kauki, Atrato və San-Xuanın qolları boyu rast gəlinir. Qızıl istehsalı bütövlükdə ABŞ şirkətlərinə məxsusdur. Həvəskarlın istehsal etdikləri qızılı ancaq dövlət bankına müəyyən olunmuş qiymətə sata bilərlər.

Kolumbiyada gümüş yataqları Antiokiya, Kaldas, Uila, Satander və Tolima əyalətlərindədir. Onun ehtiyatı və çıxarılması qızıla nisbətən azdır.

Zümrüd istehsalına görə Kolumbiya dünyada birinci yeri tutur. Ölkənin zümrüdü dünya bazarında ən qiymətli hesab edilir. O qəşəng rəngi, şəffaflığı, günəş şüalarını əks etdirməsi ilə seçilir.

Zümrüdün ən iri yataqları Boyaka və Kundinumarka əyalətlərindədir. Bu yataqlar dövlətə məxsusdur və onun şirkətləri tərəfindən istehsal edilir. Zümrüd ən çox ixrac məhsullarından olduğu üçün ölkəyə gələn valyuta mənbəyi hesab edilir.

Kolumbiya zəngin hidroenerji ehtiyatlarına malikdir və onun səmərəli istifadəsi ölkədə 200 kvt\saat ildə elektrik enerjisi verə bilər. Lakin bu hidroenerji resurslarından səmərəli istifadə edilmir. Ölkə demək olar ki, sənaye müəssisələrini və daxili tələbatı elektrik enerjisi ilə təmin edir. İstehsal olunan elektrik enerjisinin 75%-i su elektrik stansiyalarının, 25%-i isə kömürlə işlədilən yanacaq elektrik stansiyaların payına düşür.

Kolumbiyanın ümumi daxili məhsul istehsalında emaledici sənayenin xüsusi çəkisi əsasən ikinci dünya müharibəsindən sonra artmışdır. Bu sənayenin inkişaf sürəti Latın Amerikasının Braziliya, Meksika, Argentina kimi ölkələrdən geri qalır. Emaledici sənaye əsasən daxili bazarın tələbatını ödəməyə yönəlmişdir.

İkinci dünya müharibəsindən sonra emaledici sənaye müəssisələrinin genişlənməsi, təmərküzləşməsi hesabına onun xüsusi çəkisi artmağa başlamışdır. İstehsal olunan məhsulun ümumi miqdarına və dəyərinə görə yeyinti sənayesi birinci yeri tutur.

Sonrakı yerləri toxuculuq və müxtəlif içki istehsalı sahələri tutur. Kolumbiya sənayesinin aparıcı sahəsi

plan yeyinti sənayesi və içki istehsalı ümumi emaledici sənayenin xüsusi çəkisinin 45%-ni təşkil edir. Amerika kapitalına əsaslanan iri sənaye müəssisələri həmin məhsulların istehsalının, emalının və ixracının çox hisəssini öz əlində çəmləşdirmiş və ölkə daxilində monopoliya yaratmışdır.

Müasir dövrdə Kolumbiyanın toxuculuq sənayesi sürətlə inkişaf etməkdədir. Pambıq parça istehsalına görə Latın Amerikasında üçünçü yeri tutur. Ölkədə toxuculuq sənayesi 1950-ci ildən sonra sürətlə artmağa başlamışdır. Sahə milli xammalla tam təmin olsa da yun parça istehsalı üçün yun xaricdən idxal olunur. Toxuculuq sənayesinin əsas mərkəzləri Barrakil, Medelin və Kalidir.

Kolumbiya sənayesinin aparıcı sahəsi yeyinti və toxuculuq olsa da, yeni sahələr olan metallurgiya və maşınqayırma yüksək sürətlə inkişaf edir.

Boqota şəhərinin 250 km-də zəngin dəmir filizi yataqları, ona da yaxın kömür ehtiyatları aşkarlandıqdan sonra bütün ləvazimatları almaq, kombinat yaratmaq məqsədilə hökumət Beynəlxalq İnkişaf və Yenidənqurma Bankına müraciət etdi. Bu beynəlxalq bankın ekspertləri kombinat yaratmanın mümkünlüyünü öyrənsələr də amerika ekspertlərinin təzyiqi istehsala lazım olan vəsaiti ayırmadı. Nəhayət 1954-cü ildə dövlət şəxsi kapitalının əsasında «Aserias Pas del Rio» metallurgiya kombinatı işə salındı.

Son illər ölkənin maşınqayırma sənayesində müəyyən irəliləyişlər olmuşdur. Xırda metallurgiya və maşın təmiri zavodları əvəzinə xarici investi hesabına iri müəssisələr yaradılmağa başlanmışdır.

Maşınqayırma sahəsi, şəkər, toxuculuq və ağac emalı müəssisələri üçün avadanlıqlar istehsalına başlamış, avtomobil və yığma müəssisələri inkişaf etdirilməyə başlamışdır.

Avtomobil yığma müəssisələri «Ceneral motors», «Folsvaqen» və «Mersedes-Bens» şirkətlərinə məxsusdur.

Kolumbiyanın neft sənayesi bütövlükdə yerli xammala əsaslanır. Bu ölkə iqtisadiyyatının nisbətən inkişaf etmiş sahəsidir. Baranka-Bermax və Krataxandada yerləşən neft emalı müəssisələri «Ekopetrol» və «İnterneşil petroleum» şirkətlərinə məxsusdur. Bu amerika şirkətləri ölkənin neft məhsullarının çox hissəsini bazara çıxarır. Ölkə mazutla nəinki öz tələbatını ödəyir, hətta xaricə ixrac da edir. Daxili bazarda neft məhsullarının satışını 75%-i iki amerika şirkəti olan «ESSO ombina S.A» və «Kolombianos Distribuidores de petroleos S.A» ya məxsusdur.

Kolumbiyanın nəqliyyatının kifayət qədər inkişaf etməməsi ölkənin iqtisadiyyatının inkişafına təsir edir. Ölkənin dəmir yollarının uzunluğu 5,7 min km, avtomobil yollarının uzunluğu isə 8,9 min km-dir. Yük daşınmasının 60%-i avtomobil nəqliyyatının payına düşür.

Ölkədə dəmir yollarının əksəriyyəti dövlətin nəzarətindədir. 1961-ci ildən sonra xarici kapitalın cəlb edilməsi ilə yeniləşən və elektrikləşən dəmir yolu ölkə iqtisadiyyatının inkişafına xeyli təkan vermişdir.

Son illər avtomobil və dəmir yolların inkişafı çay nəqliyyatının yük daşınmada əhəmiyyətini xeyli azaltmışdır. Çay nəqliyyatı əsasən Maqdalena çayı vasitəsilə həyata keçirilir.

Kolumbiyanın iqtisadiyyatında xarici ticarət mühüm yer tutur. O, kənd təsərrüfatı məhsulları və neft ixrac edir, emaledici sənaye və məhsullarını, maşın avadanlıqları isə idxal edir. Xarici ticarətin strukturunun təhlili göstərir ki, ölkə on illərlə milli sənayesini inkişaf etdirsə də qəhvə ixracının həcmi azalmır. Dünya bazarında isə qəhvənin qiymətlərinin tez-tez dəyişməsi ölkə iqtisadiyyatının inkişafına təsir edir. Kolumbiyanın xarici ticarətində ikinci yeri neft məhsulları tutur. Lakin neft ixracı ölkənin sosial-iqtisadi inkişafı üçün gəlir gətirmir, belə ki, bu sənaye sahəsi bütövlükdə xarici inhisarın əlindədir.

Son illərdə kənd təsərrüfatı məhsullarından pambıq, şəkər, tütün, banan ixracı geniş miqyas alır. Neft və kənd təsərrüfatı məhsullarından başqa son illərp latin, sement, meşə materialları və dəri məmulatları-ixracının xüsusi çəkisi artmaqdadır. Ölkənin idxal etdiyi məhsulların strukturunda ABŞ-dan və digər inkişaf etmiş ölkələrdən asılılıq aydın hiss edilir. Sənaye və nəqliyyat avadanlıqlarından dizel, buxar turbinləri, elektrik avadanlıqları, neft-kimya sənayesi avadanlıqları, kənd təsərrüfat maşınları, avtomobil, metalkəsən dəzgahlar, yük gəmiləri, sərnişin təyyarələri əsas idxal məhsullarıdır. Son illərdə metallurgiya, neft, kimya və toxuculuq sənayesinin inkişafı ilə əlaqədar bəzi məhsulların, yanacaq, xammal və yarımfabrikatların idxalı azalmışdır. Kolumbiyanın xarici ticarətinin əsas hisəssi ABŞ-nın payına düşür. Amerika monopoliyası nəinki ölkənin iqtisadiyyatına nəzarət edir, həmçinin xarici ticarəti də öz əlində saxlayır.

Kolumbiyanın xarici ticarətində Yaponiya, İspaniya, Latın Amerikası ölkələri də xüsusi rol oynayırlar.

ÇİLİ

Sahəsi – 756,9 min km^2
Əhalisi – 16,0 mln. nəfər (2005-ci il)
Paytaxtı – Santyaqo

Təbii şəraiti, təbii ehtiyatlarının iqtisadi cəhətdən qiymətləndirilməsi

Çilinin ərazisi 4 min km-dən çox uzununa, 175-350 km eninə Sakit okean sahili boyu qurşaq şəklində uzanır. Sahəsinin böyüklüyünə görə o Latın Amerikası ölkələri içərisində 8-ci yeri tutur. Cənub və qərbdən Sakit okeanın suları, şimaldan Peru, şərqdən Boliviya və Argentina ilə əhatələnmişdir. Ölkə ərazisinə materik hissədən başqa çoxlu sahil adaları, Odlu Torqağın qərb hissəsi və Sakit okeanda yerləşən bir neçə ada daxildir. Çili dağlıq ölkə olub, ərazisi şimaldan cənuba doğru iki dağ sistemi ilə parçalanmışdır. Qərb hissədə hündürlüyü okean səviyyəsivdən 1000-2500 m olan Sahil Kordilyerləri, şərqdə isə And sıra dağları uzanır. And dağları Argentina ilə təbii sərhəd yaradır. And dağları şimaldan cənuba doğru tədricən alçalaraq, orta hündürlüyü isə 2000 m-ə çatır. Şimalında ən hündür zirvəsi olan Oxeo-del-Saladonun mütləq hündürlüyü 6870 m-ə çatır. Sahil Kordilyerləri

ilə And dağları arasında Uzun vadi - Valparaiso yerləşir. Ölkə ərazisində çay çox olsa da gəmiçilik üçün yararlı deyildir. Mənbə yaxınlığında bu çaylar coşğun, sürətli, mənsəbdə isə keçilməzdir. Dağ çayları tipli olduğundan sürətli və qısadırlar, hər birinin uzunluğu 300-400 km-dən artıq deyildir. Göllər çox olsa da iri deyildir. Seysmik cəhətdən fəal zəlzələ zonasında yerləşdiyindən, baş verən zəlzələlərin sayına görə o Yaponiya ilə birinciliyi bölür. Çilinin tarixində ən müdhiş zəlzələ 1960-cı ildə baş vermiş, minlərlə insan tələf olmuş, iqtisadiyyatına küllü miqdarda ziyan dəymişdir.

Çilinin iqlimi olduqca rəngarəngdir. Ərazinin şimalında subtropik, cənubunda mülayim - soyuq, mərkəzi hissələrində Aralıq dənizi subtropikidir. İlin ən isti ayı yanvar, ən soyuq ayları isə iyul-avqusqdur. Çilinin əlverişli təbii şəraiti, məhsuldar torpaqları, yumşaq iqlimi, zəngin təbii sərvətləri sənayenin və kənd təsərrrüfatının hərtərəfli inkişaf etdirilməsinə imkan verir. Ölkənin iqtisadi imkanları müasir əhalisindən çox insanı təmin etmək qabiliyyətinə malikdir.

Mis filizinin ehtiyatına görə ölkə dünyada birincilər sırasındadır. Dünyada yeganə ölkədir ki, təbii şora ehtiyatına malikdir. Bu təbii şora keyfiyyətinə görə süni şoradan dəfələrlə üstündür. Ölkədə kifayət qədər hidroenerji, dəmir filizi, kömür, manqan, neft, uran, kükürd və digər faydalı qazıntılar vardır.

Çayları hidroenerji əhəmiyyətli olub, ildə hər biri 6-7 mln.kvt enerji istehsal etməyə imkan verir. Daş kömür və əlvan metalların böyük ehtiyatları vardır, sahil zolağında okean suları balıq ehtiyatları ilə zəngindir. Norte Çiko regionu dəmir filizi, mis və əlvan metallarla olduqca boldur. Buna görə də hələ XVIII əsrdə dünya bazarında mis filizinə artan tələbat burada dağ-mədən sənayesinin inkişaf etdirilməsinə güclü təkan vermişdir. Elka çayının vadisində və qonşu dağlarda manqan və qızıl ehtiyatları vardır. Norte Çiko regionunun Kopyapo çayı vadisində Çilinin ən böyük mis yataqlarından biri olan El-Salvador yerləşir.

Norte Qrande regionu Atakama səhrasının çox hissəsini əhatə edərək, təbii şora ehtiyatı ilə zəngindir. XIX əsrin ikinci yarısında ABŞ və Avropada mineral kübrəyə olan tələbatın artması burada şora istehsalını genişləndirdi. Çukakamaya məntəqəsi yaxınlığında zəngin mis qarışığı ehtiyatı aşkar edilmişdir. Onun tərkibində mis filizi ilə yanaşı qızıl, gümüş, nikel və radioaktiv elementlər vardır.

Cənubi hindu regionu Mərkəzi Çiliyə nisbətən rütubətli olduğundan kənd təsərrüfatı suvarılmadan da inkişaf edir. Ərazinin əsas təbii sərvəti meşədir. Sur Çiko və Sur Qrande regionları neft, təbii qaz və meşə resursları ilə zəngindir.

Hal-hazırda ölkədə istehsal olunan neftin 79%-i qədəri Sur Qrande regionunun payına düşür. Son vaxtlar Odlu Torpaq ərazisində neft və qaz ehtiyatları aşkar edilmiş və istifadəyə verilmişdir. Bu ərazilərdə polimetal filizləri, qurğuşun və sinkin iri yataqları istifadəyə verilmişdir. Cənub regionunun iqlimi mülayim rütubətli, fəal temperatur cəmi isə 10°C -dən aşağıdır. Buna görə də əkinçilikdə kartof və yetişdirilməsi üstünlük təşkil edir. Çəmənlik və otlaqlar heyvandarlığın, xüsusilə də qoyunçuluğun inkişafı üçün əlverişlidir. Burada ovçuluq və balıqçılığın inkişafı üçün perspektivli imkanlar vardır. Zəngin meşə ehtiyatı ağac emalı sənayesini perspektivli sahəyə çevirmişdir.

Əhalisi, əmak ehtiyatları va məskunlaşma formaları

Çilinin avropalıların kəşfinə qədər əhalisi əsasən mapuçe adlı hindu tayfalarından ibarət idi. İnklər, astektlər, mayyalar kimi mapuçelər də öz inkişafında müəyyən mərhələyə çatmış, özünəməxsus mədəniyyətə malik olmuşlar. Mapuçe tayfaları əkinçiliklə, xüsusilə də kartof, pomidor, xiyar, meyvə istehsalı ilə məşğul olmuş, balıqçılıqda müəyyən irəliləyişə malik olmuşlar. Sonralar avropalıların gətirdikləri taxıl və tərəvəz istehsalı daha da genişlənməyə başlamışdır. Konkistadorların təcavüzünə sinə gərən mapuçelər bir neçə onilliklər ərzində öz ərazi bütövlüklərini qoruyub saxlaya bilmişdilər. Onlar əvvəlcə ispanlara, sonra isə çililərə qarşı fəal mübarizə etmişlər.

Ərazinin şimalında yaşayan mapuçelərin ram edilməsindən sonra cənubda yaşayan ya-qanvə alkaluf tayfaları üçün daha acınacaqlı həyat başladı. Pataqoniya və Odlu Torpaq ərazilərinin mənimsənilməsində avstraliyalılar və ingilislər hindu tayfalarına daha ağır zərbə vurdular.

Çilinin hindu tayfalarının bütövlükdə müqaviməti sındırıldıqdan sonra bura Avropanın müxtəlif ölkələrindən — İspaniya, Almaniya, Portuqaliya, Böyük Britaniya, Hollandiya, Belçika və digərlərindən immiqrantlar axışıb gəlməyə başladılar. Mərkəzi Çilinin əhalisi müstəmləkəçiliyə qədər hindu tayfalarından ibarət olub, əsasən kənd təsərrüfatı ilə məşğul olur, ənənəvi qarğıdalı, kartof, tərəvəz, üzüm və digər meyvəçiliklə xırda kəndli təsərrüfatları yaratmışdılar. Lakin avropalıların gəlişi ilə həm kənd təsərrüfatı, həm də dağ-mədən sənayesi inkişaf etməyə başladı. İstehsal olunan məhsulun Avropa bazarlarına çıxarılması üçün portların salınmasına başlanıldı. İkinci dünya müharibəsi dövründə və ondan sonra emaledici sənaye sürətlə inkişaf etməyə, əhali kəndlərdən şəhərlərə kütləvi şəkildə köçməyə başladı. Ölkənin mərkəzl hissələrində Santyaqo, Valparaiso, Konsepsion və digər şəhərlər böyüməyə başladı. Ölkədə getdikcə urbanizasiyanın səviyyəsi artmağa başlamış və hal-hazırda 70%-i ötüb keçmişdir.

Müasir Çili əhalisinin formalaşmasında Avropanın bir çox ölkələrinin böyük rolu olmuşdur. Lakin Latın Amerikası ölkələri kimi burada da təbii artımın səviyyəsi yüksəkdir. Əhalinin 68%-ni kreollar (İspaniya mənşəli çililər), 30%-ni avropalılar, 2%-ni hindular təşkil edir.

Çili əhalisinin məskunlaşmasında da müəyyən təzadlıq vardır. Yerli əhali olan hindu tayfaları uzun müddət yadelli işğalçılarına qarşı mübarizə apardıqlarından ayrı-ayrı regionlarda onların xüsusi çəkisi olduqca müxtəlifdir. Onlar uzun müddət ispanlara, qarşı vuruşmuş, öz ərazilərini, adət və ənənələrini qorumağa cəhd göstərmişlər. Ərazi qoşunlar tərəfindən zəbt olunduqdan dərhal sonra Cənub dəmiryolu xətti çəkilməyə başladı. Ərazinin əsasən kənd təsərrüfatı üzrə ixtisaslaşması, yeyinti və meşə sənayesinin inkişaf etməsi ilk günlərdən müasir dövrədək davam edir. Bütövlükdə Çilidə yaşayan hindu tayfalarının 40%-i hindu cənubunda məskunlaşmışdır. Hindu əhalisinin əksəriyyəti əmək birliklərində, çörəkbişirmə sənayesində fəhlə, evlərdə qulluqçu kimi çalışırlar. Polisdə karabinyerlər korpusunda mapuçelərin

xüsusi çəkisi böyükdür. Xüsusi reduksiyalarda (hindular üçün ayrılmış ərazilərdə) yaşayan hindular ailə üçün ayrılmış sahalərdə çalışır. Onlar heyvavdarlıqla məşğul olur, xırda sənətkarlıqla ailələrini dolandırırlar. Sur Çiko regionunda Almaniyadan köçüb gəlmiş əhali kənd təsərrüfat məhsulu istehsalında xüsusi fərqlənirlər. Onlar mapuçelərin əməyindən daha səmərəli istifadə edirlər. Belə ki, mapuçelər mahir və dözümlü çobanlardır, onlar muzdlu əməyə daha çox üstünlük verirlər. Sur Çiko regionunun şəhərlərində alman dili daha geniş yayılmışdır. Şəhər tikililəri, küçə və evlərin forması, quruluşu sanki Saksoniyanı və ya Bavariyanı xatırladır.

Son illər Latın Amerikasında sürətlə inkişaf edən ölkələrdən biri olan Çili əhalisi olduqca fəal iqtisadi əhali hesab edilir. Ümumi əhalinin 60,5%-i iqtisadi cəhətdən fəal əhalidir.

Təssərüfatın ümumi səciyyəsi

Ölkə iqtisadiyyatının formalaşması həm daxili ziddiyyətlərin kəskinləşməsi, həm də beynəlxalq səviyyədə gedən proseslərlə daim əlaqəli olmuşdur. Digər latın Amerikası ölkələrində (Meksika, Brazilya, Argentina, Venesuela və s.) olduğu kimi, Çilidə də sənayenin və kənd təsərrüfatının inkişafı üçün əlverişli və sosial imkanlar vardır. Müstəmləkəçiliyin sonunadək ölkə iqtisadiyyatının əsasını kənd təsərrüffatı təşkil edirdi. Hindu tayfaları ənənəvi sahələr olan qarğıdalı, paxla bitkiləri yetişdirir, ispanlar gəldikdən sonra isə müxtəlif tərəvəz, meyvə, üzzümçülüklə məşğul olmağa başlamışlar.

Kənd təsərrüfatı məhsullarının əsas idxalçıları şəhər əhalisi, ordu, XVI əsrdə isə yenicə yaranmış dağ-mədən sənayesinin fəhlələri idi. Birinci dünya müharibəsi dövründə Avropa və ABŞ-dan sənaye məhsullarının idxalı azalmağa, yerli sənaye sahələri, yaranmağa başladı. Emaledici sənaye sahələri ilkin olaraq, mərkəz rayonlarda – Santyaqo, Valparaiso, Konsepsion şəhərlərində inkişaf edir, xarici investisiyanı daha çox maraqlandırırdı. Şimal regionlarından dəmir filizi, manqan, Lota və Koronel yataqlarından kömür, Uaçinatodan elektrik enerjisi gətirməklə metallurgiya məhsulları ilə ölkənin tələbatını ödəməyə, 30%-ni isə ixrac etməyə başladı.

Çili artıq aqrar ölkədən Latın Amerikasının sürətlə inkişaf edən sənaye-aqrar ölkələrindən birinə çevrilmişdir. Ölkə üçün ənənəvi sənaye sahəsi mis istehsalı və emalıdır. İxrac məhsullarından əldə olunan gəlirin təxminən yarısı onun paayına düşür. Ağac emalı, neft-kimya, balıq sənayesi inkişaf etmişdir. Yüngül və yeyinti sənaye sahələri yüksək inkişaf səviyyəsinə çatmışdır. Çilinin kənd təsərrüfatı yüksək intensivliyi ilə seçilir. Mülayim və subtropik iqlim qurşaqları əsasən bitkiçilik üzrə ixtisaslaşmışdır. Burada taxılçılıq, bostançılıq, meyvə və tərəvəzçilik, üzümçülük əmtəəlik xarakteri almışdır. Ölkənin əlverişli təbii şəraiti, südlük, ətlik istiqamətli heyvandarlığın inkişafına gözəl şərait yaratmışdır. Hazırda ölkənin kənd təsərrüfatı əhalinin ərzaq məhsullarına olan tələbatını ödəməklə yanaşı, bir hissəsini ixrac etməyə imkan verir.

Çilinin ərazisi təbii şəraitinə, əhalisinin məskunlaşmasına, ixtisaslaşma sənayesinə görə altı iqtisadi rayona bölünür: Norte Qrande, Norte Çiko, Mərkəzi Hindu, Cənubi Sur Çiko və Sur Qrande.

İqtisadi rayonları üzrə ixtisaslaşma səviyyəsi və inkişaf perspektivləri

Mərkəzi hindu iqtisadi rayonu ölkə əhalisinin şimal və cənub hissələrindən təxminən bərabər hissədə yerləşir. Onun şimal sərhəddi Okonkaqua çayı vadisi (buradan Peru sərhəddinədək 1600 km), cənub sərhəddi isə Bio-Bio çayı vadisi (Magellan boğazınadək 1700 km) ilə əhatələnir. Rayonun iqlim şəraiti, torpaq, bitki örtüyü Aralıq dənizi ətrafını xatırladır. Onun təbiəti olduqca rəngarəndir. Yayı isti və quru, qışı yumuşaq və rütubətlidir. Şimalında həmişə yaşıl kolluqlar, cənubunda isə həmişəyaşıl meşələr üstünlük təşkil edir. Qara və qonur torpaqları olduqca məhsudardır. Çayları qısa, bolsulu və hidroenerji ehtiyatlıdır. Daş kömür və əlvan metalların böyük ehtiyatı vardır. Şelf suları balıqla zəngindir. Iqtisadi rayon ölkənin iqtisadi-siyasi və mədəni həyatında olduqca böyük rol oynayır. Dəmir yollarının çəkilişindən sonra Mərkəz iqtisadi rayonun digər rayonlarla əlaqəsi daha da artdı ki, bu da gələcəkdə onun inkişafının təməlini qoydu.

Birinci dünya müharibəsi dövründə Avropa və ABŞ-dan sənaye mallarının idxalının azalması yerli sənaye sahələrinin yaranmasına təsir etdi. Bununla da daha ucuz işçi qüvvəsinə malik olan Mərkəz iqtisadi rayonunda sənaye məhsulu istehsalı sürətləndi. İkinci dünya müharibəsindən sonra məhsul istehsalının sürətlənməsi yeni emaledici sənaye sahələrinin yaradılması ölkənin paytaxtı olan Santyaqonun böyüməsinə, kəndlərdən şəhərə işçi qüvvəsinin axınına səbəb oldu.

Hal-hazırda ölkə ərazisinin 3,8%-ni əhatə edən bu əyalətlərdə ölkə əhalisinin 52%-dən çoxu cəmləşmişdir və emaledici sənaye müəssisələri məhsulun 80%-ni verir. Santyaqo və Valparansio xarici investerlərin diqqətini daha çox cəlb edir. Rayonun urbanizasiya səviyyəsi ucuz işçi qüvvəsi, məhsuldar qüvvələrin qeyri-bərabərləşməsi, gələcəkdə də ixtisaslaşmanın əmək tutumlu və elm tutumlu etməsini stimullaşdıracaqdır. Mərkəz rayonun böyüklüyü və təsərrüfat müxtəlifliyi burada iki müstəqil yarımrayonun Paytaxt və Mərkəz-Cənubun ayrılmasına imkan verir.

Norte Çiko iqtisadi rayonuna Kekimbo və Atakama əyalətləri daxildir. Rayon yarımsəhra və səhra zonasında yerləşdiyindən suvarma və su ilə təchiz olunma əsas problemlərindəndir. Rayonun ərazisi dəmir filizi və əlvan metallarla və xüsusilə də mis filizi ilə zəngindir. Buna görə də xarici bazarlarda misə artan tələbat XVIII əsrdə hasilat sənəyesinin yaranmasına səbəb olmuşdur. Sənayenin inkişafı kənd təsərrüfatını da inkişaf etməyə istiqamətləndirmişdir. XIX əsrin əvvəllərindən başlayaraq burada suvarma sistemləri yaradılmış, əkin sahaləri genişlənmiş, mal-qaranın sayı artmışdır. Nəhayət, birinci dünya müharibəsindən sonra ərazidə yeni yataqlar kəşf olunmağa, əlavə işçi qüvvəsinin cəlb olunmasına başlanıldı. Norte Çikoda dağ-mədən sənayesinin dirçəlməsi bir sıra səbəblərlə əlaqədar idi. Əvvəla, əlvan metallurgiyada texnologiyanın təkmilləşməsi sayəsində daha az mis filizi qarışığına da malik filizlərin çıxarılmasındakı səmərəliliyin artması,

ikincisi xarici kapitalın yeni yataqlara cəlb edilməsi (xüsusilə ABŞ kapitalının mis fılizinə, ABŞ və Yaponiya kapitalının dəmir filizinə) üçüncüsü, milli hasilat sənayesinin inkişafına dövlət yardımının artması bu dirçəlişin əsasını qoydu.

Hal-hazırda Norte Çiko ölkənin əsas dəmir fılizi və vacib əlvan metallurgiya rayonudur. Emaledici sənaye nisbətən zəif inkişaf etmişdir. Kənd təsərrüfatı əsasən yerli xarakter daşıyır.

Dərə-təpəli relyef və quru iqlim məhsuldar qüvvələrin yerləşməsinə güclü təsir etmiş, əhali sənaye və kənd təsərrüfatı çay vadilərinə istiqamətlənmişdir. Norte Çikonun şimalı səhra hissəsində Kopyapo çayının vadisi iqtisadi cəhətdən daha əhəmiyyətlidir. Çay az sulu olduğundan suvarma sistemi yaradılmamış, kənd təsərrüfatı zəif inkişaf etmişdir. Lakin faydalı qazıntılarla zəngindir. XIX əsrin ortalarında vadidə Kopyapo şəhəri salınmış, XIX əsrin 30-cu illərində onun ətrafında zəngin gümüş ehtiyatları aşkar edildikdən sonra sürətlə böyümüşdür. Müasir dövrdə Kopyaponun 30 km-də tikilmiş misəritmə zavodu, yeni dəmir filizi yataqları ölkənin bütün rayonları ilə əlaqəni genişləndirmişdir.

Norte Qrande iqtisadi rayonu Atakama səhrasının böyük hissəsində Antofaqosqa və Parapaka əyalətlərini əhatə edir. XIX əsrin 60-cı illərində Avropa və ABŞ-da mineral gübrəyə artan tələbat şora istehsalının əsasını qoymuşdur. Şora istehsalına ingilis, ingilis-çili və ABŞ kapitalı böyük maraq göstərməyə başlamışdır. Birinci dünya müharibəsindən əvvəl burada şora istehsalı ilə 170 müəssisə məşğul olurdu. İkinci dünya müharibəsindən sonra şora sənayesi təkmilləşməyə, yeni texnoloji avadanlıqlarla təchiz olunmağa başladı. Lakin XX əsrin 30-cu illərində dünyanın inkişaf etmiş ölkələrində sintetik şora istehsalının genişlənməsi rayonun şora ishehsalını ləngitməyə başladı. Bundan məharətlə istifadə edən ABŞ kapitalı Çilinin şora istehsalını öz əlində cəmləşdirərək ayrı-ayrı müəssisələri birləşdirib «Salitrera Anqlo-Lautaron» şirkətini təsis etdi. Şirkətin sahibləri dünya bazarında Çili şorasının qiymətini qaldırmaqla onun istehsalını azaltmağa başladı. ABŞ monopoliyası Çili şorasının zəiflədilməsi ilə yanaşı ərazinin mis filizi istehsalını genişləndirmək, onun yataqlarından maksimum istifadə etməyə başladılar. Artıq XX əsrin 40-60-ci illərində mis istehsalını 35% artırmağa nail oldular.

Antoraqasta-Boliviya dəmiryol xəttinin yaxınlığında ölkənin ən iri əlvan metallurgiya sənayesinin mərkəzlərindən biri olan Çukakamata yerləşir. Burada hər il orta hesabla 300 min ton mis əridilir. Mis filizinin tərkibində qızıl, gümüş, nikel və radioaktiv maddələr vardır. O saflaşdırılmadan birbaşa ixrac olunur. Zonada eyni zamanda kükürd və şora da istehsal olunur. İqtisadi rayonun əhəmiyyətinə görə ikinci dağ-mədən sənaye zonası onun şimalında yerləşən İkike port şəhərində çəmləşmişdir. Burada əsasən şora istehsalı yerləşir. Hindu cənubi iqtisadi rayonu Uzun vadinin Bio-Bio çayı ilə Olten çayı arasındakı ərazisini əhatə edir, Maleko və Kautin

əyalətlərindən ibarətdir. Mərkəzi Çiliyə nisbətən burada yağıntıların miqdarı çoxdur və əkinçilik suvarılmadan həyata keçirilə bilər. Rayonun böyük meşə ehtiyatları vardır və ölkənin meşə zolağında

yerləşir. Sakit okean müharibəsinə qədər rayonun ərazisində mapuçe hinduları yaşayırdı. Müharibədən sonra Çili hökuməti bura iri qoşun hissələri göndərməklə mapuçe hindularının müqavimətini qıraraq daha az məhsuldar ərazilərə sürgün etməyə, onların torpaqlarının əsas hissəsini zabit və əsgərlərə payladıqdan sonra qalanını isə Avropadan gəlmiş immiqrantlara, Mərkəzi Çili rayonundan köçüb gələnlərə verdilər. Tez bir zamanda cənub dəmiryol xətti çəkilərək Santyaqo ilə birləşdirildi. Bu da öz növbəsində ərazidə taxıl, meyvə, ət, yun istehsalını əmtəələşdirdi və yeyinti, ağac emalı sənayesinin inkişafını sürətiəndirdi. Hal-hazırda da rayonun iqtisadiyyatının həmin məhsulların istehsalı üzrə ixtisaslaşması davam edir. Kautin əyalətinin inzibati mərkəzi olan Temuko şəhərinin əhalisinin 26%-ni Mapuçe hinduları təşkil edir. Maleko əyalətinin əhalisinin 12%-ni hindular təşkil edir. Bütövlükdə Çilidə yaşayan hinduların 40%-i bu iqtisadi rayonun ərazisindədir.

Sur Çiko iqtisadi rayonuna Valdiviya, Osorno və Lyankiue əyalətləri daxildir və Uzun vadinin cənubunda yerləşir. Rayonun ərazisi hindu cənubuna nisbətən daha rütubətii və meşəlidir. Sakit okean müharibəsinə qədər və ondan da xeyli sonra iqtisadi rayonun ərazisi ölkəni o qədər maraqlandırmır və iqtisadiyyatında mühüm rol oynamırdı. Ölkə üçün yalnız XIX əsrin 40-cı illərində əraziyə Almaniyadan gələn immiqrantlardan sonra əhəmiyyət kəsb etməyə başladı. İmmiqrantların hesabına taxılçılıq, südlük heyvandarlıq və meşə sənayesi yaranıb inkişaf etməyə başladı. Hal-hazırda da təsərrüfatın bu sahələri Sur Çiko üçün böyük əhəmiyyət kəsb edir. Kənd təsərrüfatının əmtəəlik məhsul istehsalında alman əhalisi müstəsna rol oynayır. Yerli əhali xarici turistlərə xidmət etməklə xeyli gəlir əldə edir. Buranı eyni zamanda Çili İçveçrəsi də adlandırırlar.

Sur Qrande iqtisadi rayonu Çili Pataqoniya sahil adalarını, Odlu Torpağın qərb hissəsini əhatə edir və Çiloe, Aysen və Maqalyanes əyalətlərindən ibarətdir. Nisbətən az məskunlaşmışdır. Əsas ərazidan aralı relyefi parçalanmış, iqlimi mülayim-rütubətlidir. Ən isti ayın orta temperaturu +10°C, ən soyuq isə +l°C-dir.

Buna görə bir çox kənd təsərrüfatı bitkisinin əkini əlverişli olmadığından əsas bitki kartof sayılır. Pataqoniyada ilk yaşayış məntəqəsi yalnız 1843-cü ildə salınmışdır. 1847-ci ildə inşa olunan Punte Arenas şəhərciyi Atlantik və Sakit okean arasında əsas əlaqə mərkəzinə çevrildi.

XIX əsrin sonu XX əsrin əvvəlində Böyük Britaniya, Hollandiya, Almaniya və Belçikadan köçüb gələn immiqrantlardan sonra rayonun həyatında dəyişikliklər baş verdi. Südlük istiqamətli heyvandarlıq inkişaf etməyə, Pataqoniya və Odlu Torpağın çəmənlikləri qoyunçuluğun əsasını qoymağa imkan yaratdı. İngilislər və avstraliyalılar iri şirkətlər yaratdılar.

Sur Qrandenin iqtisadiyyatında böyük dəyişiklik ikinci dünya müharibəsindən sonra baş verdi. Odlu Torpaqda zəngin neft, qaz, Aysen əyalətində polimetal filizlərinin ehtiyatı aşkar edildi.

Qoyunçuluq, ətlik heyvandarlığı ilə yanaşı neft, qaz, qurğuşun və sink istehsalı genişləndi. Hal-hazırda Sur Qrande ölkənin duru yanacağına olan tələbatının 70%-ni ödəyir.

Manantiales mədənləri daha əhəmiyyətli və perspektivlidir. Neftlə yanaşı qaz da istehsal olunur. Odlu Torpağın şimal hissəsi boru kəmərləri ilə sahil zonası ilə əlaqələndirilmişdir. Ərazinin qalan hissəsində, o cümlədən Magellan boğazı yaxınlığındakı quru və şelf zonasında axtarışlar davam etdirilir.

Çili İspaniyanın siyasi təsirindən xilas olub, müstəqillik əldə edəndən sonra onun iqtisadi həyatına

xarici kapitalın təsiri getdikcə artmaqa başladı. Çiliyə ilk kapital qoyuluşu İngiltərəyə məxsusdur. Öz

sənayesinin getdikcə artan tələbatını ödəmək üçün ingilislər Çilidə dəmiryollarını çəkib, öz mülkiyyətlərini yaratmağa, dağ-mədən müəssisələrini inkişaf etdirib, mis fılizini idxal etməyə başladılar. Amerika kapitalının Çiliyə axını təxminən ingilislərlə eyni vaxta təsadüf edir. XX əsrin əvvəllərində ölkəyə ABŞ və Almaniyanın kapital axını daha da artmağa və ingilis kapitalını sıxışdırmağa başladı. Amerika şirkətləri dağ-mədən sənayesini inkişaf etdirməyə, iri bankların filiallarını açmağa başladılar.

İkinci dünya müharibəsinə qədər Çili iqtisadiyyatının inkişafına kapital qoyuluşunun 65%-i ABŞ-ın, 30%-i İngiltərənin payına düşürdü. Hal-hazırda Çili dünyanın əksər inkişaf etmiş ölkələri ilə iqtisadi əlaqələrini genişləndirməkdədir. Son illər Amerika kapitalı ilə yanaşı ölkəyə Yaponiya, Böyük Britaniya, Fransa, AFR, Belçika və Çin kapitalı cəlb olunmuşdur. Ölkənin xarici ticarət balansı artmaqdadır. Yaxın gələcəkdə Çilinin inkişaf etmiş ölkələr səviyyəsinə qalxması gözlənilir.

VENESUELA RESPUBLİKASI

Sahəsi – 912,1 min km^2
Əhalisi – 27,8 mln. nəfər (2007-ci il)
Paytaxtı – Karakos

Venesuela Respublikası Cənubi Amerika materikinin şimalında, Atlantik okeanının sahilində yerləşmişdir. Ölkə cənubda Braziliya ilə (2200 km), cənub-qərbdə və qərbdə - Kolumbiya ilə (2050 km), şərqdə -Qayana (743 km) ilə sərhədlənir. Şimalda onun sahillərini Karib dənizinin suları yuyur.

Venesuelanın itisadi-coğrafi mövqeyi əlverişlidir. Səth axınlarının istiqaməti şərqdən-qərbə və şimal-qərbədir. Karib dənizi vasitəsilə dənizin sahilləri və dünyanın əksər ölkələri ilə əlaqə saxlaya bilir.

Ölkənin quru sərhədləri And dağlarından, Qviana yaylasından, Orinoko ovalığı və Amazon ovalığından keçir. Bütün qonşu ölkələri ilə iqtasadi, ticarət, mədəni və b. əlaqələri vardır.

Venesuelanın ucqar şimal-qərbi, Karib dənizi sahilləri abrazion akkumlyativ düzənlikdir. Ölkənin şimalı, şimal-qərbi And dağları sistemi

silsilələrində tez-tez zəlzələlər olur. Cənub ətəklərində neft və qaz yataqları aşkar edilmişdir. Yamaclarında , kserofit kol bitkiləri, 900-1000 m-dən yüksəkdə enliyarpaqlı həmişəyaşıl meşələr, kollu çəmənliklər üstünlük təşkil edir. Boğaz vasitəsilə Venesuela körfəzi ilə birləşən şirinsulu Marakaybo gölü bu silsilələrin arasındakı dərin tektonik çökəklikdədir. Mərkəzi hissədə Orinoko çayı və onun qollarının gətirdiyi çöküntülərlə yaranmış Orinoko ovalığı yerləşir.

Ölkənin cənub şərqində kristallik Qviana yaylası yerləşir.

Venesuela faydalı qazıntılarla zəngindir. Neft, qaz, dəmir filizi, nikel, manqan filizi, volfram, qızıl, boksit, almaz, kömür və b. yeraltı sərvətlər vardır.

Latın Amerikasında neftin ehtiyatı 17 mlrd. t, onun da əsas ehtiyatları (47%-i) Venesueladadır. Ölkədə neft ehtiyatının (8 mlrd. t), 80%-dən çoxu Marakaybo gölü hövzəsindədir.

Təbii qaz ehtiyatı Latın Amerikasında 10 trln. m^3 təşkil edir. Bu ehtiyatların 28%-dən çoxu Venesuelanın payına düşür (2,8 trln m^3). Yataqların çoxu Marakaybo gölü hövzəsində və b. rayonlardadır.

Regionda daş kömürün ehtiyatı 76 mlrd. t-dur. Bu ehtiyatların 12%-i Venesuelada yerləşir (9 mlrd. t yataqlar Aneoateqi, Sulna ştatlarında və b.). Latın Amerikasında dəmir fılizi ehtiyatı 100 mlrd. tondan çoxdur. Onun cəmi 3%-i Venesuelanın payına düşür, lakin hasilatına görə regionda ikinci ölkədir (Braziliyadan sonra). Region boksidlə də zəngindir.

Ölkədə sink-qurğuşun fılizləri, qızıl, almaz, uran, xrom, nikel, volfram, civə, bor, barıt, asbest, qrafit, dağ büllüru və b. faydalı qazıntı yataqları vardır.

Venesuelanın iqlimi subekvatorial - isti, cənub-qərbdə ekvatorial-rütubətlidir. Orta aylıq temperatur 25-29°C-dir. Fəal temperaturun cəmi 8000° C-dir. İl ərzində 2-3 dəfə məhsul yığmaq olar. İllik yağıntı şimal-qərbdə 2800 mm, mərkəzi hissədə 750-1200 mm-ə çatır.

Ölkə sıx çay şəbəkəsinə malikdir. Əsas çayı Orinoko və onun qollarıdır. Çayın çox hissəsi Venesuela ərazisindən axır. Orinoko çayının uzunluğu 2730 km-ə qədərdir, hövzənin sahəsi 1086 min km^2-dir. Çay Qviana yaylasından başlanır, delta əmələ gətirərək Atlantik okeanına tökülür. Orinoko çayı bol suludur və gəmiçiliyə yararlıdır. Çayın hövzəsi dəmir fılizi, boksit, neft, almaz, qızıl, nikel və b. faydalı qazıntılar aşkar edilmişdir. Orinokonun Qviana yaylası ilə axan sağ qolları astanalı, şəlaləlidir. Dünyada ən hündür şəlalə Anxel (1054 m) buradadır.

Venesuelada bir neçə göl vardır. Ən böyük gölü şirin sulu Marakaybo gölüdür. O laqun tiplidir. Gəmiçiliyə yararlıdır - Marakaybo gölündən neft, təbii qaz çıxarılır. Neft sənayesi gölü çirkləndirir. Xüsusilə neftin hasilatı və nəqliyyatı zamanı göl çirklənir və onun təmizlənməsinə çoxlu vəsait sərf olunur. Latın Amerikasında ən böyük göldür.

Venesuelada qırmızı laterit, çəmən-meşə və bataqlıq torpaqlar vardır. Bu torpaqların münbitliyi müxtəlifdir. Ən münbit və kənd təsərrüfatında qiymətli torpaqlar qırmızı-qara ferralit torpaqlardır. Torpaqlarda tropik bitkilər, qəhvə,

kakao, şəkər qamışı, tütün, maniok, banan, ananas, sitrus, ərzaq bitkiləri (çəltik, qarğıdalı, buğda və b.) becərilir və il ərzində 2-3 dəfə məhsul yığılır.

Venesuelanın bitki örtüyü müxtəlif və zəngindir. Əsasən lyanoslar (savanna tiplidir), kserofit kolluqlar, çay dərələrində və dağ yamaclarında rütubətli tropik meşələr vardır. Ölkə ərazisinin yarıdan çoxu meşələrlə örtülüdür. Meşələrdə qiymətli ağac növləri vardır. Çoxlu endemik bitkilər yetişir. Dağlarda şaquli zonalıq üzrə bitki növlərinin yerləşməsi daha da onun müxtəlifliyini artırır. Qiymətli ağac növlərindən sandal, qırmızı ağaclar, heveya, koka ağacı və təbabətdə istifadə olunan xinin ağacı (malyariyanı müalicə edir) vardır.

Venesuelanın heyvanat aləmi zəngin və özünəməxsusdur. Ölkə faunasının əksəriyyət növləri endemikdir.

Əhalisi, dövlət quruluşu və inkişaf tarixi

Ölkənin əhalisi 27,8 mln. nəfər olub əsasən kreollardan, metislərdən, mulat və sambolardan ibarət Venesuelalıdır. Onun 58%-i metislər, 30%-i ağlar, 10%-zəncilər və 2%-i hindulardır. Avropalıların, xüsusilə də ispanların gəlişinə qədər əhali müxtəlif hindu tayfalarından ibarət idi. Müstəmləkəçiliyin başlanması ilə əlaqədar yeni etnik qruplar meydana gəlməyə başladı. XIX əsrin ortalarından başlayaraq ölkə ərazisinə immiqrantların axını güclənmiş dünyanın əksər regionlarından mühacirlər köçüb gəlməyə başlamışlar. Onların arasında ingilislər, fransızlar, italyanlar və hollandlarla yanaşı yaponlar, çinlilər, hindlilər, pakistanlılar və digər asiyalılar da çoxdur. Bu xalqlar artıq ölkə ərazisində assimlyasiyaya uğramış, yerli xalqlarla qaynayıb qarışmışlar.

Əhalinin əksəriyyəti (95%-i) katolikdir, ispan müstəmləkəsində konkista dövründən yayılmışdır və uzun müddət yeganə rəsmi din olmuşdur.

Konkista dövründən Avropalılar ölkədə öz dillərini yayırdılar. Roman dil qrupuna aid olan ispan dili dövlət dili olmuşdur.

XX əsrin 40-cı illərindən başlayaraq əhalinin sayı kəskin surətdə artmışdır. Əhalinin say artımının intensivliyi ölümün sürətlə aşağı düşməsi ilə əlaqədardır. Doğum isə yüksək olaraq qalırdı. 30-cu illərin ikinci yarısından 80 -ci illərin ikinci yarısına qədər hər min nəfərə ölümün göstəricisi 25-dən 9-a qədər azalmışdır.

Venesuelada orta həyat ömrü artmış və inkişaf etmiş ölkələrin göstəricilərinə çatmışdır.

Milyonçu şəhərlərin sayı 4-ə çatmışdır. Ölkənin paytaxtı Karakas ən böyük şəhərdir. Ətrafı ilə brlikdə Karakasda 4,5 mln. əhali yaşayır. Ölkədə ən böyük şəhər aqlomerasiyasıdır. İkinci böyük şəhər Marakaybo (1,3 mln. nəfər), üçüncü şəhər Valensiya (1,1 mln.nəfər), dördüncü Barkisimeto (1 mln.-a yaxın) şəhəridir.

Venesuelada urbanizasiyanın spesifik cəhəti ondan ibarətdir ki, «milyonçu» şəhərlərin ətraflarında «gecəqondular» ispanca «favellər»in yaradılmasıdır ki, bu da yalançı urbanizasiyaya gətirib çıxarır.

İşləyən əhalinin təqribən 30%-i sənayedə, 25%-i kənd təsərrüfatında, qalanları başqa sahələrdə çalışır. Ölkədə muzdlu əməkdən çox istifadə olunur. İqtisadi fəal əhalinin 58%-i muzdlulardır.

Dövlət quruluşuna görə Venesuela - federativ respublikadır. Dövlətin və hökumətin başçısı, habelə silahlı qüvvələrin baş komandanı prezidentdir. O, səsvermə yolu ilə beş il müddətinə seçilir, nazirləri təyin edir, konqresə rəhbərlik edir. Qanunverici hakimiyyət orqanı ikipalatalı (deputatlar palatası və senat) parlament - Milli Konqresdir. İcraedici hakimiyyəti prezident həyata keçirir. O, hökuməti təşkil edir.

Amerikanın kəşfinə qədər Venesuela ərazisində müxtəlif hindu tayfaları (aravaklar, kariblər və b.) yaşayırdı. 1498-ci ildə Xristofor Kolumb Venesuela sahillərini kəşf etdi. 1499-cu ildə ispaniyalı səyyah de Okeda Marakayb gölündə hinduların dirəklər üzərindəki komalarını görərək Venesuela - «kiçik Venesiya» adlandırdı. XVI əsrdə İspaniya konkstadorları Venesuelanı müstəmləkəyə çevirməyə başladılar. Müstəmləkə Venesuelanın əsas işçi qüvvəsini Afrikadan gətirilmiş qullar və yerli hindular təşkil edirdi. İspan işğalçılarına qarşı uzun sürən mübarizədən sonra 1830-cu ildə Venesuela Kolumbiyadan ayrılıb müstəqil respublika oldu.

XIX əsrin 70-ci illərində Venesuelada neft yataqlarının kəşfi ilə ölkəyə xarici kapitalın axını gücləndi. Birinci dünya müharibəsindən sonra ölkənin neft sənayesində Amerika şirkətlərinin mövqeləri möhkəmləndi. Neft sənayesinin sürətli inkişafı fabrik-zavod fəhlələrinin formalaşmasına şərait yaratdı.

Təsərrüfatın ümumi səciyyəsi

Təsərrüfatın inkişaf səviyyəsinə və iqtisadi potensialına görə, Venesuela Latın Amerikasında 4-cü yeri tutur (Braziliya, Meksika, Argentinadan sonra). Venesuela sənaye-aqrar ölkəsidir. Ölkədə dövlət bölməsi sənayenin əsas sahələrinə, neft hasilatı, neft emalı, qara və əlvan metallurgiya, kimya sənayesinə vəb. sahələrə nəzarət edir.

Ölkənin iqtisadiyyatında neft hasilatı və neft emalı sənayesi qabaqcıl rol oynayır, ÜDM-nun 24%-ni təmin edir. Büdcəyə gəlirin 45%-ni və ixracat həcminin 70%-ni təşkil edir. Qabaqcıl sənaye sahələrinə, həmçinin yeyinti, toxuculuq, tikiş, kimya, metallurgiya, neft emalı, maşınqayırma aiddir. ÜDM istehsalında sənayenin payı 48%, kənd təsərrüfatının isə 6%-dir.

Venesuela Latın Amerikasında neftin hasilatına görə birinci, dünyada isə beşinci yerdədir. Hasil edilən neftin 80%-i Marakaybo gölünün payına düşür. Bundan əlavə neft Lyanosda çıxarılır. Marakaybo rayonunda neftlə yanaşı zəngin təbii qaz yataqları da var.

Ümumi daxili məhsulda dağ-mədən sənayesinin payı yalnız 1%-dir. Dəmir filizinin hasilatına görə Venesuela Latın Amerikasında Braziliyadan sonra ikinci yeri tutur. Çıxarılan dəmir filizinin 60%-i ixrac olunur. Ölkədə hər il qızıl (3,9 t) və almaz (199 mi karat) hasil edilir.

Emalediei sənayenin payı (neft emalı sənayesindən başqa) ÜDM-da 17%-dir. Onun inkişafına ölkənin neft sənayesindən asılılığının zəifləməsinin əsas amili kimi baxılır.

Venesuelada Latın Amerikasında ən iri kimya kombinatı tikilib istifadəyə verilmişdir. İki böyük neft kimya kombinatı (biri Barilona, biri isə Marakaybo şəhərində) fəaliyyət göstərir. Ölkədə neft emalı (12 zavod 77 mln. t gücündə), metallurgiya, metal emalı, maşınqayırma, avtomobil istehsalı, kərpic, sement, şin zavodları, yeyinti, tikiş, toxuculuq, dəri-ayaqqabı, meşə təsərrüfatı və s. sənaye müəssisələri vardır.

Kənd təsərrüfatı Venesuela iqtisadiyyatının geridə qalmış sahəsidir. Kənd təsərrüfatında 22 mln. ha torpaq istifadə olunur (ölkə torpaq fondunun 5%-i) bunlardan 4 mln.ha (18%) şumlanan torpaqlardır, 18 mln. ha (22%-i) otlaqlar və örüşlərdir, meşələr, kolluqlar ərazinin 39%-ni tuturlar.

Venesuelada böyük torpaq sahibləri - latifundistlərin (1,5%) əlində torpağın 65% çəmləşmişdir. 2005-ci ildə kənd təsarrüfatı məhsulu istehsalının 50%-i bitkiçiliyin, 40%-i heyvandarlığın, 8%-i balıqçılığın və 2%-i meşə təsərrüfatının payına düşmüşdür. Ölkənin dağ ətəklərində kakao (67 min ha), qəhvə (353 min ha), dağlıq ştatlarda qarğıdalı (665 min ha), çəltik (264 min ha), sorqo (243 min ha), batat (38 min ha) şəkər qamışı (800 min ha) və b. bitkilər becərilir. Lakin kənd təsərrüfatı ölkənin ərzaqa olan taləbatının 60%-ni ödəyir. Ərzaqın 40%-i idxal olunur.

Heyvandarlıq ekstensiv xarakterlidir. Karib dənizində, Marakaybo və b. göllərdə, həmçinin çaylarda balıq ovlanır (260 min.t). Marqarita gölündən mirvari çıxarılır.

Nəqliyyatı, xarici iqtisadi əlaqələri, daxili fərqləri

Venesuelada nəqliyyatın bütün növləri inkişaf etmişdir. Sərnişinlərin 90%-i və yüklərin 70%-i avtomobil nəqliyyatı ilə daşınır. Avtomobil yollarının uzunluğu 100,6 min km-dir, bunlardan 33,5 min km-i bərk örtüklüdür. Ölkədə 5 mln. avtomobil var, onun 4 mln-u minik avtomobilidir.

Xarici ticarət yüklərinin 90%-i dəniz nəqliyyatı ilə daşınır. Ölkədə 100-dən çox dəniz, göl və çay portları vardır, o cümlədən 23 portdan neft və neft məhsulları daşınır. Venesuela idxalatının 80%-i 3 portdan La-Quayru (ölkənin və Karakasın əsas portu), Marakaybo və Puerto-Kabelyodan keçir.

2005-ci ildə milli aviaşirkətlərlə 6 mln. sərnişin daşınmışdır. Daxili aviaxətlər yerli şirkətlərlə, beynəlxalq daşımalar - 3 milli və bir neçə xarici şirkətlərlə həyata keçirilir. Ölkədə 300-ə yaxın aeoroport vardır, bunlardan 7-si beynəlxalq əhəmiyyətlidir.

Dəmir yollarının uzunluğu 720 km-dir. Karakas şəhərində metropoliten işləyir (1983-cü ildən). Metropoliten xəttinin uzunluğu 40 km-dir. Venesuelada boru nəqliyyatı daha sürətlə inkişaf edir. Neft kəmərlərinin uzunluğu 3,4 min. km, qaz kəmərlərinin - 4,2 min km-dir.

Daxili su (çay) yollarının uzunluğu 7100 km Orinoko çayı və Marakaybo gölü dəniz gəmilərini qəbul edə bilirlər.

İxracat dəyərinin 3/4-ü neft və neft məhsullarının hesabınadır. Bunlardan başqa alüminium, dəmir filizi, prokat məmulatları, kimya məhsulları, mineral xammal, qızıl, almaz, yüngül sənaye məhsulları və b. ixrac edilir. Maşınlar və avadanlıqlar, maşın hissələri, ərzaq, dərmanlar, nəqliyyat vəsatələri və b. idxal edilir.

Əsas ticarət müttəfiqləri ABŞ, AFR, Kanada, Böyük Britaniya, Yaponiya, İtaliya, İspaniya, həmçinin Braziliya, And qrupu ölkələri, Mərkəzi Amerika və Karib dənizi hövzəsində olan ölkələrdir.

Venesuelanın iqtisadi rayonları formalaşma prosesindədir. Şərti olaraq dörd iqtisadi rayona ayırmaq olar.

Şimalda və şimal-qərbdə dağlıq ölkə ən tez müstəmləkəçiliyə uğramış rayondur. Burada əkinçilik nisbətən inkişaf etmişdir, yüngül və yeyinti sənaye sahələrinin çox hissəsi toplanmış, ölkənin paytaxtı və bütün böyük şəhərləri, dəmir yol stansiyaları, avtomobil qovşaqları və dəniz portları yerləşir. Otuz il ərzində bu rayonda yeni sənaye sahələri, emaledici müəssisələri, neft emalı, maşınqayırma, metallurgiya, kimya, tikinti materialları sənayesi, avtomobil yolları, neft və qaz kəmərləri çəkilmişdir. Dağlarda şaquli zonallıq müxtəlif kənd təsərrüfatı bitkiləri - kakao, şəkər qamışı, pambıq, tütün, yuxarıda - qəhvə, daha yuxarıda - buğda və arpa və b. becərilməsi üçün imkan yaradır. Valensiya gölünün hövzəsi və Karakas vadisi ölkənin əsas ərzaq mənbəyi sayılır və buralar əhali ilə sıx məskunlaşmışdır. Rayonda neft, asbest, daş kömür, nikel, mis, maqnezit hasil edilir. Karakasın yaxınlığında uran yataqları tapılmışdır.

Karakas şəhəri ölkənin paytaxtıdır. Karib dənizindən 14 km aralı 1000 m yüksəklikdə dağ dərəsindədir.

Karakasın əsasını 1567-ci ildə ispan konkistadoru Diyeqo-de-Losada qoymuşdur. 1830-cu ildən ölkənin paytaxtıdır. Karakas ölkənin mühüm siyasi, iqtisadi və mədəniyyət mərkəzidir. Şəhərdə yeyinti, toxuculuq, tikiş, dəri-ayaqqabı, kimya, neft-kimya, əczaçılıq, maşınqayırma, texniki rezin, sement, şüşə, metal emalı, avtomobilqayırma və s. müəssisələri vardır. İkinci böyük şəhər Marakaybodur. Dəmiryol stansiyası, avtomobil yolları qovşağıdır. Mühüm ticarət mərkəzidir. Şəhərdə yeyinti, toxuculuq, dəri-ayaqı ağac emalı və kimya sənayesi inkişaf edir.

Velensiya əhalisinin sayına görə üçüncü şəhəridir. Dəmiryol stansiyası, avtomobil yolları qovşaqıdır, ölkənin mühüm kənd təsərrüfatı rayonudur (şəkər qamışı, qəhvə, kakao). Şəhərdə toxuculuq, yeyinti, dəri-ayaqqabı, neft kimya, kağız, sement sənayesi, maşınqayırma, elektronika və b. sənaye sahələri fəaliyyət göstərir. Şəhərdə universitet var. Valensiya iki dəfə (1812 və 1930-cu illərdə) Venesuelanın paytaxtı olmuşdur.

İkinci iqtisadi rayon – *Marakaybo ovalığıdır* ki, üç ərəfdən - Syerra Perika və Kordilyera-Merida silsilələrlə əhatələnmiş, heç də böyük olmayan, lakin iqtisadi cəhətdən vacib şimali-qərbdə rayondur. Burada dünyada ən zəngin neft və qaz yataqlazrı yerləşir. Nefti və təbii qazı həm Marakaybo gölünün dibindən,

həm də sahillərindən çıxarırlar. Rayonda neft emalı, neft kimya, yeyinti, maşınqayırma, tikinti materialları sənaye sahələri inkişaf edir. Neft-qaz kəmərlərinin şəbəkələri sıxdır. Rayonun cənubunda kakao və şəkər qamışı plantasiyaları yerləşir. İqtisadi rayonun mərkəzi *Marakaybo* şəhəridir.

Marakaybo şəhəri Karib dənizi sahilində böyük portdur. Əhalisi 1,3 mln. nəfərdir. Marakaybo neft sənayesi rayonunun mərkəzidir, dünyada neft portlarından biridir. Şəhərdə yeyinti, toxuculuq, neft-kimya, elektrotexnika, metal emalı, avtomobilqayırma, kağız, və kimya sənaye inkişaf edir.

Üçüncü rayon *Lyanos Orinokodur* - geniş tropik otlaq düzənliyidir. Rayon şimalda dağlıq ölkəsi, cənubda Qviana yaylası arasındadır. Hələ müstəmləkə dövründən ətlik istiqamətində iri buynuzu qara mal bəslənilməsi üzrə ixtisaslaşmışdır. Təbii şəraiti, zəif mənimsənilməsi, bazarlardan uzaqlarda yerləşməsi, dəmir yollarının olmaması rayonun iqtisadiyyatının inkişafını ləngidir. Rayonda dağ-mədən, neft emalı, yeyinti, yüngül sənaye, kimya, metallurgiya, maşınqayırma sənayesi və b. inkişaf edir.

Qviana yaylası - Orinoko çayından cənubda böyük rayondur, bir hissəsi savannalarla, bir hissəsi isə tropik meşələrlə örtülüdür, çox zəif məskunlaşmış və demək olar ki, heç də tam mənimsənilməmişdir. Rayon hələ zəif öyrənilmişdir, lakin onun faydalı qazıntılarla zəngin olması artıq məlumdur. Burada yüksək keyfiyyətli dəmir və manqan filizlərinin böyük ehtiyatları, həmçinin uran, boksit, qızıl və almaz yataqları vardır. El-Kalyao qızıl mədəni hələ müstəmləkə dövründən (1880-ci illərdən dünyada ən nəhəngi sayılırdı), mənimsənilir. Böyük meşə və hidroenerji ehtiyatları var, lakin rayonun məskunlaşması və iqtisadi mənimsənilməsi yolların olmaması və yol rabitələrindən uzaqda olması onun mənimsəməsini ləngidir. Hazırda dəmir və manqan filizləri hasil olunur.

EKVADOR RESPUBLİKASI

Sahəsi – 283,6 min km^2
Əhalisi – 14,1 mln. nəfər (2006-cı il)
Paytaxtı – Kito

Ekvador - Cənubi Amerikanın şimal-qərbində, Sakit okeanın sahilində yerləşmişdir. Şimal-şərqdən Kolumbiya ilə 590 km məsafədə sərhədlənir, cənubda və şərqdə Peru ilə 1420 km məsafədə quru sərhəddi keçir. Qərbdə Sakit okeanı onun sahillərini 2237 km məsafədə yuyur. Qalapaqos adaları və Sakit okeandakı bir sıra başqa adalar ona aiddir.

İqtisadi coğrafi mövqeyi əlverişlidir. Sakit okean suları vasitəsilə Ekvador dünyanın çox ölkələri ilə əlaqəli saxlaya bilir.

Ekvadorun təbiətində 3 sahə aydın seçilir: şimal-şərqdə rütubətli meşəsi olan dağətəyi düzənlik - *Oryente*, mərkəzdə meşəli-çəmənli yüksək vulkanik And yaylası - *Syerra* və qərbdə meşəli-savannalı Sakit okeanyanı düzənlik

- *Kosta.* Oryente ölkə ərazisini yarıya qədər tutur, az öyrənilmiş və az mənimsənilmiş sahədir. İsti rütubətli ekvatorial iqlimi var. Burda Ekvadorun əksər çayları axır, çay şəbəkəsi sıxdır (Amazon çayının qolları).

Syerra ölkənin mərkəzində yerləşir. Hündürlüyü 3900 m-dək olan mərkəz massivlərdən, qərbi və Şərqi Kordilyer And dağlarından ibarətdir. 600 km məsafədə uzanmışdır, eni 100-200 km-dir. Şərqi Kordilyerlərdə çoxlu sönmüş və fəaliyyətdə olan (30-a qədər) vulkanlar vardır. Bunların içərisində Sanqay (5230 m) ən fəal vulkandır. Qərbi Kordilyer dağlarında ölkənin ən hündür nöqtəsi Çimberaso dağı (6310 m) yerləşir. Syerranın iqlimi yüksək dağlıq-ekvatorial, cənubda subekvatorial, mülayim-istidir. Məhsuldar dağarası çökəklər əkilir, yaxud otlaq kimi istifadə olunur.

Ölkənin qərbində sahilyanı düzənlik - Kosta yerləşir. Düzənliyin maksimal eni 150 km-dir. Kostanın cənubunda geniş ovalıq, ondan qərbdə Sakit okean boyu hündürlüyu 300-700 m olan plato yerləşir. Kosta ərazisində yağıntının miqdarı şimaldan-cənuba azalır (ildə 3000 mm-dən 200 mm-dək) və subekvatorial qurşağın bütün təbii zonaları aydın görünür.

Təbii sərvətlərdən neft, təbii qaz, mis, qızıl, platin, uran, vanadium, qurğuşun, gümüş, kükürd və tikinti materialları yataqları aşkar edilmişdir.

Rütubətli ekvatorial meşələr (Selva) düzənliklərin çox hissəsini və dağların yamaclarını örtür. 3000 m hündürlükdə dağlarda - yüksək çəmənliklər - paramos yerləşir.

Heyvanat aləmi zəngindir. Burada yırtıcılardan ayı, vəhşi pişik, skuns, laska və b. rast gəlmək olar. Çoxlu quşlar var. Şimali Amerikadan çoxlu quşlar Ekvadorda qışlayır. Qalapaqos adalarında (milli parkdır) nəhəng dəniz tısbağaları, dəniz iquana və pinqvinləri yaşayır.

Əhalisi. Əhalinin 95%-i Syerrada və Kostada cəmləşmişdir.

Ekvadorda təbii artım hər 1000 nəfərə görə 20 nəfər təşkil edir.

Latın Amerikasının digər ölkələri kimi burada da urbanizasiya prosesi yüksəkdir (65%).

Əhalinin etnik tərkibi də müxtəlifdir. Belə ki, mövcud əhalinin 50%-ə qədərini metislər, 25%-ni hindular, 10%-ni avropalılar, qalanını isə digər regionlardan vaxtilə gəlmiş əhali təşkil edir. İqtisadi fəal əhalinin 34 %-i kənd təsərrüfatında, 21%-i sənayedə, tikintidə, nəqliyyatda və kommunal təsərrüfatında, 13%-i xidmət sahələrində çalışır.

1526-cı ildə F.Pissaro başda olmaqla ispan konkistadorların ekspedisiyası yerli əhalinin müqavimətini qıraraq, Kito ərazisini işğal etdi. İşğalçılar hinduların torpaqlarını əllərindən alır, kotolikliyi zorla yayır, müxtəlif istismar formaları tətbiq edirdilər. Bu isə getdikcə yerli əhalinin narazılığına səbəb oldu, hindu və kreollar İspaniya hökmranlığına qarşı mübarizəyə qalxdılar. 1830-cu ildə isə Ekvador Respublikası müstəqil dövlət elan olundu. Vətəndaşlara bəzi hüquqlar versə də, Ekvadorun 1-ci konstitutsiyası (1830) ölkənin sosial-iqtisadi quruluşunu dəyişmədi. Kreol mülkədarları və ruhanilər ispanların mülkiyyəti hesabına hakim siniflərə çevrildilər. Yeni imtiyazlı hərbi kasta meydana gəldi. Hindu kütlələr əvvəlki kimi feodal asılılığında qaldılar.

Təsərrüfatın ümumi səciyyəsi. Uzun müddət ərzində Ekvador iqtisadayyatının əsasını kənd təsərrüfatı təşkil edirdi. 1967-ci ildə neftin nəhəng yataqlarının aşkar edilməsi ölkənin iqtisadi inkişafını sürətləndirdi. 70-ci illərdə ümumi daxili məhsul ildə 10-11% artırdı. Xüsusilə sənaye istehsalı daha sürətlə artırdı. Buna baxmayaraq iqtisadiyyatı xarici bazardan və Şimali Amerika kapitalından asılıdır. ÜDM artım sürəti 80-ci illərdə zəiflədi. Sənaye cəhətdən inkişaf etmiş ölkələrdən asılılıq artdı və gücləndi. Ölkəyə xarici kapitalın axını gücləndi. Faktiki olaraq xarici kapital iqtisadiyyatın bütün sahələrində hökmranlıq edir.

Sənayenin əsas sahəsi neft hasilatı sənayesidir. Hasil edilən neftin 99%-i ölkənin şimal-şərq yataqlarından alınır. Neftin ümumi ehtiyatı 220 milyon ton hesablanmışdır. Kəşf olunmuş qaz ehtiyatı 10 mlrd. m^3, illik hasilatı isə 461 mln.m^3-dir.

Ölkədə mis, qızıl, platin, uran, vanadium, kömür, kükürd, sink, qurğuşun hasil edilir. Son illər dağ-mədən sənayesinin inkişafına ciddi fikir verilir. Neft ixracından alınan gəlirin hesabına emaledici sənayesinin inkişafı sürətləndi. Neft emalı müəssisələrinin texniki təchizatı yaxşılaşdı. Ölkədə ənənəvi yeyinti, toxuculuq, gön-dəri, ayaqqabı, tikiş, metallurgiya, maşınqayırma, kimya, sement istehsalı, tikinti materialları sənayesi, ağac emalı, mebel və başqa sənaye sahələri inkişaf etmişdir. Neft-kimya, əsas kimya, mineral kübrələr istehsalı və s. kimya məhsulları istehsalı artmışdır. Sənaye əsasən Quayakil, Kito, Manta şəhərlərində inkişaf etmiş və mərkəzləşmişdir.

Quraşdırılmış elektrik stansiyalarının ümumi gücü 2 mln. kvt-dır. Elektrik enerjisinin istehsalı 6 mlrd. kvt. s.-dır (2000-ci il), onun 42%-i SES-lərdə istehsal olunur.

İqtisadi fəal əhalinin 34%-i kənd təsərrüfatında çalışır. Ölkə ərazisinin 9%-i şumlanan torpaqlardır, onun 1⁄5 suvarılan torpaqlar, ərazinin 44%-i meşə ilə örtülüdür. Kənd təsərrüfatında iri torpaq mülkiyyətçiliyi üstünlük təşkil edir. Kənd təsərrüfatı torpaqları ibtidai üsullarla becərilir. Ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullannın yarısı ixrac olunur. Əsas ixracat məhsulları banan, kakao, qəhvədir. Həmçinin çəltik, (bataqlaşmış ovalıqlarda) qarğıdalı, buğda, arpa, portağal, ananas, maniok, şəkər qamışı, pambıq və s. yetişdirilir. Ekvadorda heyvandarlıq əkinçilikdən sonra ikinci kənd təsərrüfatı sahəsidir. İri buynuzlu mal-qaranın sayı 4 mln. baş, donuzlar 4,2 mln. baş, qoyun və keçilərin sayı isə 2,0 mln. başdır. Tunes, krevet, lanqust ovlanır. Heveya şirəsi yığılır, qiymətli oduncaq tədarük edilir. Ekvadorda nəqliyyatın bütün sahələri inkişaf etmişdir. Dəmiryolların uzunluğu 972 km magistral avtomobil yollarının uzunluğu 41 min km-dir, bunlardan bərk örtüklü 20 min km-dir. Əsas dəniz portu Quayakildir. Kito və Quayakildə beynəlxalq hava limanları vardır.

BOLİVİYA RESPUBLİKASI

Sahəsi – 1098,6 min km^2
Əhalisi – 10,1 mln. nəfər (2006-cı il)
Paytaxtı – Sukre, faktiki La-Pas

Boliviya Respublikası Cənubi Amerika materikinin mərkəzində yerləşir. Şimalda və Şərqdə Brazilya (sərhəddin uzunluğu 3400 km-dir), qərbdə - Çili (861 km) və Peru (900 km), cənubda - Argentina (832 km), cənub-şərqdə - Paraqvay (750 km) ilə həmsərhədir. Sərhədlərin ümumi uzunluğu 6743 km-dir. Boliviyanın dənizə çıxışı yoxdur. Quru sərhədlərdən səmərəli istifadə edir. Qonşu ölkələrlə iqtisadi, mədəni və b. əlaqələri vardır.

Ölkənin cənub-qərb hissəsi And dağlıq ərazisindədir. Boliviyada Andların ən enli sahəsi yerləşir. Dağ sistemi iki hissəyə ayrılaraq Şərqi və Qərbi silsilə əmələ gətirir. Bu silsilələr arasında, orta hündüriüyü 4000 m-ə çatan yayla yerləşmişdi.

Boliviya faydalı qazıntılarla zəngindir. Ölkədə qalay, volfram, qurğuşun, sink, mis fılizi, gümüş, neft, dəmir filizi və s. yataqlar aşkar edilmişdir.

Boliviyada təbii qaz ehtiyatı 150 mlrd m^3, neft ehtiyatı 125 mln. tondur. Latın Amerikasında olan qalay ehtiyatının (2 mln. t) 55 %-i sürmə fılizinin (667 min, t) 50 %-i (dünyada birinci yerdədir), Litium filizinin (25 mln.t) 50 %-i Boliviyadadır.

Dağlıq hissəsinin iqlimi dağ, yarımsəhra və səhra tiplidir. Punada orta temperatur iyulda 3-7°C, yanvarda 9-11°C illik yağıntı 150-600 mm, şərq yamaclarında 2000 mm-ə qədərdir. Düzənliklərin iqlimi rütubətli subekvatorialdır. Orta temperatur iyulda 17-22°C, yanvarda 24-28°C, illik yağıntı 1300-1600 mm, cənubda 800 mm-dir.

Dağlarda dağ-çöl, laterit, düzənliklərdə qırmızı və qırmızı-qəhvəyi torpaqlar yayılmışdır. Bu torpaqlarda dənli, texniki, tərəvəz və bağ bitkiləri becərilir.

Dağ və dağarası yaylaların bitkisi yarımsəhra tiplidir. Düzənliklər müxtəlif növlü bitki və heyvanları (meymun, vəhşi lama, armadil, timsah, əfi ilan və s.) olan rütubətli tropik meşə və savannalardır. Çoxlu quş, çaylarda isə çoxlu balıq növləri vardır.

Əhalisi. Boliviya əhalisinin 63 %-i hindular (keçua-33 % və aymara-30 %), avropalılar (əsasən ispanlar)-15%, metislər isə 22%-dir. Dövlət dili ispan dilidir. Əhalisinin təqribən yarısı keçua, aymara, quarani dillərində danışır.

Əhalinin təbii artımı yüksəkdir. Hər 1000 nəfərə görə doğum 32 nəfər, ölüm 8 nəfər, təbii artım 24 nəfər təşkil edir.

Boliviyada əhali qeyri-bərabər yerləşmişdir. Puanada, ölkənin qərbində və mərkəzində hər 1 km^2-ə 20-35 nəfər düşür. Əsasən əhali çay sahillərində və 3000-4000 m hündürlüklərdə məskunlaşrmşdır.

Əmək qabiliyyətli əhali əsasən kənd təsərrüfatında (50%), xidmət sahələrində və kommunal təsərrüfatında (26%), sənayedə (14%) çalışır.

Şəhər əhalisi 50%-dir. İri şəhərləri: La-Pas, Koçabamba, Oruro, Sukre, Patosidir.

La-Pas şəhəri Boliviyanın paytaxtıdır. La-Pas əyalətinin inzibati mərkəzidir. Ölkənin siyasi, iqtisadi və mədəniyyət mərkəzidir. And dağlarında, La-Pas çayının

dərəsində, 3660 m yüksəklikdə yerləşir. Əhalisi 1 mln. nəfərdir. Dəmiryol və avtomobil yolları qovşagıdır. Dəmir yolu onu Peru, Çili və Argentinanın portları ilə əlaqələndirir. Şəhərdə beynəlxalq aeoroport var, həm də ticarət mərkəzidir. Şəhərdə yeyinti, yüngül, toxuculuq, maşınqayırma, kimya, kağız sənayesi, sement, şüşə, ayaqqabı, mebel, tütün və s. istehsal olunur. Sənətkarlıq (keramika, qızıl, gün məmulatları, ağacüzərində oyma) inkişaf etmişdir.

Sukre şəhəri Boliviyanın rəsmi paytaxtıdır (1825-ci ildə), Çuxisaka əyalətinin inzibati mərkəzidir. Mərkəzi Kordilyer dağlarının yamaclarında, Pilkomayo çayının dərəsində, 2700 m yüksəklikdədir. Əhalisi 100 min nəfərdir. Dəmiryol, avtomobil yolları qovşağıdır.

Koçabamba şəhəri eyni adlı əyalətin inzibati mərkəzidir. Şərqi Kordilyer dağlarının cənub yamacında, 2600 m yüksəklikdədir. Dəmiryol stansiyası, avtomobil yolları qovşağıdır. Şəhərdə yeyinti, toxuculuq, dəri sənayesi, kurort təsərrüfatı vardır. Neft emaledici sənaye inkişaf edir.

Oruro şəhəri Oruro əyalətinin inzibati mərkəzidir. Dəmiryol və avtomobil yolları qovşağıdır. Əsas filiz-çıxartma sənayesi və əlvan metallurgiya mərkəzlərindən biridir.

Boliviya respublikadır. Dövlət və hökumət başçısı 4 il müddətinə seçilən prezidentdir. Qanunverici hakimiyyət 2 palatadan (senat və deputatlar palatası) ibarət parlamentə - Milli konqresə məxsusdur. İcraedici hakimiyyəti prezident və onun təyin etdiyi hökumət həyata keçirir.

Ərazi qədimdən Aymara, Keçua, Quarani və b. hindu tayfaları tərəfindən məskunlaşmışdır. XIV əsrin əvvəllərində bu tayfaları inklər özlərinə tabe etdilər. 1532-38-ci illərdə ispan konkistadorları inklərin dövlətini fəth etdilər. İspaniya işğalı nəticəsində hindu tayfalarının müstəqil inkişafı zorla dayandırıldı. Milyonlarla hindu qırıldı. Boliviya ərazisi təqribən 300 il İspaniya müstəmləkə imperiyası tərkibində olmuş və Yuxarı Peru adlandırılmışdır. Siyasi istiqlaliyyət qazanmasına baxmayaraq Boliviya hələ geridə qalmış kənd təsərrüfatı ölkəsidir.

1879-83-cü illərdə Boliviya və Peru İngiltərənin təhriki ilə Çiliyə qarşı müharibəyə cəlb edildi. Nəticədə Boliviya selitra ilə zəngin Atakama səhrasının ona məxsus hissəsini itirdi və Sakit okeana çıxış yolundan məhrum oldu. Boliviyada zəngin qalay ehtiyatı yataqlarının kəşfi və istehsalı (XIX əsrin son rübü) ölkəyə xarici kapitalın axınını gücləndirdi.

XX əsrin əvvəllərində (1920-ci ildən) ölkəyə ABŞ kapitalının axını gücləndi. Dünya iqtisadi böhranı dövründə (1929-33-cü illər) Boliviyada işsizlik kəskin surətdə artdı, minlərlə hindu kəndlisi aclıqdan və epidemiyadan qırıldı.

Boliviya və Paraqvay arasında neft ilə zəngin Çako-Horeal vilayəti üstündə baş verən müharibə (1932-35-ci illər) nəticəsində Boliviya mübahisəli ərazisinin 2/3 hissəsini itirdi.

Təsərrüfatın ümumi səciyyəsi

Boliviya iqtisadiyyatının müəyyən artım sürətinə baxmayaraq Latın Amerikası ölkələri arasında geri qalmış dövlətlərdən biridir. Əsasan ABŞ, İngiltərə və b. inkişaf etmiş ölkələrin kapitalından asılı olan Boliviya iqtisadiyyatının əsası mədən sənayesidir. Ümumi daxili məhsuldan mədən sənayesinin payı 26%, ixracat gəlirinin 9/10- unun hesabınadır. Ölkə dünyada qalay hasilatına görə 5-ci yeri tutur və sürmə hasilatına görə isə 1-ci yerdədir (dünya sürmə hasilatının 25%-i onun payına düşür). Dövlət neft və neft emalı sənayesinə, 70% dağ-mədən sənayesinə, metallurgiya, energetika, boru kəməri nəqliyyatına nəzarət edir. Qalay və sink (hasilatının 2/3-i, qızıl və gümüşün 90%-i onun payna düşür. Dəmir filizi hasil edilir, hərçənd onun ehtiyatı 40 mlrd. t- dur (Mutun rayonunda). Neftin və təbll qazın hasilatı ildən-ilə artır. Neftin ehtiyatı 125 mln.t-dur. hasilat səviyyəsi 3 mln.t-dur və onun 60%-i «YPFB» dövlət şirkəti tərəfindən həyata keçirilir.

Ümumi daxili məhsulda emaledici sənayenin payı 15%-dir. Əlvan metallurgiya ildə ümumi gücü 30 min. t olan iki qalayəritmə zavodu ilə və iki kiçik sürməəritmə və vismutəritmə zavodları ilə təmsil olunmuşdur. Üç neft emalı zavodu əsasən daxili bazar üçün işləyir. Traktorqayırma zavodu, dağ-mədən avadanlığı, energetika, maşınqayırma müəssisələri işləyir.

Yüngül sənayenin qabaqcıl sahələrində yeyinti, toxuculuq, ayaqqabı, tikiş, tütün, ağac emalı və s. sahələrdə kiçik və yarımkustar istehsal üstünlük təşkil edir.

Kənd təsərrüfatı (meşə təsərrüfatı ilə bahqçılıq daxil olmaqla) ÜDM-un 21%-ni təşkil edir. Aqrotexniki qaydaların tətbiqinə və kənd təsərrüfatının əmtəəliyinə görə Latın Amerikasında ən aşağı səviyyədə olsa da son zamanlar ölkənin şərq hissəsi intensiv mənimsəməyə məruz qalmışdır. Burada böyük aqrosənaye müəssisələri yaranmışdır.

Boliviyada üç iri iqtisadi-coğrafi rayon ayrılır. Qərbi yayla (ərazinin 16%-i və əhalinin 80%-i) faydalı qazıntıların əsas toplandığı rayondur və praktiki olaraq əksər emaledici sənaye sahələri buradadır. İqlim şəraitinin sərt olması, əkinçiliyi məhdudlaşdırır, lakin şəhərin ətrafında və yaxınlığında arpa, kartof və b. becərilir, heyvandarlıq da inkişaf edir. Qoyun, keçi və lama bəslənilir.

Şərqi düzənliklər - ölkənin şimal və şərq hissələrini əhatə edir. Ərazinin 70%-i zəif məskunlaşmış rayondur. Əlverişli iqlim şəraiti münbit torpaqları və torpağı mənimsəmək, becərmək üçün əlverişli şəraiti vardır, əsas əkinçilik rayonuna çevrilmişdir. Burada qarğıdalı, buğda, şəkər qamışı, banan, və s. bitkilər, iribuynuzlu mal-qara yetişdirilir, mərkəz hissəsində neft və təbii qaz hasil edilir.

Şərqi Kordilyerlərin yamacları və vadiləri (ərazinin 14%-i) coğrafi mövqeyi və təbii şəraitinə görə aralıq məsafəli zonadır.

Əkinçilik üçün iqlimi və torpaqları əlverişlidir. Burada qarğıdalı, buğda, qəhvə, kakao, meyvə və tərəvəz bitkiləri yetişdirilir. Burada neft hasilatının əsas mərkəzləri - Kamiri (90%) və Sanandita yerləşirlər. Bəzi əlvan və nəcib metallar hasil edilir.

ARGENTİNA

Sahəsi – 2,8 mln km^2
Əhalisi – 40,3 mln. nəfər (2007-ci il)
Paytaxtı – Buenos-Ayres

Təbii şəraiti, təbii ehtiyatlarının iqtisadi cəhətdən qiymətləndirilməsi

Argentina ərazisinin böyüklüyü və relyefinin mürəkkəbliyi onun təbiətini çox müxtəlifləşdirmir. Səth quruluşuna görə şimal və şərq hissəsi düzənlik, qərb və cənub hissəsi dağlıq xarakterlidir. Alp dağ əmələgəlməsi dövründə yaranan möhtəşəm And dağları ölkənin təbii qərb sərhədlərini əmələ gətirir. Şimal-şərqində 3000-4000 m hündürlükdə geniş və qapalı vulkanik yayla olan Puna yerləşir. Onu qərbdən əhatələyən dağların hündürlüyü 6500 m-ə çatır və qarla örtülü "Navades" adlanan zirvələr onlara vüqarlı dağlar əzəməti verir. And dağları cənuba doğru daralsa da, ən hündür hissələri mərkəzdədir. Burada And dağlarının ən hündür zirvələri olan Akonkaqua (6960 m), Tupunqato, Mersedaryo ucalır. Müxtəlif relyef formalarının uzlaşması, yamacların müxtəlif rəng çalarları And dağlarına ölkə ərazisində gözəl landşaft görkəmi verir. And dağları 40° c.e-dən cənuba doğru getdikcə alçalaraq daha çox parçalanmış, müasir buzlaqların əmələ gətirdiyi relyef formaları ilə seçilir. Şimalda sərhəddən Parana çayına qədər olan şərq hissədə allüvial çölküntüləri və qırıntı materiaiları ilə örtülmüş Qran-çako düzənliyi uzanır.

Parana və Uruqvay çayarası vadi əsasən düzənlikdir. Düzənliyin şimal hissəsi Braziliya yaylasının cənuba davamı olan lava örtüklü yayladan ibarətdir. Şimalda Rio-Salado və cənubda Rio-Kolorado çayları arasında geniş düzənlik olan Pampa yerləşir. Pampanı dioqonal şəkildə böldükdə (yəni Syerras-de-Kordavadan Bamya-Blanka körfəzinədək) şimal-şəqrdə rütubətli və alçaq, cənub-qərbdə quru və hündür hissə nəzəri cəlb edir.

Özünün sənayesini inkişaf etdirmək üçün Argentina olduqca müxtəlif mineral xammal ehtiyatlarına malikdir. Müasir dünyada o, xüsusilə də, strateji resuslar olan uran filizi, berellium və volframla daha çox fəqlənir.

Yanacaq-energetika resusları içərisində ölkə neft, təbii qaz və uran xammalı ilə fərqlənir, lakin uran xammalının əhəmiyyəti getdikcə daha da artır. Təsadüfi deyil ki, uran filizinin ehtiyatına görə Argentina dünyanın on ən zəngin ölkəsi sırasındadır. Neft və təbii qaz ehtiyatları əsasən Pataqoniya platformasının mezozoy çöküntülərin toplandığı əyilmələrdə, həmçinin And və Kordilyer dağarası çökəkliklərindəki Mendosa, Salta və Neuken əyalətləri ərazisindədir.

Metal tərkibli filiz ehtiyatları əsasən And qırışıqlığı qurşağında cəmləşmişdir. Dəmir filizlərinin əsas ehtiyatları Syerra-Qrandedə cəmlənmişdir. Ölkə həmçinin lehirləyici metallarla, xüsusilə də, manqan filizi ilə yaxşı təmin olunmuşdur. Əlvan metallurgiyanın inkişaf etdirilməsi üçün olduqca yaxşı xammal təminatı vardır. Mis, qurğuşun-sink filizləri And dağlarının şimal və mərkəzi hissələrində, onun

dağətəyi zonalarında, volfram və berelium filizləri Kordirlyer və Bamka təpəliklərində toplanmışdır.

Qeyri filiz ehtiyatlarından təbii kükürd And dağlarının şimal-qərbində, təbii bora Puna ətrafında cəmləşir və bu resurslar əczaçılıq sənayesində, xüsusi növ şüşə istehsalında isə qiymətli xammal kimi istifadə edilir.

Ölkədə tikinti sənayesi üçün xammal, xüsusilə mərmər, qranit, əhəng daşı, gil, qum və s. kifayət qədərdir. Ölkənin faydalı qazıntılarının əsas ehtiyatları az məskunlaşmış, nisbətən zəif mənimsənilmiş ərazilərində cəmləşmişdir, əsas iqtisadi mərkəzlərindən uzaqdadır. Bu da onlardan səmərəli istifadə etməyi müəyyən qədər çətinləşdirir, xammalın maya dəyərini artırır. Digər tərəfdən isə həmin ərazilərin planauyğun şəkildə mənimsənilməsinə, iqtisadi fəal əhalinin bütövlükdə məhsuldar qüvvələrin ərazi təşkilinin yenidən qurulmasına, ölkənin əksər ərazilərinin proporsional iqtisadi inkişafına şərait yaradır.

Argentinanın ərazisi tropik, subtropik və mülayim iqlim qurşaqlarında yeriəşir. Orta illik tempratur istənilən ərazidə $0^{0\ C-}$dən aşağı düşməyərək 24°C ilə 3,5°C arasında tərəddüd edir. Şimal ərazilərində şaxtasız günlərin sayı 260, cənubda isə 60-dır. Ölkədə ən isti olan yanvarın orta temperaturu şimal ərazilərində +29°C, cənubda +14°C, ən soyuq ay olan iyulun orla temperaturu şimalda +17°C, cənubda +2°C olur. Ölkədə iqlimin formalaşmasına Atlantik okeandan gələn hava kütlələrinin təsiri olduqca böyükdür. Bununla belə, ölkə ərazisinin təxminən yarıdan çoxu kifayət qədər rürubət almır.

Ərazidə enlik istiqamətində dağ qurşaqlarının olmaması ölkəyə cənubdan soyuq, şimaldan isə quru tropik hava kütlələrinin asanlıqla daxil olmasına şərait yaradır. Pamperos adlanan cənub hava kütlələri Qrançakoya kimi çox böyük sürətlə yayılaraq temperaturun sürətlə aşağı düşməsinə səbəb olur. Quru pamperoslar küllü miqdarda toz, rütübətli isə leysan yağışlar və qar əmələ gətirir.

Ölkə ərazisinin çayları əsasən Atlantik okeanın hövzəsinə aiddir. Çay sistemləri rütubətli şimal-şərq raayonlarında daha yaxşı inkişaf etmişdir. Parana uzunluğuna və hövzəsinin sahəsinə görə materikin ikinci ən iri və bol sulu çayıdır. Misyones əyalətində çay astana və şəlalələrdən ibarət olub, nəqliyyat üçün əlverişsizdir, lakin hidroenerji əhəmiyyətlidir. Dağarası çökəklikdən sonra əsas qolu olan Paraqvay çayı ilə birləşərək düzənlik çayına çevrilir və bəzi yerlərdə onun eni 1-1,5 km-ə çatır. Parana çayı ölkə iqtisadiyyatında mühüm rol oynayır. O, həm gəmiçilik, həm də su təminatı üçün əvəzedilməzdir. Belə ki, çayın aşağı axarında yerləşən çoxlu miqdarda su, tələb edən sənaye mərkəzlərinin təminatçısıdır. Paranaçayı hələ lazimi səviyyədə, xüsusilə də, enerji istehsalı istiqamətində kifayət qədər istifadə edilməmişdir.

Hidroeneji məqsədilə istifadə etmək üçün Pataqoniya çayları daha əlverişlidir. Belə ki, buradakı nisbətən iri çaylar olan Rio-Neqro, Rio-Kolorado, Çubut, Deseado, Santa-Krus mənbələrini And dağlarının rütubətli yamaclarından götürür, qarışıq qidalanır, suyun səviyyəsini göl kimi tənzimləyən təbii sututarlardan keçirirlər, Pataqoniyada buzlaq mənşəli göl çoxdur və onlardan nisbətən iriləri olan Nauel-Uani, Buenoa-Ayres, Vyedma, Arxentino daha əhəmiyyətlidir. Ölkə

ərazisinin üçdə biri ya axarsızdır, lya da daxili axarlıdır. Çakonun mərkəzi vilayətləri, Ön Kordilyerin qapalı depressiyası, Pampanın qərb və cənub hissələrinin çayları qısa, dövrü axarlı olub qumluqlarda vəya şoranlıqlarda itib-batırlar. Rütubətli Pampada, Mendosa, Tukuman, Bamya-Blanka, San-Xuan şəhərlərinin yaxınlığında su resusları kimi yeraltı sular böyük əhəmiyyət kəsb edir.

Argentina çaylarının iqtisadi hidropotensialı 30 mln.kvt həcmində qiymətləndirilir və bunun da çox hissəsi Parana, Uruqvay və Pataqoniya çaylarının payına düşür. Hidroresuslardan istifadə səviyyəsinə görə ölkə digər Latın Amerikası öikələrindən, xüsusilə də Braziliya, Meksika və Çilidən geri qalır. Son illar Parana, Uruqvay, Neuken, Limay, Rio-Tarsero çayları üzərində iri hidroenerji qurğuları tikilir və ya mövcud olanların təkmiləşdirilməsi üçün tədbirlər görülür.

Pataqoniya sahillərində hündürlüyü 8-9 m-ə çatan qabarmaların böyük enerji ehtiyatları vardır. Təbii mühütün müxtəlifliyi torpaq örtüyünün də rəngarəngliyinə səbəb olmuşdur. Şimalında, tropik Çakoda şabalıdı-qırmızı, nisbətən rütubətli şərq hissədə çəmən və bataqlıq, quru və yüksək qərbdə qırmızı qonur və şorakət, çayarası vadinin şimalda, Misyones əyalətində qırmızı-ferralit, mərkəzi hissədə gilli, bataqlıqlaşmış, cənubda, subtropik çöldə çəmən torpaqları yayılmışdır. Rütubətli Pampanın qara və çəmən torpaqları böyük məhsuldarlığa malikdir.

Öıkənin bitki örtüyündə də böyük rəngarənglik seçilir, şimalda tropik meşələrdən Pataqoniya və Puna yarımsəhralarına qədər fərqli xüsusiyyətlər mövcuddur.

Qran-Çakoda su rejiminin dəyişməsi ilə əlaqədar olaraq bitki örtüyü də müəyyən qədər növbələşir. Qran-Çako ərazisinin təxminən üçdə biri quru meşələrlə örtülüdür və burada bərk oduncağı olan kebraço ağacı xüsusilə qiymətlidir. “Kebraço” ispand ilində “baltanı sındır” mənasını daşıyır. Cənuba doğru getdikcə açıqlıqda otlu bitkilərin geniş sahələri tutması, pampa çöllərinin böyük ərazilərini əhatə etməsi nəzəri cəlb edir. Keçua hindularının dilində pampa “ağacdan məhrum olmuş ərazi” mənasını daşıyır. Bir vaxtlar rəngarəng çalarları olan müxtəlif ot bitkiləri ilə zəngin geniş pampa çölləri əkilmiş, otlaq kimi istifadə edilərək görkəmi xeyli dəyişdirilmişdir.

Rio-Neqro vadisində söyüd meşələrindən başqa Pataqoniyada qədim ağac və kol örtüyü qalmamışdır. Çayların subasarları dənli bitkilərlə örtülüdür.

And dağlarının quru şərq yamaclarının bitki örtüyü yarımsəhra xarakterlidir. 37° c.e.-dən cənuba doğru yağıntıların artması nəticəsində Andın bitki örtüyü də dəyişir. Rütubətli Pataqoniya Andında qanşıq meşələrlə həmişəyaşıl ağacların qovuşması, endemik bitkilərin artması, hündürlüyə qalxdıqca isə tədricən kolluqların alp və subalp çəmənlikləri ilə növbələşməsi müşahidə edilir. Argentina ərazisində torpaq fondunun 12%-i meşə ilə örtülüdür.

Argentina faunası digər Latın Amerikası ölkələrinə nisbətən kasıbdır. Onların müxtəlifiiyinə Pataqoniyanın bəzi mənimsənilməmiş ərazilərində, çako savannalarında, yarımsəhralarda, göl və bataqlıqlarda rast gəlmək olur.

Əhalisi, əmək ehtiyatları, məskunlaşma formaları

XVI əsrədək Argentina ərazisində müxtəlif hindu tayfaları yaşayırdı. Onların sayı az olsa da etnik cəhətdən olduqca müxtəlif idi. Şimal-qərbdə diakit və keçua tayfaları yüksək mədəniyyətə və inkişafa malik idi. Onlar oturaq həyat keçirir, sənətkarlıqla məşğul olur, yollar, körpülər salır, irriqasiya tikililəri yaradırdılar ki, onların bir çox nümunələri bu günə qədər saxlanmaqdadır. Şimal-şərqdə yaşayan quarani tayfaları əkinçiliklə məşğul olurdu.

XVI əsrdə Argentinanın müstəmləkələşdirilməsi hindu tayfalarının amansızcasına məhv edilməsinin əsasını qoydu. XIX əsr Pataqoniyada yaşayan hindular üçün daha faciəli olmuşdur. Burada xüsusilə hərbi ekspedisiya hinduların tamamilə məhv edilməsinə səbəb olmuşdur. Bu əməliyyat hindu tarixidə ən qəddarlığı ilə seçilir. XX əsrdə avropalı imiqrantların təzyiqi ilə hindular sistemli şəkildə az məhsuldar ərazilərə doğru sıxışdırılmağa başlandı. Digər hindular isə az maaşlı, əmək tutumlu, ixtisas tələb etməəyən, olduqca ağır şəraiti olan əmək sahələrinə cəlb edildi ki, bu da onların getdikcə qırılmasına, ictimaiyyətdən aralanmasına, iqtisadi, siyasi və mədəni həyatdan uzaqlaşdırılmasına səbəb oldu. Yalnız son illər ictimaiyyətin və alimlərin diqqətini cəlb edən hindular barəsində əməli tədbirlər görülməyə başladıqdan sonra hinduların özlərinin fəallaşması başlanmışdır.

Çox az rayonlarda hindular öz əvvəlki məşğuliyyətini saxlamışlar. Onların bir hissəsi selvada sərgərdən həyat tərzi keçirir. Onlar müəyyən ərazidə veyyillənməklə ovçuluq, bəziləri primitiv əkinçiliklə məşğuldurlar.

İspanlar tərəfindən Argentinanın müstəmləkələşdirilməsi üç istiqamətdən həyata keçirilməyə başladı: Şimal-qərbdə Boliviya və Peru, qərbdə Çili, okean tərəfdə Parana və Uruqvay çayları istiqamətinindən. Məhz XVI əsrdə də bu istiqamətlərdə ilk ispan şəhərləri olan Santyaqo-del-Estero, Mendosa, San-Xuan, Tukuman və Saltanın əsası qoyulmuşdur.

Pampanın ucsuz-bucaqsız şərq hissəsində əhaliyə nadir hallarda rast gəlinirdi və onlara da "qauço" deyirdilər. Sonralar bura köçüb-gəlmiş şotlandlar, igilislər, irlandlar və basklar mal otarmaq, vəhşi heyvanları əhlləşdirməklə məşğul olmağa başladılar. Hal-hazırda Argentinada gəlmələr çobanlara və ranço sahibkarlarına qauço adı verirlər.

İspan konkistadorlarının davamçıları olan, Argentinada doğulduqları üçün kreollar adlanan insanlar ölkənin gələcək əhalisinin nüvəsinə çevrildilər. Hal-hazırda da kreollar yerli milli əhali hesab edilir.

Kapitalizmin inkişafı, ölkədə iqtisadi inkişafın təməli Avropadan gələn imiqrantların kütləvi axını ilə başlamış və Argentina fəal surətdə beynəlxalq əmək bölgüsünə qoşulmuşdur. Bu isə ilk növbədə Argentina xalqının formalaşmasında həlledici mərhələ oldu. Müstəmləkə dövründə xaricilərin ölkəyə gəlişi praktiki olaraq qapalı surətdə idi. Ölkə müstəqillik əldə etdikdən sonra imiqrantların fəal ictimai və iqtisadi həyata cəlb edilməsi ölkə hökumətinin apardığı siyasətin əsasını təşkil etməyə başladı.

Avropanın elə bir xalqı yox idi ki, Argentinada onun nümayəndəsi olmasın. Bu insanlar getdikcə qarışaraq müasir Argentina millətini formalaşdırmışdır.

Avropanın ayrı-ayrı ölkələrindən köçüb gəlmiş əhali öz bilik, bacarıq və vərdişlərini təsərrüfatın ayrı-ayrı sahələrinə tətbiq etməyə başladılar. Belə ki, fransızlar və italyanlar üzümçülüyü, ingilislər qoyunçuluğu inkişaf etdirməyə nail oldular. İmiqrantlar nəinki ölkənin sosial-iqtisadi inkişafında, həmçinin yerli demoqrafiyanın dəyişməsində də mühüm rol oynamışlar.

Argentinanın fəaliyyətdə olan qanununa görə burada doğulmuş hər kəs argentinalı hesab olunur və bu gün ölkə əhalisinin 90%-dən çoxu argentinalıdır. Müasir Argentinada əhalinin artımı yalnız təbii artıma əsaslanır və qonşu ölkələrdən fərqlənərək çox da deyildir, hər 1000 nəfərə 9-12 nəfər düşür. Bu baxımdn o, inkişaf etmiş ölkələr səviyyəsinə çatmışdır.

Lakin son illərdə artımın aşağı düşməsi əhalinin yaş strukturuna da təsir edərək, gənclərin sayının azalması, yaşlı əhalinin isə nisbətən artması müşahidə olunur. Əgər imiqrasiya dövründə kişilərin miqdarı çox idisə, hal-hazırda qadınların sayı kişilərdən təxminən 1 mln. nəfərdən artıqdır. Əhalinin iş qabiliyyətli hissəsinin çox olmasına baxmayaraq təbii artımın azalması gələcəkdə ölkəni yeni demokratik siyasət aparma məcburiyyətinə qoymuşdur.

Argentina əhalisi üçün xarakterik cəhət onun əsasən Pampanın sahil zolağında məskunlaşması və urbanizasiyanın yüksək səviyyəsinin olmasıdır. Bu şəkildə məskunlaşma tarixən baş vermişdir; belə ki, avropalıların əksəriyyəti Buenos-Ayres limanı vasitəsilə əraziyə daxil olaraq ora yaxın yerlərdə məskunlaşmışlar.

Əhalinin məskunlaşmasına təbii şərait, təsərrüfatların ixtisaslaşması da təsir etmişdir. Dağlıq ərazilər, susuz Çako düzənlikləri demək olar ki, nadir halda məskunlaşmış, Pataqoniyada isə hər km^2-ə 1 nəfər düşür. La-Pampa, Katamarka, La-Rioxa və s. əyalətlərdə heyvandarlıq təsərrüfatları üstünlük təşkil etmiş, əhalinin sıxlığı az, məskunlaşma zəif olmuşdur.

Kənd yaşayış məntəqələri, kənd məskunlaşması torpaqdan istifadə və torpağa münasibət formasından asılı olmuşdur. Rançolar bir-birindən xeyli aralı və az əhalisi olması ilə fərqlənir. Buna görə də bəzən Argentinanı kəndlisi az olan iri aqrar ölkəsi də adlandırırlar. Son illərdə urbanizasiyanın səviyyəsinin artması, əhalinin yeni-yeni yararlı sənaye müəssisələrinə meyli kənd əhalisinin mütləq mənada azalmasına səbəb olmusdur.

Ölkə əhalisinin 80%-dən çoxu şəhərlərdə yaşayır. Bu ilk növbədə immiqrasiya hesabına formalaşmışdır. İkinci dünya müharibəsindən sonra şəhərlərin böyüməsi daxili miqrasiya hesabına olmuşdur. Şəhər əhalisinin çox hissəs iri şəhərlərdə xüsusilə də liman şəhərlərində cəmləşmişdir. Müasir Argentinada şəhərlər öz funksiyalarına görə fərqlənir. Bunlar əsasən Parananın aşağı axarında və Atlantik okeanı sahilləri şəhərləridir.

Təsərrüfatın ümumi səciyyəsi və ərazi təşkili problemləri

Argentina Latın Amerikasında iqtisadi cəhətdən inkişaf etmiş üç nəhəngdən biridir. Müxtəlif strukturlu təsərrüfatlarında sənaye məhsulunun dəyəri getdikcə

kənd təsərrüfatını arxada qoyur. Bu ölkənin ümumi iqtisadi inkişafı dünyanın inkişaf etmiş ölkələrinin ehtiyacına uyğunlaşmışdır. Ölkə müstəqil fəaliyyətinə başladığı gündən kənd təsərüfatı məhsulu istehsalçısı kimi özünü göstərmişdir. XIX əsrin ikinci yarısından sonra onun iqtisadi inkişafının sürəti dünya bazarında kənd təsərrüfatı məhsullarına tələbatın artmasından asılı olmuşdur.

XIX əsrin sonu XX əsrin əvvəllərində Argentinanın iqtisadi inkişafında ənənə yaranmaqda idi. Bir tərəfdən, sürətli iqtisadi inkişaf onun müxtəlif təsərrüfatlarını səfərbər edir, Latın Amerikasında qabaqcıl yerlərdən birini tutur, digər tərəfdən isə onu maliyyə və ticarət sahəsində ingilis kapitalından asılı vəzəyyətə salırdı. Bu istiqamətdə uzun müddət aparılan iş ölkə təsərrüfatlarının strukturunda bu gün də öz əksini göstərir. Artıq XIX əsrin sonunda Argentina dünya bazarına ət, taxıl, un ixrac edən ölkə kimi ixtisaslaşmışdı. I dünya müharibəsinin başlanması ərəfəsində ölkə mal əti, kətan toxumu, kebraço şirəsi ixracı üzrə dünyada birinci, buğda, çovdar, un ixracına görə isə ikinci yeri tuturdu. Ölkə iqtisadiyyatının xarici bazar və xarici kapitala istiqamətlənməsi təsərrüfatların ərazi təşkilinə də ciddi təsir etmişdi. İxrac istiqamətli kənd təsərüfatı məhsulunun əsas istehsalçısı Pampa idi. Bu ərazi həmçinin də sənayenin yerləşmə mərkəzinə çevrildi.

1929-33-cü illərin iqtisadi böhranı və II dünya müharibəsi ölkənin daxili və xarici iqtisadi vəziyyətinə böyük təsir etdi. Argentinanın kənd təsərrüfatının mövqeyi dünya bazarınnda zəifləməyə başladı, bu ilk növbədə kənd təsərrüfatında məhsuldarlığın aşağı olması, digər tərəfdən isə ölkənin kənd təsərrrüfatı məhsullarının ənənəvi alıcısı olan Avropa dövlətlərində kənd təsərrüfatının intensiv xarakter alması ilə əlaqədardır. Ölkənin xarici durumunun dəyişməsi daxildə iqtisadiyyatın srukturunun da dəyişməsinə səbəb oldu. İkinci dünya müharibəsindən sonra ağır sənayenin inkişaf etməsi kənd təsərrüfatının istehsalında strukturun müxtəlifləşməsinə təsir etdi.

Müasir Argentinada sənayenin getdikcə inkişafı, emaledici sənayenin kənd təsərrüfatı istehsalını ötüb keçməsi, sənaye məhsullarının dəyərinin kənd təsərrüfatı məhsullarına nisbətən artması xarakerik hal almışdır. Bu ölkə regionda Braziliya və Meksika ilə yanaşı böyük sənaye üçlüyünü yaratmışdır və regionda istehsal olunan sənaye məhsulları istehsalının 2/3 hissəsi bu üçlüyün payına düşür. Latın Amerikası ölkələrinin içərisində Argentına həm də sənaye məhsulu İstehsalının adambaşına istehsalına görə də fərqlənir. Son on ildə emaledici sənayenin bir çox sahələrində, xüsusilə də, metallurgiya, maşınqayırma və kimya sənayesində dünyanın yüksək inkişaf etmiş ölkələrinə yaxınlaşmışdır. Bu sənaye sahələri əsasən Pampa və La-Plata ovalığında cəmləşmişdir. Yüksək intensivliyi ilə fərqlənən aqrar-sənaye kompleksi ixrac olunan məhsulların 80%-ni verir.

a) Sənayesi. Latın Amerikasında Argentinanın sənayesi özünün mürəkkəbliyi ilə seçilir. Onlar içərisində ağır sənaye xüsusilə fərqlənir. XX əsrin ortalarından etibarən böyük surətlə inkişaf edən ağır sənaye ölkənin sənaye məhsulu istehsalında əsaslı struturuktur dəyişiklikləri etmiş, ənənəvi sahələr olan yüngül və yeyinti sənayesini ötüb keçmişdir. Yeni yaradılmış sənaye sahələri istehsalın

yüksək təmərgüzləşməsi ilə fərqləndiyi halda, bəzi ənənəvi sahələr (ixrac istiqamətli sahələrdən başqa) hələ də kiçik və dağınıq müəssisələrlə təmsil olunur.

Argentina sənayesinin yerləşməsinin yüksək ərazi təmərgüzləşməsi xarakterik hal almışdır. İstehsal olunan sənaye məhsullarının yarıdan çoxu Böyük Buenos-Ayresin payına düşür. Ağır sənayenin çox hissəsi Parana çayının aşağı axarı boyunda, Buenos-Ayreslə Santa-Re sənaye qurşağında cəmlənilmişdir.

Ölkənin energetikası əsasən neft və qaz yanacağına əsaslansa da getdikcə hidro və atom energetikasının da rolu artır. Adambaşma istehsal olunan enerjiyə görə o, Latın Amerikasının digər ölkələrini ötüb keçmişdir. Ölkədə tədqiq edilmiş neftin ehtiyatı 500 mln. ton həcmində qiymətləndirilir. Hər il orta hesabla 42-45 mln. ton nef istehsal olunur. Argentina neft istehsalının həcminə görə regionda üçüncü yeri tutur.

Son illərdə təbii qaz hasilatı və ondan istifadə surətlə artmağdadır. Onun əsas hasilatı neftlə birgə həyata keçirilir. Əsas hasilat rayonları Nekuen, Santa-Krus, Salta əyalətləri və odlu Torpaq adasıdır. Son on ildə Argentina qaz idxal edən ölkədən onu ixrac edən ölkəyə çevrilmişdir.

Argentina kifayət qədər inkişaf etmiş neft emalı sənayesinə malikdir. Onun əsas mərkəzləri şimalda Kampo-Duran, Cənubda Kamodoro-Rivadaviya, Mendosa əyalətində isə Luxan-de-Kyodur. Lakin iri neft emalı zavodları La-Plata və Kampanetdə yerləşir. Kömürün istehsalı həm keyfiyyətinin aşağı olması, həm ehtiyatının azlığı ilə əlaqədar çox da inkişaf etməmişdir.

Ölkədə istehsal edilən elektrik enerjisi həmişə istilik elktirik stansiyalarına əsaslənmış, hətta ilk əvvəllər elektroenergetikanın 80%-i onların payına düşürdü. Ölkə üçün böyük əhəmiyyət kəsb edən hidroenergetika qurularının layihələrinə əsasən Limay və Rio-Neqro çayları üzərində Cakon, Kolorados və Uruqvay çayı üzərində Salto-Qrandenin tikilməsi elektirik enerjisi təminatını xeyli yaxşılaşdırdı. Argentina regionda ilk ölkədir ki, atom enrgetikası inkişaf etməyə başlamışdır. 1974-cü ildə Buenos-Ayres yaxınlığında istehsal gücü 340 min kvt. olan "Atuça" AES fəaliyyət göstərməyə, sonra isə digər AES-lərin tikintisinə başlandı. Hal-hazırda istehsal olunan elektrik enerjisi SES və AES-lərin hesabına artmaqdadır.

Argentina inkişaf etmiş qara metalurgiyaya malikdir, üç tam silsiləli zavod və çoxlu təkrar metalurgiya müəssələri ilə təmsil olunur. Braziliya və Meksikadan fərqli olaraq ölkənin metalurgiya zavodları gətirmə xammala əsaslanır, buna görə də liman şəhərlərində yerləşir.

Ölkədə zəngin xammal olmasına baxmayaraq əlvan metalurgiya çox da inkişaf etməmişdir. Sahələr arasında yerli xammala əsaslanan sink və qurğuşun istehsalı nisbətən fərqlənir. Qurğuşunun istehsalı Puerto-Vilales, Mersedes və Tablada, sink istehsalı isə Komadora-Rivadavid, Sarat və Rio-Terseroda cəmləşmişdir.

Maşınqayırma ölkənin gənc sənaye sahələrindəndir. Region ölkələri içərisində mürəkkəb strukturu, yüksək istehsal səviyyəsi ilə seçilsə də iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdən hələ çox geri qalır. Ölkənin maşınqayırması

metaltutumluluğu ilə fərqlənir, digər, sahələrə nisbətən yüksək istehsal təmərgüzləşməsinə malikdir.

Nəqliyyat, kənd təsərrüfatı maşmqayırması, elektrotexnika nisbətən inkişaf etmişdir, mürəkkəb olmayan bəzi dəzgahlarla özünü təmin edir. Avtomobilqayırma nəqliyyat maşınqayırma sənayesində əsas yeri tutur və tamamilə xarici şirkətlərin nəzarəti altındadır. “Fiat”, "Ford", "Ceneral motors" və "Reno" firmalarının zavodları Buenos-Ayres və Kordovada cəmlənmişdir. Gəmiqayırma sənayesinin inkişafına görə o Braziliyadan geri qalır, istehsal olunan müxtəlif tip gəmilər region ölkələrinə ixrac edilir, əsas mərkəzləri isə Buenos-Ayres və Ensenadadır. Regionun ən iri təyyarəqırma müəssisəsi Kordovada yerləşir.

Kənd təsərrüfat maşınqayırması nisbətən köhnə sahə olub, əsasən traktor istehsal edir. Ölkə kənd təsərrüfat

Digər sahələrə nisbətən maşınqayırma daha çox ərazi təmərgüzləşməsinə malikdir və əsasən də Buenos-Ayres və Kordovada cəmləşmişdir.

Ölkənin kimya sənayesi əsasən üzvi sintez kimyası ilə təmsil olunur, əsas xammalı da neft və təbii qazdır. Neft-kimya müəssələri neftemalı zavodları ilə vahid kompleks təşkil etdikləri üçün neftemalına, həmçinin də istehlak rayonlarına meyllidirlər.

Argentina nisbətən inkişaf etmiş meşə sənayesinə malikdir. Ağac tədarükü əsasən ölkənin şimal və şimal-şərqində cəmləşir. Burada selüloz-kağız və ölkə üçün spesefik olan kebraço şirəsi istehsalı inkişaf etmişdir. Selüloz-kağız istehsalı üçün meşə resusları ilə yanaşı Parana çayının deltasında bitən qamış da xammal rolunu oynayır. Bu sənaye sahəsi ölkədə ən sürətlə inkişaf edən və perespektivli hesab edilir.

Toxuculuq sənayesi ölkədə ən qədim və yaxşı inkişaf etmiş sahələrdəndir, yerli xammala əsaslanır, lakin istehsal mərhələləri arasında təzadlıq mövcud dur.

Yun, kətan və pambıq parça istehsalı daha, yaxşı inkişaf etmişdir. Ölkə üçün spesifik və daha geniş yayılmış sənaye sahələrindən biri inkişaf etmiş heyvandarlığa əsaslanan gön-dəri ayaqqabı sahəsidir. Argentina dünyanın ən iri dəri ixracatçılarındandır.

Ölkədə yeyinti sənayesi ənənəvi sahələrdən olub, zəngin və müxtəlif kənd təsərrüfatı məhsullarına əsaslanır. Bu məhsulların dəyəri digər sənaye sahələrinə nisbətən aşağı olsa da ixrac istiqamətində xeyli inkişaf etmişdir. İxrac məhsulları içərisində ət-sənaye məhsullarının xüsusi çəkisi böyükdür.

b) Kənd təsərrüfatı.

Latın Amerikası ölkələri içərisində Argentina kənd təsərrüfatının inkişaf səviyyəsinə, istehsal olunan məhsulun çeşidinə, ümumi daxili məhsulda xüsusi çəkisinin dəyərinə görə fərqlənir. Əhalinin artan təbatını tamamilə ödəyən ölkə dünya bazarında ərzaq məhsullarının ən iri ixracatçılarındandır. Müasir dövrdə dünya bazarında getdikcə kəskinləşən rəqabət şəraitində o yalnız ABŞ, Avstraliya, Kanada və bəzi Avropa ölkələrindən geri qalır. Bu da hələlik ölkədə əmək məhsuldarlığının onlara nisbətən aşağı olması ilə izah edilir.

Ölkədə aqrar münasibətlər özünün müxtəlifliyi, sosial-iqtisadi, siyasi münasibətlərin gərginliyi şəraitində qurulmuş iri torpaq sahibkarlarının yaranması ilə nəticələnmişdir və bu gün ölkənin kənd təsərrüfatının əsasını latifundiyalar təşkil edir. Bu forma ölkəyə İspaniyadan miras qalmışdır.

Lakin son onillikdə aparılan aqrar islahatlar kənd təsərrüfatında kapitalist istehsal münasibətlərin bərqərar olmasına, məhsuldarlığın artmasına səbəb olmuşdur. Ölkənin uzun müddət xarici bazara uyğunlaşması, həmçinin də daxildə təbii mühit taxılçılığın və heyvandarlığın inkişafına münbit şərait yaratmışdır. Ölkənin kənd təsərrüfatında mühüm rol oynayan heyvandarlıq iri buynuzlu mal-qaranın ətlik istiqamətində ixtisaslaşmışdır. İspaniya və İngiltərədən gətirilən mal-qaranın qarışığından yaranan yerli cins inəklər ölkənin bütöv ərazilərinə yayılmışdır. Onların belə yüksək səviyyədə inkişafı dünya bazarında onların yağsız ətinə olan böyük tələbatla bağlıdır. Məhsuldar heyvandarlığın inkişaf etdiyi əsas rayon Pampadır. Burada iri buynuzlu mal-qaranın 2/3 hissəsi cəmləşmişdir. Pampa özünün yumşaq iqlimi, rütubətli və əlverişli relyefi hesabına daha şirəli otla təmin olunmuşdur. Südlük istiqamətli heyvandarlıq Buenos-Ayras ətrafında və Santa-Fe əyalətinin cənub hissəsində cəmləşmişdir. Heyvandarlıqda ikinci ixtisaslaşmış sahə qoyunçuluqdur. Argentina qoyunçuluğun inkişaf səviyyəsinə, sayına və yun istehsalının həcminə görə yalnız Avstraliya və Yeni Zellandiyadan geridə qalır. Qoyunçuluq bütün ölkə ərazisində yayılsa da onun əsas ixtisaslaşmış təsərrüfatları Pampa və Pataqoniyadadır.

Ölkədə bitkiçilik məhsulları içərisində ən geniş yayılanı ənənəvi sahələr olan taxılçılıq və yağlı bitkilər istehsalıdır. Taxıl bitkiləri içərisində əsas yeri buğda istehsalı tutur. Buğda istehsalının və ixracının həcminə görə yalnız ABŞ, Kanada, Avstraliya və Fransadan geridə qalır. Ölkədə ikinci bitki sayılan qarğıdalı buğdadan fərqli olaraq yerli bitkidir, ərzaq və heyvandarlıqda yem kimi istifadə edilir.

Taxılçılıqdan başqa fərqlənən bitkilərin sahəsi yağlı bitkilərdir və onlardan daha geniş yayılanı kətan, günəbaxan, araxis, zeytun və tunq ağacıdır. Bunlardan əlavə şəkər qamışı, pambıq və çay da becərilir. Ölkə üzüm istehsalına görə dünyada fərqlənən ölkələrdəndir, əsasən də And dağlarının quru subtropik dağətəyi ərazilərində inkişaf etmişdir.

v) Nəqliyyatı.

Ölkədə nəqliyyat sisteminin yaranması, inkişafı və quruluşu uzun müddət xarici bazardan asılı olmuşdur. XIX əsrin sonu XX əsrin əvvəllərində ölkədə ixrac istiqamətli məhsulların artması ilə xarici monopoliyalarının nəqliyyat sistemlərini yaratması uyğun şəkildə inkişaf etməyə başladı. Bu nəqliyyat yollarının salınmasında ilkin məqsəd ölkənin daxili rayonlarında istehsal olunan kənd təsərrüfatı məhsullarını limanlara, ilk növbədə isə Buenos-Ayresə daşımaq olmuşdur.

Nəticədə, mərkəzi Buenos-Ayres olmaqla radial istiqamətdə aydın nəzərə çarpan nəqliyyat sistemi yarandı.

Xarici iqtisadi əlaqələrin həyata keçirilməsində dəniz və hava nəqliyyatı, daxili yük daşımada dəmiryol və avtomobil nəqliyyatı müstəsna rol oynayır. Dəmir

yolları ilə sərnişin daşımasının həcminə görə o, Latın Amerikasında birinci, yük dövriyyəsinin həcminə görə isə Braziliya və Meksikadan sonra üçüncü yer tutur. Argentina ərazisində düzənlik relyefin üstünlüyü avtomobil yollarının çəkilməsini xeyli asanlaşdırır. Ölkənin bütün yaşayış məntəqələri arasında fəaliyyət göstərən bu nəqliyyat yollarının uzunluğuna görə ölkə regionda fərqlənir. Ölkənin şimal sərhədindən Odlu Torpaqdakı Uşuaya məntəqəsinə qədər sahil boyu avtomagistral keçir.

Daxili nəqliyyatda su nəqliyyatı o qədər də əhəmiyyət kəsb etmir. Parana və Uruqvay çaylarının aşağı axarları boyu məntəqələrdə çay gəmiçiliyi fəaliyyət göstərir.

İkinci dünya müharibəsindən sonra boru nəqliyyatı sürətlə inkişaf etməyə başlamışdır.

Dəniz nəqliyyatı ölkənin xarici iqtisadi əlaqələrində müstəsna rol oynayır. Bundan əlavə ölkənin dənizlə böyük məsafədə əhatələnməsi dəniz nəqliyyatının daxili, limanlararası əlaqələrində də əlverişlidir. Liman fəaliyyətinin çox hissəsi Buenos-Ayresin payına düşür.

Argentina dünyanın bir çox ölkələri ilə hava nəqliyyatı vasitəsilə əlaqə saxlayır.

Daxili fərqləri, iri şəhərləri, xarici iqtisadi əlaqələri

Argentinanın ərazisi altı iri iqtisadi rayona - Pampa, Şimal-Qərb, Qərb, Çako, Çayarası və Pataqoniyaya bölünür. Iqtisadi inkişaf səviyyəsinə görə Pampa iqtisadi rayonu digərlərindən kəskin şəkildə fərqlənir. Ölkə ərazisinin 1⁄4 hissəsini əhatə edən rayon ərazisində ümumi əhalinin 3⁄4-ü, sənaye məhsulu istehsalının isə 90%-i cəmləşmişdir o, həmçinin ixrac olunan kənd təsərrüfatı məhsullarının xeyli hissəsini verir. Bu rayonlardan nisbətən yüksək iqtisadi inkişafa Qərb rayonu nail olmuşdur. Bu rayonun kənd təsərrüfatı subtropik bitkilərin intensiv inkişafı və istehsal olunan məhsulun əmtəliyi ilə seçilir. Şimal-Qərb, Çayarası və Çako rayonlarında kapitalist istehsal münasibətləri zəif inkişaf etmiş, təsərrüfatları xammal istiqamətində formalaşmışdır.

Pampa.

Bu rayon ölkənin şərq hissəsini əhatə etməklə Atlantik okeanına geniş çıxışa malikdir. Pampanın əlverişli coğrafi mövqeyi, iqlimi, məhsuldar torpaqları immiqrantların böyük hissəsini cəlb edərək, regionda ən iri kənd təsərrüfatı məhsulları istehsalçısına və ixracatçısına çevrilməyə şərait yaratmışdır. İqtisadi rayon ərazsinin çox hissəsi rütubətli subtropik, cənub-qərb və qərb hissəsi isə getdikcə kontenentallaşan iqlim qurşağında yerləşir.

Müasir Pampa özünün intensiv inkişafı, təsərrüfatının müxtəlif və mürəkkəb quruluşu ilə seçilir. Burada kənd təsərrüfatının əsas sahələri, müxtəlif sənaye demək olar ki, bütün ağır sənaye cəmləşmişdir. Rayonun ürəyi sayılan Buenos-Ayres nəinki Pampanın, hətta bütün Aregntinanın əsas limanı, sənaye mərkəzi, nəqliyyat qovşağıdır. Dünya bazarında kənd təsərrüfatı məhsullarına tələbatın artması, Atlantik okeanı sahilində əlverişli coğrafi mövqeyi, buxtanın təbii

qorunması, Pampanın yarımdövrə şəklində geniş sahələri ilə onu əhatə etməsi Buenos-Ayres limanını sürətlə inkişaf etdirir. Son illər idxal-ixrac əməliyyatlarının genişlənməsi ilə əlaqədar olaraq limanın da genişləndirilməsi lahiyələri həyata keçirilir. Buenos-Ayres ölkənin əsas sənaye mərkəzidir, burada sənaye məhsulu istehsalının 60%-i cəmləşmişdir. Sənayenin əsas sahələri maşınqayırma, neftemalı, kimya, yeyinti və toxuculuq sahələridir.

Yük dövrüyyəsinin həcminə görə ölkənin ikinci limanı olan Rosario taxıl ixracı üzrə ixtisaslamışdır. Buradan dəyirman, göndəri-ayaqqabı sənayesi, polad-prokat zavodu yerləşir. Buenos-Ayres əyalətinin paytaxtı olan La-Plata şəhəri kənd təsərrüfatı məhsulları ixracı üzrə ixtisaslanmışdır, neftemalı, neftkimya, ət sənaye sahələrinin əsas mərkəzlərindəndir.

Kardova həm əhalisinə, həm də sənayesinin inkişaf səviyyəsinə görə ölkənin ikinci mühüm şəhəridir. O, iri sənaye qovşağı kimi avtomobil, traktor və təyyarəqayırmanın əsas mərkəzidir.

Qərb. Iqtisadi cəhətdən nisbətən inkişaf etmiş rayondur. O, And dağlıq hissəni və onun ön hissəsini əhatə edir. iqlimi quru subtroikdir, yağıntı əsasən yayda düşür. Bu rayonun ərazisi Pampada mənimsənilən ikinci ərazidir. İmmiqrantların əksəriyyəti italyan və fransız mənşəllidir. Onların gəlişi ilə də üzümçülüyn bir təsərrüfat kimi inkişafının əsası qoyuldu. Ərazidə üzümlüklər geniş otlaq və biçənəklərlə növbələnir. Üzümçülüklə yanaşı tərəvəzçilik və bağçılıq da inkişaf etişmişdir. Qərb rayonu bol və müxtəlif enerji daşıyıcılarla zəngindir. Neft ehtiyatına görə o, Pataqoniyadan sonra ikinci, Urana görə birinci yeri tutur. Hidroresursları həm enerji istehsalında, həm də kənd təsərrüfatında kompleks qaydada istifadə olunur. Rayonlararası əmək bölgüsündə Qərb dağ-mədən sənayesi üzrə ixtisaslaşmışdır. Burada volframın, beriliumun, sink-qurğuşunun və mis filizinin iri yataqları istismar olunur.

Şimal-Qərb.

Qərb və Şərqdən And dağları ilə əhatələnən vulkanik Puna platosunda yerləşən rayonun ərazisində dağların və müxtəlif istiqamətlərdə onları kəsib-keçən vadilərin əsrarəngiz təbiəti vardır. Dağların şərq yamacları daha çox rütubət alır. Rayonlararası əmək bölgüsündə bu rayon Argentina bazarına şəkər çıxarmaqla seçilir. Heyvandarlıq ekstensiv xarakter daşryır. Rayonun sənayesi dağ-mədən sənayesi ilə təmsil olunur. Burada neft-dəmir filizi, sink-qurğuşun, uran, qalay və kükürd istehsal edilir. Faydal qazıntıların çıxarılması ilə əlaqədar qara metalurgiya və neft-emalı müəssisələri yaradılmışdır. Xammalın və enerji daşıyıcılarının əlverişli şəkildə uzlaşmasma baxmayaraq nəqliyyat sistemi zəif inkişaf etdiyi üçün rayon ölkənin əsas xammal təchizatçısı kimi çıxış edir. Rayonun əsas və ən iri sənaye mərkəzi Tukman şəhəridir. Salta və Jujuy şəhərləri əyalət mərkəzidir.

Çako.

Bu Argentinada nisbətən zəif inkişaf etmiş rayon şimalda, mövsümü rütubətləşən tropik iqlim qurşağında yerləşir.Cənubi Amerikanın “isti qütbü” adlanan rayonun ən isti aynın (yanvarın) orta temperaturu 28-29°C, iyulun 13-

17°C -dir. Çakonun intensiv mənimsənilməsi XIX əsrin ortalarından sonra başlanmışdır. İngilis şirkətləri kebraço şirəsi istehsal və ixrac etməsindən sonra bura çoxlu immiqrant axını başladı. Meşə massivlərinin kütləvi qırılması, dünya bazarında yeni dəri əvəzləyicisinin satışı bir çox müəssisələrin bağlanmasına və əhalinin şəhərlərdən köçüb getməsinə səbəb oldu. Lakin istehsalın azalmasına baxmayaraq Argentina bu gün də dünyada şirə istehsalı və ixracı üzrə ixtisaslaşmışdır. Ölkədə istehsal olunan pambığın 90%-i burada cəmləşmişdir. Pambıq yığımı hər il Paraqvay və Boliviyadan çoxlu mövsümü immiqrantları cəlb edir. Pambıqçılıq yalnız daxili tələbat üçün yararlıdır.

Çayarası.

Bu iqtisadi rayon Argentinanın şimal-şərqində bütün ilboyu bərabər rütubət alan subtropik iqlim vilayətində yerləşir. Rütubətli subtropik bitki becərilən yeganə rayondur. Bu ərazilər üçün yeni bitki sayılan çay, çəltik, tütün, tunq ağacı XX əsrin 30-cu illərindən kütləvi hal almışdır. Bu iqtisadi rayon meşə tədarükü və ağac emalı sənayesinin əsas mərkəzlərindəndir. Zəngin rütubətli meşə, həmçinin də sonradan salınmış meşə qurşaqları sellioz-kağız istehsalı üçün əsas xammal mənbəyinə çevrilmişdir. Rayonun zəngin hidroenerji ehtiyatı da bu sənaye sahəsinin genişlənməsinə şərait yaratmışdır. Ərazinin rəngarəng təbiəti, İquasu şəlaləsinin əsrarəngiz görünüşü turizmin inkişafına güclü təkan vermişdir.

Pataqoniya.

Ümumi ölkə ərazisinin 1/3-ni əhatə etsə də cəmi əhalinin 3%-i bu rayonda cəmləşmişdir. Yarımsəhra iqlimi, sərt və soyuq küləkləri, az məhsuldar qonur səhra tipli torpaqları ilə xarakterizə olunur. Rayonun ərazisi Atlantik okeanın sahilində yerləşsə də kəskin kontinental iqlimə malikdir və rütubət çatışmazlığı kəskin şəkildə hiss edilir. Qərb küləklərinin hakimliyi, xüsusilə də antraktidanın soyuq küləkləri üçün ərazinin açıqlığı öz təsirini bildirir. Rayon ərazisinin mənimsənilməsi Pampada taxılçılığın inkişafı və oradan qoyunçuluğun sıxışdırılıb, çıxarılması ilə başlanmışdır. Avropanın immiqrantları, xüsusilə də, alman və ingilislər bu ərazilərdə məskunlaşaraq yunluq istiqamətli qoyunçuluq inkişaf etdirməyə başladılar. Bu gün də Pataqoniya iqtisadiyyatında qoyunçuluğun rolu böyükdür. Surətlə inkişaf edən əlvan metalurgiyası yerli hidroenerji ehtiyatlarına, xüsusilə də, Limay, Neuken, Kolorado çaylarının hidroenerjisinə əsaslanır. Əhalisi az olsa da əsrarəngiz təbiəti turistləri getdikcə daha çox cəlb edir.

BRAZİLYA FEDERATİV RESPUBLİKASI

Sahəsi – 8512 min km^2
Əhalisi – 190,2 mln. nəfər (2008-ci il)
Paytaxtı – Brazilya

Braziliya Pederativ Respublikası Latın Amerikasında ən böyük dövlətdir. Cənubi Amerika materikinin 1/2 hissəsini tutur, mərkəzi və şərq hissəsində, Atlantik okeanı sahilində yerləşir. Ərazinin böyüklüyünə görə Braziliya dünyada 5-ci yerdədir (RF, Kanada, ÇXR, ABŞ-dan sonra), əhalinin sayına görə də dünyada 5-ci yerdədir (Çin, Hindistan, ABŞ, İndoneziyadan sonra). Sahil sularında və Atlantik okeanında olan adalar (San-Paulu, Roxas, Fernandudi-Naroraya və b.) Braziliyaya aiddir. Quru sərhədlərinin uzunluğu 16 min km-ə yaxındır. Braziliya şimalda — Venesuela, Surinam, Qayana və Fransız Qvianası ilə, qərbdə Kolumbiya, Peru, Boliviya ilə, cənubda isə Argentina, Paraqvay və Uruqvay ilə həmsərhəddir. 7,4 min km məsafədə Atlantik okeanının suları onun sahillərini yuyur. Ucuz su nəqliyyatı vasitəsilə Braziliya dünyanın çox ölkələri ilə əlaqə saxlaya bilir. Quru sərhədlərdən də yaxşı istifadə edir. Qonşu ölkələrin hamısı ilə əlaqəsi vardır. Çox əlverişli iqtisadi coğrafi mövqeyə malikdir. Həmsərhəd olan ölkələr zəngin yeraltı sərvətlərə malik olmaqla, elə bil ki, Braziliyanı üzük qaşı kimi əhatə etmişlər.

Braziliyanın təbii şəraiti olduqca müxtəlifdir. Onun şimal hissəsi platoyabənzər sıldırım tirələr və ayrı-ayrı dağlardan (ən yüksək nöqtəsi Rarayma dağı, 2772 m) ibarət Qviana yaylasının cənub ətəkləridir. Əsasən arxeozoy yaşlı metamorfik süxurlarından ibarətdir (qneys, şist, mərmər, kvarsit və b). Yayla cənubda - Amazon ovalığına keçir. Rütubətli həmişəmeşələrlə örtülmüş Amazon ovalığı Amazon çayı hövzəsində allüvial çöküntülərdən ibarətdir. Yer kürəsində ən böyük ovalıqdır. Onun sahəsi 5 mln km^2-dən artıqdır. Braziliya ərazisinin 47%-ni Amazon ovalığı tutur.

Cənub-şərqdən, cənubdan və cənub-qərbdən Amazoniyaya And dağları və Braziliya dağlıq yaylası qovuşur. Yaylanın orta hündürlüyü 400-800 m-dir. Braziliya ərazisi əsasən, bünövrəsi Kembridən əvvəlki metamorfik süxurlardan ibarət Cənubi Amerika platformasındadır.

Braziliya faydalı qazıntılarla çox zəngindir. Ölkədə neft ehtiyatı 300 mln. t., daş kömürün ehtiyatı 24 mln.tondur.

Ölkə filizlərlə çox zəngindir. Dəmir filizinin ehtiyatı 80 mlrd. tondur. Manqan filizi ehtiyatı da zəngindir -310 mln. t. ehtiyatı vardır. Molibden ehtiyatları 120 min t.-dur. Latın Amerikada olan (17 mlrd. Ton) boksit ehtiyatlarının 35%-dən çoxu (5 mlrd. ton) Braziliyada cəmlənmişdir (Trambetas, Paraqominas və b. hövzələr). Mis ehtiyyatı Braziliyada 15 mln. t-dur. Ölkədə sink-qurğuşun yataqları da vardır. Regionun qalay ehtiyatının 44%-i Braziliyanın payına düşür. Ölkədə qızıl ehtiyatı 800 ton hesablanmışdır (Morru-Velyu, Kanavieyras və b. yataqları). Niobium filizinin ehtiyatına görə (12 mln. t. Araqil, Tapira, Katalan yataqları) və Berillium filizinin ehtiyatına görə Braziliya dünyada 1-ci yeri tutur.

Braziliyanın təbii potensialında yerüstü sərvətlərin böyük əhəmiyyəti vardır.

Braziliya ekvatorial, subekvatorial, tropik və subtropik iqlim vilayətlərində yerləşir. Belə iqlimin tərəddüdü ölkənin şimaldan cənuba meridian istiqamətdə - 4320 km məsafədə uzanmasının hesabınadır. Qərbi Amazoniyada iqlim ekvatorialdır, daimi isti və rütubətlidir. İllik yağıntı 3000 mm-dir. Amazonun şərqində və Braziliya yaylasının mərkəzində subekvatorial

iqlimdir, yayı rütubətli, (1400-2000 mm - yağıntı düşür), qışı isə qurudur. Şimal-Şərq hissə - ən quraq yerdir. Burada ən az yağıntı (500 mm) düşür. Lakin hərdən leysan yağışlar düşür və çaylarda daşqınlar olur.

Orta temperatur yanvarda 23-29°C, iyulda 16-24°C-dir. Termik rejim əkinçilik üçün geniş imkanlar açır. Bitkilərin inkişaf fazasında müsbət 10°C-dən yuxarı 8000-9000°C-yə qədər fəal temperatur cəmi toplaşır ki, bu da kənd təsərrüfatı bitkilərinin bütün il boyu vegetasiyasına səbəb olur.

Braziliyanın şimalından dünyada ən sıx çay sistemi olan Amazon çayı və onun qolları axır. Hövzənin sahəsinə və suyunun çoxluğuna görə dünyada 1-ci, uzunluğuna görə 2-ci (Nil çayından sonra) yeri tutur. Uzunluğu (Maranyon çayı ilə birlikdə) 6,4 min km, hövzəsinin sahəsi 7180 min km^2, Peruda And dağlarından (Plaura d.4840 m) başlanır və bu hissədə Maranyon, Ukayali çayı ilə birləşdikdən sonra Amazonka adlanır. Rütubətli ekvatorial meşələrlə örtülü və çox yeri bataqlıq olan geniş ovalıqdan axıb, Atlantik okeanına tökülür. Şimaldakı qollarında apreldən oktyabra qədər, cənubdakı qollarında isə oktyabrdan marta qədər daşqın olur.

Amazon çayı Braziliyada 3615 km məsafədə axır. Onun 3100 km-i gəmiçiliyə yararlıdır. Okean gəmiləri Manaus (mənsəbdən 1690 km), dəniz gəmiləri isə 3100 km məsafəni üzüb keçə bilirlər. Amazon çayının qolları və ölkənin başqa çayları da gəmiçiliyə yararlıdırlar.

Su axımlarının tərəddüdünə baxmayaraq Brazilayanın nəhəng çay şəbəkəsi astanalar və şəlalələrlə zəngindir və böyük hidroenerji potensiala malikdir. Su resurslarına görə Braziliya dünyada qabaqcıl yer tutur, lakin hələ onlardan zəif istifadə olunur.

Amazon çayında 2000-ə qədər balıq növü (Yer kürəsindəki şirin su balıqlarının 1/3-i), şirin su delfini, lamantin, su donuzu, timsah, anakonda (9-10m uzunluğunda ən böyük ilan), piranya və b. vardır.

Ölkədə olan çayların hidroenerji ehtiyatları 225 mln kVt qiymətləndirilir. Hidroqurğuların tikintisi üçün ən intensiv Parana hövzəsinin çayları istifadə olunur.

Braziliyanın çox hissəsinin torpaqları qırmızımtıl-laterit və qara, şimal-şərqdə qəhvəyi-qara, cənubda qırmızı və qırmızımtıl qaradır. Tərkibində çoxlu dəmir birləşmələri vardır. Torpaqlar yaxşı məhsul verir, lakin tez zəifləyir, münbitlikdən düşür, həm də külək və su eroziyasına məruz qalırlar.

Bitki örtüyü çox zəngindir. Ölkə ərazisinin yarıdan çoxu meşə ilə örtülüdür. Xüsusilə qiymətli ağac növlərinin ehtiyatına görə dünyada 1-ci yeri tutur. Buranın florası o dərəcədə zəngindir ki, bitkilərin 40 min növündən 12 min növü endemik bitkiləridir. Braziliyanın cənub hissəsi subtropik çöllərlə örtülüdür və burada qarayabənzər münbit torpaqlar vardır - laplata pampasının şimal qurtaracağıdır.

Meşələrdən kauçuk, karnaub mumu, Braziliya noxudu və s. yığılır, oduncaq tədarük edilir.

Heyvanat aləmi müxtəlifdir. Bunların içərisində endemik növlər (məməlilərin 80%-i, quşların 79%-i, amfiibilərin 44%-i) çoxdur. Enliburun meymunlar,

yarasa, yenot, yaquar, puma, tapir, maral; quşlardan hoasin, vağ, dəvəquşu, tukan, tutuquşu, milçəkquşu; sürünənlərdən böa, zəhərli ilanlar, tısbağa, savannalarda müxtəlif gəmiricilər və s. vardır. Braziliyanın çoxsahəli sənaye və kənd təsərrüfatının inkişafı üçün hər bir şəraiti və imkanı vardır.

Əhalisi və dövlət quruluşu

Braziliyanı avropalılar kəşf etməmişdən qabaq orada müxtəlif dil ailələri və qruplara aid hindu tayfaları və xalqları yaşayırdı. Müstəmləkəçilərin zəbt etmə müharibələri və kəskin istismarı nəticəsində hindu tayfaların çoxusu qırılmış və yaxud sayca azalmışdır.

Üç əsr yarım qul ticarəti dövrü ərzində Braziliyaya müxtəlif tayfalara və xalqlara malik bir neçə mln. zənci gətirmişlər (bantu, yoruba, xausa və b.).

Nəhayət müasir xalqın formalaşmasında avropalılar üçüncü vacib element təşkil etmişlər.

Avropa müstəmləkəçiliyinin başlanğıcı dövründə əhalinin qarışması baş verirdi. Yeni irqi-etnik kateqoriyalar yarandı: kreollar, metislər (avropalılar və hindulərlə nigahdan yaranmışlar), mulatlar (avropalılar və zəncilərlə nigahdan yaranmışlar), sambo (hindu və zənci nigahından doğulanlar).

XVI əsrin ortalarından Braziliyaya Avropadan və Asiyadan əhəmiyyətli immiqrasiya baş verirdi. Portuqaliyadan və İspaniyadan əlavə kütləvi surətdə italyanların və almanların axımı oldu. Braziliyaya yaponlar, çinlilər və ərəblər köçməyə başladılar. Həmçinin Hindistandan, Pakistandan və İndoneziyadan köçüb gəlmişlər (plantasiya fəhlələri kimi). Cəmi Braziliyaya 3,5 mln nəfər immiqrantlar köçmüşlər. Onların çoxları qohum etnik mühitə düşərək (birinci növbədə portuqallar və ispanlar) tezliklə assimilyasiya oldular, digərləri (almanlar, slavyan xalqları, yaponlar və b.) əhəmiyyətli dərəcədə öz dillərini və bəzi mədəniyyət xüsusiyyətlərini saxlamışlar.

Braziliyada hazırda 1,5 mln nəfər hindu xalqları yaşayır (əsasən Amazon meşələrində) .

Braziliyada 80-dən çox xalqların nümayəndələri yaşayır.Onların əksəriyyətini əsas xalqlarla assimilyasiya olmayanlar təşkil edir.

Əhalinin əksəriyyəti (92%) katolikdirlər. (150 mln) Katolizm portuqal müstəmləkəsində konkista dövründə yayılmışdır və uzun müddət rəsmi din olmuşdur.

Katolisizmdə sonra ikinci din protestantizmdir (5%) bir çox kilsələrdə və sektalarda təmsil olunur.

Bununla yanaşı, keçən əsrin 60-cı illərindən başlayaraq ABŞ sektaları Braziliyaya daxil olur, öz dinlərini yayırlar.

Xristianlar arasında katoliklərdən və protestantlardan əlavə Braziliyada pravoslav dindarlar da vardır.

Qeyri-xristian dinlərdən induizm və tayfa dinləri geniş yayılmışdır,həmçinin iudaizm məsələn,Braziliyada – 150 min nəfər bu dinə (iudaizm) etiqad edir.

Konkista dövründən başlayaraq, avropalılar öz dillərini yayırlar. Roman dil qrupuna aid olan portuqal dli dövlət dili olmuşdur.Portuqal dilində əhalinin əksəriyyəti danışır. Bu dilə hindu dillərin və afrikadan gələnlərin də dillərinin təsiri olmuş və çoxlu sözlər işlədilir və bir sıra fonetik, leksik və qrammatik xüsusiyyətləri ilə fərqlənir.

XX əsrin 40-cı illərindən başlayaraq əhalinin artımı sürəltənmişdir. Əhalinin orta illik artım sürəti 20-ci illərdə 1,8 % təşkil etdiyi halda, 30-cu illərdə - 1,9 %, 40-cı illərdə artaraq 2,4 %, 50-ci illərdə isə - 2,8 % olaraq yüksək həddə çatdı. XX-əsrin 60-cı illərdən başlayaraq əhalinin artım tempi zəifləməyə başaldı.

Brazilya əhailin artım tempinə (1,7% ildə) görə Latın Amerikasında orta mövqe tutur.

Əhalinin say artımının intensivliyi ölümün sürətlə aşağı düşməsi ilə əlaqədardır.

Brazilyalıların orta həyat ömrü artmışdır, lakin hələ inkişaf etmiş ölkələrin göstəricilərinə çatmamışdır (kişilə 75 il, qadınlar 79 il). Hazırda Braziliyada kişilər 65 il, qadınlar üçün isə 69 ildir (keçən əsrin 50-ci illərində kişilər üçün 50 il, qadınlar üçün isə 55 il təşkil edirdi).

Braziliyanın əhalinin orta sıxlığı 1 km^2-ə 20 nəfərdir. Əhaliölkədə qeyri-bərabər yerləşmişdir. Şimalda Amazon ovalığında 1 km^2-ə bir nəfər düşür. Bəzi yerlərdə heç əhali yaşamır. Ən çox əhali Atlantik okeanı sahilində məskunlaşmışdır. Belə ki, ərazinin 7%-ni tutan sahil zonasında əhalinin 50%-dən çoxu yaşayır. Daxili hissələrdə əhali seyrəkdir. Ən sıx əhali cənub-şərqdədir. 1km2-ə 70-80 nəfər yaşayır.

Braziliyada urbanizasiya prosesisürətlə inkişaf edir. Əhalidə şəhərlilərin payı artaraq 1980-2005-ci illərdə 68%-dən 77%-ə çatmışdır. “Milyonçu” şəhərlərin sayı 15-ə çatmışdır. Iki nəhəng şəhər - aqlomerasiyaları – San-Paulu (20 mln. nəfərə yaxın) və Rio-de-Janeyro (14 mln) formalaşıb, digərlərinin də formalaşma prosesi gedir.

Braziliyada urbanizasiya spesifik cəhəti ondan ibarətdir ki, “milyonçu” – şəhərlərin ətraflarında, “gecə qondular” portuqal dlində “favellər” yaranmasıdır ki, bu da “yalançı urbanizasiya”ya gətirib çıxarır. 1960-cı ildən ölkənin paytaxtı Braziliya şəhəri olmuşdur.

Braziliyanın rəsmi statistikası məşğul olanları, işləyənləri və birinci dəfə iş axtaranları iqtisadi aktiv əhaliyə, əmək qabiliyyətlilərə isə 15 yaşından 64 yaşına qədərini (həm kişiləri, həm də qadınları) aid edir. Ölkə əhalisinin 37%-i iqtisadi aktivdir.

Braziliyanın kənd təsərrüfatında iqtisadi aktiv əhalinin 30%-i çalışır (1960-cı ildə 50% idi) sənayeda, tikintidə, nəqliyyatda və kommunal təsərrüfatında - 27%, o cümlədən emal sənayedə - 20% ticarətdə və xidmət sahələrində - 43%-dir.

Ölkədə muzdlu əməkdən istifadə olunur və onun göstəricisi artır. İqtisadi aktiv əhalinin 56%-i muzdlular təşkil edir. Braziliyada sənayedə, tikintidə və nəqliyyatda muzdlu fəhlələrin payı 77-78%-dir. Kənd təsərrüfatında da muzdlu

fəhlələrdən istifadə olunur, həmçinin ticarətdə, xidmət sahələrində, xüsusilə sosial xidmətlərdə muzdlu işçilərin payı artır.

Dövlət quruluşu. Braziliya federativ respublikadır, 28 müxtəlif ştatlanrın və federal (paytaxt) mahalın ittifaqı nəticəsində yaranmışdır. Konstitusiyaya görə (1988 il) hər ştatın öz konstitusiyası, hakimiyyəti, maddi və siyasi hüquqları var. Lakin federasiyadan çıxmaq hüququ yoxdur. Dövlət və hökumət başçısı, habelə silahlı qüvvələrin baş komandanı prezidentdir, o səsvermə yolu ilə 5 il müddətinə seçilir. Qanunverici hakimiyyət orqanı parlament - Milli Konqresdir. İcraedici hakimiyyəti prezident həyata keçirir.

Brazilyanın inkişaf tarixi

Braziliya ərazisi Neolit dövründən məskunlaşmışdır. XVI əsrin əvvəllərinədək Braziliyada müxtəlif hindi tayfaları yaşayırdı. İctimai münasibətlərdə qəbilə-tayfa təşkilatı forması mövcud idi; tayfaların əksəriyyəti köçəri, yalnız tupiquaranilər oturaq həyat tərzi keçirirdi.

1500-cü ildə portuqaliyalı dəniz səyyahı Pedru Kabral Braziliya sahillərinə çıxdı və bu yeri Portuqaliya torpağı elan etdi. Portuqallar Braziliyadan "pau-brazil" adlanan qiymətli qırmızı ağac tədarük edib apardılar (Braziliya sözü də bu ağacın adından götürülmüş və bütün ölkəyə verilmişdir). 1549-cu ildə isə Braziliya paytaxtı Salvador (Bliya) şəhəri olmaqla general-qubernatorluq təsis edildi. İşğal olunmuş torpaqlarda iri feodal torpaq mülkiyyətinin əsası qoyuldu. Şəkər plantasiyalarının genişləndirilməsi, xüsusilə də qızıl və almaz yataqlarının kəşfi ilə əlaqədar. XVII əsrin axırlarında Afrikadan qullar gətirilməsi artdı. Hindular və zəncilər ağır istismara qarşı inadla mübarizə aparırdılar.

XVII əsrin sonu - XVIII əsrin əvvəllərində Portuqaliya hakimiyyət orqanlarına qarşı Braziliyalı kolonistlərin ilk çıxışları oldu.

Qızıl və almaz hasilatı Braziliyanı Portuqaliyanın ən varlı müstəmləkəsinə çevirdi. Yeni şəhərlər meydana gəldi. 1763-cü ildə paytaxt Salvadordan Rio-de-Janeyroya köçürüldü. Portuqaliyadakı 1820-ci il burjua inqilabı Braziliyada azadlıq hərəkatının yeni yüksəlişinə imkan yaratdı. 1822-ci ildə sentyabrın 7-də (həmin gün Braziliyanın milli bayramıdır) Braziliya müstəqil imperiya elan olundu. 1824-cü ildə ilk konstitusiya qəbul olundu; Braziliya konstitusiyalı monarxiya elan edildi. 1825-ci ildə Portuqaliya Braziliyanın müstəqilliyini tanımağa məcbur oldu. Lakin az sonra Braziliya iqtisadi cəhətdən İngiltərədən asılı vəziyyətə düşdü.

1888-ci ildə Braziliyada qulların azad edilməsi haqqında qanun ("Qızıl qanun") verildi. Monarxiya əleyhinə hərəkat genişləndi; nəticədə 1889-cu ildə imperator hakimiyyəti devrildi. Braziliya fedarativ respublika elan olundu. 1891-ci il konstitusiyası ilə əyalətlər ştat adlandırıldı.

XX əsrin əvvəllərindən başlayaraq ABŞ inhisarları Braziliyaya soxuldu, 1910-cu ildə Braziliya Panamerikan ittifaqına daxil oldu.

1929-1933-cü illərin dünya iqtisadi böhranı Braziliya iqtisadiyyatına böyük ziyan vurdu. Kənd təsərrüfatı və yüngül sənaye tənəzzül etdi,

işsizlik artdı. Ölkənin iqtisadiyyatında xarici kapitalın (ABŞ, İngiltərə, Almaniya, İtaliya və b.) təsiri artdı.

50-ci illərdə ölkədə sənaye xeyli inkişaf etdi. Braziliya aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrildi. Lakin iqtisadiyyatın bir çox mühüm sahəsi yenə də xarici kapitalın (əsasən ABŞ-ın) əlində idi. 60-cı illərdə neft məhsulları ixracına dövlət nəzarəti qoyuldu, neft və neft emalı müəssisələri milliləşdirildi.

Braziliya 70-ci illərdə bir sıra ölkələrlə iqtisadi ticarət sazişi bağlamışdır. Braziliyaya dəvət olunmuş keçmiş sovet alimləri E.Bəkirov və Ə.Tağıyev Braziliyanın potensial neft ehtiyatlarının ölkənin ehtiyaclarını ödəyəcəyi fikrini təcrübədə sübuta yetirmişdilər. 1986-cı ildə Milli konqresə seçgilər keçirdi. 1988-ci ilin oktyabrında Braziliyada yeni konstitusiya qəbul edildi və bu konstitusiya ölkə tarixində ən demokratik sayılır.

J.Sarney hökumətinin iqtisadi siyasətinin baş elementləri - 60-cı illərin axırı 70-ci illərin əvvəlində iqtisadiyyatın yüksək artım tempini bərpa etməsi və sosial-iqtisadi manevrlər etməsi idi. 1964-cü ildən sonra ölkədə qəbul edilmiş "braziliya modeli" kapitalizmin sürətli inkişaf kursunu əlinə götürmüş, milli kapitalın təmərgüzləşməsi və xarici kapital üçün qapılarını açması kursu götürülmüşdür. Əvvəllər belə kurs müvəffəqiyyətlə həyata keçirilirdi: 70-ci illərdə Ümumi Daxili Məhsulun illik artımı 10-12%-ə çatırdı və dünya "braziliya möcüzəsi"ndən söhbət açırdı. 1980-ci illərdə Braziliya xarici borcuna görə inkişaf etməkdə olan ölkələr arasında 1-ci yeri tutdu.

Təsərrüfatının ümumi səciyyəsi

Son bir neçə onillikdə Braziliyanın iqtisadi inkişafında əhəmiyətli irəliləyiş olmuşdur. O, Latın Amerikasında böyük ölkə olub, Cənubi-Amerika subregionunun nüvəsidir. Ümumi Daxili Məhsulun həcminə görə (2005-ci il) xarici ölkələr arasında 7-ci yerə çıxmışdır, Latın Amerikasında isə 1-ci yerdədir.

Son illər Braziliya müasir sənaye istehsalının yaranmasında böyük müvəffəqiyyət əldə edib, aqrar ölkədən sənaye-aqrar ölkəsinə çevrilmişdir. Əsas inkişaf amilləri aşağıdakılardır: güclü və müxtəlif təbii resurs potensialın olması, çoxlu kənd təsərrüfatı və kənd təsərrüfatı üçün əlverişli torpaqların olması, geniş və dinamik ucuz fəhlə gücü bazarı, iqtisadiyyatın böyük və manevrəli dövlət sektorunun olmasıdır.

BMT-nin yeni təsnifatına görə Braziliya "yeni sənayeləşmiş ölkələr" qrupuna aid edilmişdir.

Ümumi Daxili Məhsulun həcminə görə (2005-ci ildə 860 mlrd dollar) Braziliya dünyanın "ön" iqtisadi inkişaf etmiş ölkələrinin tərkibindədir. Bu ölkə kompyuterlər bazarında dünyada 6-cıdır, silahların nəhəng istehsalçısı və ixracatçısıdır, onun süni peykləri artıq kosmosu fəth edib, mənimsəyir. Lakin zəiflik hələ qalmaqdadır, fəhlə gücünün çox hissəsi sənaye sahələrinə nisbətən kənd təsərrüfatında çalışır (20 mln və ya iqtisadi aktiv əhalinin 30%-i), əmək istehsalında sahələrarası təzadlar çox böyükdür və həyat səviyyəsində regionlararası fərqlər hələ mövcuddur.

Sənayesi. Braziliya təsərrüfatının qabaqcıl sahəsi sənayedir. Onun payı Ümumi Daxili Məhsulda 40% -dən çoxdur, bunun da 2/3-i emal sənayesinin payın düşür.

Faydalı qazıntıların müxtəlif və zəngin olmasına baxmayaraq ÜDM-nda dağ-mədən sənayesinin payı cəmi 1%-dir. Braziliyanın mineral resursları sistematik olaraq bu yaxınlarda öyrənilməyə başlanmışdır.

Braziliya dəmir filizinin nəhəng alıcıları AİB və Yaponiyadır. Amapa ştatında, həmçinin Para, Minas-Jeraye, Matu-Qrosu-du-sul ştatlarında marqans yataqları istismar olunur.

Son iki onillikdə Braziliya böyük boksit hasilatı və böyük aliminium istehsal edən ölkələr sırasındadır. Hər il 10 min t. boksit hasil edilir, onun 1/4-i Cənub-Şərqin köhnə yataqlarında (Posus-di-Kaldas və b.) daxili tələbatı ödəmək üçün çıxarılır, qalanı - yeni böyük yataqlarda Trombitas çayı yaxınlığında.

Braziliya qalay istehsalına görə dünyada 1-ci yerdədir. Daxili bazar üçün orta həcmdə mis, sink, qurğuşun və nikel filizləri hasil edir. Əlvan metal filizlərinin çıxarmasını ABŞ, Kanada, Yaponiya, Fransa, Böyük Britaniya, Niderland, İsveçrə monopoliyaları ilə əlaqədə olan şirkətlər həyata keçirir.

Braziliya - dünya bazarına və birinci növbədə ABŞ-strateji xammal: niobium, berillium, tantal, kristallik kvars ixrac edir. Radioaktiv mineralların hasilatı artır.

Son illər Braziliyada qızılın yeni yataqları aşkar edilmişdir, xüsusilə Amazoniyada, oraya 3 mindən artıq qızıl axtaranlar Kanadadan, ABŞ-dan, Cənubi Afrikadan axışıb gəlmişlər.

Energetika. Braziliyanın neftə olan tələbatının təqribən yarısı öz resurslarının hesabınadır. Əsas istismar olunan neft ehtiyatları hasilatını Cənub-Qərbdə - Rio-Se-Janeyro şelfində Rekkavu rayonunda və San-Fransisko çayının mənsəbində dövlət neft şirkəti "Petrobraz" aparır. Dövlət böyük müasir neft emalı zavodlarını Duke-di-Kaşias, (Rio-de-Jeneyro ştatı), Kubatan ş. (San-Paulu ştatı) və Belu-arzonti ş. (Minas-Jerays ştatı) tikdirmişdir. Digər şəhərlərdə daha 8 çox da böyük olmayan zavodlar işləyir. Braziliyada neft emalı zavodlarının ümumi gücü - 63 mln. tondur. Neft və neft məhsulları idxal dəyərinin1/4-ni təşkil edir.

Bütün quraşdırılmış elektrik stansiyalarının ümumi gücü 56 mln kVt-a çatmışdır, bunlardan 96%-i su elektrik stansiyalardır. Ölkədə 18 SES fəaliyyət göstərir, hərəsinin gücü 1 mln kVt-dan çoxdur, o cümlədən dünyada ən güclü nəhəng Braziliya -Paraqvay SES-ı İtaypu SES-dir (Parana çayında 12,6 mln kVt gücündə). Daha çox Parana və San-Fransisko çaylarının enerji potensialları istifadə olunmuşdur. Bu çaylarda və onların qollarında kaskad SES-lər tikilmişdir. Bu regionlarda elektrik enerjisinin istehsal rejimi quraq illərdə güclü tərəddüdə malikdir. Hazırda hidrotikintilər Amazon hövzəsinə tərəf aktiv hərəkət edir.

Braziliyanın emaledici sənayesinin strukturunda ağır sənaye üstündür və burada maşınqayırma sənayesi fərqlənir.

Qara metallurgiya tam öz xammalı ilə, yüksək keyfiyyətli dəmir filizi ilə təmin olunub, kokslaşan kömürün əhəmiyyətli hissəsi idxal olunur, hələ də ağac kömürü də istifadə olunur. Çuqun və polad istehsalına görə Braziliya dünyada

8-ci yerə çıxmışdır. Əlvan metallurgiyada ən çox aliminium istehsalı inkişaf etmişdir (regionda 1-ci yeri tutur), ABŞ və Kanada kapitalının nəzarəti altındadır. Aliminium müəssisələri Cənub-Şərqdə Trombitas və Paraqominas boksitləri və Tukurun SES-nin enerjisinin əsasında işləyir.

Məhsulun dəyərinə görə emaledici sənayesində birinci yerdə maşmqayırma sənayesi durur. Onun strukturunda nəqliyyat maşınqayırması qabaqcıl yer tutur, xüsusilə də avtomobilqayırma sənayesi regionda ən nəhəng sahədir. Avtomobil istehsalı xarici kapital tərəfindən həyata keçirilir. "Folksvaqen-de-Brazil" (AFR), "Ceneral-motors", "Ford-Vallis", "Kraysler-de-Brazil" (ABŞ), "Fiat" (İtaliya), "Mitsubişi" (Yaponiya) və b. - cəmi 21 şirkət Braziliyada minik, yükdaşıyan, avtobus, motosikl, moped istehsal edirlər.

Xarici şirkətlər həmçinin dəmir yolu nəqliyyatı üçün lokomotivlərin teplovozların, vaqonların istehsalında da ağalıq edir. Bu məhsulların istehsalı Manas-Jeraye və San-Paulu ştatlarında təmərgüzləşmişdir.

Braziliyi dünya ölkələri içərisində gəmilərin istehsalına görə qabaqcıl ölkələrdən biri olmuşdur.

Bütün böyük gəmi tərsanələri Quanebara buxtasındadır və əsasən Yapon kapitalı tərəfindən idarə olunur. Ölkə həm dəniz gəmiləri, həm də çay gəmiləri istehsal edir.

Ölkə təyyarə istehsalı ilə də ixtisaslaşmışdır: San-Joze-dus-Kampus şəhərində (san-Paulu ştatı) böyük aviasiya zavodu işləyir. Müəssisə yerli və beynəlxalq xətlər üçün sərnişin təyyarəsi istehsal edir və dünyanın çox ölkələrinə ixrac edir. Hərbi təyyarələr də istehsal edilir.

Braziliya metalkəsən dəzgah məhsulunun həcminə görə regionda 1-ci yeri tutur. Sahə məhsulunun 1/2-dan çoxunun tələbatı özünün istehsalının hesabınadır.

Braziliyada elektrotexnika sənayesi mühüm rol oynayır və sürətlə inkişaf edir. "Ceneral elektrik" (ABŞ) inhisarının müəssisələri Kompinas şəhəri (San-Paulu ştatı), "Simens" (AFR) inhisarının müəssisələri Rio-de-Janeyro şəhərində (Rio-de-Janeyro ştatı) yerləşir. Elektronikada və informatikada böyük müvəffəqiyyət qazanıb, bu sahələrdə hələ milli kapitalın hesabına məhsulun 1/2-i istehsal olunur (o cümlədən "Sid" şirkətin əlində bazarın 35%-idir.). Braziliya dünya bazarına mikro-sxemlər, yarımkeçiricilər və b. komponentləri çıxarır. Elektronika sənayesinin nəhəng mərkəzi - Kompinas şəhəridir (San-Paulu ştatı). Burada bu sənaye sahəsinin 40-a yaxın müəssisələri fəaliyyət göstərir. Braziliyanın süni peykləri kosmik fəzanı fəth edir. Atom sənayesi (dinc məqsədlərlə) inkişaf edir.

Ölkə hərbi texnika və silahla, birinci növbədə hərbi təyyarə və hərbi gəmilərin, istehsalına və onların ixracına görə qabaqcıl ölkələr sırasındadır. Maşınqayırmanın başqa sahələri də (dağ-mədən sənayesi, metallurgiya, kimya, yüngül, yeyinti, tikinti materialları sənaye sahələri üçün avadanlıqlar istehsalı) inkişaf edir. onun istehsal mərkəzləri San-Paulu, Rio-de-Janeyro, Belu-Orizonti, Volta-Redanda, Resifi, Fortaleza, Salvador, Portu-Aleqri, Xuritiba, Sorokaba və başqa şəhərlərdir.

Ölkədə mədən kimyası, əsas kimya və üzvi sintez kimyası inkişaf edir. Rio-Qrandi-du-Sul ştatında güclü neft kimya kompleksləri fəaliyyət göstərir. Tikinti

materialları sənayesi geniş inkişaf edir4 birinci növbədə sement sənayesi (ildə 30 mln t.), məhsulun yarısı Minas-Jerays və San-Paulu ştatlarında istehsal edilir.

Sellüloz-kağız sənayesi fəal inkişaf edir. Bu sənaye sahəsi ölkənin cənub-şərqində evkalipt bitkisinin, həmçinin amozon meşələrinin hesabına inkişaf edir (ildə 5 mln t. Istehsal olunan kağızın üçdə biri ixrac olunur).

Yeyinti və yüngül sənaye sahələrində milli və şəxsi kapital ağalıq edir. braziliya konsenntratlaşmış və dondurulmuş portağa şirəsinin istehsalına və ixracına görə dünyada birinci yeri və emal olunmuş quş ətinin ixracına görə ikinci yeri tutur.

Pambıq parça istehsalı toxuculuq sənaye məhsulunun üçdə ikisini verir və onun çox hissəsi ixrac olunur. Son zamanlar süni və sintetik liflərdən istehsal olunmuş parça məhsulları artırılır. Toxuculuq sənaye məhsulun yarıya qədəri san-Paulu, 25%-i isə Rio-de-Janeyra şəhərlərində istehsal olunur.

Ölkədə gön-dəri, dəri məmulatı, dəri ayaqqabı istehsalı da yaxşı inkişaf etmişdir. Bu sahələrin inkşafı üçün Braziliyada yerli xammal vardır. Məhsulların əhəmiyyətli hissəi ixrac olunur.

Kənd təsərrüfatında iqitsadi fəal əhalinin 30%-i (20 mln nəfər) çalışır. Onun payı ÜDM-da 10%-dir, ixrac gəlirinin 40%-ni verir.

Kənd təsərrüfatının qabaqcıl sahəsi - əkinçilikdir. Əkinçilik ancaq ixracat istiqaməti ilə xarakterizə olunur. Beş əsas ixracat bitkiləri - qəhvə, kakao – paxlası, pambıq, şəkər qamışı və soya-paxlası, əkim sahəsinin 30%-dən çoxunu tutur və bitkiçilik məhsulu dəyərin 35%-ni verir. Baxmayaraq ki, dünya qəhvə istehsalında Braziliyanın payı azalmışdır (30%-dən 20%-dək). O , yenədə istehsalına görə 1-ci yeri tutur. Qəhvə ölkənin vacib plantasiya bitkisi kimi qalmaqdadır. Kakao və soya istehsalına görə Braziliya dünyada ikinci yeri tutur. Pambıqçılıq və şəkər qamışı – barziliyanın köhnə plantasiya bitkiləridir. Ölkə bananın və portağalın yığımına görə dünyada birincidir.

Əsas ərzaq bitkiləri – qarğıdalı, qəhvəyi lobya və maniokdur. Dənli bitkilərdən çəltik, buğda, arpa becərilir. Buğda ölkəyə çatmır. Istifadə olunan buğdanın 60%-i idxal olunur,

Heyvandalıq əsasən ətlik istiqamətində ixtisaslaşmışdır. Kənd təsərrüfatı məhsulun 2⁄5-ə qədərini verir (dəyərə görə).

Meşə təsərrüfatı. Braziliya ərazisinin 60%-dən çoxu meşə ilə örtülüdür, ölkə qiymətli ağac növlərinin ehtiyatına görə dünyada 10ci yeri tutur. Lakin nəhəng sərvətlər zəif istifadə olunur. Meşə məhsulunun əhəmiyyətli hissəsi ixrac olunur.

Nəqliyyatı, iqtisadi əlaqələri, daxili fərqləri va şəhərləri

Braziliyada son onillikdə böyük səy göstərilməsinə baxmayaraq ərazinin nəqliyyat mənimsənilməsi yalnız üç sahil rayonlarda nisbətən yüksəkdir. Dəmir yollar, həmişəki kimi, böhran keçirir, hətta bəzi yollar bağlanılır. Lakin ən gərgin sahələrdə (məsələn, Belu-Orizonti-Vitoriya xətti) onlar yenidən qurulur. Amazoniyada və Mərkəzi-Qərbdə yeni xətlər çəkilir. Son 15 ildə - 3,2 min km dəmir yolları çəkilmişdir.

Yüklərin 70%-i və sərnişinlərin 90%-i avtomobil nəqliyyatı ilə daşınmışdır (2005). Avtomobil yollarının, o cümlədən bərk örtüklü yolların uzunluğu - 130 min km-dir. Çox böyük çətinliklərlə çəkilmiş Transamazon yolu bu böyük çayın dairəvi marşurutu ilə cənub və şimal hissələrini əhatə etmişdir (5 min km uzunluğunda avtomobil yolu çəkilmişdir).

Ölkədə gəmiçiliyə yararlı çayların ümumi uzunluğu - 31 min km-dən çoxdur. Ən rahat su yolları (Amazon və onun qolları, San-Fransisko, Parana, Paraqvay) ölkənin əsas təsərrüfat mərkəzlərindən uzaqlarda yerləşirlər. Atlantik sahili boyunca kabataj daşınma böyük əhəmiyyət kəsb edir.

Boru kəməri nəqliyyatı sürətlə inkişaf edir. Həm özündə çıxarılan nefti, həm də idxal nefti neftemalı müəssisələrə kəmərlər ilə daşınır. Təbii qaz da həmçinin, kimya kombinatlarına və şəhərləri qaz ilə təchiz etmək məqsədilə kəmərlərlə daşınır.

Xarici əlaqələr dəniz və hava nəqliyyatı ilə həyata keçirilir. Dəniz donanmasının ümumi tonnajı 10 mln br.req. tondur (2005-ci il). Vacib portlar: Santus, Riu-Qrandi, Rio-de-Janeyro, Vitoriya, Resifri, San-Luis, Manaus. Ümumiyyətlə 36 dərin sulu portlar vardır. Ölkədə 1,5 min aeroport vardır, o cümlədən 21-i beynəlxalq əhəmiyyətlidir.

Xarici ticarətin strukturunda hazır məmulatların və qeyri ənənəvi xammal və ərzaq mallarının ixracatının ümumi çəkisində artım prosesi müşahidə olunur. Belə ki, 1975-2005-ci illər ərzində ixracatda emal sənaye məhsulunun payı 20%-dən 60%-ə qədər artmışdır.

Ticarət dövriyyəsi əsasən ABŞ, AİB ölkələri və Yaponiyadır. Kanada, Afrika və Asiya ölkələrilə də ticarət edir.

MDB ölkələri ilə də Braziliya ticarət aparır. MDB ölkələri Braziliyaya SES-lər üçün turbinlər və generatorlar, neft və neft məhsulları, metalkəsən dəzgahlar, alətlər satır. Braziliyadan isə kakao, şəkər, soya, qəhvə, polad prokat, ayaqqabı, bitki yağı və b. mallar alır.

Daxili fərqlər. Braziliyada rəsmi beş iqtisadi rayon ayrılır. Bunlar: Cənub-Şərq, Cənub, Şimali-Şərq, Şimal və Mərkəzi-Qərbdir.

Ölkədə iqtisadi cəhətdən ən güclü və inkişaf etmiş rayon Cənub-Şərqdir. Buraya 4 ştat: Mitas-Jeras, Espiritu-santu, Rio-de-Janeyro və San-Paulu daxildir. Onun nüvəsi San-Paulu ştatıdır - ölkə sənaye məhsulunun 65%-ni, bütün rayon isə - 82%-ni istehsal edir. O, əsasən San-Paulu aqlomerasiyasında təmərgüzləşmişdir (bütün milli sənaye istehsalının 40%-i). San-Paulu aqlomerasiyası nəinki Braziliyada, hətta bütün Latın Amerikasında - nəhəng sənaye mərkəzidir, həmçinin Rio-de-Janeyro və Belu-Orizontida aqlomerasiyaları da fərqlənirlər. Emaledici sənaye bu rayonun zəngin mineral xammal resurslarına əsaslanaraq inkişaf edir (Minas-Jeraye ştat üçün dağ-mədən sənayenin məhsul dəyərinin yarıdan çoxunu verir). Kənd təsərrüfatı ixracat istiqamətində inkişaf edir. Əkin sahəsinin 70%-dən çoxu əmtəə bitkilərin altındadır, ən başlıcası - qəhvə, şəkər qamışı, portağal və pambıqdır.

San-Paulu ştatının sahəsi - 248 min km^2. Əhalisi - 30 mln nəfərdir (2005-ci il). İnzibati mərkəzi San-Paulu şəhəridir, Latın Amerikasının və dünyanın ən iri

şəhərlərindəndir. Onun əhalisi 20 mln nəfərdir (San Paulu aqlomerasiyası). Şəhər maşınqayırma, kimya metallurgiya, toxuculuq, sellüloz-kağız, sement, kimya, əczaçılıq, yeyinti sənayesi vardır.

Şəhərin əsasını 1554-cü ildə yəhudilər qoymuşlar. XI-XVIII əsrlərdə qəhvə plantasiyalarının mərkəzi idi. 1822-ci ildə San Pauluda Braziliyanın müstəqilliyi elan olunmuşdur. XIX əsrin əvvəllərində San-Pauluda Braziliyada ilk kapitalist manufakturaları meydana gəldi və şəhərin əhalisi sürətlə artmağa başladı. XX əsrin əvvəllərindən iri sənaye və fəhlə hərəkatı mərkəzinə çevrilmişdir. Şəhərin mərkəzində hündür binalar, göydələnlər, mehmanxanalar ticarət mərkəzləri, hündür yaşayış evləri və mülklər yerləşir.

İkinci böyük aqlomerasiya, Rio-de-Janeyro ştatının mərkəzi sayılan Rio-de-Janeyro aqlomerasiyasıdır. Portuqal dilində yanvar çayı deməkdir. Ölkənin mühüm ticarət-maliyyə, sənaye və mədəniyyət mərkəzidir. Atlantik okeanı Quanabara buxtası sahilində port (Cənubi Amerikada ən böyük portlardan biri) və hərbi dəniz bazası. Dəmiryol və avtomobil yolları qovşağıdır.

1502-ci ilin yanvarında portuqaliyalı dəniz səyyahları Quanabara buxtasının girəcəyini böyük bir çayın mənsəbi hesab edərək bu yeri Rio-de-Janeyro adlandırdılar. 1567-ci ildən portuqaliyalılar burada qəti möhkəmləndilər. 1889-1960-ci illərdə Braziliya Birləşmiş Ştatları respublikasının paytaxtı olmuşdu.

Şəhərdə gəmiqayırma, metallurgiya, maşmqayırma, kimya, yüngül, yeyinti, əsasən unüyütmə, dəri-ayaqqabı, ağacemalı fabrikləri var. Turizm inkişaf etmişdir. Şəhərdə metropoliten işləyir. Beynəlxalq aeroportu vardır.

Rio-de-Janeyroda 6 universitet, Braziliya Ədəbiyyat Akademiyası, Atom enerjisi üzrə milli komitə, rəsədxana, elmi-tədqiqat institutları, Milli tarix muzeyi, müasir incəsənət muzeyi və s. teatrlar fəaliyyət göstərir.

Cənub iqtisadi rayon-aqrar rayonudur. Buraya avropalıların xüsusilə italyanların, almanların, slavyanların immiqrasiyası olmuşdur. Rayonun iqtisadiyyatında kənd təsərrüfatı üstündür (çəltik, buğda, soya becərilir, tərəvəzçilik, üzümçülük şərab istehsalı və s.). Heyvandarlıqda, xüsusilə donuzçuluq inkişaf edir. Soyanın, ətin, dərinin və gönün, yunun və şərabın çox hissəsi ixrac olunur. Emaledici sənaye kənd təsərrüfatı məhsullarının emalı ilə sıx bağlıdır.

imal-Şərq - köhnə plantasiya təsərrüfatı rayonudur, burada kapitalizmdən qabaqkı istismar formaları mövcuddur. Rayon əhailisinin 70%-dən çoxu Afrika qullarının törəmələridir. Burada böyük latifundiyalarla yanaşı kiçik torpaq sahibləri müvcuddur. Ucuz fəhlə qüvvəsinin əsas axımı buradan ölkənin başqa rayonlarına yönəldilir. Rütubətli sahil ovalıqlarda şəkər qamışı becərilir (milli yığımın 2/5-si). Bauya ştatının cənubunda - kakao-paxlası (ölkədə istehsalın 85%-i). Braziliya yaylasının nisbətən quraq yamaclarında - pambıq becərilir. Sənayenin əsas_sahələri dağ-mədən, toxuculuq, yeyinti sahələridir; XX əsrin 70-ci illərində rayon üçün yeni sənaye müəssisələri tikilib istifadəyə verilmişdir (neft emalı, metallurgiya, kimya, maşınqayırma sənaye sahələr). Əsas mərkəzləri - Salvador, Reseri, Fartalzea, San-Luis şəhərləridir.

Salvador - Banya ştatının inzibati mərkəzidir. Atantik okeanı sahilində portdur. Dəmir yol stansiyası, beynəlxalq aeroportu vardır. Şimal-Şərq rayonunun mühürn iqtisadi mərkəzidir. Kimya, neft-kimya, metallurgiya, sement, tütün, yeyinti, pambıq parça sənayesi və s. vardır.

Mərkəzi-Qərb - müasir fəal mənimsəmə rayonudur. O, yeni paytaxtın tikilməsi Braziliya şəhəri ilə stimullaşmışdır. Həmçinin Parana çayının sağ sahilindən, San-Paulu ştatından qəhvə plantasiyalarının çayın sol sahilinə keçməsidir. Iqtisadiyyatın əsası ekstensiv ətlik heyvandarlıqdır. Emal sənayesi hələ azdır. Vacib mərkəzlər – Braziliyanın paytaxtı - Braziliya şəhəridir və ona xidmət edən Qoyaniya şəhəridir.

Braziliya şəhəri dəmir yol stansiyası, avtomobil yolları qovşağıdır, beynəlxalq əhəmiyyətli aeroportu vardır.

Braziliya şəhəri ətraf ərazisi ilə birlikdə müstəqil federal mahaldır. Mahalın idarə edilməsi, vergi və maliyyə sistemi, mühüm vəzifələrə şəxslərin təyin edilmə qaydası konstitusiyaya görə Braziliya senatmın səlahiyyətinə aiddir. Prefektura bir neçə katiblikdən (departamentdən) ibarətdir. Bundan başqa, əhalinin seçdiyi kollegial orqan - Bələdiyyə Şurası da var.

Paytaxtın inşasına 1957-ci ildən başlanmışdır. Paytaxt Braziliyaya rəsmən 1960-cı il aprelin 21-də köçürülmüşdür.

Braziliya şəhərinin görünüşü təyyarə formasını xatırladır; "Füzelyaj" hissəsində inzibati və ictimai binalar, "qanadlarında" isə yaşayış məhəllələri yerləşir. Şəhərdə heç bir sənaye sahələri yoxdur.

Şimal (Amazoniya) - ərazisinə görə ən böyükdür və az mənimsənilmiş rayondur. Rayonda balıqçılıq və ovçuluq inkişaf edir. Rayon böyük meşə, hidroenerji mineral resurslarla zəngindir. Amazoniyanın əsas mərkəzləri - Belen, Manaus, Partu, Velyo şəhərləridir.

Manaus şəhəri Amazon ştatının inzibati mərkəzidir. Rnu-Neqru çayı sahilində dəniz gəmiləri yan ala bilən portdur. aeroportu vardır. Mühüm ticarət mərkəzdir. Ağac emalı, sellüloz-kağız sənayesi, kauçuk emalı, rezin məmulatları, cut fabriki, neftemalı zavodu, kimya, maşınqayırma, yüngül və yeyinti sənaye müəssisələri fəaliyyət göstərir. Botanika bağı, Amazon ovalığının tədqiqi institutu vardır.

Braziliya yaylasının şimal qurtaracağı - hündür'olmayan bir neçə silsilələrdən (300-400 m hündürlüyündə) dəniz sahilində yerləşərək rütubətli tropik meşələrlə örtülüdür. Bura Araqulyi-Tokantins və Şinqu çaylararası rayondur. 1967-ci ildə vertalyotun məcburi oturması nəticəsində təsadüfən zəngin dəmir-filizi - hematit yatağı aşkar edilmişdir. Bir neçə il daimi tədqiqat işləri nəticəsində bu rayonda metal filizlərinin fantastik, nəhəng kompleks yataqları aşkar edilmişdir. 1985-ci ildə San-Lune portuna qədər dəmir yolu çəkilmişdir (890 km) və bu terminaldan dəmir fılizi ixrac etməyə başlanmışdır (kəşf olunmuş ehtiyatı 18 mlrd ton qiymətləndirilir, filizin tərkibində dəmir 66%-dən 87 qədərdir). San-Luks rayonunda Yapon, Amerikan və Alman kapitalının iştirakı ilə qara metallurgiya kompleksi yaranır.

QAYANA

Sahəsi – 215 min km^2
Əhalisi – 0,8 mln. nəfər (2005-ci il)
Paytaxtı – Corctaun

Ərazisinin formalaşması, təbii şəraiti, təbii ehtiyatlarının iqtisadi cəhətdən qiymətləndirilməsi

Böyük Britaniyanın keçmiş müstəmləkəsi olan Qayananın sahəsi 215 min km^2 olub, şimaldan Atlantik okeanı, qərbdə Venesuela və Braziliya, şərqdə isə Surinamla həmsərhəddir.

XVI əsrin əvvəllərindən ispan, sonradan isə ingilis müstəmləkəçilərinin diqqəti Cənubi Amerikanın şimal hissəsinin geniş torpaqlarına yönəlmişdi. Bu ərazilərə Orinoko çayının hövzəsi və cənubi-şərq istiqamətində Atlantik okeanının sahil zolağı aid idi.

Hələ 1499-cu ildə ispan konkistadorları, sonradan isə ispan krallığının digər ekspedisiyaları bu ərazilərə ayaq açmağa başlamışdı. İstilaçıların ruhlanmasında müəyyən səbəblər hökm sürürdü. Belə ki, o dövrdə belə bir rəvayət yayılmışdı ki, guya bu ərazilərdə qızılla zəngin El-Dorado (qızıllar ölkəsi) ölkəsi vardır. Buna görə də bu ərazilərin tədqiq olunmasına maraq olduqca güclü idi, lakin tədqiqatların heç biri uğurla nəticələnmirdi. Belə tədqiqatlardan da biri dahi Şekspirin sələfi Uolter Reli idi. O, ingilis donanmasının kapitanı, şair, tarixçi, filosof və pirat idi. 1595-ci ildə Qvianaya ekspedisiya səfərindən sonra o, İngiltərəyə qayıdaraq "Geniş varlı və gözəl Qviana imperiyasının kəşfi" adlı kitab yazır. Bu kitab elə əslində ingilis müstəmləkəçiləri üçün böyük bir kəşf oldu. Məhz elə bu vaxtdan, yəni XVI əsrin sonundan etibarən Britaniya müstəmləkə imperiyası yaranmağa başladı. İngiltərə öz rəqibləri ilə, xüsusilə də İspaniya ilə ciddi mübarizəyə başlayır.

Həmin dövrdə Fransa fransız Qvianası adlanan ərazidə mövqelərini möhkəmləndirdi.

Qayana Qviana yaylasının şərq hissəsində yerləsir. Mərkəzi Qayanının qərb hissəsi dağlıqdır, dağ silsilələri ilə parçalanmışdır və orta hündürlük 2000 m-ə çatır. Dağ rayonları Rupununi düzənlik savannası ilə iki hissəyə bölünür. Atlantik okeanı boyu bataqlıqlaşmış ovalıq uzanır ki, şərqdə onun eni 100 km-ə çatır. Qabarma zamanı manqr bitki örtüyü su altında qalır. Yer qabığının tərəddüdü nəticəsində sahil zonasında quru yavaş-yavaş enir, lakin onun enmə sürəti qum örtüyünün yaranmasından sürətli gedir. Buna görə də sahil zolağında əkin sahələrini və yaşayış məntəqələrini qorumaq üçün müxtəlif tikililərdən, su yayındırıcı kanal çəkilişindən istifadə edirlər. Qayananın paytaxtını okeandan qorumaq üçün torpaq bənd yaradılmışdır.

Sahil zonasında əhalinin və istifadə olunan torpağın çox hissəsi cəmləşmişdir. Burada şəkər qamışı, çəltik və digər kənd təsərrüfatı bitkisi əkilir. Cənub hissəsi təpəli, qumlu düzənlikdir və ümumi ərazini dörddə birini təşkil edir.

Burada ölkənin əsas mineral ehtiyatı olan boksit toplanmışdır. Qviana yaylasının qərb hissəsi qızıl, almaz və digər metal filizləri ilə zəngindir.

Qayananın iqlimi rütubətli isti və subekvatorialdır. Sahildə orta aylıq temperatur 26-28 °C-dir. Sahil zonasında yağış mövsümü aprel ayının ortalarından avqustun ortalarına və noyabrın ortalarından yanvarın axırlarınadək davam edir. Yağıntıların orta illik miqdarı 1400mm-dir.

Yerli hindu dilində Qayana "çoxlu sular ölkəsi" deməkdir. Bu ad həqiqətə tamamilə uyğundur. Ölkədə çay, göl, şəlalə olduqca çoxdur. Ən hündür şəlaləsi olan Kayeçur Niaqaradan 5 dəfə hündürdür.

Çayların əksəriyyəti öz mənbəyini ölkənin qərbindəki dağlardan götürərək Atlantik okeanına tökülür. Berbis, Essekibo, Demerara və Koranteyn çaylarının böyük təsərrüfat əhəmiyyətləri vardır. Gəmiçilik üçün olduqca əlverişlidir, onlara meşə materialları axıdılır.

Ölkə ərazisinin təxminən 95%-ə qədəri tropik meşələrlə örtülüdür. Meşədəki ağacların əksəriyyətinin hündürlüyü 50m-ə qədərdir. Ölkənin meşə massivləri qiymətli ağac növləri ilə zəngindir. Mindən çox ağac növlərinin əksəriyyətinin oduncağı rəngli olduğundan mebel sənayesində geniş istifadə edilir. Argentina və Braziliyada "dəmir ağac" adlanan nektandra olduqca qiymətlidir. Mütəxəssislərin fikrincə tropik meşələrin əhatə etdiyi böyük ərazilərin altında olduqca zəngin təbii resurslar vardır. Çox da dərin olmayan, gətirilmə süxurların az qalınlığa malik olduğu, bəzən isə səthə çıxdığı boksit ehtiyatlar olduqca çoxdur və dünya boksit istehsalının təqribən 15-20%-i onun payına düşür. Burada boksitdən başqa qızıl, manqan, almaz, neft və qaz ehtiyatları da aşkar edilmişdir.

Əkinçiliyin inkişafı olduqca çətin şəraitdə getmişdir, baxmayaraq ki, buradakı torapaqlar çüründü və mineral duzlarla olduqca zəngindir. İş orasındadır ki, yer qabığının tərəddüdü nəticəsində quru Atlantik okeanının altına doğru enir. Əkin sahələrinin okeanın sularından qorunması üçün çoxlu qoruyucu bəndlər tikmək lazım gəlir. Yüksək temperatur şəraitində yüksək rütubətlilik parnik atmosferi yaradır ki, bu bitkilərin sürətli inkişafına gözəl şərait yaradır. Lakin çoxlu miqdarda yağan yağışlar torpağı bir növ su ilə hopmuş məsaməli hala salır. İriqasiya tikintisinə çəkilən xərclər kənd təsərrüfatı məhsullarının qiymətini qaldırır.

Əhalisinin formalaşması, əmək ehtiyatları, məskunlaşma formaları və iriyaşayış məntəqələri

Qayana əhalisinin təqribən 90%-i eni 16-32 km, uzunluğu 432 km olan Atlantik okeanı sahili boyu düzənlikdə cəmlənmişdir. Bu ensiz düzənlik sahil zolağında əhalinin sıxlığı hər 1 km^2-də 70-80 nəfərdir, daxili rayonlarda isə sıxlıq 5 nəfərə qədər təşkil edir. Yerli əhali olan hindular əsasən ölkənin daxili rayonlarında məskunlaşmışlar. Hündür meşəliklərdə yaşayan hindu tayfaları digər hindulardan onunla fərqlənir ki, onların əksəriyyəti ingilis, ispan illərində danışır, bir çoxları avropasayağı geyinir, kişiləri adətən ağac kəsmə işlərində çalışmağı üstün tuturlar.

İnzibati cəhətdən Qayana üç əyalətə - Essekibo, Demerara və Berbisə bölünür. Paytaxt şəhəri olan Corctaun Demerera çayı üzərində yerləşən iri limandır. Ətraf məntəqələrlə birlikdə əhalisi 200 min nəfərdən çoxdur.

Müasir Corctaun özünün əsrarəngiz gözəlliyi, qonaqpərvərliyi, çoxlu muzeyi, Botanika bağı, qədim sahil zolağı, son zamanlar isə müasir dəbdə tikilmiş yaraşıqlı və çoxmərtəbəli binaları ilə seçilir. İnzibati və mədəni mərkəz olmaqla yanaşı o, həm də yüngül və yeyinti sənaye sahələrinin, təmir, tikinti, anbar və digər xidmət sahələrinin də yeriəşdiyi iri sənaye şəhəridir. Dəniz və hava limanlan vasitəsilə dünyanın əksər jrayonları ilə əlaqə saxlayır.

Qayananın çox vaxt "altı xalqın ölkəsi" də adlandırırlar. Ona bu adı öz əhalisinin malik olduqları əsas tayfalara görə verirlər. Qayana əhalisi etnik cəhətdən 54% hindu, 36% zənci, 10% isə avropa, asiya və digər ərazilərdən gəlmə mənşəlidir.

Müstəmləkə təsərrüfatının formalaşmasının gedişi Qayana əhalisinin tərkibində öz əksini tapır. Yerli əhali olan hindu aborigenləri müstəmləkəçilərin ilk ovu olmuşlar. Lakin onlara hindulan öz plantasiyalarında işlətməyə məcbur edə bilmək müyəssər olmamışdır.

Qayananın ilkin mənimsənilməsi dövründə müstəmləkəçilər zəngin qızıl ehtiyatları aşkar etməsələr də, varlanmaları üçün şəkər qamışı plantasiyalarını genişləndirmək perspektivini başa düşdülər. Onların qarşısında duran əsas problem plantasiyaların ucuz işçi qüvvəsi ilə təmin edilməsi idi. Bu məqsədlə XVII əsrin ikinci yarısından etibarən bura Afrikadan zəncilərin gətirilməsi başlandı.

Qayanada zənci qulların ağır, bəzən qanlı həyat tərzi dəfələrlə etiraz və nümayişlərlə müşayət edilmişdir.

1883-cü ildə ingilis parlamenti "ingilis düşərgələrində quldarlığın ləğvi haqqında aktı" qəbul etdikdən bir il sonra o qüvvəyə mindi. Həmin ildə 69,5 min zənci-qul azadlıq əldə etdi. Quldarlığın ləğvi ilə əlaqədar zəncilər olduqca əzab çəkdikləri və nifrət etdikləri plantasiyaları tərk edərək şəhərlərə və iri yaşayış məntəqələrinə köçməyə başladılar. Şəkər qamışı plantasiyalarında yenidən boşluq yaranma qorxusu əmələ gəldi. Qayanada iki iri plantasiyanın sahibkarı Con Qladsonun təklifi ilə işçi qüvvəsinin boş qaldığı yeri tutmaq üçün Hindistandan müqavilə yolu ilə hindilərin gətirilməsi mərhələsi 1838-ci ildə baş tutdu. Hindistanın az torpaqlı və torpaqsız kəndlilərini müqaviləyə cəlb etmək ingilislər üçün o qədər də çətin deyildi. Çünki onların belə bir təcrübəsi artıq var idi. Hindistandan Mavrika adasının plantasiyalarına belə bir cəlbetmələr olmuşdu.

Artıq 1917-ci ilin əvvəllərinədək Hindistandan 240 min kəndli gətirilmişdi. Hindli immiqrasiyası nəticəsində Qayana əhalisi etnik cəhətdən daha bir iri milli qrupla zənginləşdirildi və əsasən də kənd rayonlarında yerləşdirildi. Şəkər və çəltik plantasiyaları fəhlələrinin əksəriyyəti hindi mənşəli qvianalılardır.

Hindli kəndlilərin şəkər qamışı plantasiyalarından qaçışı artıq onların gəlmələrinin birinci ildönümündən sonra başladı. Artıq 1949-cu ildə 75,6 min nəfər Qayananı tərk edərək vətənə qayıtmışdı.

1880-ci ildən başlayaraq ingilislər qeyri-məhsuldar torpaq sahələrini az-az miqdarda hindli ailələrinə satmaqla onların ailəsini torpağa bağlamaq siyasətini həyata keçirməyə başladılar. Beləliklə, Qayanada afrikalı və hind ailələrinin alın təri və qanı bahasına ilk təsərrüfatları yaranmağa başladı.

1853-cü ildə müstəmləkə hökuməti Qayana plantasiyalarında işləmək üçün çin kəndlisini güclə gətirməyə başladılar. Çinlilərin gətirilməsində dramatik epizodlar olduqca çoxdur. Cənubi Amerika sahillərinə çatanadək immiqrantların 1/3-i yolda həlak olurdu. Bir çox çinli kəndlilər əmək şəraitinin ağırlığından, dözülməz istismardan imtina əlaməti kimi intihar edirdilər.

Beləliklə, Qayana xalqının formalaşma prosesi olduqca mürəkkəb və özünəməxsus idi. Qayanada bir millətin digərinə inamsızlıq hələ də qalmaqdadır. Qayana müstəqillik əldə etdikdən sonra da milli münasibətlərin həllinə amerika və ingilis mühafizəkarlar həmçinin də kilsə daim mane olur.

Qayana əhalisinin əzgin formalaşma prosesi altı milli qrupun əhalisinin ixtisaslaşmasının əsas istiqamətlərini müəyyənləşdirmişdir. Onlar arasında dominatlıq edən və sosial pillənin yuxarı hissəsində ağ elita olan ingilislər yerləşir. Onlardan aşağı pillədə portuqal immiqrantları yerləşir, ticarət, kiçik sahibkarlıqla məşğul olur, ya da xarici şirkətlərə xidmət edirlər. Çin immiqrantlarının törəmələri əsasən xidmət sahələrində və ticarətdə çalışırlar. Afrika mənşəli insanlar ixtisası olmayan fəhlə kütləsi kimi limanlarda, meşə tədarükü müəssisələrində, zavod, şaxta, daş karxanalarında və s. çalışırlar. Onlardan az bir qismi bəzi dövlət müəssisələrinin inzibati aparatında kiçik məmur sifətində çalışır. Hindli əhahsinin 85-90%-i kənd təsərrüfatı fəhləsi kimi şəkər plantasiyalarında və kiçik çəltik fermerləri kimi fəaliyyət göstərirlər. Müəyyən vaxt keçdikdən sonra hindli əhalisi içərisində sosial təbəqələşmənin izləri görünməkdədir. Daha çox çalışqanlanrı və bacanqlıları sahibkar, mağaza sazhibləri çəltik emal edən kiçik müəssisəçilərə çevrilmişlər. Müasir dövrdə hindli mənşəli sahibkarlar avropalıların əsas ticarət rəqiblərinə çevrilmişlər.

Təsərrüfatının əsas sahələri və inkişaf perspektivləri

Təbii resurslannın həcminə və müxtəlifliyinə baxmayaraq Qayana aqrar ölkəsi olaraq qalmaqdadır. Aqrar ölkəsi olmaqla yanaşı, müasir şəraitdə də xarici bazara istiqamətlənmişdir. ölkədə iqtisadiyyatın əsasını təşkil edən kənd təsərrüfatı və dağ-mədən sənayesi ümumi milli gəlirin 70%-ini verir. Kəşf olunmuş ehtiyatı 1,2 mln ton olan boksit, qızıl, manqan, dəmir, almaz resursları kifayət qədər öz emalını tapmamışdır. Emaledici sənayesi zəif inkişaf edir, əsasən də kənd təsərrüfatı məhsullarının emalı üzrə ixtisaslaşır.

a) Kənd təsərrüfatı və aqrar münasibətlər.

Qayana regionda nisbətən geridə qalmış aqrar ölkəsi olmaqla şəkər qamışı və çəltik əkini üzrə ixtisaslaşmışdır. Bunlardan əlavə ölkədə qəhvə, kakao, banan, sitrus bitkiləri, tütün də becərilir. Heyvandarlıq daxili bazarı ət və süd məhsulları ilə təmin edir. Son vaxtlar Qayanada balıqçılıq

müəyyən dərəcədə inkişaf etmişdir. İstər okean, istərsə də çay balıqçılığında şəxsi və kooperativ balıqçı müəssisələri fəallıq göstərir.

Plantasiyalarda şəkər qamışının istehsalı texniki cəhətdən yüksək səviyyədə qurulsa da, bütövlükdə ölkənin kənd təsərrüfatı monokultur olaraq geridə qalmış hesab edilir. Praktiki cəhətdən ölkənin şəkər qamışı istehsalı ingilis monopoliya kapitalının nəzarətindədir.

Qayanada şəkər qamışı istehsalı iqlim şəraitinə, landşaft xüsusiyyətinə görə olduqca əməktutumludur. Artıq suların ərazidən çıxarılması üçün müxtəlif kanalların qazılması, Atlantik okeanının sularının ərazini basmaması üçün torpaq qoruyucu bəndlərin tikilməsi, alaqlara qarşı daimi mübarizənin aparılması tələb olunur. XX əsrin 40-cı illərinin sonunadək şəkər plantasiyalarında əsasən əl əməyi tətbiq olunurdu. Bütün günü suyun içində alaq otları ilə mübarizə aparan qadın və uşaq əməyindən geniş istifadə olunurdu. Əmək haqqının azlığı, iş şəraitinin dözülməzliyi həm də müstəmləkəçilərin sahədə olan nümayəndələrini də narahat edirdi. Hətta onlardan bir çoxunun raportlarında qadın və uşaq əməyinin qadağan olunması üçün ciddi tədbirlərin görülməsi məsləhət bilinirdi. Şəkər plantasiyalarında mexanikləşdirmə çox ləng gedirdi və heç də bütün sahələri əhatə etmirdi. Bu ilk növbədə torpaq işlərinin görülməsi, torpağın qurudulması və yığılmış məhsulların daşınmasında öz tətbiqini tapmışdı.

Köhnəlmiş şəkər zavodlarının yeni avadanlıqlarla təmin edilib, təmiri və istifadə edilməsi son zamanlar nisbətən sürətlənmişdir. Yeni avadanlıqlarla təmin olunan zavodların genişləndirilməsi, istehsal güclərinin artırılması bir çox köhnə və nisbətən balaca zavodların və müəssisələrin bağlanmasına, rentabelsizlərin satılmasına səbəb olmuşdur.

Əgər şəkər Qayanada əsas ixrac məhsuludursa, çəltik ərzaq məhsuludur. Onun istehsalı əsasən kiçik kəndli təsərrüfatlarında cəmlənmişdir. Qayananın iqlim şəraiti ildə iki dəfə məhsul götürməyə imkan verir.

Qayana "qızıl buğda" adlanan çəltik istehsalının həcminə görə dünyada 15-16-cı yeri bölüşür. Çəltiyi ilk dəfə XVIII əsrin əvvəllərində Amerikanın Karolina ştatından portuqal köçkünləri gətirmişlər. Hindli immiqrantların bu sahədə daha yaxşı təcrübəsi olduğundan, onların gəlişi ilə istehsalın həcmi də artmış, hətta bu məhsulun ilkin ixracı da olmuşdur. Çəltik məhsulu ilk dəfə Trinidad dövlətinə ixrac edilmişdir. Ölkə daxilində çəltik məhsuluna olan tələbat 45-50 min ton olduğu halda, hər il orta hesabla 155-200 min ton çəltik istehsal olunur.

Rupununi savannası ölkənin əsas heyvandarlıq rayonudur. Lakin əhalisinin ət və süd məhsulları ilə təmin olunmasında bu rayonun rolu o qədər də böyük deyildir. Bu ilk növbədə rayonun sahil zolağından xeyli aralı olması, şəhərlərə məhsul daşınması üçün müvafiq yolların olmaması ilə izah edilir. Keçmiş dövrlərdə heyvandarlar "inək çığın" adlanan yolla inəkləri gətirir, çay bərələri ilə onları Corctaun və Nyu-Amsterdama çatdırırdılar. Yolda heyvanlar olduqca arıqlayır, ya da yemsizlik üzündən məhv olurdular. Hal-hazırda soyuducuların geniş yayıldığı halda ət məhsulları Corctauna təyyarə ilə çatdırılır. Lakin bu əhalinin artan tələbatını ət məhsulları ilə təmin

etməyin heç də həlli yolu deyildir. Bunu nəzərə alaraq nisbətən iri şəhərlərin ətrafında şəhərətrafı tipli heyvandarlıq kompleksləri yaranmaqdadır. Son illərdə ölkədə iri buynuzlu malqaranın, donuzçuluq, quşçuluq və balıqçılığın sürətli inkişafı nəzərə çarpır.

b) Sənayesi və nəqliyyatı

Hələ müstəqillik dövründən çox-çox əvvəl qızıl axtarışı üçün Qviana sahillərinə can atan mifoloji zəngin EI Dorado ölkəsini arayıb-axtarmaq ingilis müstəmləkəçilərini qızıl sadəti ilkin əvvəl məyus etsə də, zəngin boksit ehtiyatlarının, yəni o dövrün dili ilə desək "qırmızı qızıl"ın kəşfi sonradan onlara böyük gəlir gətirməyə başladı. Müasir dövrdə Qayana Yamayka və Surinamdan sonra boksit hasilatına görə üçüncü yeri tutur.

Ölkədə boksit yatağı ilk dəfə 1876-77-ci illərdə aşkar edilmişdir. ABŞ-ın nəhəng "Alüminium kompani of Amerika" monopoliyası (ALKOA) dərhal öz nümayəndəsini boksit ehtiyatları olan ərazilərdə torpaq almaq üçün ora göndərdi. Qısa vaxt ərzində monopoliya özünə sərf edən qiymətə torpaq sahəsi alaraq dərhal boksit hasilatı üçün tədbirlər görməyə başladı. 1940-cı ilə kimi "ALKOA" ABŞ-ın bir çox ölkələrdə filialları olan, alüminium istehsal edən və satan ən iri şirkəti idi. Mənzil-qərargahı Düsseldorfda yerləşən şirkətin əsas vəzifəsi alüuminiumu və xammalı Almaniya ərazisində satmaqdan ibarət idi. Həmçinin ALKAN digər Almaniya şirkəti olan "Vereyniqte Alüminiumverke AQ" ilə birlikdə Avropada ən iri alüminium prokatı zavodunu tikib istifadəyə verdi. Qayanada boksit yataqları dünyanın digər ölkələrindəki yataqlardan fərqli olaraq tərkibində alüminiumun yüksək faizi ilə seçilir. Digər tərəfdən Qayana yataqlarındakı boksit yer səthinə yaxın yerləşdiyindən hasilatı açıq üsulla həyata keçirilir. Boksit istehsalının və emalının belə ucuz başa gəlməsinə baxmayaraq ölkə iqtisadiyyatına onun bəhrəsi hələlik kifayət deyildir, çünki o, ABŞ və Kanadanın yüksək inkişaf etmiş alüminium sənayesi üçün xammal təminatçısıdır. Təsadüfi deyildir ki, ABŞ və Kanadanın alüminium sənayelərinin gəlir mənfəətinin 90%-i Qayana, Yamayka və Surinamın boksiti hesabınadır.

Amerika monopoliyalarının diqqətini Qayananın neft ehtiyatları cəlb etmişdir. Onun bir çox şirkətləri, xüsusilə də "Qlob potroseum 5 LTD" və "Kontinental oversiz eyl kompani" ölkənin bir çox rayonlarında neft axtarışına və hasilatına 60-cı illərdən başlamışdır.

1960-cı illərdən etibarən ölkədə manqan filizinin ixrac üçün istehsalı başlanmışdır. Manqan filizi Essekibo əyalətinin şimal-qərbində Mettus Ric və Poyət-Kaytuma rayonları ərazisindən çıxarılır. Bu filizin istismarı ilə Amerikanın "Yunian karbayd" şirkəti məşğuldur. Bu şirkət dövlətin razılığı ilə öz əməliyyatlarını genişləndirmək üçün geoloji kəşfiyyatlar aparır. Bu geoloji tədqiqatlar ölkədə mis, molibden, nikel, civə, sirkonium və digər metalların ehtiyatları aşkar etmişlər.

Ölkədə hələ də qızıl və almaz istehsal edilir. Onun hasilatı ilə əsasən dövlətdən lisenziya almış kiçik müəssisələr və qızıl axtaranlar məşğul olur. Bu lisenziyaların alınmasında Qayana vətəndaşları və Britaniya təəbəliyi olan şəxslər üstünlüyə malikdirlər.

Bütövlükdə ölkənin bu vaxtadək mövcud olan sənaye sahələri əsasən hasilat xarakterikliliyi ilə seçilir. İstər ilkin müstəqillik dövründə, istərsə də milliləşdirildikdən sonra emaledici sənaye olduqca ləng inkişaf edir. Mövcud emal müəssisələri ya ilkin emal, ya da kənd təsərrüfatı məhsullarının emalı üzrə ixtisaslaşmışdır. Ölkənin uzun müddət müstəmləkə vəziyyətində olması onun nəqliyyat sisteminə də öz təsirini göstərmişdir. Şəkər qamışı plantasiyalarının sahibkarları, sonradan onları əvəz edən şirkətlərin rəhbərləri yol salınmasını özlərinə artıq bir yük, xərc hesab etdiklərindən plantasiyalardan şəkər qamışını Corctaun və Nyu-Amsterdam limanlarına su, çay nəqliyyatı ilə daşımağa üstünlük verirdilər. İlkin qrunt yollarının çəkilməsi burada heç də iqtisadi mənafeyə xidmət etmirdi. Əslində baş verən üsyan və narazılıqları boğmaq üçün qoşun hissələrinin ani surətdə gətirilməsinə xidmət edirdi. İstehsalın və ixracatın genişlənməsi sözsüz ki, yol çəkilişinin sürətləndirilməsini də tələb edirdi. Həmin dövrlərdə də, indiki halda da yol çəkilişi bir çox çətinliklərlə üzləşmişdir. Əgər 1962-ci ildə 416 km uzunluğunda yolun Atlantik okeanı sahili boyu 120 km-i asfalt idisə, artıq 2000-ci ildə ölkə üzrə onun ümumi uzunluğu 5,8 min km-ə çatdırılmışdır.

Dəmiryol nəqliyyatında vəziyyət daha pisdir. 1848-ci ildə ölkədə iki ensiz dəmiryol xətti salınmışdır. Bu xətlərdən birinin uzunluğu 96,8 km olub Corctaunu Rosinyolla, digərinin uzunluğu 29,6 km olub Vriden-Xun və Parike arasındadır. Dövlət nəzarətində olan dəmiryolları rentabelli deyildir. Hal-hazırda ölkədə dəmir yollarının həm yenidən qurulması, texniki təchizatı, müasir avadanlıqlarla təmin edilməsi sahəsində müəyyən işlər görülür. Qayanada dəmir yollarının ümumi uzunluğu müasir şəraitdə 258 km-ə çatdırılsa da, regionda hələlik geridə qalmış sahə kimi qiymətləndirilir. 30-cu illərdən başlayaraq ölkədə hava nəqliyyatı inkişaf etdirilmişdir. Ölkənin paytaxtının yaxınlığında ikinci dünya müharibəsi illərində beynəlxalq "Vatkinson-Fied" hava limanı tikildi. Bu hava limanı Şimali Amerika, Braziliya və Şimali Afrika arasında tranzit məqsədi daşıyırdı. Ölkənin daxili rayonları ilə hava əlaqəsi saxlamaq, Makkenzi, Oqle, Enmors və Albione məntəqələrinə daimi təyyarə uçuşları etmək üçün bir sıra uçuş meydançaları tikilmişdir.

Ölkənin əsas okean limanı Corctaun və Nyu-Amsterdamdır. Corctaun limanı Demerera çayının mənsəbində eni 0,8 km, uzunluğu isə 4 km ölçüyə malikdir. Bu liman boksit, şəkər qamışı, çəltik və odun daşımaq məqsədi güdür. Çox da iri olmayan gəmilərin təmiri üçün müəssisələri vardır. Nyu-Amsterdam limanı Berbis çayının mənsəbində yerləşir, eni 1,6 km, uzunluğu 6,4 km-dir. Boksit fılizinin ixracı üzrə ixtisaslaşmışdır.

PARAQVAY

Sahəsi – 406,7 min km2
Əhalisi – 6,3 mlnş nəfər (2005-ci il)
Paytaxtı – Asunsion

Ölkə ərazisinin formalaşması, təbii şəraiti, təbii sərvətlərinin iqtisadi cəhətdən qiymətləndirilməsi

La-Plata hövzəsinin geniş ərazilərinin tədqiqi Xuan-Dias de Solisin rəhbərlik etdiyi ekspedi tərəfindən 1516-cı ildə Atlantik okeanında Parana və Uruqvay çaylarının mənsəblərinin əmələ gətirdikləri körfəzdən başlamışdır. Məhz ispan konkistadorlarının dayaq məntəqələri də elə okean sahillərində yaradılmışdı. Sonradan onlar materikin daxili hissələrinə, quarani hindularını yaşadığı Parana və Paraqvay çaylarının arasındakı vadiyə doğru irəlilədilər. Buradakı hindu tayfası yarımoturaq həyat tərzi keçirir, əkinçilik, ovçuluq və balıqçılıqla məşğul olurdular. Lakin okeandan uzaqlıq, təbii varidatın azlığı bu rayonu təsərrüfat nöqteyi-nəzərincə mənimsəməyə imkan vermədi. 1617-ci ildə böyük ərazini əhatə edən Rio-de-La-Plata iki hissəyə bölündü. Şimalda Quayara əyalətinin mərkəzi Asunsyon olmaqla Paraqvay adlandırıldı.

Ölkənin ərazisi platformanın qərb hissəsində yerləşir. Paraqvay çayı bu ərazini şərq və qərb hissələrə bölür. Cənub-şərqində hündürlüyü 300-400 m-ə çatan Parana Platosu və hündürlüyü 700 m-ə çatan qədim platforma qalxması, Parana çayının qərbində geniş Çako ovalığı yerləşir. Bu ovalığın səthi çayların And dağlarından gətirdiyi çöküntü materialları ilə örtülmüşdür.

Cənub tropikinin hər iki tərəfini əhatə edən Paraqvayın əlverişli iqlimi vardır. Şərqi Paraqvayın iqlimi əsasən subtropikdir, lakin Çakoda hava isti və quru tropik xarakterlidir. Çakoda yayda (oktyabr mart ayınadək) orta aylıq temperatur 29°C-yə, maksimum isə 47°C-yə çatır. Təsadüfi deyildir ki, materikin təxminən ortasında yerləşən bu vilayət ən isti və qurudur. Şərqi Paraqvayda yayın orta temperaturu 27°C-dir və ən isti aylar dekabr, yanvar, fevraldır ki, materikin daxili, hissələrində isti və rütubətli küləklər əsir. Qış dövründə Şərqi Paraqvayda havanın temperaturu 15-24°C arasında tərəddüd edir. Hərdənbir sərt şaxtalar plantasiyalara ciddi zərər yetirir. Bu adətən Cənubda pampadan soyuq hava kütlələrli Pataqoniya istiqamətindən Parana-Paraqvay ovalığı boyu əraziyə daxil olarkən baş verir. Şərqi Paraqvayda qasırğalar az-az hallarda, qısamüddətli olur və ərazinin bir hissəsini əhatə edir. Yağıntıların düşməsində mövsümilik nəzərə çarpır. Şərqdən qərbə doğru onun miqdarı azalır.

Paraqvay çayı vadisində quraqlıq dörd ay (iyun-sentyabr) ərzində davam edir, yalnız ölkənin şərq hissəsində il boyu bərabər miqdarda yağıntılar müşahidə edilir.

Çakonun Boliviya ilə sərhəddindən başqa ölkə ərazisi çaylarla əhatələnir. Onun ən iri çayları Parana və iri qolu Paraqvaydır.

Parana uzunluğuna və hövzəsinin sahəsinə görə Amazondan sonra Latın Amerikasında ikinci yeri tutur.

Parana aşağı axarlara doğru getdikcə genəlir, sürəti azalır və gəmiçilik üçün yararlı olur. Paraqvay da Parana kimi öz mənbəyini Braziliyadan götürür.

Ümumi uzunluğu 2,5 min km olan çay ölkə ərazisindən 900 km məsafədən keçir. Ölkə ərazisini şimaldan cənuba doğru kəsib keçən çay özünün yuxarı axarında Braziliya, aşağı axarında isə Argentina ilə dövlət sərhəddini yaradır. Paranadan fərqli olaraq, o, sakit axarlıdır və yatağı boyu düzənlikdən keçir. Paranaya qovuşan yerdə dərinliyi 22 m-dir. Paraqvay ölkənin əsas nəqliyyat

damarıdır. Yatağının mütəmadi olaraq dərinləşməsi nəticəsində gəmilər Konsension limanına, dəniz gəmiləri isə Asunsiyonadək gələ bilir.

Paraqvayın mineral resursları hələ o qədər də yaxşı öyrənilməmiş, faydalı qazıntı işləri fəal surətdə həyata keçirilməmişdir. Dəmir filizi, manqan, mis, həmçinin kükürd, qranit, bazalt, çöl şpatı, əhəng və digər tikinti materiallarının müəyyən qədər ehtiyatı vardır. Çakoda neft ehtiyatları aşkar edilmişdir. Ölkənin əsas təbii ehtiyatı onun meşə resurslarıdır ki, ərazinin 56%-ni örtür. Parana Platosu daha sıx meşəliyə malikdir, qərbə doğru irəlilədikcə onun seyrəlməsi müşahidə edilir. Rütubətli şərqdə qırmızı-ferralit torpaqlarda həmişəyaşıl meşə və kolluqlar, mərkəzdə bataqlıqlaşmış meşələr, hündürboylu otları olan savannalar və bataqlıqlar növbələşir. Qərb hissədə tropik meşələr, qonur-qırmızı torpaqlar qiymətli kebraço, alqarrobo, çanyar və digər qiymətli ağaclarla zəngindir.

Parana Platosundan qərbə doğru palma meşəliyi yayılmışdır. Palma ağacının bir növü olan karnauba (mum, şam palması) geniş şöhrət qazanmışdır. Bu ağacın hündürlüyü 10-12 m, yarpağının diametri 2 m-ə çatır. Mum qatı cavan yarpaqları rütubət itirməkdən qoruyur. Cır portağal meşələri Paraqvayın sol qolları boyu, həmçinin də Asunsiyon-Enkaraasyon dəmiryol xətti boyu uzanır. Onların yarpağından alınan efir yağı ixrac olunur. Portağalın mədəni növlərinin meyvəsi dadına görə yüksək qiymətləndirilir. Çakonun quraqlığa davamlı meşələrində kebraço ağacı xüsusilə fərqlənir. Onun oduncağında 30%-dək tanin vardır ki, ondan gön-dəri sənayesində işlədilən aşılayıcı istehsal edilir. Kebraço meşə massivlərinin yaradılması və ondan istifadə təsərrüfat əhəmiyyəti kəsb edir. Bu ağacın oduncağı bərk, ağır və gec bərpa olunandır, uzunömürlüdür. Buna görə də kebraço meşələrinin səmərəli istifadəsi mühüm əhəmiyyət kəsb edir.

Əhalisi, əmək ehtiyatları və məskunlaşma formaları

Müasir Paraqvayın əhalisi özünün yekcinsliyi ilə seçilir, hər 10 nəfərdən 9-u metisdir. Onların damarlarında ispan və hindu qanı axır. Çakoda, Şərqi Paraqvayın qapalı ərazilərində təmiz qanlı hindular ölkə əhalisinin cəmi 4%-ni təşkil edir. Zəncilər və mulatlar sayca az olduqlarından əhalinin qarışmasında və formalaşmasında mühüm rol oynaya bilməmişlər.

Paraqvaylılar Latın Amerikasında yeganə ikidilli xalqdır. Rəsmi dövlət dili ispan dilidir, bu dildə kitablar, qəzet və jurnallar çap edilir, əhalinin beşindən dördü isə hindu quarani dilində danışır.

1930-cu ildə paraqvayın əhalisi 850 min nəfər, 1963-cü ildə 1,9 mln. nəfər, 2000-ci ildə 5,3mln.nəfər, 2005-ci ildə isə 6,3 mln. nəfər, əhalinin illik artımı 2,3-2,5 % olmuşdur. Əhalinin cins tərkibində qadınların xüsusi çəkisi daha böyükdür, bu ilk növbədə ölkənin tarixində baş vermiş müharibələr, kişilərin qonşu ölkələrə emiqrasiyası ilə əlaqədardır.

Ölkədə aparılan tədqiqatlar göstərir ki, kənd yaşayış məntəqələrində hər üç təsərrüfatdan birində kişi yoxdur. Son dövrlərdə əhalinin sayı ancaq təbii artımın hesabınadır. Avropalıların bura gəlişi o qədər də kütləvi olmamışdır. 1870-ci ildən yarım əsr ərzində köçüb gələnlərin sayı 12-15 min nəfərdən artıq

olmamışdır və əsasən italyan, fransız, ispan və ingilislərdən ibarət olmuşdur. Onların da bir çoxu iri torpaq sahibkarları, sənayeçilər, maliyyəçilər və biznesmenlər olmuş, ölkənin iqtisadi, siyasi və ictimai həyatında mühüm rol oynamışlar.

2005-ci ildə iqtisadi fəal əhalinin 43%-i kənd təsərrüfatında, 16%-i sənayedə, 11%-i rabitə və nəqliyyatda, 30%-i ticarət və digər sahələrdə cəmləşmişdir. Ölkə əhalisinin 2/3 hissəsi kənd yaşayış məntəqələrində yaşayır. Latifundizm və yarımnatural kiçik hissələrə bölünmüş xırda təsərrüfatlar kənddə əsas torpaq mülkiyyətidir. 2,5 min latifunçunun əlində ölkənin torpaq sahəsinin 3/4-ü cəmləşmişdir. 25 iri torpaq sahibkarı ailəsinə ümumi torpaq fondunun təxminən yarısı mənsubdur. Ölkənin qərb əraziləri üçün heyvandarlıq latifundiyaları ixtisaslaşmış sahələrə çevrilmişdir və iri estansiya (heyvandarlıq təsərrüfatı) 30-40 min baş mal-qaraya sahibdir. Şərqdə iri heyvandarlıq təsərrüfatları ilə yanaşı kiçik kəndli təsərrüfatları da vardır. Lakin kəndli təsərrüfatlarının 2/3 hissəsi iri olmayan əraziləri ya icarə, ya da hüququ əsası olmayan zəbt formasında (okupantes) becərmə məcburiyyətində qalmışlar. Muzdlu fəhlələr kənd təsərrüfatından savayı meşə təsərrüfatlarında da çoxdur. Onlar yarba-mate yarpaqlarının yığılıb, emal olunmasında, ağac tədarükündə, kebraço şirəsi hazırlanmasında iştirak edirlər.

Paraqvay Latın Amerikasında balaca ölkə olsa da onun ərazisində Belçika və ya Hollandiya kimi onlarla ölkəni yerləşdirmək olar. Əhalinin orta sıxlığı hər kvadrat kilometrdə 4-5 nəfərdir. Bu göstərici Boliviyadan sonra regionda ən aşağıdır. Ərazidə əhali qeyri-bərabər məskunlaşmışdır. Ölkə ərazisinin 60%-ni əhatə edən Çakoda ümumi əhalinin cəmi 5%-i cəmləşmişdir. Meşə ilə örtülü yüksək sahələr də zəif məskunlaşmışdır. Paraqvay çayının sol sahilində hər $1m^2$-ə 30 nəfər düşür. Əhalinin nisbətən sıx məskunlaşdığı hissəsi Asunsiyonla Enkaraason şəhəri arası təpəli düzənlikdir. Şəhər əhalisinin xüsusi çəkisinə görə, Paraqvay Latın Amerikasında axırıncı yeri tutur. Ölkədə iri şəhərlər yoxdur və əksəriyyətində əhali 30-40 min nəfərdir. Latın Amerikasının əksər ölkələrində olduğu kimi burada da şəhərlər ispan planauyğunluğundadır.

Ümumi şəhər əhalisinin yarıdan çoxu Asunsiyonda yaşayır. Əsası 15 avqust 1537-ci ildə qoyulmuş Asunsiyonun əhalisi 1960-cı ildə 295 min, hal-hazırda isə 900 min nəfərdən çoxdur. XVII əsrin əvvəlinədək Asunson La-Plata hövzəsində ispan müstəmləkəçilərinin mərkəzi olmuşdur. Hal-hazırda ölkənin ən mühüm sənaye, ticarət, mədəniyyət mərkəzi, vacib nəqliyyat qovşağıdır. Liman və dəmiryolu ilə ixrac-idxal əməliyyatları həyata keçirilir.

Asunsiyondan sonra ikinci iri şəhər Enkarnasondur. Parana çayı üzərində ən iri limandır. Çayın digər sahilində yerləşən Argentina şəhəri Pasa-dosla dəmir-yol paromu ilə əlaqəsi mövcuddur ki, Asunson-Buenosayres dəmiryol xətti buradan keçir. Asunsondan şimalda, təxminən 200 km-lik məsafədə ölkənin üçüncü iri şəhəri olan Konsensyon limanı yerləşir. Bu iri maldarlıq rayonunun mərkəzidir. Braziliya ilə ticarət buradan həyata keçirilir.

Paraqvay Çakaosunun şəhərləri nisbətən kiçikdir və əsasən də Paraqvay çayı sahilində yerləşir.

Ölkədə kənd yaşayış məntəqələri kiçik olub 100-130 evdən ibarətdir.

Çakonun əl çatmaz rayonlarında və Uzaq Şərqdə meşə hinduları yaşayır. Onlar avropalılarla qarışmamış, öz adət-ənənələrini qoruyub saxlaya bilmişlər. Plato Paranasının meşələrində, Argentina və Braziliya ilə həmsərhəd ərazilərdə hindu tayfaları yaşyır. Bu quarani hindu qrupları hələ də ilkin insan cəmiyyəti formasını saxlamışdır. Onlar bütöv kənd şəklində birgə meşədə ağacları qırır, təmizlənmmiş yerdə hər bir ailə üçün yer ayırır və əkinçiliklə məşğul olurlar.

Hinduların sayı Çakoda getdikcə azalmaqdadır. Ölkənin tərəqqipərvər qüvvələri hinduların həyat şəaritini yaxşıladırılması, onlara dövlət qayğısı göstərilməsinə çalışırlar.

Quarani hinduları Paraqvay mədəniyyətinin, xüsusilə maddi mədəniyyətinin formalaşmasında müstəsna rol oynamışlar. Qədim dövrlərdən indiyədək əhalinin qida rasinunda qarğıdalı, paxla və maniok üstünlük təşkil edir.

Quarani hinduları inkişaf etmiş musiqi mədəniyyətinə malik olmuşlar. Onlarda həm hərbi, həm də ənənəvi musiqi əsərləri olmuş, solo mahnılar, insturimental musiqi, müxtəlif rəqslər hələ də öz aktualığını yerli əhali arasında saxlamışdır.

Təsərrüfatının ümumi səciyyəsi və inkişaf perspektivləri

Paraqvay bütöv Amerikada iqtisadi cəhətdən ən geridə qalmış İspan müstəmləkəsi olmuşdur. Yalnız müstəqillik əldə etdikdən yarım əsr sonra iqtisadi inkişaf üçün ilkin addımlar atılmağa başlanmışdır. İlk əvvələr dövlət ölkəni xammal və ərzaq məhsulları idxal etmək və xaricdən asılı vəziyyətdən çıxarmaq üçün tədbirlər görməyə başladı. Heyvandalığı inkişaf etdirmək, pambıq, buğda, və qarğıdalı istehsalını artırma təşəbbüsündə olanları mükafatlandırırdı. Bu həmçinin də milli sənaye şamil edildi.

Paraqvayın təbii imknaların yüksək məhsuldar əkinçiliyin və maldarlığın inkişaf etdirilməsinə, milli sənayesinin yaradılmasına gözəl şərait yaradır. Lakin təəssüf ki, hələ də ərazinin çox hissəi lazımi şəkildə mənimsənilməmiş, bir çox təbii, o cümlədən hidroresurslar kifayət qədər tədqiq edilməmiş, mövcud meşə massivləri birtərəfli və zəif istifadəyə cəlb edilmişdir. Emaledici sənaye demək olar ki, rüşeym halında və bəsit formasındadır.

Ölkə iqtisadiyyatı zəif inkişaf edir, adambaşına milli qəlir Venesuela, Argentina, Braziliya, Meksika və Çiliyə nisbətən 5-6 dəfə aşağı səviyyədədir. Onun iqtisadiyyatının əsasını kənd və meşə təsərrüfatı təşkil edir. Əmək qabiliyyətli əhalinin də 3⁄4-ü bu sahələrə cəlb olunmuşdur. Ölkə iqtisadiyyatında xarici kapitalın xüsusi çəkisi getdikcə artmaqdadır. Burada ABŞ, İngiltərə, Braziliya və Argentina müstəsan rol oynayırlar. Xarici ölkələrin kapital qoyuluşunda Argentina daha üstün yer tutur.

XX əsrin 60-70-ci illərində durğunluq keçirn ölkə iqtisadiyyatı regionda digər ölkələrdən geri qalmış, ÜDM-un və milli gəlirin artım sürəti aşağı olmuşdur.

Paraqvay həmçinin Latın Amerikasının digər ölkələrində tək ÜDM-un həcmi ilə deyil, həm də orta illik artım səviyyəsinə görə də geridə qalır. ÜDM-un srtukturu göstərir ki, ölkədə iqtisadiyyat hələ də durğunluq həddni aşmır və dəyişməz qalmaqdadır. İqtisadiyyatının əsasını kənd təsərrüfatı, xüsusilə də əkinçilik, heyvandarlıq, meşə təsərrüfatı (milli gəlirin yarıdan çoxunu verir) təşkil edirsə, sənaye cəmi 16-17% təşkil edir. Son illər xidmət sahələri sürətlə inkişaf edərək istehsal bölməsinə sərf ediləsi maliyyə imkanlarını özünə cəlb edə bilmişdir.

Son 10 ildə Paraqvayın ümumi daxili məhsul istehsalında tikintinin xüsusi çəkisi çox sürətlə artır. Bu ilk növbədə amerika krediti əsasında SES-nin, strateji əhəmiyyətli avtomobil yolunun çəkilişi ilə izah edilir. Ümumiyyətlə, son 50 ildə ölkənin iqtisadiyyatının inkişafına və yenidən qurulmasına xarici kapitalın cəlb edilməsi sürətlənmişdir. Argentina kapitalı əsasən kebraço şirəsi, paraqvay çayı, sement, ağac emalı və heyvandarlıq məhsulları istehsalına yönəldilmişdir. Parana çayı üzərində Argentina ilə birgə tikilən bu SES-nın istehsal gücü 3,7 mln.kVt-dır. Parana çayı üzərində ən nəhəng SES-nın tikintisi artıq başa çatmışdır. Onun istehsal gücü 12,6 mln.kVt miqdarında hesablanmışdır. Bu SES-ın tikintisi 16 ilə, tiknti xərci isə 18 mld. dollara başa gəlmişdir. 70-ci illərdən etibarən Paraqvayın nəinki öz ehtiyaclarını ödəyir, hətta Braziliya və Argentinaya da elektrik enerjisi ixrac edir.

a) Kənd təsərrüfatı. Paraqvayın iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Ölkənin ümumi daxili məhsul istehsalında kənd təsərrüfatının xüsusi çəkisi 27,2%-dir, ölkəyə daxil olan valyutanın 95%-ni verir. Ölkə iqtisadiyyatının aqrar xarakterli olmasına baxmayaraq, əhalinin cəmi 89%-ni ərzaq məhsulları ilə təmin edir, qalan hissəsi isə xaricdən, xüsusilə Braziliya və Argentinadan idxal edilir. İdxal məhsullarının da 70-80%-i buğdanın payına düşür.

Kənd təsərrüfatı məhsulunun istehsal səviyyəsi olduqca aşağıdır. Təsəarrüfatların texnika və kübrə ilə təchizatı çox zəifdir. Ölkədə fəaliyyət göstərən 185 minə yaxın təsərrüfatlarda 850 min nəfər, yəni ölkənin iqtisadi fəal əhalisinin 60%-ə qədəri çalışır.

Kənd təsərrüfatı məhsulu istehsalının çeşidində və həcmində müəyyən dövrlərdə olan irəliləyişlər adətən ya həmin məhsula tələbatın dünya bazarında artmasından, ya da əlverişli iqlim şəraitindən asılı olur. Son illər ixrac olunan məhsulların istehsal həcmində müəyyən artım hiss edilməkdədir. Vaxtı ilə Paraqvay çayı ən çox ixrac olunan və bölgəyə külli miqdarda valyuta gətirən məhsul idisə, indi o, az gəlir gətirən sahəyə çevrilmişdir.

Ölkənin əsas əkinçilik rayonu Parana, Paraqvay çayları və şimal-şərqdən keçən Asunsiyon-Enkarnason dəmiryol xətti arasında yerləşən üçbucaqşəkilli ərazidir. Burada kiçik və orta təsərrüfatlar üstünlük təşkil edir. Əkinçilikdə ərzaq bitkisi kimi bütün təsərrüfatlarda qarğıdalı və maniok əkilir.

Son illər ərzində çəltik əkini və istehsalı da xeyli artırılmışdır. Onun əkin sahəsi hal-hazırda 13-15 min ha, istehsalı isə 43-50 min tona çatır. Paraqvaylıların qida rasionunda şirin kartof-batatın xüsusi yeri vardır, illik istehsal həcmi 110-150 min ton təşkil edir. Şəkər qamışının əkin sahəsi artmasa da, istehsal həcmi sürətlə

artmaqdadır. Şəkər qamışının əkin plantasiyalarının əsas rayonları Kiindi şəhərindən şimalda Asunsiyondan sonra Paraqvay çayının sağ sahillərində, Vilya-Ayes şəhərinin ətrafındadır.

1950-ci illərdən etibarən ölkədə qəhvənin istehsalına maraq artmağa başladı. 1953-cü ildə Şimali amerika firması "Amerikan kofı korporeyşn" və braziliyalı "Lunardeli" maliyyə qrupu Aedro-Xuan Kabalyero şəhəri yaxınlığında, Braziliya ilə sərhəddə 25 milyon hektar torpaq almışdır. Bu torpaqlarda hərəsi 50 ha (25 min ədəd qəhvə ağacı) olan plantasiyalar salınmışdır.

Texniki bitkilər içərisində pambıq və tütün istehsalı xüsusi yer tutur. Bu bitkilər geniş şəkildə 1920-ci ildən sonra əkilməyə başlanmışdır. Hal hazırda pambıq üçün 85-90 min ha əkin sahəi ayrılmışdır. O, əsasən paytaxtın şərq dəmir yolu xətti boyu ərazilərdə becərilir. Onun istehsal həcmi 58-70 min tona çatdırılmışdır. Paraqvay pambığı yüksək keyfıyyətli və uzunliflidir. Orta məhsuldarlıq hər h-dan 700-800 kq-dır. Çiyiddən ərzaq məhsulu məqsədilə yağ istehsal edilir.

Ölkədə becərilən ixrac istiqamətli bitkilərdən biri də tütündür. Tütün əsasən Asunsiyondan şərqdə 5-10 min ha ərazidə becərilir və orta hesabla hər il 28-30 min ton məhsul götürülür. İstehsal olunmuş tütünün 60%-ə qədəri Argentina, Uruqvay, Qərbi Avropa və Şimali Afrika ölkələrinə ixrac edilir. Yağlı bitkilər içərisində daha geniş yayılmışı yer fındığı, yənı araxisdir. Araxisin vətəni Cənubi Afrikadır və Paraqvay ərazisində onun əkin sahəsi 18-20 min ha, istehsal həcmi isə 19-25 min t-dur. Ölkənin kənd təsərrüfatında sitrus bitkilərinin 3/4- ü banan, ananas və digər meyvələrin istehsalı xüsusi yer tutur. Hər il orta hesabla naringi, partağal, limon və digər meyvələrin istehsalı 25-30 min sentnerdir. Paraqvay çayının sol qolları boyu və Asunsiyon-Enkarnason dəmir yolu xətti boyu portağal meşəliyi uzanır. Dünya portağal yağı istehsalının 3/4-ü Paraqvayın payına düşür və o, tibbdə və kosmetika sahəsində qiymətli xammaldır. Paraqvayda istehsal olunan mədəni portağal olduqca yüksək keyfiyyəti, dadı, qoxusu ilə Latın Amerikasında müqayisəyə gəlməzdir.

Asunsiyon şəhərinin əsası qoyulduqdan dərhal sonra ispanlar bura yeddi inək və buğa gətidilər. Onlardan törəmiş iri buynuzlu mal-qara nəinki Paraqvayda, hətta Argentina və Uruqvayda iri sürülərin yaranmasına səbəb oldu. Otlaq heyvandarlığı indi də Paraqvayda kənd təsərrüfatının əsas sahəsi kimi özünü göstərir. Bu təsərrüfat sahəsi kənd təsərrüfatı ümumi daxili məhsulun 1/3-ni, ölkənin ümumi daxili məhsulunun 19%-ni, milli gəlirin 13%-ni verir. Ölkədə üç əsas heyvandarlıq rayonu vardır. Onlardan biri Paraqvay və Parana çaylarının arasındakı üçbucaq şəkilli subasarın şirəli otlağı, ikincisi Paraqvayın sol sahili boyu, üçüncüsü isə getdikcə daha böyük əhəmiyyət kəsb edən Paraqvay Çakosunun cənub-şərq hissəsidir. Heyvandarlıq ölkədə əsasən ətlik istiqamətlidir. Yalnız Asunsiyon ətrafında südlük istiqamətli heyvandarlıq inkişaf etmişdir. Ölkədə heyvandarlığın inkişafı Argentina və Uruqvayla gərgin rəqabət şəraitində gedir. Ölkə ərazisinin 34%-ni çəmənlik və otlaqlar təşkil edir. Bunların da 90%-i iri torpaq sahibkarlarının əlindədir,

heyvandarlıq latifundiyalarında cəmləşən iri bunynuzlu mal-qaranın da 40%-dən çoxu həmin sahibkarlara məxsusdur. Ölkədə olan mal-qara əsasən kreol növündəndir, iqlimə yaxşı uyğunlaşmışdır, lakin az ət verəndir. Cins tərkibinin yaxşılaşdırmaq, məhsuldarlığını artırmaq üçün Avropadan bir neçə döl növü gətirilmişdir. İxrac işinin artırılması məqsədilə heyvandarların vergisinin azaldılması, ölkəyə gətirilən maşın və avadanlıqların gömrük rüsumunun ləğv olunması, dünya bazarında paraqvay əti, gön-dəri məhsullarının rəqabətinin tənzimlənməsi sahəsində xeyli iş görülmüşdür.

b) Meşə təsərrüfatı. Paraqvay iqtisadityyatında, xüsusilə də xarici ticarətdə meşə təsərrüfatının xüsusi rolu vardır. Ölkə ərazisinin 56%-ni örtən meşə ümumi daxili məhsulun 4%-ni, milli gəlirin 2%-ni verir. Meşə massivlərinin 92%-i xüsusi, 5%-i dövlət, 3%-i kooperativ mülkiyyətə məxsusdur. Ölkənin əmək qabiliyyətli əhalisinin 3%-dən çoxu meşə təsərrüfatında çalışır.

Müstəmləkə dövründə əsas meşə sənayesi cır paraqvay çayı - yorba-mate yarpağının yığılması olmuşdur. Bu çay yarpağının qısa müddətdə acgözlüklə və necə gəldi yığımı ölkənin cənub-şərqində yaorba-mate bitkisinin yox olmasına gətrib çıxarmışdır. Qonşu Argentinada paraqvay çayına tələbatının artması onun yeni-yeni plantasiyalarının yaradılmasına səbəb oldu. Meşələrin ağac tədarükü olduqca primitiv yolla həyata keçirilir. Kəsilmiş ağaclar ya fəhlələr vasitəsilə müəyyən ərazilərə daşınır, ya da Parana, Paraqvay və onların qolları vasitəsilə müəyyənləşmiş dayanacaqlara axıdılır.

Çakonun şimalında Paraqvay çayının sahili boyu park meşələrinin kebraço ağacları daha intensiv surətdə mənimsənilir. Argentina ilə yanaşı Paraqvay da dünya bazarında kebraço şirəsi ixrac edir. 1941-ci il müqaviləsinə əsasən dünya bazarına çıxarılan kebraço şirəsinin 20%-i Paraqvayın, 80%-i isə Argentinanın payına düşməlidir. Kebraço tədarükü əsasən Paraqvay çayının qərbində Puerto-Qurani və Puerto-Pinesko rayonu ərazisində həyata keçirilir.

c) Sənayesi. Paraqvayda sənaye olduqca zəif inkişaf etmişdir və əsasən də bir sıra kənd təsərrüfatı və meşə materialları emal edən müəssisələrlə təmsil olunur. İkinci dünya müharibəsi dövründə xarici məhsulların kəskin şəkildə çatışmaması Latın Amerikası ölkələrində yüngül sənayenin inkişafına çox yaxşı zəmin yaratdı. Lakin Paraqvayda sənaye əvvəlki səviyyədə qalaraq özünün olduqca zəif texniki təchizatı ilə xarakterizə olunaraq qalmaqda davam edir. Digər tərəfdən sənayenin inkişafına bir sıra amillər də mane olur. Belə ki, daxili bazarın kasadlığı, xarici kapitalın təsiri, kadrların çatışmamazlığı, yanacaq-energetika bazasının zəifliyi, nəqliyyat vasitələrinin çatışmamızlığı,yolların kifayət qədər olmaması belə amillərdəndir. Xaric kapital ölkədə ən iri sənaye müəssisələrinə sahibbdir. Son illər ABŞ, İngiltərə, AFR, Fransa ilə yanaşı, Braziliya, Argentina sənayesinə, xüsusilə də, elektroenergetika, dağ-mədən, meşə sənaye, neft emalı və digər sahələrə marağı artırmışdır. Ümumi daxili məhsul istehsalında sənayenin xüsusi çəkisi uzun illərdir ki, 16-20% həcmində qalmaqdadır. Lakin son 10 ildə Argentina, Braziliya və Uruqvayla birgə elektroenergetika sənayesinin inkişafında ciddi dönüş yaranmışdır. Lakin buna baxmayaraq, ümumi

daxili məhsulun istehsalının orta illik artım sürəti Latın Amerikasının əksər ölkələrindən geri qalmaqdadır.

Son illərdə fəaliyyət göstərən sənaye müəssisələrinin 45% yeyinti, 12% toxuculuq, 13%-i kimya, 10%-i müxtəlif içki və tütün, 3%-i ağac emalı sənaye sahələrinin payına düşür.

XX əsrin sonlarında demək olar ki, sənayenin bütüri sahələri paytaxtda cəmləşmişdir. Hal-hazırda Mərkəzi rayonda, Asunsiyon da daxil olmaqla sənaye müəssisələrinin 76%-i cəmləşir.

Emaledici sənayenin əsas sahəsi yeyinti sənayesidir. Ölkədə şəkər istehsalı getdikcə təkmilləşərək dünya bazarında bu məhsulların tələbatına uyğunlaşmışdır. Əsasən paraqvaylı olan və yaxın xaricdə yaşayan sahibkarlar ölkənin şəkər sənayesinin ümumi məhsulunun 70%-ni verir. Bitki yağı istehsalında ölkənin böyük müvəffəqiyyəti vardır. Belə ki, tuiq yağı evir yağı istehsalına görə dünyada birinci yeri tutur. Ölkənin toxuculuq sənayesi 19 pambıqtəmizləmə və 18 toxuculuq fabriki ilə təmsil olunur. Yekun məhsul istehsalının yarıdan çoxu amerika şirkətlərinin payına düşür. Ən iri fabriklər Asunsion və Paraqvay çayı üzərində yerləşən Pilar şəhərində yerləşir. Müəssisələrin əksəriyyəti yerli pambığın əsasında işləyir və ilkin parça istehsal edir. Dəri-ayaqqabı sənayesinin müəssisələri əsasən Asunsion və Puerto-Sastredə yerləşir.

Gön-dəri məhsulları və ayaqqabı istehsasalı əhalinin tələbatını hələlik ödəmir, istehsal olunan dərinin böyük əksəriyyəti ixrac edilir.

Taxta-şalban sənayesinin əsas mərkəzləri Vilyarrika və Keronel-Ovyedo şəhərlərinin ətrafında, həmçinin də Konsepsion, San-Pedro-Rosario və Enkarnosyon rayonlarındadır. 1952-ci ildə Konsepsion yaxınlığında Vanyeşdə sement zavodu işə düşmüş, il 12-14 milyon ton məhsul istehsal etməyə başlamışdır. Ölkənin sementə olan tələbatı ödənilmiş, qalan hissəsi Boliviya və Braziliyaya ixrac edilməyə başlamışdır.

Ölkədə dəmir filizi, nikel və digər faydalı qazıntıların müəyyən qədər ehtiyatının olmasına baxmayaraq, dağ-mədən sənayesi kifayət qədər inkişaf etməmişdir. Hələ 1954-cü ildə İbikun şəhəri yaxınlığında az da olsa dəmir filizi emal edilməyə başlasa da indiyədək müəyyən inkişaf nəzərə çarpmır.

İngilis və amerikan neft krallarının rəqabəti 1930-cu illərdə Paraqvayla Boliviya arasında müharibənin başlanmasına səbəb oldu. Boliviyanın neftli zonasının kənarındakı mübahisəli Çako vilayəti müharibə nəticəsində Paraqvaya nəsib oldu. ABŞ, İngiltərə, Kanada, Braziliya və digər dövlətlərin neft şirkətləri Paraqvay Çakosu ilə konsessiya danışıqlarını davam etdirdilər. Nəhayət, amerika şirkətləri olan “Pyur oyl of Paraqvay” və “İnterneşnl prodaktş korporeyşn”, həmçinin Braziliya firması “Petrolera quarani” və “Karlos Kasada limitada” belə konsessiya əldə edə bildilər. 1958-ci ilin axırlarında “Pyur oyl of Paraqvay” şirkəti ilk neft quyularını qazmağa başladı.

Keçən əsrin 70-ci illərinin əvvəllərinədək Paraqvay elektroenergetikanın inkişaf səviyyəsinə görə Latın Amerikasında axırıncı yeri tuturdu. Cəmi 47 İES vardı və əsasən də gətirilmə neftə və oduna əsaslanırdı. Elektrik enerjisin ölkə

ehtiyacının cəmi 30%-ni ödəyə bilirdi. İstehsal gücü 136 min kvt olan "Akaray-1" və "akaray -2" SES-ləri Akaray çayı üzərində tikildikdən sonra enerjiyə olan tələbat ödənildi. 1973-cü ildən etibarən Paraqvay Cənubi Amerikada ilk elektroenerji ixrac edən ölkə oldu. Braziliya və Argentina ilə birgə tikilən SES-lər istifadəyə verildikdən sonra Paraqvay onlarla birgə tikilən stansiyaların elektrik enerjisinin cəmi 1,8%-ni istehlak edir, qalanını Argentina və Braziliyaya ixrac edir.

Emaledici sənayenin əksər müəssisələri, kebraço şirəsi istehsal edən zavod, taxta-şalban, şəkər və şərab zavodlarından başqa, mərkəzi dairələrdə və ya ona bitişik rayonlarda cəmləşmişdir.

Müharibədən sonrakı dövrdə dənüyütmə sənayesi sürətlə inkişaf etməyə başlamışdır. Əgər müharibədən əvvəl o unu xaricdən gətirirdisə, Asunsion, Enkarnason və konsensionunda, tikilən dənüyütmə müəssisələrindən sonra o, yalnız buğda idxal edir.

Məhsulun dəyərinə görə yeyinti sənayesindən sonra kimya sənayesi xüsusilə fərqlənir. Burada aparıcı sahə kebraço şirəsi istehsalıdır.

ç) Nəqliyyatı. Paraqvayın sənayesinin və bütövlükdə iqtisadiyyatının inkişafına nəqliyyatın və rabitə vasitələrinin zəifliyi öz mənfı təsirini göstərmişdir. Təxminən 140 il bundan əvvəl prezident Karlos Antonio Lopesin əmri ilə Cənubi Amerikanm ən qədim dəmiryollarından biri əsgərlər tərəfindən inşa edilməyə başlamışdır. Bu yol Asunsionu Paraquari şəhəri ilə, 1886-cı ildə Vilyarriki, 1911-ci ildə isə Enkarnasyonla birləşdi. İki ildən sonra Enkarnasyonla Pasadas arasındakı bərə Argentina dəmiryol şəbəkəsi ilə birləşdi və Asunsion Buenos-Ayreslə dəmiryol əlaqəsinə malik oldu.

Bundan əlavə bir sıra qısa dəmiryol budaqları vardır ki, onlar da xüsusi şirkətlərə məxsusdur. Onların hamısı Çakonun daxili rayonlarını portlarla birləşdirir. Bu yollarla kebraço ağacları şirə almaq üçün zavodlara daşınır. Hal-hazırda ölkənin dəmiryol xəttinin ümumi uzunluğu 1,5 min km, yükgötürmə qabiliyyəti ildə 85-90 min tondur.

Son illər Paraqvay hökuməti avtomobil yollarının salınmasına diqqəti artırmışdır. Xüsusilə strateji əhəmiyyət kəsb edən beton və asfalt yollarının çəkilişinə daha çox fikir verilir.

Ölkənin vacib nəqliyyat arteriyalarından biri də çay nəqliyyatıdır. Bu sahədə Parana və Paraqvay çayları və onların qolları mühüm rol oynayır. İl boyu istifadə olunabilən çay yollarının ümumi uzunluğu 3,5 min km-dən çoxdur. Bu yollarla hər il orta hesabla 0,5-1 mln. ton yük daşınır. İri çay və orta dəniz gəmiləri Asunsion, orta çay gəmiləri isə Konsensionadək qalxa bilirlər, hətta dayaz çökmə gəmiləri okeandan 2700 km aralanaraq Paraqvayla Braziliya limanı olan Korumbayadək qalxa bilirlər. Paraqvay və Parana çayları ilə ixrac-idxal əməliyyatlarının 90%-i həyata keçirilir.

Son illər hava nəqliyyatı çox sürətlə inkişaf etməyə başlamışdır. Daxili iqtisadi və inzibati əlaqələrlə yanaşı beynəlxalq liman olan Asunsion bu gün müasir təyyarə, aparatura və texnika ilə təchiz olunmuşdur.

SURİNAM

Sahəsi – 163,8 min km^2
Əhalisi – 0,6 mln. nəfər (2005-ci il)
Paytaxtı – Paramaribo

Cənubi Amerikanın şimal-şərqində yerləşən Surinamın ərazisi qərbdə Koranteyn çayı ilə Qayanadan, şərqdə isə Maroni çayı vasitəsilə Fransız Qvianasından ayrılır. Ölkənin cənubunda möhtəşəm Braziliya ilə sərhəd başlayır. Ölkənin şimalında Atlantik okeanı boyu təxminən 360 km məsafədə Qviana ovalığı uzanır. Çox da enli olmayan bu hissə dəniz və çay mənşəli çöküntülərdən təşkil olunmuş, dəniz tərəfdən manqr cəngəllikləri ilə örtülmüşdür. Sahilyanı düzənlik ölkənin içərilərinə doğru təpəli Qviana yaylası ilə əvəz olunur. Savanna adlanan bu təpəli hissə qumlu və gilli torpaqlardan ibarətdir, məhsuldarlığı olduqca aşağıdır və kənd təsərrüfatında əkinçiliyə az yararlıdır. Ölkənin daxili və cənubu bütövlükdə Qviana yaylasının tərkib hissəsinə daxildir. Bu ərazilər selva adlanır. Keçilməz tropik meşə demək olar ki, az mənimsənilmişdir və ölkənin iqtisadiyyatında hələlik o qədər də böyük rol oynamır.

Olduqca əlverişli coğrafı mövqeyi olan Surinamın təbiəti də gözəldir. İqlimi subekvatorial, isti və daim rütubətlidir. Temperaturun illik amlitudu yüksək deyildir, il ərzində təxminən 2-3°C dəyişkənlidir. İlin 200 günü yağışlıdır. Bu yağışlar ən çox aprel-avqust dövründə düşür. Yağıntıların orta illik miqdarı 2000-2500 mm-dir. Ölkə ərazisində çaylar bol sulu, hidroenerji əhəmiyyətlidir. İri çayları olan Koranteyn, Surinam, Maronidir. Koppename gəmiçilik üçün əlverişlidir, hətta çox da iri olmayan gəmilər mənsəbdənmənbəyə doğru 300 km məsafədə üzə bilirlər. Ölkədə çaylar və onlar arasında çəkilmiş kanallar nəqliyyat sistemini əmələ gətirir, çətin keçilən ərazilərin mənimsənilməsində mühüm rol oynayırlar.

Məhsuldar qırmızı-sarı ferraiit torpaqlar, temperatur və yağıntıların bolluğu ərazidə həmişə yaşıl meşələrin inkişafı üçün olduqca əlverişli zəmin yaratmışdır. Məhz bunun nəticəsidir ki, ölkə ərazisinin təxminən 90%-i meşə ilə örtülüdür. Bu həmişəyaşıl tropik meşələrdə qiymətli ağac növləri vardır. Çox təəssüf ki, son 25-30 ildə bu qiymətli ağaclara qarşı münasibət dəyişməmişdir və onların sürətlə qırılması davam etməkdədir.

Hələlik ölkə ərazisində tədqiq edilmiş minerallardan ən geniş yayılmışı boksit xammalıdır. Onun geoloji ehtiyatına görə Surinam Latın Amerikası ölkələri içərisində yalnız Yamaykadan geri qalır. Onun təxmini ehtiyatı 600 mln. ton miqdarında hesablanmışdır. Bundan əlavə ölkədə dəmir filizi, manqan, platin, almaz, tantal, sahilin şelf hissəsində neft və qaz ehtiyatları da vardır. Bu təbii resursların əksəriyyəti hələlik kifayət qədər istifadə edilmir. Ölkənin müasir şəraitdə iqtisadi inkişafında boksit xammalından istifadə mühüm rol oynayır.

Ölkə ərazisinin formalaşması, əhalisi, əmək ehtiyatları və məskunlaşma formaları

Surinamın ərazisi K.Kolumbun səyahəti zamanı onun konkistadorları Alonso de Oxeda və Visente Pinson tərəfindən ilk dəfə 1499-cu ildə kəşf olunmuşdur. Ərazinin sıx, keçilməz selvadan ibarət olması ispanları o qədər də maraqlandırmadığından yalnız XVII əsrin birinci yarısından ehtibarən müstəmləkələşdirilməyə məruz qalmışdır. Ölkənin ərazisi tamamilə ingilislərin təsir dairəsinə alındı. Lakin 1667-ci ildə Böyük Britaniya Niderlanda Yeni Amsterdam (müasir Nyu-Yorkun ərazisi) ilə dəyişməyi təklif etdi. O vaxtdan etibarən Surinam üç əsr ərzində Niderlandın təsiri altında olmuşdur.

Ərazinin əlverişli təbii şəraiti, ucuz işçi qüvvəsi qısa bir müddətdə onu Avropanın ən iri şəkər təminatçısına çevirdi. Şəkər qamışının istehsalı inkişaf edərək plantasiya təsərrüfatının yaradılmasına səbəb oldu. Plantasiyalarda işləmək üçün Afrikadan çoxlu miqdarda zənci qullar gətirilməyə başlanıldı.

Surinamın əhalisi uzun müddət iqtisadi və siyasi müstəqillik əldə etmək üçün mübarizə aparmış, 1922-ci ildə müstəmləkə statusu ləğv olunaraq Niderland krallığının Birləşmiş hissəsi adlanmağa başlamışdır. 1954-cü ildə nisbi muxtariyyat alan Surinam nəhayət ki, 1975-ci ildə müstəqillik əldə edə bildi.

Coğrafi mövqeyinə görə Surinam Cənubi Amerika ölkəsi olsa da etnik cəhətdən və dil tərkibcə daha çox karib hövzəsi ölkələrinə oxşayır. Əhalisi keçən əsrin 70-ci illərin ortalarında çox sürətlə artmış və 1975-ci ilin siyahıyalınmasma görə 450 min nəfərə çatmışdı. Təbii artım 60-cı illərdə 3,5% olsa da, 70-ci illərdə 2,3%-ə enmişdi. Digər Latın Amerikası ölkələri kimi burada da urbanizasiyanın səviyyəsi son illər artmağa başlamışdır. Kənd əhalisi əsasən ölkənin paytaxtı Paramariboya və onun ətraf rayonlarına köçüb gəlirlər. Bu da öz növbəsində ölkədə onsuz da çox olan işsizlik probleminin artmasına, əhalinin əmək qabiliyyətli hissəsinin emmiqrasiyasına səbəb olur. Əhalinin də əsas hissəsi Niderlanda emmiqrasiya edir. Ölkə əhalisinin yaş strukturunda uşaqlar və gənclər ümumi əhalisinin yarısını təşkil edir. Əhalisinin 90%-ə qədəri ümumi ərazinin 3-4 %-ni təşkil edən sahil zolağına toplaşmışdır. Əhalinin cüzi hissəsi isə ümumi ərazinin 80%-ni təşkil edən rütubətli tropik meşə zonasında yaşayır. Ölkə əhalisinin təxminən yarısı onun paytaxtı Paramaribo və onun 20 km-lik ətraf rayonlarında məskunlaşmışdır. Burada ölkə sənayesinin 60%-dən çoxu cəmləşmişdir, ən iri limanı, nəqliyyat, elm, mədəniyyət mərkəzidir. Paramaribo tipik müstəmləkə şəhərinə bənzərdir. Surinam çayı sahilində bir-iki mərtəbəli evlər üstünlük təşkil edir. Şəhərin mərkəzinə doğru səliqə ilə tikilmiş evlər, hamar küçələr XIX əsrin yadigarlarıdır. Şəhərin bu hissəsi kiçildilmiş Amstredamı xatırladır.

Ölkə əhalisi etnik cəhətdən olduqca müxtəlif olsa da 47% hindli, 32% kreollardan, qalanları yavalı, zənci, hindu, çinli, müəyyən qədəri də avropalılardır. Şəhərlilər içərisində kreolların və zəncilərin, kənddə isə hindli və yavalıların xüsusi çəkisi daha böyükdür. Etnik qruplardan təbii artımın yüksəkliyi ilə hindlilər fərqlənir.

Əhalisinin təbii artımında və məskunlaşmasında müxtəlifliyin böyüklüyü həmçinin onların məşğulluğuna da təsir etmişdir. Belə ki, zəncilər və mulatlar daha çox sənayedə çalışır, onların hətta müəyyən hissəsi ölkənin ziyalılarına xas olub, dövlət qulluğunda da çalışır. Hal-hazırda plantasiyalarda çalışan zənci ailəsinə demək olar ki, rast gəlinmir. Hindi mənşəli surinamlılar çəltik plantasiyalarının ya sahibkarı, ya da icarədarlarıdır. Onların iri südlük istiqamətli fermaları da vardır. Paramaribonun nəqliyyat sistemi və bazar ticarəti də hindlilərin əlindədir. Urbanizasiya hindlilərin də müəyyən hissəsini şəhərlərdə yaşamaga sövq etmişdir. Hindilərdən fərqli olaranq yavalılar daha az təbii artıma malikdirlər. Müəyyən ərazidə cəm halında məskunlaşmış, digər xalqlardan təcrid olunmuş və onlarla qaynayıb-qarışmamışlar. Yavalılar əsasən çəltik-sitrus bitkiləri, kakao, qəhvə, banan, şəkər qamışı, maniok və tərəvəz əkini ilə məşğuldurlar. Yerli hinduların 80%-ni aravak və karib hinduları təşkil edir. Çinlilər əsasən ticarətdə, avropalılar isə dövlət aparatında və iqtisadiyyatın əsas sahələrində çalışır. Avropalıları əsasən hollandlar təmsil etsələr də müəyyən qədər alman, ingilis və portuqal da vardır.

Təsərrüfatının ümumi səciyyəsi

Surinamın iqtisadiyyatının əsasını dağ-mədən sənayesi, xüsusilə də boksit hasilatı və ilkin emalı təşkil edir. Hər il orta hesabla 8-10 mln. ton boksit hasil edilir. Bu məhsulun istehsal həcminə görə o regionda yalnız Yamaykadan geri qalır. Son on ildə ölkə iqtisadiyyatını inkişaf etdirmək üçün boksitin yeni yataqlarının aşkar edilməsinə, SES-da enerji istehsalının həcminin artırılmasına ciddi fikir verilmişdir.

1915-ci ildə ölkənin şərq rayonlarında zəngin boksit ehtiyatlarının aşkar edilməsi dağ-mədən sənayesinin inkişafına güclü təkan verdi. ABŞ-ın "ALKOA" şirkəti 1922-ci ildə Kottika çayı hövzəsində zəngin boksit ehtiyatları aşkar edərək böyük mədən yaratmaqla istehsal olunan boksiti ölkədən çıxarıb aparmağa başladı. Artıq 30-40-cı illərdə Surinamda boksit istehsalının həcmli dağ-mədən sənayesininyaradılmasının əsası qoyuldu. Nəticədə ikinci dünya müharibəsindən sonra Surinam dünya bazarına ən iri boksit çıxaran ölkəyə çevrildi.

Ölkədə boksit hasilatı əsasən şimal-şərq rayonlarında Surinam və Maroni çaylarının arasında Munqo və Paranam şəhərləri yaxınlığında aparılır. Burada boksit ehtiyatı səthə yaxındır və hasilatı açıq üsulla həyata keçirilir. Ölkədə istehsal olunan əksər boksit ABŞ, Kanada, Yaponiya və Qərbi Avropa ölkələrinə ixrac olunur. Müəyyən qədər alüminium oksid “Suralko” və “Billiton” şirkətlərinin zavodlarına göndərilir. Son illər bir çox Latın Amerikası ölkələrində olduğu kimi Surinamda da iqtisadi inkişaf bir çox struktur dəyişikliklərinin həyata keçirilməsinə şərait yaratmışdır. İlk növbədə dağ-mədən sənayesinin yeni-yeni sahələri, o cümlədən Paramaribodan 60 km-lik məsafədə ümumi ehtiyatı 40 mln ton hesablanan neft hasilatına başlanmışdır. Dəmir fılizi, manqan, nikel, təbii qaz hasilatı sahələri yaradılmışdır.

Ölkənin kənd təsərrüfatı o qədər də yaxşı inkişaf etməmiş, əhalinin ərzaq məhsullarına olan tələbatını hələ ki, ödəməmişdir. Əkinə yararlı torpaq sahələri orta və iri sahibkarlara məxsus olub, plantasiya təsərrüfatları

yaradılmışdır. Belə torpaq sahələri ümumi əkin sahələrinin 70%-ə qədərini təşkil edir. Bütövlükdə ölkənin kənd təsərrüfatı məhsuldarlığın aşağı olması, dar itisaslılığı ilə seçilir. Buna görə də taxıl, ət, ət məhsulları, süd, quş, meyvə və tərəvəz əsasən idxal olunur. Bütövlükdə ölkə əhalisinin istifadə etdiyi ərzaq məhsullarının orta hesabına 40%-ni kənardan gətirir. Yavalı immiqrantların gəlişi ilə, əlaqədar ölkənin kənd təsərrüfatında çəltiyin xüsusi çəkisi artmağa başlamışdır. Bu bitkinin ölkə iqliminə ezliklə uyğunlaşması və yüksək məhsuldarlığı qurudulmuş ə mühafizə edilmiş torpaq sahələrinin üstünlüyü ilə izah edilə bilər. Çəltiyin əkin sahələri əsasən sahilyanı ovalıqdır. Keçən əsrin 70-ci illərindən başlayaraq hər ildə məhsuldarldıq 170-180 min ton olan çəltiyin adambaşına ixracına görə Surinam dünyada birinci yerə çıxmışdır. Çəltikdən sonra ölkədə ən çox istehsal olunan və əhalinin ərzaq rasionunda xüsusi yer tutanı banandır. Banan həm də ölkənin əsas ixrac məhsullarındandır. Əkinçilik məhsulları içərisində şəkər qamışı, qəhvə, kakao, sitrus bitkilərinin də mühüm əhəmiyyəti vardır.

Ölkədə heyvandarlıq, əkinçilik qədər inkişaf etməsə də, perspektivdə daha sürətlə inkişaf edəcəkdir. Çox da iri olmayan heyvandarlıq fermaları ətlik və südlük istiqamətlidir. Son illər ölkədə sahil zolağında iri qurudulma və bərpa işləri həyata keçirilir. Bu bərpa olunmuş və qurudulmuş ərazilərdə şəkər qamışı əkinini genişləndirmək, çəltiyin məhsuldarlığını artırmaq nəzərdə tutulur. Surinam öz müsətəqilliyini əldə etdikdən sonra ilk növbədə məhsuldar torpaqlardan əlavə sahil zolağının bataqlaşmış zonasında qurudulma işlərinə başlamaq, çəltiyin əkin sahəsini getdikcə artırmağı qərara almışdır. Artıq 80-cı illərin ortalarında çəltiyin əkin sahəsi 2 dəfə artmışdır. Surinam Karib hövzəsinə aid olsa da, onun iri balıqçılıq təsərrüfatı demək olar ki, yox dərəcəsindədir. Bu ilk növbədə ölkənin balıqçılıq üçün ləvazimatının olmaması ilə izah edilir. Balıq sənayesini yaratmaq, inkişaf etdirmək, onu müasir gəmi və avadanlıqlarla təmin etmək dövlət qarşısında duran əsas vəzifələrdəndir.

Ölkənin elektroenergetika təsərrüfatının əsasını SES təşkil edir. Ölkənin ən iri SES-ı Surinam çayının yuxarı axarında tikilmiş "Brokonando" SES-dir. Bu SES-in istehsal gücü 150 min kvt-dır. Stansiyada istehsal olunan elektrik enerjisinin 90%-i ölkənin alüminium-oksid istehsal edilən müəssisələrinə verilir. Alüminium-oksid və alüminium istehsalı istisna olmaqla ölkənin emaledici sənayesi demək olar ki, hələlik zəif inkişaf etmişdir. Bu ilk növbədə kustar şəklində yerli xammalı, xüsusilə də, kənd təsərrüfatı məhsullarını emal edən xırda müəssisələrdir. Ağac emalı müəssisələri, sement, ayaqqabı, toxuculuq və tütün sənaye sahələri yaradılmışdır. Ağac emalı müəsisələri istehsal etdikləri qiymətli xammalı əsasən ixrac edir.

Ölkə nəqliyyatında avtomobilin xüsusi çəkisi daha böyükdür. Avtomobil yollarının ümumi uzunluğu 3 min km-dən çox olsa da bunun yalnız 920 km-i asfaltlaşdırılmışdır. Paramaribo və Niv-Nikkeri ölkənin əsas limanlarıdır.. Surinamın iqtisadi inkişafının perspektivləri olduqca çoxdur. Belə ki, ölkə ərazisi hələlik geoloji baxımdan kifayət qədər öyrənilməmiş və ya ehtiyatları müəyyənləşdirilmiş ərazilərin mənimsənilməsi müəyyən qədər çətinliklərlə

bağlıdır. Belə ki, ölkədə qəbul olunmuş "kabalebo" proqramının tədricən yerinə yetirilməsinə başlanılsa da, maliyyə çətinlikləri hələ ki, mövcuddur.

FRANSIZ QVIANASI

Sahəsi – 91 min km^2
Əhalisi – 157,2 mln. nəfər (2007-ci il)
Paytaxtı – Paramaribo

Cənubi Amerikanın şimal-şərq hissəsində Atlantik okeanı sahilində Fransanın əmlakı yerləşir. Sahəsinə görə Fransız Qviananı Portuqaliya kimi Avropa ölkəsi ilə bərabər saymaq olar, lakin əhalisinin sayına görə o, Portuqaliya əhalisinin sayından 100 dəfə azdır.

Şimalda Qviana Atlantik okeanına çıxır, onun sahili 320 km məsafədə qərbdən şərqə tərəf uzanır. Braziliyadan ölkəni şərqdə Oyapoki çayı, cənubda isə Tuluk-Umak dağ silsiləsi ayırır; qərbdə Surinam ilə sərhəd Maroni çayı sahili ilə keçir.

Ölkənin sahili-ovalıq və bataqlıqdan ibarətdir. Dördüncü dövrün dəniz çöküntüləri hesabına, formalaşmış ovalıqlar 20 km enində uzanmışdır və Atlantık okeanı sahilini əmələ gətirmişdir, onlar ölkə ərazisinin 6%-ni tutur. Qvananın qalan hissəsini Qviana yaylası tutur. Onun cənub hissəsində dəniz səviyyəsindən 850-900 m hündürlüklərdən ibarət olan Tumuk-Umak silsiləsi yerləşir. Bu silsilə ölkənin çayları arasında Atlantik okeanına və Amazonun qollarına axan çayların suayrıcısıdır.

Ölkənin iqlimi subekvatorial istidır, daimi temperaturları 25-28°C arasında tərəddüd edirlər. Yağıntıların miqdarı ildə 2500-4000 mm təşkil edir.

Qvananın əsas təbii varlığı sayılan meşələr ölkə ərazisinin 94%-ni tutur. Meşələrdə 500-dən çox ağac növü bitir. Onların arasında qırmızı ağac, çəhrayı ağacı, tik ağacı, muskat, mora ağacı və s. kimi qiymətli ağac növləri rast olunur. Lakin nəhəng (8 mln ha) meşə massivlərinin mənimsənilməsi və istismarı çətinlik törədir, çünki onlar praktiki olaraq əhalisi az olan yerlərdədir.

Heyvanat aiəmi də zəngindir: meymunlar, tapir, yaquar, sürünənlər, çoxlu quş və həşərat var. Dəniz və çaylar balıqla, krevetka ilə zəngindir.

Qviana qızıl və boksat ehtiyatlarına malikdir. Ölkə qızılvə boksit ehtiyatlarına malikdir. İlk qızıl yatağı XIX əsrin ortalarında Aratay çayında aşkar edilmişdir. Ən böyük boksit yataqları Ko rayonunda yerləşir. Onun ehtiyatı 50 mln.t qiymətləndirilir, bunlarda alüminium oksidi 40%-dir.

Qviana 1499-cu ildə X.Kolumb tərəfindən kəşf edilmişdir. 1604-cü ildə onun ərazisində ilk fransız müstəmləkəçilər məskunlaşmışlar. XVII-XVIII əsrlərdə bu ölkəni hollandlar və ingilislər dəfələrlə ələ keçirmək istəmişlər. Fransanın Qvianada hakimiyyəti 1817-ci ildə təsdiq olunmuşdur.

XIX əsrin ikinci yansı Fransız Qvianası üçün üç mühüm hadisə ilə qeyd olunur; quldarlığın ləğv olunması, ölkənin sürgün yerinə çevrilməsi və qızıl yataqlarının kəşf edilməsi. Quldarlığın ləğv olunması plantasiya təsərrüfatında işçi

qüvvəsinin çatışmamazlığına gətirib çrxardı, bu da Fransa hökumətini immiqrasiya siyasətinə vadar etdi.

1852-ci ildə Fransız Qvianası sürgün yerinə çevrildi. Paris kommunasının məğlubiyyətindən sonra buraya çox kommunarlar sürgün olunmuşdur. Təxminən bir əsr Qviana sürgün yeri olmuşdur. 1852-ci ildən 1939-cu ilə qədər Fransadan müstəmləkəyə 70 mindən artıq məhbus gətirilmişdir.

Qviananın ən mühüm və daimi problemlərindən biri işçi qüvvəsinin və əhalinin çatmamazlığıdır, müxtəlif təbii resurslarla zəngin olan ölkənin daxili rayonlarının mənimsənilməsi üçün işçi qüvvəsi çatmır. Təqribən əhalinin 70%-i Kayenna adasında toplanmışdır, sahil zonasında isə ölkə əhalinin cəmi 90%-i yaşayır. Qviana əhalisinin əksəriyyətini və yaxud çoxsaylı qrupu kreollardır ki, onların sayı 40 min nəfərə çatır, bunlardan 1/3-i Fransız Antil adalarından gələnlərdir. Kreollardan sonra, əhalinin miqdarına görə avropalılar - fransızlardır. Meşə zənciləri (2 min nəfər), hindular (əhalinin 10%-i), çinlilər, hindlilər və b. yaşayır. Rəsmi dil fransız dilidir. Hakim din-xristianlıqdır. Zəncilər və hindularda qədim etiqadların qalıqları saxlanılmışdır.

Əhalinin orta artım tempi Qvianada - ildə təqribən 2%-dir. Əhalinin yarıya qədəri 20 yaşdan cavandır. İqtisadi aktiv əhali 30 min nəfərdir, bunlardan 1/3-i kənd təsərrüfatında çalışır.

Urbanizasiyanın səviyyəsi yüksəkdir. Əhalinin 55%-i şəhərlərdə yaşayır. Ən böyük şəhər - ölkənin inzibati mərkəzi Kayenna şəhəridir.

Fransız Qvianası geri qalmış aqrar ölkədir. İqtisadiyyatı Fransa və ABŞ kapitalının nəzarəti altındadır. Əhalinin əsas məşğuliyyəti əkinçilikdir. 1990-cı ildə DİM 250 min dollar idi. Ərazinin 0,2%-i şumlanır, özü də əksərən sahildə. Əsas kənd təsərrüfatı bitkiləri: tərəvəz, banan, çəltik, şəkər qamışı, maniok, qarğıdalı və sitrusdur. Heyvandarlıq inkişaf edir: iri buynuzlu mal-qara - 17 min baş, donuzlar - 10 min baş, quşlar -160 min başdır.

Qviananın təkində böyük qızıl, boksit, tantal və b. filiz ehtiyatı yataqları vardır. Ən əhəmiyyətlisi qızıl hasilatıdır (530 kq). Qızıl ixracından alınan gəlir 4,5 mln dollar idi. Boksit yataqları da aşkar edilmişdir (ehtiyatı 42 mln t). Ölkədə rom istehsalı fabrikləri, qızıl gül essensi fabriki, krevetkaların dondurması və konservləşdirilməsi müəssisələri vardır.

Bütün quraşdırılmış elektrik stansiyaların ümumi gücü - 31 min kvt-dır.

Qviananın böyuk portları: Deqra-de-Kani, Kayenna və b. Beynəlxalq aeroport Roşambo (Keyseqqadan 17,5 km).

Kuruda fransız kosmik mərkəzi var, buradan Yerin suni peykləri buraxılması üçün istifadə olunur.

Əsas ticarət partnyorlan: Fransa (idxalın 62%-i, ixracatın 34%-i), AFR, ABŞ, Yaponiyadır.

FOLKLEND (MALVİN) ADALARI

Sahəsi – 12,1 min km^2

Əhalisi – 3 min nəfər

Folklend (malvin) adaları Böyük Britaniya və Argentina arasında mərcli, münaqişəli ərazidir. Cənubi Amerikanın sahillərində Atlantik okeanının cənub-qərb hissəsində, eyni adlı arxipelaqdır. İki böyük adalardan - Şərqi Folklend (Soledad) və Qərbi Folklend (Qrand-Malkina) və 200-ə yaxın kiçik adalardan ibarətdir. Onun sahəsi 12,1 min km^2, əhalisi -3 min nəfərdir. Rəsmi dil - ingilis. Hakim din - protestant, inzibati mərkəzi - Port-Stenli şəhəridir, Şərqi Folklend adasındadır.

Adalar əsasən metamorfik və çökmə süxurlarından ibarətdir. Sahilləri çox girintili-çıxıntılıdır. Adaların əksər hissəsi düzənliklərdən (200 m-yə qədər) ibarətdir. Mərkəzlərində alçaq yaylalar (hündürlüyü 500-700 m) yerləşir. İqlimi - okean tipli, sərin, bərabər-rütubətlidir. Orta illik temperatur 10°C-dən çox olmur, il ərzində 600-700 mm yağıntı düşür. Arxipelaqın çox hissəsi çəmənliklərdən və torflu bataqlıqlarla örtülüdür. Adalarda çoxlu dəniz quşlarının və Malkin adalarının şelfində neft yataqları aşkar edilmişdir.

Arxipelağın əhalisi əsasən ingilislərdən və şotlandardan ibarətdir. Onlar əsasən qoyunçuluqla, eləcə də bataqlıq və dəniz heyvanlarının ovlanması ilə məşğullurlar. Kənd təsərrüfatı bitkilərindən yulaf və tərəvəz becərilir.

Adalar 1520-ci ildə kəşf edilmişdir. 1764-cü ildə fransızlar Folklend adalarını müstəmləkəyə çevirmiş, 1766-cı ildə İspaniyaya satmışdır. 1810-cu ildə argentinalıların əlinə keçmiş, adalar üzərində 1820-ci ildə Argentinanın suverenliyi elan edilmişdir. 1833-cü ildə Folklend adalarını ingilis hərbi desantı tutduqdan sonra İngiltərə buranı öz müstəmləkəsi hesab edir. Argentina isə Folklend adalarının işğalı faktını heç vaxt tanımamışdır. BMT-nin Baş Məclisi 1965-ci ildə qəbul etdiyi qətnamədə mübahisənin dinc yolla həllini tapmağa çağırmışdır. Argentina 1982-ci ildə Folklend adalarına qoşun çıxararaq adalar üzərində öz suverenliyini bərpa etməyə cəhd göstərirdi. Lakin ingiltərənin hərbi tədbirləri nəticəsində Folklend adaları elə həmən il yenidən ingilislərin hakimiyyəti altına düşdü.

Adalar ingilis qubernatoru tərəfindən idarə olunur.

Bu yaxınlaradək adaların təsərrüfatının əsasını ətlik-yunlluq qoyunçuluq təşkil edirdi. Otlaqların sahibkarı ingilis şirkəti "Folkend aylendz kompani"yə (bütün torpaqların 1/2-dən çoxu) məxsusdur. Həmçinin nəqliyyat daşımaları da onun əlindədir. XX əsrin 80-ci illərinin ortalarından əsas gəlir mənbəyi balıqçılıq təsərrüfatı oldu, nəticədə milli gəlir üç dəfə artdı. Bir neçə kiçik yeyinti müəssisələri vardır, yun növləşdirmə fabriki fəaliyyət göstərir.

Adaların xarici ticarəti tam mənada Böyük Britaniya ilə həyata keçirilir. İxrac məhsulları: yun, dəri, ət, balina və suiti piyi; idxalı: məişət malları, maşın, avadanlıq, nəqliyyat vasitələri, yanacaq, sürtkü yağları və s-dir.

URUQVAY

Sahəsi – 176,2 min km^2
Əhalisi – 3,4 mln. nəfər (2006-ci il)
Paytaxtı – Montevideo

Ərazisinin formalaşması, təbii şəraiti, resurslarının iqtisadi cəhətdən qiymətləndirilməsi

Müasir ərazisinin ölçülərinə görə Uruqvay Latın Amerikası ölkələri içərisində kiçik dövlətlərdən biridir. O, materikin cənub-şərqində, Uraqvay çayının şərq sahilində yerləşdiyindən Oriental del Uruqvay, yəni şərqi Uruqvay Respublikası adını almışdır. Ölkənin ərazisi cənub-qərbdə və qərbdə Argentina, şimalda və şərqdə Braziliya, cənub-şərqdə isə Atlantik okeanın suları ilə əhatələnir. Ərazinin Argentina ilə sərhəddi Uruqvay çayı və La Plata boyu keçir.

Eldorado əfsanəsi insanların bu regiona marağını getdikcə artırırdı. O dövrdə çox güclü olan İspaniya Hindistana dəniz yolunu tapmaq üçün bir-birinin ardınca ekspedisiyalar təşkil edirdi. Bu ekspedisiyalar isə Kolumbun kəşf etdiyi istiqamətdə hərəkət edərək Mərkəzi Amerikaya gəlib çıxırdılar. Təxminən 20-25 ildən sonra gəmilər materikin cənub ərazilərinə doğru istiqamətlənməyə başladılar. İspan konkistadorlarının bu əraziyə gəlişinədək yerli əhali hindu tayfalarından ibarət idi. XVI əsrdə ispanların bura gəlişi ilə digər Cənubi Amerika əraziləri kimi Uruqvay da böyük ispan müstəmləkəsinin bir hissəsinə çevrildi. Lakin Uruqvayın ərazisi İspaniya ilə Portuqaliya müstəmləkələrinin sərhəddində yerləşdiyindən onların arasında uzun müddət mübarizə getmişdir. Uruqvay əraziləri uğrunda mübarizə İspaniyanın qələbəsi ilə nəticələndi. 1776-cı ildə Uruqvay Rio-de-La-Plata vitse-krallığının tərkibinə daxil edilir, 1778-ci ildə isə Montevideo şəhərinə İspaniya azad ticarət hüququ verir. Bu hüququn verilməsi həm şəhər, həm də ölkə iqtisadiyatının sürətli inkişafına zəmin yaratdı.

1806-cıildə Montevideo ingilislər tərəfindən zəbt edilsə də, onlar tezliklə şəhəri tərk etməli oldular.

Ölkədə tezliklə milli-azadlıq hərəkatı genişlənməyə başladı. 1811-cı ildə Artiqasın rəhbərliyi ilə azadlıq ordusu ispan ordusuna qalib gəldi. Müstəqillik uğrunda mübarizə uzun illər boyu davam etdi və bunlar Braziliya ilə Argentina arasında toqquşma ilə nəticələndi. 1828-ci ildə Argentina ilə Braziliya arasında bu ərazidən qarşılıqlı surətdə imtina edilmə şərtilə müqavilə imzalanıb, həmin ərazidə müstəqil dövlətin yaranması barədə razılıq əldə edildi. 1830-cu ildə ilk konstitusiya qəbul edilərək Şərqi Uruqvay Respublikası elan edildi.

Ərazisinin çox da böyük olmaması onun təbii şəraitinin bir şəkildə olmasına şərait yaradır. Ərazinin relyefl təpəli-düzənlik xarakterlidir. Bəzi yerlərdə yüksəkliklər nəzərə çarpır. Maksimum hündürlük 600 m-dən çox deyildir. Düzənlik cənub-qərbdən şimal-şərqə doğru yüksəlir. Atlantik okeanının sahili boyu qumlu düzənlik və xırda laqunlar uzanır. Bu ərazilərdə tez-tez bataqlıqlaşmış sahələrə rast gəlinir.

Uruqvay subtropik iqlim vilayətində yerləşir. Ən soyuq ayın, yəni iyulun orta temperaturu +10-12°C, ən isti - yanvarın +22-24°C, orta illik isə +16°C təşkil edir. Bəzən soyuq cənub küləklərinin -pamperosların əraziyə daxil olması temperaturunua kəskin surətdə aşagı düşməsinə səbəb olur ki, bu da çox vaxt kənd təsərrüfatına ciddi ziyan vurur. Ölkə ərazisinə il boyu yağıntılar bərabər miqdarda düşür. Montevideo rayonuna il ərzində orta hesabla 1000 mm-dək yağıntı düşür. Uruqvayın yumşaq, rütubətli mülayim iqlimi həm taxıl bitkilərinin, həm də subtropik meyvəçiliyin inkişaf etdirilməsi üçün olduqca əlverişlidir.

Ölkə sıx çay şəbəkəsinə malikdir. Ərazisinin çox hissəsini Uruqvay çayının hövzəsi əhatə edir. Ölkənin əsas çayı olan Uruqvayın ümumi uzunluğu 1650 km olub, öz başlanğıcını Braziliya yaylasından götürür. Parana çayı ilə qovuşaraq mənsəbdə La-Plata qıfabənzər estuarisini əmələ gətirir. Ölkənin əsas çayı və onun qolları nəinki əhalinin və təsərrüfatların su təminatında, hətta enerji istehsalında da böyük əhəmiyyəti vardır.

Uruqvayın torpaq-bitki örtüyü çox da mürəkkəb deyildir və torpaqları əsasən qara torpaqlardan ibarətdir. Geniş pampalar şirəli otlarla zəngindir və otlaq heyvandarlığın inkişafı üçün gözəl zəmin yaradır. Ağacsız savannalar son illər xeyli dərəcədə öz simasını dəyişdirmişdir. Təbiətdən səmərəli istifadə etməmək landşaftın xeyli dəyişməsinə səbəb olmuşdur. İspanlar ərazini zəbt edərək zəngin qızıl və gümüş ehtiyatlarına rast gəlməsələr də, şirəli otlardan ibarət çəmənliklər onları heyran etmiş və qısa müddət ərzində onlar otlaq heyvandarlığını inkişaf etdirə bilmişdilər. Sonralar Uruqvay öz müstəqilliyini əldə etdikdən sonra xarici investisiyalar hesabına geoloji kəşfiyyat işlərini genişləndirərək müəyyən qədər dəmir filizi və manqan ehtiyatları ölkənin şərq regionunda aşkar edilmişdir. Bundan başqa qızıl, gümüş və qurğuşun filizinin çox da böyük olmayan yataqları aşkar edilmişdir.

Ölkədə məhsuldar qüvvələrin inkişafı sürətli artdıqca antropogen landşaft daha qabarıq görünməyə başlayır. Bir vaxtlar öz gözəl meşələri ilə seçilən Uruqvayda indi meşəliyə çox nadir hallarda rast gəlinir.

Əhalisi, əmək ehtiyatları və məskunlaşma formaları

İspanlar gələnə qədər burada müxtəlif hindu tayfaları yaşayırdı. Bu hindu tayfaları içərisində sayca daha çox, döyüşkən və ölkənin cənub ərazilərində köçəri həyat tərzi keçirən çarrua tayfası daha təhlükəli idi. Çarrua tayfası Amerikada ən qədim hindu tayfalarından biridir. Onlar inklər, asteklər və mayyalar kimi möhtəşəm tarixi abidələr, incəsənət nümunələri və s. yaratmasalar da öz torpaqlarını, azadlıqlarını hər şeydən üstün tutmuş, bunun üçün hər şeyə hazır olmuşlar. Uruqvay ərazisinin müstəmləkəyə çevrilməsi dövründə onların da fiziki cəhətdən ləğv edilməsi dövrü başlamışdır. Digər hinduların məhvində ispanların səxavətliklə təklif etdikləri keyfiyyətsiz rom içkisi az rol oynamamışdır. Yalnız çarrua tayfası müstəmləkəçilərə qarşı ciddi müqavimət göstərirdilər. Onlar yaşamaq hüququnu əldən verməyərək müstəqillik uğrunda fəal mübarizə aparırdılar. Uruqvayın müstəqilliyinin elan olunmasından sonra

onların faciəsi başlandı. Çarrualar ənənəvi bayramda Kequay çayının sahilinə endilər. Ağ dərililər öz daxili aləmini açıb, dərin nifrət və simasızlıqlarını bir daha sübuta yetrdilər. Çay rom içkisi ilə doldu. Rom öz təsirini göstərməyə başladıqda vahid siqnal əsasında hinduların doğranılma mərasimi başladı. Son nəfərədək, qoca, qadın, körpə həlak oldu və beləliklə məğrur bir hindu tayfasının kökü kəsildi.Məhz bunun nəticəsidir ki, Cənubi Amerikada digər ölkələrdən fərqli olaraq Uruqvayda bir nəfər də hindu qalmamışdır.

Argentinanın 1810-cu il may inqilabı bütün La-Platada azadlıq bayrağının qaldırılmasına təkan verdi. 1811-ci il fevralın 28-də Uruqvayda Xose Artiqasın başçılığı ilə nümayiş dalğası başladı. 1814-cü ildə La-Platada ispan müstəmləkəçiliyinin 300 illik əsarətinə son qoyuldu.

XIX əsrin ikinci yarısından sonra Uruqvaya avropa immiqrantlarının axını başladı. Bu immiqrantlar arasında ispan, italyan, fransız, habelə isveçrəli, alman və slavyanların miqdarı daha çox idi.

1929-33-cü illərdə ümumdünya iqtisadi böhranından sonra immiqrasiya kəskin surətdə azaldı, Uruqvay hökuməti də immiqrantlar üçün müəyyən qadağalar tətbiq etdi. Ölkə əhalisinin hal-hazırda 90%-ni uruqvaylılar təşkil edir. Ərazinin şimalında müəyyən qədər metislər, ayrı-ayrı ərazilərdə zəncilər, XIX əsrin əvvəllərində Afrikadan gətirilmiş qulların nəslinin davamçıları olan mulatlar yaşayır. Hazırda Uruqvay Argentina ilə yanaşı Latın Amerikasının ən "avropalaşdınlmış" ölkəsidir.

Uruqvay əhalisinin ən çox artımı XIX əsrin sonu XX əsrin əvvəllərində immiqrantların hesabına olmuşdur. İmmiqrantların arasının kəsilməsi ilə də təbii artımın kəskin azalması müşahidə edilmişdir. Hal-hazırda təbii artım hər 1000 nəfərə 10 nəfərdir. Bu Latın Amerikasında ən aşağı göstəricidir.

Əhalinin yaş strukturunda fərqli cəhətlər mövcuddur. İnkişaf etmiş ölkələrdə olduğu kimi burada da uşaqların xüsusi çəkisi azdır.

Ölkədə əhalinin yerləşməsi, məskunlaşma problemləri, urbanizasiya səviyyəsinin getdikcə artması xüsusilə də paytaxtda cəmləşməsi kəskin hal almışdır. Ümumi əhalinin 80%-dən çoxu şəhərlərdə yaşayır ki, bu da Latın Amerikasında ən yüksək göstəricilərdəndir. Ölkə əhalisinin təxminən 50%-ə qədəri Montevideo şəhərində cəmləşmişdir. Əhalinin məskunlaşması və sıxlığında da müəyyən dispraporsiya vardır. Ən çox əhali cənub, cənub-qərb, ən az isə şimal regionunda məskunlaşmışdır. Ölkə əhalisinin məskunlaşması tarixən elə qurulmuşdur ki, immiqrantların demək olar ki, əksəriyyəti şəhərlərdə yerləşmişlər. Sahibkarlara məxsus olmuş, bu ərazilərdə isə az işçi qüvvəsi tələb olunan heyvandarlıq təsərrüfatlarl fəaliyyət göstərmişdir. Buna görə də kənd yaşayış məntəqələri kiçik, əhalisi isə azdır.

1726-cı ildə Buenos-Ayres və İspaniyadan bir neçə ailənin La-Platanın gətirdiyi çöküntülərlə örtülmüş daşlı yarımadasına gəlməsi ilə Montevideo şəhərinin əsası qoyulmuşdur. Uruqvayın paytaxtı Portuqaliyalı dənizçinin qışqırdığı kimi "Monte vide eu", yəni "Mən dağ görürəm" adını saxlamışdır. Bu fikir nadir olmasa da Uruqvayda paytaxtın adı haqqında ən geniş yayılmış fikirdir.

Montevideo qala kimi əsası qoyulmuş və davakar portuqaliyalılardan qorunmaq məqsədi daşıyırdı. Üç tərəfdən La-Plata ilə əhatələnən qalanın altımetrlik divarları onu tamamilə təhlükəsiz hala salmışdı. Şəhər sonralar liman kimi xüsusi əhəmiyyət kəsb etməyə başlamışdır. Bu liman vasitəsilə ixrac-idxal əməliyyatları həyata keçirilmiş, immiqrantlar burada özlərinə dayanacaq tapmış, şəhərin kəskin şəkildə böyüməsinə şərait yaratmışlar. Təxminən ölkə əhalisinin yansını özündə cəmləşdirən paytaxt iqtisadi inkişafın aynasıdır. İri sənaye müəssisələri, xüsusilə də, ət emalı müəssisələri burada cəmləşmiş, neft emalı, gön-dəri, ayaqqabı, gəmiqayırma və digər sənaye müəssisələri özlərini qabarıq şəkildə əks etdirir. Digər tərəfdən Montevideo respublikanın əsas mədəniyyət mərkəzidir. Burada uruqvaylıların bütün mədəni inkişafının xarakterik cəhətləri və ənənələri toplanmışdır.

Təsərrüfatının əsas sahələri və inkişaf perspektivləri

Uruqvay Latın Amerikasında nisbətən inkişaf etmiş ölkələrdəndir. Ölkədə aparılan iqtisadi siyasət son illərdə onun sürətli inkişafını artırmağa yönəlmişdir. Ərazi təbii resurslarla təmin olunma səviyyəsinə görə kasıblar sırasındadır. XX əsrin 80-ci illərində ölkənin şimal ərazilərində müəyyən qədər dəmir filizi ehtiyatı aşkar edilmişdir. Geniş otlaq sahələri heyvandarlıqda iri ixtisaslaşmış təsərrüfatların yaradılmasına şərait yaratmışdır. Ümumi daxili məhsulun adambaşına miqdarına görə Latın Amerikasında ən yüksək göstəricisi olan ölkələrdəndir. XX əsrin ortalarından başlayaraq iqtisadiyyatında baş verən hərc-mərclik onun müəyyən qədər zəifləməsinə gətirib çıxarmışdı. 70-ci illərin ortalarında baş verən hərbi çevriliş 80-ci illərin ortalarınadək davam etmiş, nəhayət 1989-cu ildə ümumi demokratik seçkilər nəticəsində stabil dövlət və parlament formalaşmışdır. Bu da yeni iqtisadi siyasət strategiyasının fomalaşmasının əsasını qoydu. Qəbul olunmuş iqtisadi proqram dövlət bölməsinin özəlləşdirilməsini, iqtisadiyyatın liberallaşdırılmasını, tədricən iqtisadiyyata dövlət nəzarətinin azaldılmasını nəzərdə tuturdu. Bu gün də Uruqvayda iqtisadi siyasət özəlləşdirmənin sürətləndirilməsinə, xarici kapitalın cəlb edilməsinə, sənayenin, xüsusilə də emaledici sənayenin inkişaf etdirilməsinə istiqamətləndirilmişdir. Əgər keçən əsrin 80-ci illərinin axırlarında ümumi daxili məhsulun 40%-i kənd təsərrüfatının payına düşürdüsə, bu gün ölkə daxilində ümumi daxili məhsulun 14,3%-i kənd təsərrüfatı, meşə və balıq təsərrüfatlarının, 29%-i sənayenin, eletroenergetika, qaz və su təsərrüfatlarının, 2,9%-i tikintinin, 6,4%-i nəqliyyat, rabitə və anbar təsərrüfatlarının, 48,4%-i isə ticarət və xidmət sahələrinin payına düşür.

Uruqvay iqtisadiyyatının əsasını uzun müddət kənd təsərrüfatı, xüsusilə də heyvandarlıq təşkil edirdi ki, o da ixrac istiqamətli idi. İspanlar tərəfindən gətirilmiş iribuynuzlu mal-qara bol otlaq sahələrinə əsasən heyvandarlığın sürətlə inkişafına təkan verdi. Bu da öz növbəsində xarici ölkələrdə geniş maraq doğurduğundan heyvandarlığın inkişaf etdirilməsi, məhsulun isə dünya bazarına çıxarılması ilə nəticələndi. XIX əsrin sonu XX əsrin əvvəllərində artıq Uruqvay

beynəlxalq əmək bölgüsündə dar ixtisaslı heyvandarlıq məhsullarının - ət, yun, dəri ixracatçısı kimi öz mövqeyini möhkəmləndirdi.

a) Kənd təsərrüfatı. Ərazisində müstəmləkə dövründə təbii resursların kasadlığı Uruqvayın ixtisaslaşmasında, xüsusilə heyvandarlıq üzrə inkişaf etdirilməsinə şərait yaratmışdır. Odur ki, heyvandarlıq təsərrüfatlarının yaradılması və ixtisaslaşdırılma prosesi sürətlənərək ölkənin iqtisadi qüdrətinin artmasına imkan yaratdı.

XIX əsrin ikinci yarısından başlayaraq heyvandarlığın yüksək inkişaf sürəti xarici amillərin təsiri altına düşdü. Qərbi Avropa ölkələrinin sənayesinin sürətli inkişafı onların ərzaq məhsullarına olan tələbatlarını artırdığından digər Latın Amerikası ölkələri kimi Uruqvayın da xarici bazara uyğunlaşmasına şərait yaradırdı. İlkin dövrdə ixrac olunan məhsullar arasında dəri, piy, yün, sonradan is ətin xüsusi çəkisi artmağa başladı. Məhsul ixracına tələbat artdıqca ətin sənaye üsulu ilə istehsalı yaranmağa və inkişaf etməyə başladı. Əvvəlcə piy və ət duzlama sahələrinin tikintisi təşkil edildi. Bu Uruqvayın tezliklə böyük miqdarda duzlu ət və piy ixracına imkan verdi. Lakin müəyyən dövrdən sonra ispanların bura gətirdikləri cins olmayan kreol mal-qarası avropa bazarmın artan tələbatını ödəyə bilmədi. Duzlama müəssisələrinin əvəzinə ət soyuducu müəssisələri yarandı. Ətin soyudulmaqla saxlanılması prosesi getdikcə daha yaxşı öyrənilməyə başladı və ilkin soyuducu gəmilər meydana gəldi ki, bu da Uruqvay iqtisadiyyatında yeni mərhələnin başlanması demək oldu. Ət soyuducu müəssisələr ölkədə ilk iri sənaye müəssisələri oldu. Yeni sənaye sahəsinin yaranması çoxlu kapital qoyluşu tələb etdikcə xarici kapitalın ölkə iqtisadiyyatında rolu artmağa başladı. Bu ilk növbədə amerika və ingilis kapitalı idi. Digər tərəfdən ət soyuducu müəssisələrinin yaranması heyvandarlığın inkişafına da ciddi təkan verdi. Heyvandarlığın və ət təsərrüfatının ixrac istiqamətində inkişafı ölkədə dəmir yollarının ingilis şirkətləri tərəfindən tikintisinə başlamağa təhrik etdi.

Avropadan köçüb gələnlər buğda, kətan, tərəvəz istehsal etməyə başladılar. Gəlmələrin sayı artdıqca yem bitkilərinin də əkin sahələrinin yaradılmasına başlandı və ilk növbədə yonca əkilərək heyvandarlığın inkişaf etdirilməsi üçün bu yem bazasının möhkəmləndirilməsi mərhələsi oldu.

Uruqvayın torpaq fondunun 98%-i kənd təsərrüfatına yararlı torpaqlardır ki, bunun da 78,5%-ni otlaqlar, 8,4%-ni isə əkin sahələri təşkil edir. Burada da digər Latın Amerikası ölkələrində olduğu kimi torpaqların təmərküzləşməsi olduqca böyükdür. Belə ki, sahəsi 1000 ha-dan çox olan torpaq sahələri ümumi təsərrüfatların 6,5%-nin payına düşür ki, bunların da xüsusi çəkisi ümumi yararlı torpaqların 55,4%-dir. Bütün bunlara baxmayaraq Uruqvayın kənd təsərrüfatında kapitalist istehsal münasibətləri Latın Amerikasının digər ölkələrindən fərqli olaraq daha yaxşı qurulmuşdur. Bu özünü ilk növbədə muzdlu əməkdə, kənd təsərrüfatı istehsalının nisbətən yüksək əmtəəliyində və mexanikləşdirmədə göstərir. Heyvandarlıqdan fərqli olaraq bitkiçilik nisbətən kiçik təsərrüfatlarda - çakraslarda becərilir və inkişaf etdirilir. Əkin sahələrində buğda, qarğıdalı, arpa və

darı üstünlük təşkil edir. Texniki bitkilərdən nisbətən geniş yayılanı kətan və günəbaxandır. Son illər şəkər çuğundurunun əkin sahələri də artmışdır.

Montevideo şəhərindən şimalda qarğıdalının əkin rayonu yerləşir. Burada qarışıq təsərrüfatlar üstünlük təşkil edir. Bu təsərrüfatlar əsasən quşçuluq, donuzçuluq, qarğıdalı, həmçinin də meyvə və tərəvəzçiliklə də məşğul olurlar. Montevideodan qərb və şimal-qərb hissədə ölkənin "südçülük zonası" yerləşir. Burada iri heyvandarlıq təsərrüfatları ilə yanaşı südlük-ətlik istiqamətli iri və orta, yüksək məhsuldarlıqlı kiçik südlük təsərrüfatları da fəaliyyət göstərir.

Uruqvay çayının sol sahilində Litoral adlanan rayon ölkənin əsas buğda istehsalçısıdır. Burada həmçinin kətan və günəbaxanın böyük əkin sahələri vardır. Bu rayonda bütün sahələr iri təsərrüfatlarda ixtisaslaşmışlar. Uruqvayın müasir iqtisadi həyatında indi də heyvandarlıq əsas təsərrüfat sahəsidir. Əsasən iri buynuzlu mal-qara və qoyunçuluq geniş yayılmışdır. Qoyunların sayı 20 mln. başdan artıqdır. Onların məhsuldar növləri bura XIX əsrin ortalarında gətirilmişdir. Bu qoyunlar əsasən zərif yunlu olub, gözəl yun tədarük etmək üçün saxlanılır. Bütün heyvandarlıq təsərrüfatları iri ölçüləri ilə fərqlənir.

b) Sənayesi. Uruqvayın sənayesi onun kənd təsərrüfatı ilə sıx əlaqədardır, belə ki, ölkədəki əsas sənaye sahələri onun məhsullarının emalına əsaslanır. Argentinada olduğu kimi burada da kənd təsərrüfatı məhsulunun istehsalı, emalı və ixracı ölkənin beynəlxalq aləmdə simasını müəyyənləşdirir. Beynəlxalq əmək bölgüsündə Uruqvay qaramal və qoyun əti istehsalı ilə fərqlənir. Ölkənin əsas ət-sənaye kompleksləri Montevideo və Fraybentos şəhərlərində cəmləşmişdir.

Yeyinti sənayesinin digər inkişaf etmiş sahələrinə yağ istehsalı, unüyütmə və meyvə-tərəvəz konserv müəssisələri də aiddir. Uruqvay üçün ənənəvi sənaye sahələrindən biri də gön-dəri və ayaqqabı istehsalıdır. Bu məhsulların istehsalının inkişaf etdirilməsi üçün zəngin xammal ehtiyatı vardır. Uruqvay dəri məmulatlarının ən iri ixracatçılarındandır.

Kənd təsərrüfatı ilə sıx əlaqəsi olan sənaye sahələrindən biri də toxuculuq sənayesidir. Bu sənaye sahəsi üçün də zəngin xammal zərif yun və kətan istehsalı vardır. Ağır sənayenin inkişafı üçün xammal bazası zəifdir. Əsas aparıcı sahələri sayılan neftemalı və kimya sənayesi gətirilmə xammala əsaslanır.

Uruqvayda istehsal olunan elektrik enerjisi SES-lərə əsaslanır. Əgər SES-lərin ümumi istehsal gücükeçən əsrin 80-ci illərində 80%-idisə və onun da qalan 20%-i gətirilmə neftə əsaslanırdısa, hal-hazırda SES-lərin gücü 96%-ə çatmışdır. Uruqvay SES-lərdə istehsal olunan elektrik enerjisinin 50%-ni ixrac edir.

Uruqvayın nəqliyyat şəbəkəsi nisbətən seyrəkdir. Heyvandarlığın sürətli inkişafı, ət və ət məhsullarının ixracı, Avropa ölkələrinin Uruqvay məhsullarına tələbatının artması ölkədə dəmir yollarının salınmasına təkan verdi. Dəmir yolların çəkilişinə ingilis şirkətləri həvəslə qoşuldular. Bu gün ölkənin dəmir yollarının ümumi uzunluğu 3 min km-dən çoxdur. Avtomobil yollarının ümumi uzunluğu 52 min km-dən artıq olsa da, bunun yalnız 15 min km-dən çoxu bərk örtüklü şosse yollarıdır. Ölkədə su nəqliyyatının rolu olduqca böyükdür. Uruqvay və La-Plata

çayları müstəsna rol oynayır. Su yollarının ümumi uzunluğu 1250 km-dir. Montevideo ölkənin əsas nəqliyyat qovşağıdır.

Uruqvay Latın Amerikasında sürətlə inkişaf edən ölkələrdəndir. Uruqvay beynəlxalq əmək bölgüsündə özünün aqrar məhsulları, xüsusilə də heyvandarlıq məhsulları ilə çıxış edir. İdxal etdiyi məhsullar əsasən yanacaq, kimya məhsulları və sənaye avadanlıqlarıdır. Son illərdə turizm əsas sahələrdən birinə çevrilməkdədir.

ƏDƏBİYYAT

1. Мащбиц Я.Г. Мексика. Экономика-географическая характеристика. М., 1961.
2. А. Бассольс Баталья. Экономическая география Мексики. М., 1980.
3. Bayramov K.B. Meksikanın iqtisadi-coğrafi səciyyəsi. B.,1999.
4. Б.Н.Дунаев. Перу. М., 1984.
5. Кузнецов В.С. Перу. М., 1976.
6. Лативрина Э. Колумбия. М., 1986.
7. Мировая экономика международные отношения. М., 1993.
8. Дино Н.С. Иностранный капитал Чили и его влияние на еконоьтческой развитие страны. М., 1985.
9. Богословский В. Гайана. М., 1969.
10. Mirzəzadə A., Bayramov K. Dünyanın iqtisadi və sosial coğrafıyasının tədrisinə dair. Bakı, 1997.
11. Mirzəzadə A., Bayramov K., Uluxanlı N. Dünyanın fıziki və iqtisadi xəritəsinin öyrənilməsinə dair. Bakı, 2000.
12. Bayramov K.B., Mirzəzadə A.M. And Ölkələri. Bakı, 2000.
13. Bayramov K.B., Mirzəzadə A.M., Zeynallı Y.Q. La-Plata və Amazon hövzəsi ölkələri. Bakı, 2003.
14. Ковальская А.С. Гайана. М., 1983.
15.Харитонов В.А. Парагиай. М., 1976.
16. Пименова Р.А. М., 1974
17. Пименова Р.А., Шейнбаум Л.С. Аргентина. М., 1983.
18. Страны и народы. Южная Америка. М., 1983.
19. Максаковский В.Б. Экономическая и социальная география мира. М., 1995.
20. Долинин А.А. Экономические районь Чили. М., 1965.
21. Страны мира. М., 2000.
22. Məmmədov C.A. Vest-Hind ölkələri. B., 1998.

Latın Amerikasının regionları

№	Regionlar	Ölkələr	Ərazisi, min km^2	Əhalisi, min. nəfər	Paytaxtı	Dövlət quruluşu
1	2	3	4	5	6	7
1.	Mərkəzi Amerika ölkələri	Meksika	1958,2	106,4	Mexiko	Federativ Respublika
		Nikaraqua	129,5	5,0	Manaqua	Respublika
		Honduras	112,0	6,4	Tequsiqalpa	Respublika
		Qvatemala	128,9	13,0	Qvatemala	Respublika
		Panama	77,0	3,1	Panama	Respublika
		Kosta-Rika	51,1	3,8	San-Xose	Respublika
		Beliz	23,0	0,3	Belmopan	Britaniya birliyinin üzvü
		Salvador	21,4	6,6	San-Salvador	Respublika
2.	Vest-Hind ölkələri	Kuba	111,0	11,4	Havana	Respublika
		Dominikan	48,5	8,6	Santa-Dominqo	Respublika
		Haiti	28,0	7,0	Porto-Prens	Respublika
		Baham adaları birliyi	13,9	0,4	Nassau	Britaniya birliyinin üzvü
		Yamayka	11,0	2,8	Kinqston	Britaniya birliyinin üzvü
		Puerto-Riko	9,1	4,3	San-Xuan	ABŞ-la sərbəst birləşmiş müstəqil ərazi
2.	Vest-Hind ölkələri	Trinidad və Tobaqo	5,1	1,3	Port-of-Speyn	Britaniya birliyinin üzvü
		Dominika	0,8	0,07	Rozo	Britaniya birliyinin üzvü
		Sent-Lyusiya	0,6	0,2	Kastri	Britaniya birliyinin üzvü
		Barbados	0,4	0,3	Brictaun	Britaniya birliyinin üzvü
		Antiqua və Barbuda	0,4	0,07	Sent-Cons	Britaniya birliyinin üzvü
		Sent-Vinsent və Qrenadina	0,4	0,1	Kinqston	Britaniya birliyinin üzvü
		Qrenada	0,3	0,09	Sent-Corces	Britaniya birliyinin üzvü
		Sent-Kits və Nevis	0,3	0,04	Baster	Britaniya birliyinin üzvü
1		3	4	5	6	7
3.	A	Peru	1285,2	28,0	Lima	Respublika
		Kolumbiya	1141,7	44,3	Boqota	Respublika

		Çili	756,9	16,0	Santyaqo	Respublika
		Venesuela	912,1	27,8	Karakas	Respublika
		Ekvador	283,6	14,1	Kito	Respublika
		Boliviya	1098,6	10,1	Sukre	Respublika
4.	La-Plata vəamazon hövəsi ölkələri	Argentina	2780,1	40,3	Buenos-Ayres	Federativ Respublika
		Brazilya	8512,0	190,2	Brazilya	Federativ Respublika
		Qayana	215,0	0,8	Corctayn	Britaniya birliyinin üzvü, Respublika
		Paraqvay	406,7	6,3	Asunsion	Respublika
		Surinam	163,8	0,6	Paramaribo	Respublika
		Qviana	0,9	0,2	Kayenna	Fransanın “dənizarxası” departamenti
		Uruqvay	176,2	3,4	Montevideo	Respublika

Əlvan metallurgiya kompleksi Tukuran SES-nin enerjisi əsasında Barkarena limanı yaxınlığında yaranmaqdadır.

Vacib sənaye məhsul növlərinin istehsalı

Məhsulun növləri	1960	1970	1980	1990	2000	2005
Elektrik enerjisi, mlr kVt.s	36	48	141	186	205	257
Daş kömür, mln t.	13,2	13,9	13,5	7,2	5,3	6,4
Neft, mln t.	5,3	8,2	9,4	29	36	37,2
Dəmir filizi, mln t.	9,3	56	93	134	155	166
Marqans filizi, mln t.	999	2097	2098	2102	2217	2340
Boksit, mln t.	0,3	0,5	3,8	5,2	10	12,2
Mis, mln t.	11,0	26	89	147	176	183
Qurğuşun, mln t.	17	37	85	88	98	105
Sink, mln t.	42	54	120	121	135	142
Qalay, mln t.	18	24	27	34	44	50
Nikel, mln t.	6	10	14	13	17	22
Almünium, mln t.	35	238	261	897	916	1055
Çuqun, mln t.	9,8	0,2	12,7	23,6	24	26,4
Polad, mln t.	3,2	7,8	15,3	24,6	26	28,0
Polad-prokat, mln t.	1,8	6,2	12,4	22,3	24,7	25,1
Ferrorintlər, mln t.	352	391	436	818	973	1034
Sement, mln t.	15	20	21	25	20	19,5
Sintetik kauçuk, mln t.	147	193	224	262	265	274
Avtomobil, mln ədəd	723	896	865	1248	1605	1602
Traktor, mln ədəd	19	50	47	48	50	53
Kağız və karton, mln ədəd	1,5	3	3,5	4,5	4,7	4,6
Sellüloza, mln t.	1	1,3	3	3,5	3,8	3,5
Şəkər, mln t.	3,5	4	7	8	9,5	11,5

Əsas kənd təsərrüfatı bitkilərinin yığımı (min t.)

Bitkilər	1960	1970	1980	1990	2000	2005
Qəhvə	1975	2246	1180	1321	1106	1215
Kakao-paxla	224	336	349	347	364	376
Pambıq-lif	662	586	735	1702	1627	1682
Şəkər qamışı	88427	139112	146358	239521	239116	24435
Qarğıdalı	16309	20374	21098	24709	26786	26930
Çəltik	7538	7595	9748	10374	11840	12355
Buğda	2858	2927	2708	5690	6099	6278
Maniok	26683	24962	23911	25621	23500	24460
Tütün	395	422	406	398	439	460
Soya-paxla	9717	10240	15153	16979	15319	15445
Yerfındığı	441	462	483	217	195	212
Pambıq toxumu	1437	2314	1672	2489	2491	2536
Başqa bitklər	3289	4348	5813	5975	6014	6164